HEYDƏR ƏLİYEV İRSİNİ ARAŞDIRMA MƏRKƏZİ

HEYDAR ALIYEV'S HERITAGE RESEARCH CENTER

AZƏRBAYCAN BAYRAĞI İST-RİVER SAHİLİNDƏ

AZERBAIJANI FLAG ON THE EAST RIVER BANK

Bakı - 2009

“Azərbaycan bayrağı İst-River sahilində” *kitabı Heydər Əliyev İrsini Araşdırma Mərkəzinin növbəti nəşridir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin BMT Baş Məclisinin sessiyasındakı ilk çıxışının 15-ci ildönümünə ithaf olunan bu kitabda ölkəmizin BMT ilə əlaqələri mühüm sənədlərin dili ilə şərh olunur. Kitaba böyük siyasətçi Heydər Əliyevin BMT Baş Məclisinin 49-cu, 50-ci sessiyalarındakı və Minilliyin zirvə görüşündəki çıxışları, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin BMT Baş Məclisinin 58-ci, 59-cu sessiyalarındakı çıxışları, BMT-nin proqram, agentlik və fondlarının rəhbərləri ilə görüşlərinin mətni daxil edilib. Kitabda həmçinin, BMT-nin təhsil, elm və mədəniyyət təşkilatı – YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın ona bu mötəbər adın təqdim olunduğu təntənəli mərasimdə və BMT-nin Cenevrədəki bölməsinin iqamətgahında “Azərbaycan otağı”nın açılışındakı çıxışları da yer alıb.*

ISBN 978-9952-444-23-0

© Heydər Əliyev İrsini Araşdırma Mərkəzi 2009

HEYDƏR ƏLİYEV İRSİNİ ARAŞDIRMA MƏRKƏZİ

HEYDAR ALIYEV'S HERITAGE RESEARCH CENTER

AZƏRBAYCAN BAYRAĞI İST-RİVER SAHİLİNDƏ

AZERBAIJANI FLAG ON THE EAST RIVER BANK

Məsləhətçi:
Asəf NADİROV
Azərbaycan Milli Elmlər Akademiyasının akademiki

Buraxılışa məsul:
Vurğun SÜLEYMANOV

Yaradıcı heyətin rəhbəri:
Fuad BABAYEV

Yaradıcı heyət:
Təmkin MƏMMƏDLİ
İrina MUXTAROVA
Gündüz NƏSİBOV
Samin HƏSƏNOV

Dilçi-redaktor:
Mətanət BABAYEVA

Dizayn:
Elviz İSMAYILOV

Səhifələmə:
Elşən AĞAYEV

Kitabın tərtib olunmasında Azərbaycan Respublikası Prezidenti mətbuat xidmətinin foto-materiallarından istifadə olunmuşdur.

Kitabda AzərTAc-ın (www.azertag.com), Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi saytının (www.president.az), Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəsmi saytının (www.mehriban-aliyeva.org) və Birləşmiş Millətlər Təşkilatının rəsmi saytının (www.un.org) materiallarından istifadə olunmuşdur.

Kitab Azərbaycan və ingilis dillərindədir. Çin, fransız, ispan, rus və ərəb dillərində isə kitabın qısa xülasəsi verilmişdir. Çin dilində tərcümə və redaktə ROYD tərcümə bürosu (Rusiya) (www.roid.ru), ispan dillində - tərcümə Aqil Şahmuradov, redaktə ROYD tərcümə bürosu, fransız dilində tərcümə - Şəhla Ağalarova, redaktə Hamlet Qocayev, rus dilində tərcümə - Seyfəl Həsənov və Günel İsgəndərova, ərəb dilində tərcümə - Şıxəli Əliyev, redaktə Rza Xəlilov tərəfindən həyata keçirilmişdir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin BMT Baş Məclisinin sessiyasındakı ilk çıxışının 15-ci ildönümünə ithaf olunur

Ən mötəbər beynəlxalq məclisin tribunasından sizin qarşınızda həyəcan və qürur hissi ilə çıxış edirəm. İlk dəfədir ki, müstəqil Azərbaycanın Prezidenti Dünya Birliyi tərəfindən tanınmış və bərqərar hüquqlarla onun tərkibinə daxil olmuş öz ölkəsini Dünya Birliyinə təqdim edir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin BMT Baş Məclisinin 49-cu sessiyasında çıxışından - Nyu-York, 29 sentyabr 1994-cü il

Hörmətli oxucular!

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin zəngin irsinin öyrənilməsi və təbliği 2004-cü il may ayının 10-da - ümummilli liderimizin ad günündə yaradılmış Heydər Əliyev İrsini Araşdırma Mərkəzinin (www.aliyevheritage.org) əsas fəaliyyət istiqamətlərindəndir.

Heydər Əliyevin siyasi portretini yaratmağa kömək edə biləcək əsas mənbə məhz onun əsərləridir. Elə buna görə də Mərkəzin tərkib hissəsi və ən böyük layihəsi olan «Heydər Əliyev irsi» Beynəlxalq Elektron Kitabxanası Heydər Əliyevin əsərlərini – çıxışları, bəyanatları, məktubları və görüşlərinin mətnlərini 35 dildə dünya oxucularına çatdırır. Qeyd etmək yerinə düşər ki, 35 dildə elektron resursun fəaliyyəti İnternet məkanda nadir hallardandır. Beləliklə, Azərbaycanın ən yeni tarixi və inkişafı, keçmişi və gələcəyi ilə maraqlanan oxucularımız Heydər Əliyevin əsərlərini dünyanın bir çox dillərində mütaliə etmək imkanı əldə ediblər.

Elə bunun nəticəsidir ki, bu gün dünyanın qabaqcıl universitetləri, nüfuzlu elm mərkəzləri, dövlət idarələri, media orqanları, transmilli şirkətlər, eləcə də dünyada gündən-günə nüfuzu yüksələn Azərbaycanla maraqlanan şəxslər - tədqiqatçılar, politoloqlar, iqtisadçılar, tələbələr bizim oxucularımız sırasındadır.

Elektron kitabxanada Heydər Əliyevin fəaliyyətinin bütün sahələrini maksimum əhatə etməyə çalışırıq. Kitabxanamızın daxili və xarici siyasət, iqtisadiyyat, neft strategiyası, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, mədəniyyət, müsahibələr, diaspor, sosium, gənclər siyasəti, qayıdış və s. bölmələrində yerləşdirilmiş minlərlə sənədlə tanış olmaqla Heydər Əliyevin fəaliyyətinin əsas istiqamətləri ilə bağlı müəyyən qədər dolğun məlumat almaq mümkündür. Bu və ya digər sənədi asanlıqla tapmaq üçün qeyd olunan bölümlərin bir çoxu altbölümlərə bölünmüşdür və saytdaxili axtarış proqramlarından istifadə olunur. Elektron kitabxanamızın daha bir özəlliyi isə ondan ibarətdir ki, hər bir sənəd üçün ekspertlərimiz tərəfindən tarixi arayışlar, Azərbaycanın müxtəlif ölkələr, beynəlxalq təşkilatlar, şirkətlərlə münasibətilə bağlı qısa oçerklərin yazılmışdır. Həmçinin, sənədlərdə qeyd olunan şəxsiyyət, yer adları və anlayışlarla bağlı da məlumat-soraq materialları yazılır. Əlavə sənədlər bölümündə isə ümummilli liderimizin bu və ya digər əsərinə uyğun olaraq onun tərəfindən imzalanmış fərman və sərəncamlar verilir. Zəngin qalereya bölümündə Heydər Əliyevin yüzlərlə foto-şəkili yerləşdirilmişdir.

«Heydər Əliyev irsi» Beynəlxalq Elektron Kitabxanası ilə yanaşı, Azərbaycanın müxtəlif bölgələrində fəaliyyət göstərən regional bürolar, orijinal proqramlar əsasında işləyən «Heydər Əliyev irsini öyrənirik» interaktiv kursları və yay məktəbləri də Heydər Əliyev İrsini Araşdırma Mərkəzinin tərkib hissəsidir. Mərkəz həmçinin, dünyanın qabaqcıl elm mərkəzləri ilə internet körpülər vasitəsilə əlaqə yaradır.

Mərkəzin fəaliyyətinin mühüm istiqamətlərindən biri kitab nəşridir. Mərkəzin nəşriyyat qrupu tərəfindən müxtəlif dillərdə kitablar, broşürlər və bukletlər nəşr olunur. Azərbaycan dili ilə yanaşı, ATƏT-in Minsk qrupunun həmsədrləri olan ölkələrin dövlət dillərində (ingilis, fransız və rus) nəşr edilən «Heydər Əliyev: Biz Azərbaycan ərazisində ikinci bir erməni dövlətinin yaranmasına yol verə bilmərik», Azərbaycan dili ilə yanaşı, İKT-nin rəsmi dillərində (ingilis, fransız və ərəb) nəşr edilən «Azərbaycan İslam Konfransı Təşkilatı sıralarında», Azərbaycan dilində və NATO-nun işçi dillərində (ingilis və fransız) dilində nəşr edilən «Azərbaycan-NATO: tərəfdaşlıqdan başlanan yol», Azərbaycan, ingilis və rus dillərində nəşr edilmiş «Sabaha doğru» kitablarını xüsusilə qeyd etmək istərdik.

«Azərbaycan bayrağı İst-River sahilində» kitabı Heydər Əliyev İrsini Araşdırma Mərkəzinin növbəti nəşridir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin BMT Baş Məclisinin sessiyasındakı ilk çıxışının 15-ci ildönümünə ithaf olunan bu kitabda ölkəmizin BMT ilə əlaqələri mühüm sənədlərin dili ilə şərh olunur. Əlbəttə, Azərbaycanın BMT-nin bütün qurumları ilə əlaqələrini əks etdirən sənədlərin hamısını bir cilddə yerləşdirmək mümkün deyil. Ona görə də kitabı tərtib edərkən biz bu əlaqələrin mahiyyətini əks etdirən sənədlərə üstünlük verdik.

Bu kitab həm də Mərkəzin beynəlxalq təşkilatlarla Azərbaycanın münasibətlərindən bəhs edən yeni nəşridir. «Azərbaycan bayrağı İst-River sahilində» kitabına böyük siyasətçi Heydər Əliyevin BMT Baş Məclisinin 49-cu, 50-ci sessiyalarındakı və Minilliyin zirvə görüşündəki çıxışları, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin BMT Baş Məclisinin 58-ci, 59-cu sessiyalarındakı çıxışları, BMT-nin proqram, agentlik və fondlarının rəhbərləri ilə görüşlərinin mətni daxil edilib. Kitabda həmçinin, BMT-nin təhsil, elm və mədəniyyət təşkilatı – YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın ona bu mötəbər adın təqdim olunduğu təntənəli mərasimdə və BMT-nin Cenevrədəki bölməsinin iqamətgahında «Azərbaycan otağı»nın açılışındakı çıxışları da yer alıb.

Birləşmiş Millətlər Təşkilatına yarandığı gündən (25 oktyabr 1945-ci il) böyük ümidlər bəslənilir. Bu umid ilk növbədə bəşəriyyəti müharibələrdən qurtarmaq, sosial və iqtisadi xarakterli problemlərin həlli, insan hüquqlarına ehtiramın təmin olunması, ümumi məqsədlərə nail olmaq üçün kollektiv fəaliyyətin göstərilməsi ilə bağlı idi. Yeri gəlmişkən, qeyd edək ki, bu vəzifələr bu gün də aktualdır. Çünki ötən illər ərzində dünya nəinki daha təhlükəsiz olmayıb, əksinə, münaqişəli bölgələr daha da artıb.

Müasir təhlükələri effektli surətdə dəf etməyin yeganə yolu isə yalnız bütün dövlətlərin birgə və təşkilatlanmış qaydada mübarizə aparması sayəsində mümkündür.

Qloballaşma şəraitində təhlükəsizlik məsələlərinin həllində kompleks strategiyaların hazırlanması üçün çoxtərəfli mərkəzi mexanizm kimi BMT-yə olan tələbat daha da güclənir.

Azərbaycan BMT-nin möhkəmləndirilməsinin tərəfdarı kimi çıxış edir və dövlətlər arasında konstruktiv və bərabərhüquqlu unikal forum olaraq onun rolunu dəyərləndirir. BMT öz tarixi boyu dünyadakı münaqişəli situasiyaların nizamlanması üçün siyasi-diplomatik alətlərin işlənməsi və tətbiqi işində öz effektivliyini sübut edib. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin sözlərilə desək, «Birləşmiş Millətlər Təşkilatı, bir sıra münaqişələrin və böhran vəziyyətlərinin aradan qaldırılmasında təcrübəyə malik olan Təhlükəsizlik Şurası yeni dünya qaydasının qurulmasında, şübhəsiz ki, aparıcı rol oynayır».

Ölkəmiz BMT-nin hüququn aliliyinə söykənmiş yeni dünya qaydalarının tətbiq olunması sahəsində fəaliyyətinə böyük önəm verir. Lakin eyni zamanda Azərbaycan planetin müxtəlif nöqtələrində mövcud olan «dondurulmuş münaqişələr»in həllini tapmamasından da narahatdır. Belə münaqişələrdən biri də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. 16 ildən artıqdır ki, Ermənistan Azərbaycanın Dağlıq Qarabağ bölgəsini və ona bitişik olan 7 rayonu işğal edib. BMT Təhlükəsizlik Şurası bu münaqişə ilə bağlı hələ 1993-cü ildə 822, 853, 874 və 884 saylı qətnamələr qəbul edib. Bu qətnamələrdə Dağlıq Qarabağ bölgəsinin Azərbaycanın tərkib hissəsi olması təsdiqlənib və Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə, beynəlxalq birlik tərəfindən tanınmış sərhədlərinə hörmət edilməsinin vacibliyi və ərazilərin əldə edilməsi məqsədi ilə güc işlədilməsinin yolverilməz olduğu vurğulanıb. Qətnamələrdə erməni silahlı birləşmələrinin işğal edilmiş Azərbaycan torpaqlarını dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələbi əks olunub. Bununla belə, Ermənistan bu qətnamələrə məhəl qoymamaqla beynəlxalq ictimaiyyətə meydan oxuyur. BMT Təhlükəsizlik Şurası isə bununla bağlı heç bir adekvat qərar qəbul etmir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin cari ilin aprel ayında Avropa Siyasi Mərkəzinin nümayəndələri ilə görüşdə qeyd etdiyi kimi, «Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının və Baş Məclisinin işğalçı qüvvələrin Azərbaycan ərazilərindən qeyd-şərtsiz çıxmasını tələb edən qətnamələri, ATƏT-in qərarları, sadəcə, kağız üzərində qalıb. Budur böyük problem. Dünyanın aparıcı beynəlxalq təşkilatları qərarlar qəbul edib, lakin həmin qərarlar icra olunmur və həmin qərarları pozan ölkələr cəzalandırılmır. Bu, nəinki bizim üçün, bütövlükdə beynəlxalq münasibətlər sistemi üçün təhlükədir.»

BMT Təhlükəsizlik Şurasının silahlı münaqişələrə dair problemlərin həll edilməsi ilə bağlı qətiyyətsizliyi bu qurumda islahatlar aparılmasının vacibliyini gündəmə gətirir. Azərbaycan BMT-də islahatlar aparılmasının tərəfdarı kimi çıxış edir. Yalnız islahatlar sayəsində BMT Təhlükəsizlik Şurasının qətnamələrinin həyata keçirilməsi üçün işlək mexanizm yaradıla bilər.

BMT Təhlükəsizlik Şurasının effektivliyinin artırılmasına yönəldilmiş islahatlar dünya birliyinin bütün üzvlərinin maraqlarına cavab verir. Güclü BMT sağlam beynəlxalq münasibətlərin əsasını təşkil edir.

BMT-yə olan tələblər bu gün həmişəkindən daha artıqdır. Çünki dünyanı təhdid edən təhlükələrin - dövlətlər arasındakı münasibətlərdə beynəlxalq hüquq normalarının pozulması, beynəlxalq terrorizm, kütləvi qırğın silahlarının yayılması, aclıq və səfalətin, ekoloji fəlakətlərin qarşısını yalnız dünya birliyinin səyləri ilə almaq mümkündür. Azərbaycan bu təhlükələrin aradan qaldırılması üçün BMT və onun müxtəlif strukturları ilə hərtərəfli əməkdaşlıq edir.

Qeyd olunanları ümumiləşdirərək əminliklə deyə bilərik ki, Heydər Əliyev İrsini Araşdırma Mərkəzi tərəfindən nəşr etdirilən «Azərbaycan bayrağı İst-River sahilində» kitabı beynəlxalq münasibətlər və beynəlxalq hüquq sahələrinin tədqiqatçıları, eləcə də Azərbaycanın dünya birliyinə uğurlu inteqrasiyası ilə maraqlanan hər bir şəxs üçün dəyərli mənbə olacaqdır.

Heydər Əliyev İrsini Araşdırma Mərkəzi

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin BMT Baş Məclisinin 49-cu sessiyasında iştirak etmək üçün Amerika Birləşmiş Ştatlarına səfərə yola düşərkən Binə hava limanında jurnalistin sualına cavabı - 25 sentyabr 1994-cü il

Azərbaycanın müstəqil dövlət olduğu üç il ərzində respublikanın dövlət başçısı BMT Baş Məclisində iştirak və çıxış etməmişdir. Mən sessiyada çıxış edəcəyəm. Şübhəsiz ki, bu, Azərbaycanın belə yüksək səviyyədə ilk dəfə təmsil olunması deməkdir. Təbii ki, mən çıxışımda Azərbaycanın həm daxili, həm də xarici siyasətindən və xüsusən, bizim üçün ən ağır problem olan Ermənistanın Azərbaycana təcavüzündən danışacağam.

Son vaxtlar Amerika Birləşmiş Ştatları Azərbaycana daim müsbət münasibət göstərir. Cənab Klinton mənə dəfələrlə məktub göndərmişdir. Təkcə sentyabr ayında ondan iki məktub almışam. Bunlar hamısı onu göstərir ki, Amerika Birləşmiş Ştatlarında Azərbaycana münasibət müsbət istiqamətdə dəyişir və güman edirəm ki, daha da dəyişəcəkdir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin YUNİSEF təşkilatında uşaqların həyatı, müdafiəsi və inkişafına dair BMT bəyannaməsinin imzalanması mərasimində çıxışı - 27 sentyabr 1994-cü il

Mən çox məmnunam ki, YUNİSEF təşkilatı Azərbaycanda da fəaliyyətə başlamışdır və biz bunu yüksək qiymətləndiririk. Çünki uşaqların problemləri ilə məşğul olmaq və bu sahədə fəaliyyət göstərmək insanlar üçün çox xeyirxah bir tədbirdir. Uşaqların həyatına diqqət dünyanın gələcəyi ilə məşğul olmaq deməkdir. Belə fəaliyyət Azərbaycan üçün xüsusilə əhəmiyyətlidir. Çünki Azərbaycan müharibə vəziyyətindədir, onun ərazisinin 20 faizindən çoxu Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdur. Bir milyondan artıq adam qaçqındırki, onların da xeyli hissəsi uşaqlardır. Onlar indi çadırlarda çətin vəziyyətdə yaşayırlar.

Azərbaycanda ailələr çoxuşaqlıdır. Orta hesabla hər ailənin 4-5 uşağı var. Bu isə bir milyon qaçqından nə qədərinin uşaq olduğunu aydın göstərir.

YUNİSEF-in Azərbaycanda fəaliyyətinin genişləndirilməsinə böyük ehtiyac var. Ümumdünya miqyasında fəaliyyətinizə hörmət və ehtiramımı, Azərbaycanda gördüyünüz işlərə görə isə sizə təşəkkürümü bildirirəm. Bu bəyannaməni imzaladıqdan sonra bir daha ümidvar olduğumu bildirmək istəyirəm ki, Azərbaycanda fəaliyyətiniz daha da genişlənəcək və güclənəcəkdir.

BMT Baş Məclisinin 49-cu sessiyasında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışı - Nyu-York, 29 sentyabr 1994-cü il

Hörmətli cənab sədr!

Hörmətli cənab baş katib!

Xanımlar və cənablar!

Hər şeydən əvvəl icazə verin, BMT Baş Məclisi 49-cu sessiyasının sədri vəzifəsinə seçilməsi münasibətilə Amar Essi cənablarını təbrik edim və ona fəaliyyətində uğurlar arzulayım. Həmçinin ötən sessiyanın sədri cənab Samuel İnsanelliyə də gördüyü işə görə təşəkkürümü bildirmək istəyirəm.

BMT-nin baş katibi, zati-aliləri Butros Qali cənablarına bütün dünyada sülhün və təhlükəsizliyin möhkəmləndirilməsinə yönəlmiş yorulmaz səylərinə görə təşəkkürümü bildirirəm.

Mən öz tarixinin çətin dövrünü yaşayan gənc dövlətimizin problemlərinə diqqətlə yanaşdığına görə ona xüsusən minnətdaram.

Xanımlar və cənablar!

Ən mötəbər beynəlxalq məclisin tribunasından sizin qarşınızda həyəcan və qürur hissi ilə çıxış edirəm. İlk dəfədir ki, müstəqil Azərbaycanın Prezidenti Dünya Birliyi tərəfindən tanınmış və bərqərar hüquqlarla onun tərkibinə daxil olmuş öz ölkəsini Dünya Birliyinə təqdim edir.

Azərbaycan xalqı əsrlərlə azadlığa can atmışdır. Sovet İttifaqı dağıldıqdan sonra o, milli müstəqillik qazanmışdır. Bizim respublikamız qətiyyətlə hüquqi, demokratik, sivilizasiyalı dövlət quruculuğu yolunu tutmuşdur. Bütün bunlar mürəkkəb prosesdir, bir günün işi deyil, lakin biz qarşıya qoyulmuş məqsədə doğru ardıcıl surətdə irəliləyirik və qısa bir dövr ərzində çox işlər görülmüşdür, hüquqi demokratik cəmiyyətin formalaşdırılması üçün hər cür şərait yaradılmışdır. Respublikamızda artıq çoxpartiyalı sistem mövcuddur, siyasi plüralizm, şəxsiyyət, söz, mətbuat, vicdan azadlıqları, insan hüquqlarının müdafiəsi və qanunun aliliyi prinsipləri möhkəm bərqərar olmuşdur. Dərisinin rəngindən, din və dil mənsubiyyətindən asılı olmayaraq, çoxmillətli Azərbaycanın bütün vətəndaşları bərabər hüquqlardan istifadə edirlər.

Siyasi dəyişikliklər ölkənin demokratikləşdirilməsi, bazar münasibətlərinə keçidi təmin edən dərin iqtisadi islahatlar aparılması üçün şərait yaratmışdır. Biz sərbəst sahibkarlığın inkişafını, şəxsi təşəbbüskarlığı hər vasitə ilə təşviq edirik, ümumbəşəri sərvətlərə əsaslanan dünya təcrübəsindən, sivilizasiyalı, çiçəklənən demokratik cəmiyyət quruculuğunda böyük uğurlara nail olmuş qabaqcıl dünya ölkələrinin təcrübəsindən istifadə edərək genişmiqyaslı özəlləşdirmə proqramının həyata keçirilməsinə başlayırıq.

Biz bir çox dövlətlərin böyük marağını doğuran ərazidə - Avropa və Asiyanın mühüm coğrafi-siyasi qovuşuğunda yerləşərək, geniş təbii ehtiyatlara və böyük sənaye potensialına malik olaraq, Azərbaycan xalqının qəti əzminə və inamına arxalanaraq öz müstəqilliyimizin möhkəmləndirilməsinə və demokratik islahatların, bazar islahatlarının həyata keçirilməsinə doğru yönəldilmiş bu strateji xətti aparırıq. Bu gün mən bu yüksək tribunadan qətiyyətlə bildirirəm ki, heç kəs Azərbaycan xalqını tutduğu yoldan geri çəkilməyə məcbur edə bilməz və biz ölkəmizin gələcəyinə nikbinliklə baxırıq.

Bizim nikbinliyimiz dünyada baş verən tarixi proseslərlə, beynəlxalq münasibətlər sistemindəki ciddi dəyişikliklərlə də bağlıdır. Şübhəsiz ki, artıq hərbi cəbhələşməni və ideoloji qarşıdurmanı əvəz etməkdə olan bərabərhüquqlu dünya qaydası beynəlxalq münasibətlər sisteminin gələcək əsasını təşkil edəcəkdir. Beynəlxalq hüquqa, Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin prinsiplərinə və müddəalarına uyğun olaraq tərəfdaşlıq, möhkəm sülh və hamı üçün təhlükəsizlik yeni dünya qaydasının fundamental prinsiplərinə çevrilir. Biz zor işlədilməsinə əsaslanan düşmənçilik dünyasından əməkdaşlıq və tərəqqi dövrünə aparan tunelin axırında işıq görürük və bu yol ilə birlikdə, dünyanın bütün ölkələri və xalqları ilə birlikdə, dünyanın bütün ölkələri və xalqları ilə əl-ələ verib getməyə hazırıq.

Lakin bəşəriyyət qarşısında duran təhlükələr hələ heç də tamamilə aradan qaldırılmamışdır. Hələ də köhnə stereotiplər mövcuddur, on illərlə davam etmiş qarşıdurma dövrü ərzində yığılıb qalmış çoxsaylı problemlər, xüsusən tərksilah, kütləvi qırğın silahının məhv edilməsi sahəsindəki problemlər aradan qaldırılmamışdır. İqtisadi imkanları müxtəlif olan dövlətlərin münasibətləri də əvvəlki kimi, yenə də keçmişin bəlalarına düçar olmuşdur. Zaman ekoloji təhlükələr, əhali və inkişaf problemləri ilə əlaqədar bizi yeni-yeni sınaqlara çəkir.

Köhnə dünya qaydasının pozulmasının reallıqlarına çevrilmiş azğın millətçilik və separatçılıq Qafqazı, Balkan yarımadasını, Yer kürəsinin başqa nöqtələrini od-alova və qana bürüyən münaqişələr doğurmuşdur. Bu münaqişələr nəinki müstəqil dövlətlərin inkişafını ləngidir, hələ möhkəmlənməmiş demokratik cəmiyyətlərin varlığı üçün birbaşa təhlükə doğurur, həm də bütün dünyada sülh və təhlükəsizlik üçün qorxu yaradır.

Buna görə də cəbhələşmədən sonrakı dünyada nüfuzlu beynəlxalq təşkilatların, böyük dövlətlərin üzərinə xüsusi məsuliyyət düşür. Onlar öz siyasi sanbalından, iqtisadi, maliyyə və hərbi imkanlarından istifadə edərək münaqişələrin aradan qaldırılmasına, Yer üzünün bütün guşələrində sülhün, sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsinə öz potensialını daha fəal yönəltməlidirlər.

Gələn il özünün 50 illiyini qeyd edəcək Birləşmiş Millətlər Təşkilatı, bir sıra münaqişələrin və böhran vəziyyətlərinin aradan qaldırılmasında təcrübəyə malik olan Təhlükəsizlik Şurası yeni dünya qaydasının qurulmasında, şübhəsiz ki, aparıcı rol oynayır. Lakin Təhlükəsizlik Şurası qarşısında hələ çətin sınaqlar durur: yeni şəraitdə öz səmərəli fəaliyyətini Dünya Birliyinə sübut etmək. Bu gün Təhlükəsizlik Şurası öz qətnamələrinin təminatlı şəkildə yerinə yetirilməsinə nail olmaqla həmişəkindən daha çox əzmkarlıq göstərməlidir. Ümid edirik ki, Şuranın tərkibinin genişləndirilməsi onun möhkəmləndirilməsinə kömək edəcəkdir.

Biz Baş Məclisin roluna böyük əhəmiyyət veririk. Bu rolu hər şeydən əvvəl onda görürük ki, qarşılıqlı güzəştlərə və mənafelərin tarazlığına əsaslanan qərarlar qəbul edilərkən dövlətlərin ən sıx qarşılıqlı fəaliyyəti təmin edilsin.

İndiki şəraitdə BMT baş katibinin öz səlahiyyətlərindən səmərəli istifadə etməsinin, habelə beynəlxalq sülhün və təhlükəsizliyin möhkəmləndirilməsində baş katib ilə birlikdə məsuliyyət daşıyan üzv dövlətlərin ona göstərməli olduqları köməyin əhəmiyyəti də artır.

Bütövlükdə Azərbaycan Respublikası gələcək üçün BMT-nin perspektivlərini nikbinliklə qiymətləndirir və bundan sonra da Birləşmiş Millətlər Təşkilatının yüksək prinsiplərini müdafiə etmək, təşkilatın nüfuzunun səmərəsinin artırılmasına nail olmaq əzmindədir.

Hörmətli xanımlar və cənablar!

Sizin bir çoxunuza «müharibə», «silahlı münaqişə» məfhumları xoşbəxtlikdən, tarixi və ya evinizdən uzaqda baş verən hadisələri xatırladırsa, mənim xalqım üçün bu, amansız reallıq, qanlı-qadalı adi günlərdir.

Altı ildir ki, Azərbaycan torpağını müharibə alovu bürüyüb. Ermənistan Respublikası Azərbaycanın Dağlıq Qarabağ regionunda yaşayan ermənilərin etnik qrupunun öz müqəddəratını təyin etmək hüququnu reallaşdırması bəhanəsi ilə dövlətimizin ərazilərinin ilhaqı, onun dövlət sərhədlərinin zorakılıqla dəyişdirilməsi və azərbaycanlı əhalinin öz doğma ev-eşiyindən qovulması planlarını açıq-aşkar həyata keçirir.

Bütün bunlar xalqların öz müqəddəratını təyin etməsi hüququnun əsassız olaraq hər hansı bir etnik icmanın öz müstəqilliyini özbaşına elan etmək və başqa dövlətin tərkibinə daxil olmaq hüququ kimi yozulması ilə pərdələnir. Öz müqəddəratını təyin etmək hüququnun bu cür yozulması dövlətin suverenliyi və ərazi bütövlüyü prinsipləri ilə kəskin ziddiyyət təşkil edir. Bu hüququ mütləqləşdirmək sahəsində hər hansı bir cəhd amansız münaqişələrə gətirib çıxarır. Biz regionumuzda və planetimizin başqa guşələrində bunun şahidi olmuşuq.

BMT-nin baş katibi cənab Butros Qali də bu məsələ ilə əlaqədar öz narahatlığını bildirmişdir. «Əgər hər bir etnik, dini və ya linqvistik qrup dövlətçilik tələb etsə, onda bölgünün həddi olmayacaq və dünyada sülhün, təhlükəsizliyin və iqtisadi firavanlığın əldə edilməsi daha çətin olacaqdır».

Mən hörmətli Butros Qalinin belə bir fikri ilə də tam şərikəm ki, «təşəkkül tapmış beynəlxalq sistem çərçivəsində xalqların öz müqəddəratını təyin etməsi və dövlətlərin suverenliyi, ərazi bütövlüyü və müstəqilliyi kimi eyni dərəcədə qiymətli və mühüm olan məsələlərin bir-birinə ziddiyyət təşkil etməsinə yol vermək olmaz».

Regionumuzda baş verən hadisələr haqqında dünya ictimaiyyətinin kifayət qədər məlumatlı olmadığını, bəzi hallarda işə birtərəfli məlumatı olduğunu bilərək sizi real vəziyyətlə qısaca tanış etmək istərdim. Ermənistan Respublikası Azərbaycanın Dağlıq Qarabağ regionunun ərazisində qoşun qruplaşması yaradaraq respublikamıza qarşı fəal döyüş əməliyyatları aparmışdır. Şuşa şəhəri və Laçın rayonu işğal edildikdən sonra Dağlıq Qarabağın ilhaqı başa çatdırılmış, Dağlıq Qarabağda yaşayan təxminən 50 min azərbaycanlı oradan qovulmuşdur. Erməni silahlı birləşmələri Dağlıq Qarabağ platsdarmından istifadə edərək bundan sonra hücumun gedişində Azərbaycanın digər altı rayonunu - keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin hüdudlarından Laçın rayonu kimi kənarda olan və sahəsi keçmiş vilayətin sahəsindən dörd dəfə çox olan Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl və Qubadlı rayonlarını işğal etmişlər.

Təcavüz nəticəsində Azərbaycan ərazisinin 20 faizindən çoxu Ermənistan Respublikasının silahlı qüvvələri tərəfindən işğal edilmişdir. Mən Azərbaycan tərəfinin dəhşətli itkilərini sizə deməliyəm: 20 mindən çox adam həlak olmuşdur, 100 minə yaxın adam yaralanmış və xəsarət almışdır, 6 min adam əsir düşmüşdür, bir milyondan çox azərbaycanlı - ölkə əhalisinin təxminən 15 faizi qaçqın vəziyyətinə düşmüşdür və çadır şəhərciklərində yaşayır. Onlar öz vətənində evsiz-eşiksiz qalmışlar, yayın istisindən, qışın soyuğundan, epidemiyalardan əzab çəkirlər, ən zəruri şeylərə ehtiyac duyurlar. Azərbaycanın işğal edilmiş ərazilərində 700 şəhər və kənd dağıdılmışdır. Həmin şəhər və kəndlərdə demək olar, bütün evlər, məktəblər, xəstəxanalar yandırılmış və talan edilmiş, qədim mədəniyyət abidələri məhv edilmişdir.

Zənnimcə, sübut etməyə ehtiyac yoxdur ki, belə bir vəziyyətdə biz «öz müqəddəratını təyin etmək hüququnun həyata keçirilməsi» ilə deyil, beynəlxalq hüququn kobudcasına pozulması ilə, BMT üzvü olan dövlətin suverenliyinə, ərazi bütövlüyünə və siyasi müstəqilliyinə qarşı təcavüzlə qarşılaşmışıq.

Müharibə xalqımı dözülməz vəziyyətə salır, sosial gərginliyi gücləndirir, Azərbaycan cəmiyyətinin demokratikləşdirilməsinə yönəldilmiş iqtisadi və siyasi islahatların həyata keçirilməsinə mane olur.

Müharibə nəticəsində Azərbaycan xalqına milyardlarla Amerika dolları məbləğində çox böyük maddi ziyan vurulmuşdur. İnsan talelərinə vurulmuş mənəvi ziyan, xalqın dərd-bəlası isə heç nə ilə ölçülməzdir.

Bu gün təkcə Azərbaycanda deyil, dünyanın digər qaynar nöqtələrində də qan tökülür. Xalqlar müharibə gedən yerlərdə baş verən faciəli hadisələrə biganə qalmamalıdırlar. Silahlı münaqişələrin güclənməsinə yol verməmək, onların ədalətlə və qəti şəkildə aradan qaldırılmasına nail olmaq üçün kollektiv səylərlə hər şey etmək lazımdır.

Xanımlar və cənablar!

Ermənistan Respublikasının silahlı qüvvələri tərəfindən Azərbaycan ərazilərinin işğal edilməsi ilə əlaqədar son iki il ərzində Təhlükəsizlik Şurasının 4 qətnaməsi və onun sədrinin 6 bəyanatı qəbul edilmişdir.

Bütün qətnamələrdə Təhlükəsizlik Şurası Azərbaycan Respublikasının suverenliyini və ərazi bütövlüyünü təsdiq edir, ərazi ələ keçirmək üçün zor tətbiq edilməsinin yolverilməzliyini qeyd edir, Azərbaycanın işğal edilmiş bütün rayonlarından bütün işğalçı qüvvələrin dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını, qaçqınların daimi yaşayış yerlərinə qaytarılmasını qətiyyətlə tələb edir.

Lakin bütün bu qərarlara Ermənistan Respublikası hələ də qətiyyən məhəl qoymur. Bundan əlavə o, Azərbaycanın işğal edilmiş ərazilərində öz hərbi qüvvələrini artırmaqda davam edir.

Digər tərəfdən, Təhlükəsizlik Şurası da qəbul edilmiş qətnamələrin mexanizmini işə salmamışdır. Belə bir sual meydana çıxır: Təhlükəsizlik Şurası nə dərəcədə ardıcıl və qətiyyətlidir, hər bir

konkret halda onun səlahiyyətlərinin tətbiq dərəcəsi nə ilə müəyyən edilir?

Təhlükəsizlik Şurasının qərarlarının yerinə yetirilməməsi BMT-yə qarşı işləyir və onun beynəlxalq sülhü və təhlükəsizliyi qoruyub saxlamaq kimi əsas vəzifəsini yerinə yetirmək bacarığına inamı poza bilər.

Regional münaqişələrin aradan qaldırılmasında toplanmış təcrübə göstərir ki, qətnamələrin yerinə yetirilməsi sahəsində səylər yalnız BMT Nizamnaməsi ilə nəzərdə tutulmuş qətiyyətli tədbirlərlə möhkəmləndirildikdə müvəffəqiyyət gətirir.

Beynəlxalq hüquq normalarını kobud surətdə pozan dövlət barəsində təsirli tədbirlər çox nüfuzlu beynəlxalq təşkilatın Dünya birliyi qarşısında borcudur.

Ermənistan - Azərbaycan münaqişəsinin aradan qaldırılması üçün göstərilən səylərdə biz ATƏM kimi nüfuzlu təşkilata da bel bağlayırıq. Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması üçün ATƏM-in yaratdığı Minsk qrupu da işğal edilmiş bütün ərazilərin azad olunması və işğalçı qüvvələrin Azərbaycanın hüdudlarından tamamilə çıxarılması, onun suverenliyinə, ərazi bütövlüyünə və beynəlxalq miqyasda tanınmış sərhədlərinə hörmət edilməsi zəruriliyinə əsaslanır.

Lakin ATƏM-in müvafiq mexanizmləri olmadığından onun çoxsaylı vasitəçilik səyləri, təəssüf ki, indiyədək hər hansı bir nəzərəçarpacaq konkret nəticələrə gətirib çıxarmamışdır. Bu gün biz yalnız bir müsbət nəticə əldə etmişik: Rusiya Federasiyasının və ATƏM-in Minsk qrupunun çox böyük səyləri bahasına və fəal vasitəçilik missiyası sayəsində münaqişə zonasında atəşkəs əldə olunmuşdur.

Dörd aydan çoxdur ki, atəş səsləri eşidilmir, qan tökülmür. Bütün bunları biz yüksək qiymətləndiririk. Lakin vəziyyət hər halda son dərəcə mürəkkəb olaraq qalır, atəşkəs isə olduqca kövrəkdir.

Ermənistan Respublikası Azərbaycanın işğal edilmiş ərazilərinin bir hissəsini Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunun müstəqillik statusu ilə dəyişdirmək kimi əsassız şərtlər irəli sürür. O, Azərbaycanın bu regionunda öz hərbi qüvvələrinin qalmasını və Azərbaycanın Şuşa şəhəri və Laçın rayonu üzərində nəzarətinin saxlanmasını tələb edir ki, bu da əslində ərazilərimizin ilhaqının təsbit edilməsi deməkdir.

Ermənistan münaqişənin başlanmasınadək Dağlıq Qarabağda mövcud olmuş demoqrafik vəziyyətin bərpasını və azərbaycanlı əhalinin oraya qaytarılmasını, o cümlədən Azərbaycan mədəniyyətinin ən qədim mərkəzlərindən biri olan Şuşaya qaytarılmasını tamamilə istisna edir.

Ermənistan BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirmədən, bu şərtlərlə beynəlxalq aralayıcı qüvvələri Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ regionunun perimetri boyunca yerləşdirməyi təklif edərək onları vəziyyətin konservasiyası alətinə, öz ilhaqçı siyasətinin girovuna çevirməyə cəhd göstərir.

Azərbaycan Respublikasının mövqeyi həmişə əməli mövqe olmuşdur və sülhsevər xarakter daşıyır. Bizə vurulmuş bütün ziyanlara baxmayaraq, biz beynəlxalq hüquq, ədalət və humanizm əsasında erməni tərəfinə sülh təklif edirik. Biz Dağlıq Qarabağın erməni təhlükəsizliyinə zəmanət verməyə hazırıq. Biz regionda kommunikasiyaların, o cümlədən Dağlıq Qarabağ ilə Ermənistan Respublikası arasında humanitar dəhlizin normal işini qarşılıqlı əsasda bərpa etmək tərəfdarıyıq. Biz, lazım gələrsə, münaqişə zonasında beynəlxalq sülhpərvər qüvvələrin yerləşdirilməsinə razıyıq. Biz Azərbaycan dövlətinin tərkibində Dağlıq Qarabağın statusunu da müzakirə etməyə hazırıq.

Lakin bizim üçün sarsılmaz normalar və prinsiplər də var - bu, Azərbaycanın suverenliyi və ərazi bütövlüyüdür, işğal olunmuş bütün ərazilərin azad edilməsidir, qaçqınların öz doğma ocaqlarına, o cümlədən 50 min azərbaycanlı qaçqının Dağlıq Qarabağa - öz vətəninə qaytarılmasıdır.

Azərbaycan Respublikası münaqişənin sülh yolu ilə, siyasi yolla aradan qaldırılmasına tərəfdar olaraq belə hesab edir ki, yalnız Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirmək yolu ilə təcavüzün nəticələrini aradan qaldıraraq, uzunmüddətli möhkəm sülhün bərqərar edilməsi və regionun bütün əhalisinin təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə sabit və əməli danışıq

prosesi aparmaq olar.

Həm də biz beynəlxalq normalara uyğun olaraq sülhpərvərlərin dəqiq mandata malik olması şərti ilə razılaşdırılmış sülh qərarlarının həyata keçirilməsinin təmin edilməsində Dünya Birliyinin köməyinə ümid bəsləyirik.

Biz atəşin kəsilməsi haqqında əldə edilmiş razılığı yüksək qiymətləndirərək başa düşürük ki, bu hələ sülh demək deyil, lakin atəşkəs tezliklə sülh əldə edilməsi üçün lazımi şərait yaradır. Biz sülh sazişi əldə edilənədək və silahlı münaqişəyə tamamilə son qoyulanadək atəşkəs rejiminə əməl etmək əzmində olduğumuzu dəfələrlə bildirmişik. Bu gün mən Birləşmiş Millətlər Təşkilatının yüksək tribunasından bunu bir daha bəyan edirəm.

Biz ATƏM-in Minsk qrupunun və Rusiya Federasiyasının sülhpərvər fəaliyyətini müdafiə edərək onların səylərinin birləşdirilməsinə tərəfdarıq, münaqişənin aradan qaldırılmasında birincilik uğrunda hər hansı bəhsləşmənin əleyhinə çıxırıq. Belə bəhsləşmə Azərbaycan və Ermənistan xalqlarının eyni dərəcədə ehtiyac duyduqları sülhün əldə edilməsini yalnız çətinləşdirə bilər.

Azərbaycanın işğal olunmuş ərazilərinin tamamilə azad edilməsi barədə tələblərimiz hüquqa uyğun tələblərdir, onlar BMT Təhlükəsizlik Şurasının qətnamələrinə tamamilə uyğundur. Hər hansı bir rayonun ilhaqına cəhd göstərilməsi bizim üçün məqbul deyil və beynəlxalq hüquq normalarına ziddir.

Müharibəyə cəlb olunmağımız nəticəsində respublikada son dərəcə ağır humanitar vəziyyət yaranmışdır. Yeddi milyonluq ölkədə hər yeddi nəfərdən biri ev-eşiyi, işi, yaşamaq üçün vəsaiti olmayan qaçqındır. Qaçqınlar və köçkünlər misilsiz məhrumiyyətlərə düçar olaraq çadır düşərgələrində yaşayırlar. Amansız qış şəraiti, kifayət qədər qida, dava-dərman olmaması əhalinin ən imkansız olan bu qrupu arasında epidemiya və aclıq təhlükəsi yaratmışdır. Qaçqınlar ilə əlaqədar ekstremal vəziyyətin aradan qaldırılması Azərbaycan dövlətinin başlıca qayğılarından birinə çevrilmişdir.

Respublikamızın təcili çağırışına beynəlxalq təşkilatlar, bir sıra dövlətlər səs verdilər və biz Azərbaycana humanitar yardım göstərilməsində BMT proqramlarının ən iri donorları olan İsveç, Böyük Britaniya, Almaniya, Yaponiya, İsveçrə, Niderland, Danimarka hökumətlərinə ən səmimi minnətdarlığımızı bildiririk.

Biz, həmçinin ikitərəfli əlaqələr xətti ilə Azərbaycana xeyli humanitar yardım göstərən Türkiyənin, İranın, Səudiyyə Ərəbistanının və digər ölkələrin hökumətlərinə də minnətdarıq.

Biz Azərbaycanda qaçqınlara və köçkünlərə mühüm kömək göstərmiş BMT-nin qaçqınların işi üzrə ali komissarının idarəsinə, Beynəlxalq Qırmızı Xaç Komitəsinə, BMT-nin uşaq fonduna, «Həkimlər sərhəd tanımır» təşkilatına, çoxsaylı qeyri-hökumət təşkilatlarına da minnətdarıq.

Hörmətli xanımlar və cənablar!

Şərq və Qərb sivilizasiyasını vəhdət halında birləşdirən ölkəmizin coğrafi mövqeyindən, sosial-siyasi yönümündən və tarixi-mədəni ənənələrindən irəli gələn xüsusiyyətlər beynəlxalq münasibətlər sistemində mənim respublikamın roluna və yerinə səciyyəvi təsir göstərir.

Məhz öz xüsusiyyətlərimizi başa düşərək və dəyişikliklərin irəli sürdüyü tələbləri nəzərə alaraq biz addım-addım irəliləyərək xarici dünya ilə əməkdaşlıq binasını ucaldırıq.

Azərbaycan Respublikası beynəlxalq miqyasda tanındığı vaxtdan etibarən biz əksər ölkələrlə bərabərhüquqlu, tarazlaşdırılmış münasibətlər yaratmış və bir çox ümumdünya və regional təşkilatlara daxil olmuş, beynəlxalq münasibətlərimizin genişləndirilməsi, müəyyən səbəblər üzündən itirilmiş əlaqələrin bərpa edilməsi üçün ciddi səylər göstərmişik.

Biz keçmiş SSRİ-nin ərazisində yaranmış müstəqil dövlətlərlə tarixi, coğrafi, iqtisadi və humanitar əlaqələrə xüsusi əhəmiyyət verərək, istər ikitərəfli münasibətlər əsasında, istərsə də Müstəqil Dövlətlər Birliyi çərçivəsində onlarla, xüsusən Rusiya ilə bərabərhüquqlu əməkdaşlığın inkişaf etdirilməsinə tərəfdar çıxırıq.

Amerika Birləşmiş Ştatları, Böyük Britaniya Birləşmiş Krallığı, Fransa, Çin ilə Azərbaycanın dostluq əlaqələri müvəffəqiyyətlə inkişaf edir. Regionumuzun və yaxın regionların Türkiyə, İran,

Səudiyyə Ərəbistanı, Misir, Pakistan kimi ölkələri ilə bizi sıx, mehriban qonşuluq telləri birləşdirir. Bu ölkələrlə biz İslam Konfransı Təşkilatı çərçivəsində də sıx əməkdaşlıq edirik.

Bu ilin mayında NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına Azərbaycanın qoşulması onun siyasi həyatında mühüm hadisə oldu. Bu proqramda bizi ümumi təhlükəsizlik mənafeyi naminə əməkdaşlıq və qarşılıqlı fəaliyyət cəlb edir. Mən Varşava müqaviləsinin keçmiş üzvlərinin bu proqrama qoşulmasını alqışlayıram. Bu, bütün Avrasiya qitəsində ümid yaradır ki, gələcəkdə onu sülh şəraitində əməkdaşlıq gözləyir və bu əməkdaşlıq bütün xalqların təhlükəsizliyini, inkişafını və tərəqqisini təmin edəcək, yeni cəbhələşmə bloklarının yaranması imkanını həmişəlik aradan qaldıracaqdır. Biz ümid edirik ki, NATO proqramında iştirak Avropada təhlükəsizliyin yeni binasının yaradılmasında ölkəmizin rolunu artıracaqdır.

Bu il Azərbaycan Respublikasına bloklara qoşulmamaq hərəkatında müşahidəçi statusu verilmişdir ki, bu da müxtəlif sahələrdə ikitərəfli əlaqələri qaydaya salmaq və həmin hərəkatın üzvləri olan ölkələrlə mövqelərimizi yaxınlaşdırmaq üçün qarşımızda geniş imkanlar açır.

1992-ci ilin yanvarında gənc Azərbaycan dövlətinin Birləşmiş Millətlər Təşkilatına tamhüquqlu üzv qəbul edilməsi onun təşəkkülü prosesində mühüm mərhələ oldu. BMT-yə daxil olan bir çox beynəlxalq təşkilatlarla əməkdaşlığımızın miqyası həmin vaxtdan etibarən artır. Beynəlxalq Valyuta Fondu, Ümumdünya Bankı, Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı ilə qarşılıqlı fəaliyyətimiz bizim üçün xüsusən dəyərlidir. Dünyanın bu ən iri maliyyə təsisatları mütəxəssislərinin Azərbaycandakı əməli işi nəticəsində ölkəmizin sosial-iqtisadi inkişafı üçün böyük əhəmiyyət daşıyan konkret layihələr müəyyənləşdirilmişdir.

Güman edirik ki, beynəlxalq maliyyə təsisatları ilə səmərəli əməkdaşlığımız üçün böyük imkanlar vardır. Biz Azərbaycan Respublikasının düçar olduğu faktiki müharibə vəziyyəti ilə əlaqədar Beynəlxalq Valyuta Fondunun və Ümumdünya Bankının rəhbərlərinin ehtiyat etdiyini və narahatlıq keçirdiyini başa düşürük. Lakin eyni zamanda, Beynəlxalq Valyuta Fondu bizimlə müharibə aparan Ermənistana sabitləşdirmə krediti vermişdir. Belə hesab edirik ki, ədalət bu məsələdə heç olmasa simmetrik münasibət tələb edir.

Biz bazar iqtisadiyyatı infrastrukturunun təşəkkül tapması, ölkənin müasir idarəetmə səviyyəsinə çıxarılması, qabaqcıl texnologiyaların tətbiqi sahəsində milli proqramların hazırlanmasına texniki yardım göstərilməsi işində BMT-nin ətraf mühitə dair proqramından çox şey gözləyirik.

Biz beynəlxalq iqtisadi əməkdaşlığa xüsusi əhəmiyyət veririk və mən böyük məmnuniyyət hissi ilə sizə bildirmək istəyirəm ki, Azərbaycan Respublikası sentyabrın 20-də Xəzər dənizinin Azərbaycan sektorunda neft yataqlarının birgə istismarı sahəsində bir sıra iri dünya şirkətlərinin konsorsiumu ilə 30 illik müqavilə imzalamışdır. Bu, uzun sürən çətin danışıqların yekunudur.

Bu iri iqtisadi tədbir dünya üçün açıq olmaq siyasətimizin, iqtisadiyyatın sərbəstləşdirilməsi, xarici investisiyaların cəlb edilməsi siyasətimizin sübutudur.

Belə bir nadir müqavilənin imzalanması əməkdaşlığın möhkəmləndirilməsinə, onun həyata keçirilməsində iştirak edən Azərbaycanın, ABŞ-ın, Rusiyanın, Böyük Britaniya Krallığının, Türkiyənin, Norveçin, Səudiyyə Ərəbistanının xalqlarının və ölkələrinin yaxınlaşmasına kömək edəcəkdir. Bu barədə danışarkən mən bir daha qeyd etmək istəyirəm ki, Azərbaycan Respublikası Dünya Birliyi ilə tamhüquqlu inteqrasiyaya istiqamət götürmüşdür və bunun üçün bütün imkanlara malikdir. Buna görə də onun siyasəti sülhə əsaslanır və biz buna nail olmaq üçün Birləşmiş Millətlər Təşkilatına böyük ümidlər bəsləyirik.

Hörmətli xanımlar və cənablar!

Azərbaycan xalqı məni özünün gənc müstəqil dövlətinin prezidenti seçərək mənə çox böyük etimad göstərmişdir və bu gün mən onun ən xoş arzu və diləklərini sizə çatdırmaq şərəfinə nail oldum.

BMT Baş Məclisinin bu yüksək tribunasını belə bir ümidlə tərk edirəm ki, siz xalqımın səsini eşidəcəksiniz, xalqımın səsi ürəklərinizə yol tapacaqdır.

Diqqətinizə görə minnətdaram.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin BMT Baş Məclisinin 49-cu sessiyasında Millətlər Birliyinin xüsusi salonunda mətbuat konfransında bəyanatı -29 sentyabr 1994-cü il

Hörmətli xanımlar, cənablar!

Mən bir neçə dəqiqə bundan öncə BMT-nin Baş Məclisində Azərbaycan Respublikasının prezidenti kimi çıxış etdim. Bu nitqimdə mən Azərbaycan Respublikasının beynəlxalq aləmdə, beynəlxalq miqyasda əsas prinsiplərini bildirdim. Buna görə də təkrarən, geniş bir bəyanat verməyə ehtiyac yoxdur. Belə düşünürəm ki, siz mənim həmin çıxışımla tanışsınız. Lakin qısaca bir neçə kəlmə demək istərdim.

Azərbaycan üç ildir ki, müstəqil bir dövlət kimi yaşayır. Azərbaycan Respublikasının başçısı, prezidenti ilk dəfədir ki, Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin işində iştirak edir və Azərbaycanın adından bu məclisə müraciət edir. Xalqımız milli azadlıq əldə etdikdən sonra Azərbaycan Respublikasının daxili və xarici siyasəti xalqın tarixi, milli, mənəvi ənənələri əsasında qurulur. Azərbaycanda demokratik, hüquqi, sivilizasiyalı dövlət yaradılır. Respublikamızın cəmiyyəti demokratik prinsiplər əsasında formalaşır və bu prinsipləri Azərbaycanda bərqərar etmək üçün ölkəmizdə qanunlar qəbul olunmuşdur. Bu qanunlar demokratik prinsiplərin mövcudluğu və onlardan əhalinin istifadə etməsi üçün şərait yaradır. Biz bu sahədə də öz işimizi Azərbaycan xalqının tarixi, milli, mənəvi ənənələri, milli dəyərləri əsasında qururuq. Eyni zamanda dünyanın inkişaf etmiş, çox yüksək səviyyələrə qalxmış dövlətlərinin demokratik prinsiplərindən bəhrələnirik.

Azərbaycan iqtisadi sahədə böyük potensiala malikdir. Biz bu sahədə bazar iqtisadiyyatı yolu ilə, sərbəst iqtisadiyyat yolu ilə gedirik və bunun üçün lazımi tədbirlər görürük. Yəni 70 il sosialist quruluşunda sosialist iqtisadi, siyasi prinsipləri əsasında yaşayan bir respublika indi müstəqil dövlət kimi dünyanın inkişaf etmiş ölkələrinin həm ictimai-siyasi prinsiplərindən, həm də iqtisadi-sosial prinsiplərindən istifadə edərək öz həyatını özü qurur.

Respublikamız üçün ən ağır problem ölkənin altı ildən bəri müharibə vəziyyətində olması ilə bağlıdır. Müharibəyə Azərbaycan başlamayıbdır. Azərbaycan müharibəyə cəlb edilibdir. Ermənistan Respublikasının təcavüzü nəticəsində hərbi münaqişə yaranıb və indi müharibə gedir. Azərbaycan ərazisinin bir qismi erməni silahlı qüvvələri tərəfindən işğal olunubdur, torpaqlarımızın 20 faizi erməni silahlı qüvvələrinin işğalı altındadır. İşğal edilmiş torpaqlardan bir milyon nəfərdən artıq

Azərbaycan vətəndaşı qaçqın düşüb, öz doğma yerlərindən baş götürüb qaçmışdır. İndi onlar qaçqın vəziyyətində çadırlarda ağır şəraitdə yaşayırlar.

Bu çətinliklərə baxmayaraq, biz sülh təklif edirik və buna görə də dörd ay əvvəl Ermənistan ilə Azərbaycan arasında atəşin kəsilməsinə nail ola bilmişik. Biz atəşkəsin saxlanmasına çalışırıq və bundan sonra da çalışacağıq. Lakin atəşkəs dövründə Böyük Sülh Müqaviləsi əldə etmək istəyirik. Sülh müqaviləsi yalnız bəzi şərtlərlə ola bilər. Yəni işğal edilmiş Azərbaycan torpaqlarından erməni silahlı qüvvələri çıxmalı, həmin torpaqlarımız azad edilməli və qaçqınlar öz yerlərinə qayıtmalıdırlar. Beynəlxalq hüquq normalarına əsasən Azərbaycanın ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı təmin edilməlidir. Biz məhz bu şərtlər əsasında sülhə nail olmaq istəyirik və bunun üçün də çalışırıq. Bu gün mən Birləşmiş Millətlər Təşkilatının tribunasından bütün dünya ictimaiyyətinə, böyük dövlətlərə, beynəlxalq təşkilatlara bu sülhün əldə olunmasında bizə kömək göstərmək barədə müraciət etdim.

Mənim sizə deyəcəyim bu qədərdir, vaxtınızı çox almaq istəmirəm. Odur ki, vaxtımı sizin suallarınıza cavab vermək üçün saxlamaq fikrindəyəm.

Sual: Cənab prezident, Birləşmiş Millətlər Təşkilatı adından sizi burada salamlamağa çox şadam. Sizin ölkəniz neft şirkətlərinin konsorsiumu ilə müqavilə bağlamışdır. İndi gündəlikdə neftin nəql edilməsi üçün boru kəmərinin çəkilməsi məsələsi durur. Sizcə, bu boru kəməri haradan keçəcək?

Cavab: Bilirsinizmi, indiyədək, yəni üç il idi ki, söhbət bu neft müqaviləsinin bağlanmasından gedirdi və hər dəfə də ortaya müxtəlif məsələlər çıxırdı. Artıq müqavilə imzalanmışdır, buna görə də indi bütün suallar neft kəmərinin haradan keçməsi barədədir.

Həmin suallara hazırda heç kəs cavab verə bilməz. Elə mən özüm də. Çünki bu neft kəməri marşrutunun bir neçə variantı var. Biz gərək onu konsorsiumla, yəni bizimlə müqavilə imzalamış olan neft şirkətləri ilə birlikdə həll edək. Mən onu deyə bilərəm ki, boru kəmərinin marşrutu birinci növbədə Azərbaycanın milli mənafelərinə uyğun olmalıdır. Əlbəttə, bu məsələ müqaviləni imzalamış və böyük işlərə girişmiş neft şirkətlərinin fikrindən, iradəsindən də asılı olacaqdır. Eyni zamanda bu neft kəmərinin marşrutu gərək iqtisadi baxımdan da səmərəli olsun.

Zənnimcə, biz əgər üç il ərzində aparılan danışıqlardan sonra bu müqaviləni imzalaya bildiksə, deməli neft kəmərinin haradan keçəcəyini də müəyyənləşdirəcəyik.

Sual: Cənab prezident, dünən «Vaşinqton post» qəzetində dərc edilmiş bir məqalədə deyilir ki, Azərbaycan Dağlıq Qarabağı əldən vermək istəyir. Bunu necə başa düşmək olar?

Cavab: Güman edirəm ki, o məqaləni yazan adam çox böyük səhv buraxıb. Necə ola bilər ki, biz öz ərazimizi əldən verək? Belə olsaydı, onda heç altı ildən bəri müharibə aparmaq lazım gəlməzdi. Bu altı ildə Azərbaycan tərəfi 20 min adam itirib. Yüz min nəfərdən çox adam yaralanıb. İşğal edilmiş ərazilərimizdə 700-dən çox şəhər, kənd və qəsəbə dağıdılıb. Belə böyük müharibədən sonra Dağlıq Qarabağı necə əldən vermək olar? Bu birincisi, ikincisi də, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir. Siz dünyada elə bir ölkə tapa bilərsinizmi ki, o öz torpağının bir hissəsini başqasına versin? Odur ki, bu, yanlış məlumatdır.

Sual: Cənab prezident, dörd aydan çoxdur ki, atəşkəsə əməl edilir. Amma bununla yanaşı, bəzi məlumatlar gəlir ki, Azərbaycan Dağlıq Qarabağın şərq hissəsinə ordu toplayır. Bu barədə nə deyə bilərsiniz?

Cavab: Bu məlumatı sizə kim verib?

Müxbir: Bu məlumatlar Qarabağ tərəfdən gəlir.

Cavab: Bunlar yanlış məlumatlardır. Əvvəla, atəşin kəsilməsinin təşəbbüskarı məhz biz olmuşuq. Həm də dəfələrlə bildirmişik ki, atəşkəsin davam etməsinin tərəfdarıyıq. Mən bunu bu gün BMT-nin tribunasından bir daha bəyan etdim və bildirdim ki, biz bu müddətdə böyük sülhə nail olmaq istəyirik. Biz müharibənin yenidən başlanmasına tərəfdar deyilik və bu istiqamətdə heç bir iş görmürük. Sizdə olan məlumatlar əsassızdır.

Sual: Belə məlum olur ki, heç bir ordu toplanmır?

Cavab: Qətiyyən belə şey yoxdur.

Sual: Cənab prezident, siz burada, Nyu-Yorkda, BMT-də Ermənistan prezidenti ilə görüşdünüzmü? Əgər görüşdünüzsə, onunla dialoq faydalımı oldu? Siz Dağlıq Qarabağ ilə Azərbaycan arasında yaxın aylarda dialoqu necə təsəvvür edirsiniz?

Cavab: Mən Ermənistan prezidenti cənab Ter-Petrosyanla burada görüşdüm. Bu, srağagün səhər oldu. Söhbətimiz uzun çəkdi. Biz əvvəlcə nümayəndə heyətlərinin iştirakı ilə, sonra isə tək-bətək söhbət etdik. Biz məhz sülh haqqında böyük sazişin hazırlanması məsələlərini müzakirə etdik. Ən çox da, bu sazişin əldə olunmasında bizə maneçilik törədən problemlərdən danışdıq. Məsələn, söhbət ondan gedir ki, Azərbaycanın işğal olunmuş ərazilərindən erməni silahlı qüvvələrinin çıxarılmasının zəruriliyindən danışarkən biz bunu həm Laçın rayonuna, həm də Şuşa şəhərinə aid edirik. Bu məsələlərdə Azərbaycan və Ermənistan tərəfləri arasında sazişə hələlik nail ola bilməmişik. Biz burada, Nyu-Yorkda görüşərkən diqqəti məhz həmin məsələlərə yönəltdik. Həm də razılığa gəldik ki, bu məsələ barəsində danışıqlarımızı davam etdirəcəyik. Cənab Ter-Petrosyan da, mən də belə bir yekdil fikirdə olduq ki, atəşkəs rejimini saxlamaq və Böyük Sülh Sazişinin imzalanmasına nail olmaq üçün razılığa gəlmək lazımdır; Mən sizə yalnız bunu deyə bilərəm.

Sual: Cənab prezident, siz dediniz ki, Azərbaycan neft kəmərinin marşrutu barədə qərarı o vaxt qəbul edər ki, bu, Azərbaycanın milli mənafelərinə uyğun və eyni zamanda iqtisadi cəhətdən Azərbaycan üçün sərfəli olsun. Sizcə, neft kəməri Türkiyədən keçərsə, bu, Azərbaycan üçün iqtisadi cəhətdən faydalı ola bilərmi?

Cavab: Mən dedim ki, neft kəməri gərək həm Azərbaycanın milli mənafeyinə uyğun olsun, həm konsorsiumda iştirak elən şirkətlərin iqtisadi mənafelərinə cavab versin, həm də iqtisadi cəhətdən səmərəli olsun. Əmər neft kəmərinin Türkiyə ərazisindən keçməsi bu tələblərə uyğun olsa, onda mən bunu alqışlayaram.

Sual: Cənab prezident, sizin fikrinizcə, burada, Nyu-Yorkdakı görüşləriniz, danışıqlarınız və çıxışlarınız, Azərbaycanın gələcəyi üçün nə kimi əhəmiyyətə malikdir?

Cavab: Belə düşünürəm ki, bunların böyük əhəmiyyəti olacaq. Ən əvvəl, Azərbaycan dövlətinin başçısı, prezidenti BMT Baş Məclisinin sessiyasında ilk dəfədir çıxış edir. Bu, gənc və müstəqil dövlət üçün mühüm hadisədir. Mən Baş Məclisin tribunasından çıxış edərək, Azərbaycanın bugünkü vəziyyəti ilə, ölkəmizin dövlət və siyasi quruluşunun prinsipləri ilə bağlı fikir və mülahizələrimi, Ermənistanla Azərbaycan arasında hərbi münaqişə barəsində mövqeyimizi Dünya Birliyinə çatdırmaq imkanına malik oldum. Zənnimcə, elə bunun özü müstəqil Azərbaycan Respublikasını Dünya Birliyinə təqdim etmək üçün kiçik məsələ deyildir.

Bundan əlavə, Nyu-Yorkda olarkən mən bir çox görüşlər keçirdim və onlar da Azərbaycanın mövqeyini dünya miqyasında möhkəmlətmək üçün çox böyük əhəmiyyətə malikdir. Bu baxımdan mən ABŞ prezidenti cənab Bill Klintonla görüşə olduqca böyük əhəmiyyət verirəm. Bizim çox ətraflı və səmərəli söhbətimiz oldu. Bu, Azərbaycan prezidentinin ABŞ prezidenti ilə ilk görüşü idi. Mən cənab prezident Bill Klinton tərəfindən Azərbaycanın və bütün bölgəmizin problemlərinə böyük maraq göstərildiyini hiss etdim. Ermənistan ilə Azərbaycan arasında münaqişənin aradan qaldırılması və Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində yaranmış vəziyyətdən çıxmaq yolları barədə prinsiplərimizi, mülahizələrimizi və fikirlərimizi ona izah etmək imkanı tapdım. Mən artıq dedim ki, Ermənistan prezidenti Levon Ter-Petrosyanla görüşdüm. Burada bir sıra dövlətlərin xarici işlər nazirləri ilə, beynəlxalq təşkilatların rəhbərləri, bəzi maliyyə dairələrinin nümayəndələri ilə də görüşlərim oldu. Bütün bunlar Azərbaycanın bu günü və gələcəyi üçün kifayət qədər böyük əhəmiyyətə malikdir.

Sual: Cənab prezident, mən sizin Amerika prezidenti ilə görüşünüz mövzusuna qayıdıram. Siz Amerika prezidentindən nə xahiş etdiniz, bu münaqişədə Amerikanın vasitəçi olmağını istədiyinizi bildirdinizmi? Müsaidənizlə, daha bir sual vermək istərdim: elan edilmişdir ki, prezident Yeltsin ilə prezident Klinton öz aralarında görüşdə «Yaxın xaric» deyilən ölkələrdə Rusiyanın fəaliyyəti barədə razılığa gəlməmişlər. Bu fakt sizi məyus edirmi?

Cavab: Mən cənab prezident Bill Klintona dedim ki, bütün münaqişələrin, eləcə də Qafqazda gedən münaqişələrin aradan qaldırılmasında ABŞ beynəlxalq təşkilatların, o cümlədən ATƏM-in və Minsk qrupunun fəaliyyətində daha yaxından iştirak etməlidir. Belə hesab edirəm ki, bu proseslərdə ABŞ-ın iştirakı fayda gətirəcəkdir. O ki, qaldı cənab Bill Klinton ilə cənab Boris Yeltsin arasında fikir ayrılıqları barədə sizin məlumatınıza, mənim bundan xəbərim yoxdur və mən sizin bu məlumatınız əsasında bir nəticə çıxarmaq istəməzdim.

Diqqətinizə görə təşəkkür edirəm.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin BMT-nin Baş katibi Butros Butros-Qalinin Azərbaycana rəsmi səfəri zamanı Bakıda Binə hava limanında qarşılanması mərasimində çıxışı - 29 oktyabr 1994-cü il

Birləşmiş Millətlər Təşkilatının Baş katibi doktor Butros Butros-Qali cənablarını Azərbaycan torpağında səmimi qəlbdən salamlayıram. Bir neçə gün bundan öncə Azərbaycan Respublikası öz dövlət müstəqilliyinin üçüncü ildönümünü qeyd etdi. Üç il ərzində Azərbaycan Respublikası Dünya Birliyinə daxil olmuşdur, Birləşmiş Millətlər Təşkilatının üzvüdür və BMT-nin Baş katibi cənab Butros Butros-Qali ilk dəfədir Azərbaycan torpağına səfər edir. Biz cənab Butros Butros-Qalinin Azərbaycana səfərini yüksək qiymətləndiririk və bu səfərə çox ümidlər bəsləyirik.

Azərbaycan Respublikasının indiki ağır vəziyyəti, müharibə şəraitində olması, respublikada bir milyondan çox qaçqının olması, başqa problemlər dünyanın nəzər-diqqətini Azərbaycana cəlb edir. Biz Birləşmiş Millətlər Təşkilatının və onun Baş katibi Butros Butros-Qalinin bu məsələlərə diqqət yetirdiklərini həmişə hiss edirik. Ümidvaram ki, burada keçiriləcək görüşlərdə və aparılacaq danışıqlarda Azərbaycanın müstəqilliyini möhkəmlətmək, onun qarşısında duran məsələlər barəsində ətraflı söhbətlər gedəcəkdir və Birləşmiş Millətlər Təşkilatının Baş katibi cənab Butros Butros-Qali bu məsələlərə böyük diqqət yetirəcəkdir.

Hörmətli dostumuz cənab Butros Butros-Qali, Azərbaycan torpağına, Azərbaycan Respublikasına xoş gəlmisiniz. Bura sizin üçün doğma torpaq, doğma bir yerdir və burada hər bir vətəndaş, hər bir ailə sizin bu gəlişinizi alqışlayır, sizə mehribanlıq və qonaqpərvərlik hissləri göstərməyə hazırdır.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Prezident sarayında BMT-nin Baş katibi Butros Butros-Qali ilə görüşdə çıxışı - 30 oktyabr 1994-cü il

Hörmətli Baş katib, cənab doktor Butros Butros-Qali!

Mən sizi Azərbaycan Respublikasında, Azərbaycan torpağında bir daha səmimi-qəlbdən salamlayıram. Azərbaycan Respublikasına göstərdiyiniz maraq, diqqət üçün və respublikamıza etdiyiniz səfər üçün sizə təşəkkürümü bildirirəm.

Müstəqil Azərbaycan Respublikası üç il bundan qabaq yaranmışdır, Birləşmiş Millətlər Təşkilatının üzvüdür. BMT Baş katibinin Azərbaycana səfəri Azərbaycan Respublikasının qarşısında duran problemlərin həll edilməsi üçün şübhəsiz ki, çox əhəmiyyətli olmalıdır. Biz, respublikamızın ictimaiyyəti buna çox böyük ümidlər bəsləyirik.

Məlumdur ki, Birləşmiş Millətlər Təşkilatı Azərbaycanın problemləri ilə daim məşğul olur. Azərbaycan Respublikası altı ildən artıqdır ki, Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalmışdır. Azərbaycan Respublikası müstəqilliyini əldə edən gündən indiyədək, üç ildir ki, BMT və onun Təhlükəsizlik Şurası bu problemin həlli ilə daim məşğul olur. Bu sahədə çox iş görülmüşdür. BMT, onun Təhlükəsizlik Şurası və cənab Baş katib bu sahədə çox fəaliyyət göstərmişlər. Görülən bu işlərə görə, qəbul olunan qərarlara görə mən Azərbaycan Respublikası adından, cənab Butros Qali, sizə təşəkkürümü bildirirəm.

Azərbaycan Respublikası müstəqilliyini yeni əldə etmiş bir dövlət kimi bir çox problemlərlə qarşılaşmışdır. Yaxın keçmişdə Sovetlər İttifaqının tərkibində olan və indi müstəqilliyini əldə edən digər respublikalar kimi, Azərbaycan da keçid dövrünü yaşayır. Bu üç il müddətində biz çalışmışıq ki, Azərbaycanın müstəqilliyini təmin edək, möhkəmləndirək, digər tərəfdən, respublikamızı yeni yol ilə, demokratik yol ilə aparaq. Uzun illər Sovetlər İttifaqının tərkibində olan, sosialist, kommunist ideologiyasının təsiri altında yaşayan Azərbaycan xalqı, Azərbaycan Respublikası artıq indi bu prinsiplərdən imtina etmişdir. Azərbaycanda müstəqil dövlət quruculuğu prosesi gedir. Bizim məqsədimiz Azərbaycanda hüquqi demokratik dövlət qurmaq, sivilizasiyalı, hüquqi cəmiyyət yaratmaqdır.

Azərbaycanın iqtisadiyyatında böyük dəyişikliklər etmək nəzərdə tutulur. Respublikamız öz iqtisadiyyatını bazar iqtisadiyyatı prinsipləri əsasında inkişaf etdirməyə başlamışdır. İqtisadi islahatlar aparmaq, sərbəst iqtisadiyyata yol açmaq, təşəbbüskarlığa, sahibkarlığa imkanlar yaratmaq iqtisadiyyat sahəsində əsas yolumuzdur. Bu məqsəd üçün biz iqtisadiyyatda özəlləşdirmə prinsiplərini həyata keçirməyə başlamışıq. Bir sözlə, Azərbaycan iqtisadi sahədə sərbəst iqtisadiyyat yolu ilə gedir, gedəcəkdir və dünya iqtisadiyyatı ilə əlaqələr qurmaq, inteqrasiyaya girmək, dünya iqtisadi birliyinə daxil olmaq əzmindədir.

Keçid dövrü Azərbaycanın daxili həyatında şübhəsiz ki, böyük problemlər, çətinliklər yaratmışdır. Bir ictimai, iqtisadi, siyasi sistemdən digərinə keçmək şübhəsiz ki, həm müəyyən vaxt, həm də çox ciddi addımlar atmağı tələb edir. Ancaq bizim üçün nə qədər çətin olsa da, biz bu yolla gedirik və gedəcəyik. Azərbaycanın müstəqilliyini də məhz bu yolla təmin etmək istəyirik.

Azərbaycan Respublikası hazırda sosial-iqtisadi böhran içərisindədir. Dediyim kimi, bunlar bir tərəfdən keçid dövrü ilə, digər tərəfdən Azərbaycanın ötən altı ildə müharibə şəraitində olması ilə əlaqədardır. Ancaq bütün bu çətinliklərə baxmayaraq, Azərbaycan öz müstəqilliyini bundan sonra da inkişaf etdirmək yolu ilə gedir. Azərbaycan xalqı uzun illər, əsrlər boyu milli azadlıq, dövlət istiqlaliyyəti arzusu ilə yaşayıbdır. Azərbaycanın dövlət müstəqilliyi qazanması xalqımız üçün tarixi hadisədir. Bizim məqsədimiz, yolumuz müstəqilliyimizi daim qoruyub saxlamaqdır və əminəm ki, biz bu yolda uğurlar əldə edəcəyik.

Azərbaycanın xarici siyasəti bütün ölkələrlə bərabər hüquqlu əlaqələr yaratmaqdan ibarətdir. Mən sentyabrın 29-da BMT Baş Məclisinin sessiyasında çıxış edərkən bu barədə Azərbaycanın mövqeyini bildirdim.

Bir daha demək istəyirəm ki, üç illik müstəqillik dövründə, xüsusilə son bir ildə Azərbaycan bu sahədə ciddi addımlar atmış və bir çox ölkələrlə qarşılıqlı surətdə faydalı, səmərəli əlaqələr yaratmışdır. Azərbaycan bu yolla gedərək bütün dünyaya özünü açıq bir ölkə kimi elan etmişdir. Biz Azərbaycana investisiyalar qoymaq, respublikamızla müştərək işlər görmək barədə bütün Dünya Birliyinə, beynəlxalq təşkilatlara, bu işlə maraqlanan şirkətlərə və firmalara müraciət edirik, əlaqələr yaradırıq.

Bu il sentyabrın 20-də Azərbaycan Respublikasının Xəzər dənizində olan neft yataqlarından xarici ölkələrin nüfuzlu neft şirkətləri ilə müştərək istifadə olunması üçün böyük bir müqavilə imzalanmışdır. Biz bundan sonra da Azərbaycana xarici ölkələr, şirkətlər, firmalar tərəfindən investisiyalar qoyulması üçün imkanlar yaradacağıq. Bir sözlə, Azərbaycan müstəqil dövlət kimi Dünya Birliyində, Birləşmiş Millətlər Təşkilatında öz layiqli yerini tutmağa çalışır.

Ancaq siz bilirsiniz ki, respublikamız üçün ən ağır, ən çətin, ən mühüm məsələ Azərbaycana qarşı olan hərbi təcavüzün qarşısının alınması məsələsidir. Mən qeyd etdim ki, BMT, onun Təhlükəsizlik Şurası və cənab Baş katib, şəxsən siz bu işlə daim məşğul olursunuz və bu məsələlər sizə məlumdur. Mən hesab edirəm ki, bu görüş zamanı bizim söhbətlərimizin əksər hissəsi bu məsələyə həsr olunmalıdır. Məlumdur ki, sizin bu səfəriniz də müəyyən mənada həmin məsələlərlə bağlıdır. Siz Azərbaycandan sonra Gürcüstanda, Ermənistanda olacaqsınız. Demək, bizim regionda olan vəziyyət sizi maraqlandırır və biz də çox maraqlıyıq ki, regionumuzda sülh, əmin-amanlıq yaradılmasında sizin imkanlarınızdan istifadə edək.

Qeyd etdim ki, altı illik bu müharibə nəticəsində Ermənistan silahlı qüvvələri Azərbaycan Respublikası ərazisinin yüzdə iyirmi faizini işğal etmişlər. İşğal olunmuş torpaqlar həm Azərbaycanın daxilində olan Dağlıq Qarabağın ərazisidir, həm də Dağlıq Qarabağın ətrafında olan yeddi rayonun ərazisidir. İşğal olunmuş rayonlardan bir milyondan artıq Azərbaycan vətəndaşı qaçqın düşmüşdür. Onlar çox ağır vəziyyətdədirlər, əksəriyyəti çadırlarda yaşayır və çadırlarda olmayanların da yaşadıqları yerlərdə minimum şəraitləri yoxdur. Bunlar hamısı Azərbaycan Respublikasında həm iqtisadi-sosial vəziyyəti, həm də ictimai-siyasi vəziyyəti həddindən artıq gərginləşdirir.

Siz bunu bilirsiniz və bir daha qeyd etmək istəyirəm ki, müharibəni Azərbaycan başlamayıbdır. Azərbaycan sadəcə olaraq müharibəyə cəlb olunmuşdur. Azərbaycanın torpağı, ərazisi olan Dağlıq Qarabağı ələ keçirmək üçün Ermənistan altı il bundan əvvəl bu təcavüzə başlamışdır. Təəssüf ki, Azərbaycana aid olan səbəblərə görə də və daha çox - Ermənistana ayrı-ayrı qüvvələr tərəfindən göstərilən yardım nəticəsində Ermənistan Azərbaycan torpaqlarının bir qismini işğal etməyə nail olmuşdur.

Bu müharibə nəticəsində Azərbaycan 20 mindən artıq vətəndaşını itirmişdir, onlar həlak olublar. Yüz mindən artıq Azərbaycan vətəndaşı yaralanıb, əlil olmuşdur. İşğal olunmuş torpaqlarımızda yaşayış binaları, zavodlar, fabriklər, sosial obyektlər yandırılıb, dağıdılıb. Beləliklə, bu müharibə Azərbaycan xalqına, Azərbaycan Respublikasına həm mənəvi, həm də çox böyük maddi zərər vurmuşdur. Bunların hamısına baxmayaraq, Azərbaycan sülhsevər mövqedədir, bu məsələlərin sülh yolu ilə həll olunmasına çalışır. Ancaq bizim atdığımız sülhsevər addımlar hələ indiyədək öz nəticələrini verməmişdir.

Sizə məlumdur ki, Ermənistanın Azərbaycana təcavüzü ilə əlaqədar məsələ Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasında dəfələrlə müzakirə olunmuşdur. Təhlükəsizlik Şurası bu məsələlərlə əlaqədar dörd qətnamə qəbul etmişdir. 1993-cü ilin aprelində Kəlbəcər rayonunun işğalı ilə əlaqədar 822-ci qətnamə qəbul edilib, bundan sonra Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonlarının işğalı ilə əlaqədar 874, 884 nömrəli qətnamələr qəbul olunmuşdur. BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi bu qətnamələrin hamısında tələb olunmuşdur ki, erməni silahlı qüvvələri heç bir şərt qoymadan, şərtsiz olaraq, işğal edilmiş torpaqlardan çıxmalıdır və həmin torpaqlar azad olunmalıdır.

Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisində işğalçılıq hərəkətləri ilə bağlı olaraq bu qətnamələrdən başqa, Təhlükəsizlik Şurası sədrinin altı dəfə bəyanatı olmuşdur. Cənab Baş

katib, şəxsən sizin özünüz də bu məsələlərlə əlaqədar bir neçə dəfə ciddi bəyanatlar vermisiniz. Ancaq təəssüf ki, bu qətnamələrin və bəyanatların heç birisi həyata keçirilməyibdir. Ermənistan tərəfi BMT Təhlükəsizlik Şurasının, ümumiyyətlə, BMT-nin qərarlarına tabe olmayıbdır və indiyə qədər də tabe olmur. Təəssüf ki, onların beynəlxalq normaları pozması və bu normalara tabe olmaması indiyədək cəzasız qalmışdır.

Məsələlərin sülh yolu ilə həll olunması üçün biz həm BMT ilə, həm də ATƏM təşkilatı ilə çox sıx əməkdaşlıq edirik. ATƏM təşkilatının çərçivəsində bu münaqişə ilə əlaqədar olaraq xüsusi Minsk qrupu yaradılmışdır. Azərbaycan Respublikası Minsk qrupu ilə, ATƏM təşkilatı ilə daim əməkdaşlıq edir və Minsk qrupunun bu sahədə ciddi fəaliyyət göstərməsi üçün biz öz tərəfimizdən bütün şəraiti yaratmağa çalışmışıq.

Son illər bir neçə dövlət də müstəqil olaraq bu məsələlərin həll olunması üçün təşəbbüslər göstərmişdir. Amerika Birləşmiş Ştatları, Rusiya, Türkiyə dövlətləri belə təşəbbüslər etmişdir. Biz bu təşəbbüslərdən də istifadə etməyə çalışmışıq.

Son vaxtlar Rusiya öz təşəbbüsü ilə bağlı çox fəaliyyət göstərir, bizim məsələlərin həll olunmasında vasitəçilik rolu oynamağa və bu sahədə ciddi səy göstərməyə çalışır. Biz Rusiyanın bu vasitəçilik fəaliyyətindən də səmərəli istifadə etməyə çalışmışıq və çalışırıq. Çünki bizim məqsədimiz məsələni yalnız və yalnız sülh yolu ilə həll etməkdir. Ona görə də bu məsələni ədalətli, faydalı həll etmək təşəbbüsündə olan ölkənin fəaliyyətini qəbul edirik.

Sizə məlumdur ki, Minsk qrupunun, Rusiyanın vasitəçiliyi ilə, Ermənistan ilə Azərbaycan arasında bilavasitə aparılan danışıqlar nəticəsində beş aydan çoxdur ki, atəş dayandırılmışdır. Biz bunu mühüm bir nailiyyət hesab edirik. Ancaq eyni zamanda bu atəşkəs dövründən böyük bir sülhün yaranması üçün səmərəli istifadə etməyə çalışırıq. Bu sahədə həm Minsk qrupu ilə, həm də Rusiya ilə əməkdaşlıq edirik. Bizim məqsədimiz böyük sülh yaratmaqdır, müharibəyə tamamilə son qoymaqdan ibarətdir.

Şübhəsiz ki, burada bizim öz şərtlərimiz var. Şərtlər də ondan ibarətdir ki, böyük sülh yaratmaq və müharibəyə tamamilə son qoymaq üçün Ermənistan işğalçı hərbi hissələri Azərbaycan torpaqlarından çıxmalıdır. Məsələni bu cür qoyarkən biz belə hesab edirik ki, birinci mərhələdə erməni silahlı qüvvələri Azərbaycanın işğal olunmuş rayonlarından, o cümlədən Laçın və Şuşa rayonlarından çıxmalıdır. Dağlıq Qarabağ haqqında məsələ ikinci mərhələdə həll olunmalıdır. İşğal olunan ərazilər azad edilərkən qaçqınlar öz yerlərinə qayıtmalıdır. Əgər biz buna nail ola biləriksə, o cümlədən Laçın və Şuşa rayonları da daxil olmaq şərti ilə, bundan sonra danışıqların ikinci mərhələsində Dağlıq Qarabağın statusunu müzakirə etmək olar və biz bu sahədə də müəyyən addımlar ata bilərik.

Biz bu təklifləri edərkən şübhəsiz ki, Dağlıq Qarabağda yaşayan ermənilərin təhlükəsizliyinin təmin olunmasını da nəzərdə tuturuq. Aydındır ki, öz yerlərinə qayıda bilən qaçqınların hamısı qayıtmalıdır, Azərbaycan vətəndaşlarının hamısının təhlükəsizliyi təmin olunmalıdır. Dağlıq Qarabağda olan demoqrafik mənzərə bərpa edilməlidir. Çünki Dağlıq Qarabağda ermənilərlə yanaşı azərbaycanlılar da yaşamışlar. Onlar da öz yerlərinə qayıtmalıdır. Şübhəsiz ki, altı il gedən müharibə nəticəsində qarşılıqlı inamsızlıq, ziddiyyətlər yaranmışdır. Ona görə də bu məsələlər mərhələ-mərhələ həll olunmalıdır.

Bütün bunların nəticəsində Azərbaycan Respublikasının ərazi bütövlüyü, ölkəmizin sərhədlərinin toxunulmazlığı təmin edilməlidir. Azərbaycan Respublikası müstəqil, suveren respublika kimi öz ərazisinin, öz sərhədlərinin sahibi olmalıdır. Biz ümidvarıq ki, bu məsələlərin həll olunmasında BMT, Təhlükəsizlik Şurası, xüsusən cənab Baş katib, siz bundan sonra bir çox işlər görə bilərsiniz. Bu məsələlərin həlli ATƏM təşkilatı ilə bağlı olduğuna görə və ATƏM-in tərkibində bu məsələlərin həlli üçün, xüsusi Minsk qrupu yarandığı üçün biz bu məsələlərin ATƏM çərçivəsində, Minsk qrupu vasitəsilə həll edilməsinə üstünlük veririk.

Rusiyanın vasitəçilik səylərini yüksək qiymətləndirərək və onun bizim regionda imkanlarının olduğunu nəzərə alaraq biz ATƏM təşkilatı Minsk qrupunun Rusiya ilə əməkdaşlığının da tərəfdarıyıq. Hesab edirik ki, bu əməkdaşlıq bizim regionda olan məsələlərin səmərəli həllinə

yönəldilməlidir.

Şübhəsiz ki, bütün dünyada gedən proseslər üçün ən yüksək zirvə, ən yüksək təşkilat Birləşmiş Millətlər Təşkilatıdır. 49 ildən bəri fəaliyyət göstərən BMT dünyanın hər yerində, bir sıra regionlarında çox səmərəli fəaliyyət göstərmişdir. Mən ümidvar olduğumu bildirmək istəyirəm ki, BMT-nin 50-ci ildönümünə qədər Birləşmiş Millətlər Təşkilatı bütün imkanlarından istifadə edərək bizim regionda olan məsələləri də həll etməyə qadirdir.

Cənab Baş katib Butros Qali, biz və bütün Azərbaycan xalqı sizi böyük bir diplomat, dünya siyasətində böyük xidmətləri olan bir şəxs kimi tanıyırıq. Dünyada sülhün, əmin-amanlığın bərqərar olması üçün sizin gördüyünüz işlər məlumdur və Azərbaycan xalqı da bunu yüksək qiymətləndirir. Mən ümidvar olduğumu bildirmək istəyirəm ki, siz öz şəxsi nüfuzunuzdan, hörmətinizdən, imkanlarınızdan istifadə edərək Azərbaycanın bu ağır vəziyyətdən çıxmasına yardım edəcəksiniz. Biz sizi bu arzularla, bu fikirlərlə gözləyirdik və mən sizinlə danışıqlara da bu arzularla başlayıram.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin BMT-nin Baş katibi Butros Butros-Qali ilə danışıqlar başa çatdıqdan sonra birgə mətbuat konfransında bəyanatı - 30 oktyabr 1994-cü il

Birləşmiş Millətlər Təşkilatının Baş katibi cənab Butros Butros-Qali ilə çox səmərəli danışıqlar apardıq. İndi isə sizinlə görüşə gəlmişik.

Mən görüşümüz və apardığımız danışıqlar barədə cənab doktor Butros Butros-Qalinin verdiyi məlumatla tamamilə razıyam. Bir daha bildirmək istəyirəm ki, danışıqlarımız çox mehribançılıq və səmimilik şəraitində keçmişdir.

Danışıqlarımızın əsas mövzusu Azərbaycanın müharibə vəziyyətindən çıxması və Ermənistanın təcavüzündən xilas olması məsələsi idi. Mən bu barədə cənab Butros Butros-Qaliyə ətraflı məlumat verdim, bizim mövqeyimizi bir daha bəyan etdim.

Mən çox məmnunam ki, cənab Butros Butros-Qali Ermənistanın Azərbaycana qarşı təcavüzünün qarşısının alınması üçün dörd əsas prinsipi bu gün bir daha bəyan etdi. Biz məhz bu dörd prinsip əsasında Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsini tələb edirik. Azərbaycanın işğal olunmuş ərazilərindən Ermənistan silahlı qüvvələrinin qeyd-şərtsiz çıxmasını, qaçqın vəziyyətində yaşayan bir milyondan artıq vətəndaşımızın həmin torpaqlar azad edilən kimi öz yurd-yuvalarına qayıtmasını tələb edirik. Cənab doktor Butros Butros-Qali bizim bu problemlərimizə çox böyük diqqət və maraq göstərdi. Bizim danışıqlarımız, apardığımız fikir mübadiləsi mənə belə deməyə əsas verir ki, cənab doktor Butros Butros-Qali Ermənistanda olarkən bu məsələlərin həllinə səy göstərəcəkdir.

Mən Birləşmiş Millətlər Təşkilatına və onun Baş katibinə Azərbaycan xalqı, Azərbaycan Respublikası adından bir daha hörmət və ehtiramımı bildirirəm: bir daha qeyd edirəm ki, Azərbaycan xalqı, respublikamızın vətəndaşları bu ağır vəziyyətdən çıxmaq üçün Birləşmiş Millətlər Təşkilatına, onun Təhlükəsizlik Şurasına və BMT-nin Baş katibi cənab doktor Butros Butros-Qaliyə çox böyük ümid bəsləyirlər. Azərbaycan Respublikasına göstərilən bu qayğıya görə təşəkkürümü bildirirəm və ümidvaram ki, respublikamızın bu ağır iqtisadi vəziyyətdən çıxması üçün, cənab Butros Butros-Qalinin qeyd etdiyi kimi, Birləşmiş Millətlər Təşkilatının imkanlarından istifadə olunacaq və Azərbaycana, xüsusən qaçqınlara maddi yardım göstəriləcəkdir. Cənab Butros Butros Qali, sizə bir daha təşəkkür edirəm.

Sual: Danışıqlar zamanı Azərbaycanın ağır iqtisadi vəziyyətdən çıxmasına yardım göstərilməsi barədə də fikir mübadiləsi olmuşdur. Mənim sualım cənab Butros Butros-Qaliyədir. Dünyanın hər hansı bir ölkəsində Azərbaycan Dövlət Teleradio Şirkətinin nümayəndəliyinin ofisinin açılmasına kömək edə bilərsinizmi?

Butros Butros-Qali: Mən Nyu-Yorka qayıtdıqdan sonra bu məsələni Birləşmiş Millətlər Təşkilatının rabitə və kommunikasiya məsələləri şöbəsinin direktoru ilə müzakirə edəcəyəm. Hələlik sizə hər hansı vəd vermək istəməzdim. Çünki bu büdcə və maliyyə çətinlikləri kimi məsələlərdən çox asılıdır. Amma söz verirəm ki, səfərim başa çatdıqdan sonra bu məsələni adını çəkdiyim şöbənin direktoru qarşısında qaldıracağam. Ondan sonra sizə məlumat verə bilərəm.

Sual: Cənab prezident, Azərbaycanda sizi haqlı olaraq general de Qoll ilə müqayisə edirlər. Siz sübut edə bildiniz ki, böyük siyasi xadim, böyük rəhbər heç də diktator olmamalıdır. Respublikadakı bütün siyasi hadisələri qan tökülmədən aradan qaldıra bildiniz. Siz hesab edirsinizmi ki, neft müqaviləsinin imzalanması ilə iqtisadi irəliləyiş başlanır?

İkinci sualım cənab Butros Butros-Qaliyədir. Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında Ermənistan parlamentinin qəbul etdiyi qərar hələ də qüvvədədir. Uydurma «Dağlıq Qarabağ Respublikası»nın deputatları Ermənistan parlamentinin işində iştirak edirlər. Ermənistan Respublikasını işğalçı kimi tanımaq üçün daha nə lazımdır?

Heydər Əliyev: Azərbaycan Respublikasında sosial-iqtisadi vəziyyət həddindən artıq ağırdır. Bunun səbəbləri bizim ictimaiyyətə məlumdur. Siz də bunu yaxşı bilirsiniz, ona görə də əlavə

izahata ehtiyac yoxdur. Son illər Azərbaycanın iqtisadiyyatında dağıdıcı proseslər davam etmiş, quruculuq işləri isə getməmişdir. Oktyabrın əvvəlində Azərbaycanda dövlət çevrilişinə cəhd göstərən qüvvələr də son illərdə onun iqtisadiyyatını dağıdanlardır. Təəssüf ki, Azərbaycanın müharibə şəraitində olduğu, ağır dövrdə yaşadığı bir vaxtda respublikada belə qüvvələr mövcuddur və onlar Azərbaycanın həm iqtisadi-sosial, həm də ictimai-siyasi vəziyyətini gərginləşdirirlər. Ancaq onlar böyük səhvə yol vermişlər, bu da ondan ibarətdir ki, xalqın iradəsini, xalqın gücünü indiyədək dərk edə bilməmişlər. Oktyabrın 4-də dövlət çevrilişi cəhdinin qarşısının alınması Azərbaycan xalqının müdrikliyini, birliyini, onun möhkəm iradəsini bir daha nümayiş etdirdi.

Bu, eyni zamanda onu göstərdi ki, xalqımız nə qədər ağır vəziyyətdə olsa da, Azərbaycanın dövlətçiliyini, ölkənin qanuni yolla seçilmiş prezidentini qorumağa qadirdir. Güman edirəm ki, əgər dağıdıcı qüvvələrin qarşısını ala bilsək, - əminəm ki, biz bunu edə biləcəyik, - Azərbaycanda sosial-iqtisadi vəziyyət, yavaş-yavaş olsa da, yaxşılaşacaqdır.

Sentyabrın 20-də xarici ölkələrin neft şirkətləri ilə imzalanmış müqavilə Azərbaycanın iqtisadi inkişafı yolunda böyük bir mərhələdir. Ancaq heç də belə düşünmək lazım deyil ki, bu müqavilə iqtisadiyyatımızın, həyatımızın bütün məsələlərini həll edəcəkdir. Bu, iqtisadiyyatımızı inkişaf etdirmək üçün atdığımız ilk, ancaq böyük addımlardan biridir. Güman edirəm ki, bu ilk addım gələcəkdə görəcəyimiz işlər üçün yaxşı bünövrə yaradacaqdır.

İmzalanmış müqavilədən istifadə edilməsi də Azərbaycan Respublikasının özündən asılı olan məsələdir. Əgər biz səmərəli işləsək, həmin müqavilədən də səmərəli istifadə edə bilərik. Əminəm ki, biz bunlara nail ola biləcəyik.

Butros Butros-Qali: Mənə verilən suala gəldikdə isə, zənnimcə, Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının bu məsələ barədə mövqeyi tam aydındır. Bu mövqe işğalçı qoşunların Dağlıq Qarabağdan təcili olaraq və qeyd-şərtsiz çıxarılmasından ibarətdir.

Sual: Mənim sualım cənab Butros Butros-Qaliyədir. Hörmətli Baş katib, bu gün Xarici İşlər Nazirliyində verdiyiniz bəyanatda da, indiki görüşün əvvəlindəki çıxışınızda da belə bir fikir söylədiniz ki, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması mütləqdir, əcnəbi qoşunlar işğal edilmiş ərazilərdən çıxmalıdır. Bundan başqa, Ermənistanı təcavüzkar adlandırdınız. Qarşıda sizi Ermənistan Respublikasına səfər gözləyir. Eyni mövqeyi orada da eyni tərzdə ifadə edəcəksinizmi?

Butros Butros-Qali: Mənə belə gəlir ki, bu gün burada dediklərim radio vasitəsilə bir saatdan sonra Ermənistana çatır. Burada verdiyim bəyanatlar və söylədiyim fikirlər Röyterdən tutmuş bir sıra agentliklər vasitəsilə bütün dünyaya yayılır və xüsusi bülleten şəklində dərc olunur, mənim mətbuat katibim vasitəsilə Nyu-Yorkda da geniş yayılır. Başqa sözlə desək, mənim burada dediklərim bütün dünyaya açıq-aydın bəyan olur. İkincisi, mən burada nə isə yeni bir şey demirəm. Mənim dediklərimin hamısı Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 nömrəli qətnamələrində öz əksini tapmışdır.

Sual: Cənab Baş katib, siz qətnamələri sadaladınız. Mənim sualım birinci, yəni 822 nömrəli qətnamə ilə bağlıdır. Onun 4-cü maddəsi vaxtilə Kəlbəcərin Dağlıq Qarabağın etnik ermənilər tərəfindən deyil, Ermənistan Respublikası tərəfindən işğal edilməsini dəqiqləşdirmək üçün oraya öz nümayəndələrinizi göndərməyi tələb edirdi. Lakin vaxt ötdü, bu nümayəndələr göndərilmədi və cəzasız qaldığını görən təcavüzkar öz əməllərini davam etdirdi, Azərbaycanın yeni-yeni torpaqları işğal olundu, yüz minlərlə insan faciəyə düçar oldu. Siz bu gün verdiyiniz bəyanatlarda da ATƏM-i dəstəklədiyinizi, BMT-nin sülh məramlı qüvvələrinin fəaliyyətini əlaqələndirməyə hazır olduğunuzu deyirsiniz. Adları çəkilən qətnamələrin yerinə yetirilməsi yolunda konkret addımlar atmaq sahəsində BMT nə kimi tədbirlər görür?

Butros Butros-Qali: Məlum qətnamənin 4-cü maddəsinə gəldikdə, onu qeyd etmək istəyirəm ki, həmin maddəyə əsasən BMT-nin Baş katibi ATƏM-in sədri ilə əməkdaşlıq çərçivəsində, onunla əlaqə saxlayaraq, Kəlbəcər rayonunun işğalı məsələsinin tam, düzgün qiymətləndirilməsi üçün oraya nümayəndə göndərməli idi. Bundan sonra Təhlükəsizlik Şurası bir sıra başqa qətnamələr də qəbul etmişdi. Həmin qətnamələr qəbul ediləndə də regiondakı vəziyyət barədə məlumat

Təhlükəsizlik Şurasına çatdırılmışdır.

Sual: Siz dediniz ki, bütün qətnamələr işğalçı qüvvələrin Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxarılmasını tələb edir. Lakin qeyd etdiniz ki, hələlik buna əməl olunmamışdır. Belə olan halda BMT rəhbərliyinin sərəncamında Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirməyən ölkəyə qarşı iqtisadi və hətta hərbi təsir göstərmək üçün tədbirlər imkanı var. Siz İraqda, keçmiş Yuqoslaviyada və başqa yerlərdə bunu tətbiq etmisiniz. Nə üçün indiki halda BMT heç bir tədbir görmür ki, Təhlükəsizlik Şurasının qətnamələri yerinə yetirilsin?

Butros Butros-Qali: Bildiyiniz kimi, qərarları Təhlükəsizlik Şurası qəbul edir. Baş katibin rolu və vəzifəsi isə həmin qərarları həyata keçirməkdən ibarətdir. Təhlükəsizlik Şurası siyasi təşkilatdır. O, bu qərarların həyata keçirilməsində maraqlı ola bilər, onların istər iqtisadi, istərsə də hərbi cəhətdən yerinə yetirilməsində təkid edə bilər.

Sual: Əgər Ermənistan BMT Təhlükəsizlik Şurasının qərarlarını yerinə yetirməməkdə davam edərsə, İraqda, keçmiş Yuqoslaviyada olduğu kimi, ona qarşı hər hansı sanksiyalar tətbiq ediləcəkmi?

Butros Butros-Qali: Mənim dediyim odur ki, belə bir qərarı məhz Təhlükəsizlik Şurası çıxarmalıdır. Ona görə də sizin sualınıza cavab verə bilmərəm.

Sual: Rusiya prezidenti Boris Yeltsin Birləşmiş Ştatlara rəsmi səfərindən sonra bildirmişdir ki, onlar BMT-nin himayəsi altında regiona göndəriləcək qüvvələrin sırf Rusiya hərbçilərindən ibarət olacağı barədə razılığa gəlmişlər. Siz isə ATƏM-in beynəlxalq sülhyaratma qüvvələri barədə danışırsınız və deyirsiniz ki, bu qüvvələrin formalaşdırılmasında ATƏM-ə hər cür kömək göstərməyə hazırsınız. Necə bilirsiniz, bu məsələdə Rusiyanın mövqeyi ilə BMT-nin mövqeyi arasında ziddiyyət yaranmırmı? Əgər Rusiya regiona beynəlxalq qüvvələrin göndərilməsinə etiraz edərsə, bu məsələni necə həll edəcəksiniz?

Butros Butros-Qali: Bu məsələnin həllinin üç variantı mövcuddur. Birincisi, tamamilə BMT-nin qoşunlarından ibarət qüvvələrin bu regiona göndərilməsi. Əgər belə olarsa, bu qüvvələr bilavasitə BMT-nin təyin etdiyi komandanın nəzarəti altında olacaqdır. İkinci mümkün variant regiona MDB qoşunlarının göndərilməsidir. Üçüncüsü Gürcüstanda tətbiq edilən variantdır, yəni MDB qoşunlarının və BMT müşahidəçilərinin birgə səyləri. Bu məsələyə bir sıra başqa yönümlərdən də yanaşmaq mümkündür. Lakin bir daha qeyd etmək istərdim ki, bunlar bilavasitə BMT Təhlükəsizlik Şurasının səlahiyyətinə daxildir və o, indiyədək bu barədə heç bir qərar qəbul etməyib.

Sual: Cənab Butros Butros-Qali, siz Rusiya Federasiyasının Ermənistan-Azərbaycan münaqişəsinə münasibəti barədə nə fikirdəsiniz?

Butros Butros-Qali: Mənə belə gəlir ki, Rusiya Federasiyası BMT Təhlükəsizlik Şurasının 822, 853 nömrəli və digər qətnamələrinin qəbul olunmasını bəyənmiş və bunlara səs vermişdir. Bu dediklərim BMT səviyyəsindədir. ATƏM səviyyəsinə gəldikdə isə, Rusiya Federasiyası ilə ATƏM və onun Minsk qrupu arasında çox yaxşı əməkdaşlıq mövcuddur. Bundan əlavə, Rusiya Federasiyası Ermənistan ilə Azərbaycan arasında münaqişəyə sülh yolu ilə son qoyulması üçün öz tərəfindən bir sıra təşəbbüslər də göstərmişdir. Biz regionda sülhün və təhlükəsizliyin bərqərar olması, bunlardan ötrü mövcud olan təhlükənin aradan qaldırılması üçün Rusiya Federasiyasının istər Birləşmiş Millətlər Təşkilatı, ATƏM çərçivəsində, istərsə də ikitərəfli münasibətlər çərçivəsində göstərdiyi təşəbbüsləri alqışlayırıq.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin BMT-nin Baş katibi Butros Butros-Qalinin şərəfinə verilən ziyafətdə çıxışı - Gülüstan sarayı, 30 oktyabr 1994-cü il

Hörmətli xanımlar və cənablar!

İkinci gündür ki, Birləşmiş Millətlər Təşkilatının Baş katibi hörmətli cənab Butros Butros-Qali Azərbaycan Respublikasında, qədim Azərbaycan torpağındadır. Bu gün cənab Butros Butros-Qali ilə bizim çox əhəmiyyətli, səmərəli söhbətlərimiz olubdur. Nəticələrinə görə mən deyə bilərəm ki, Birləşmiş Millətlər Təşkilatının Baş katibinin ilk dəfə Azərbaycana səfəri çox uğurludur və gələcəkdə bizim üçün əhəmiyyətli nəticələr verəcəkdir.

Cənab Baş katib, mən sizi burada - Azərbaycanın gözəl bir guşəsi olan «Gülüstan» sarayında Azərbaycan xalqı adından, öz adımdan bir daha səmimi-qəlbdən salamlayıram. Sizin Azərbaycana səfəriniz, Birləşmiş Millətlər Təşkilatının 49 illik tarixində ilk dəfə bu beynəlxalq təşkilatın Baş katibinin Azərbaycana ilk səfəri Azərbaycan Respublikasının həyatında böyük bir hadisədir. Mən bu gün sizinlə söhbətlərimdə də dedim və bir daha təkrar edirəm ki, Azərbaycan ictimaiyyəti sizin səfərinizə çox böyük maraq göstərir və Azərbaycan vətəndaşları sizin bu səfərinizə böyük ümidlərlə baxırlar. Bugünkü danışıqlarımız mənə bunu deməyə əsas verir ki, bu ümidlər öz nəticəsini verəcəkdir və siz bizim respublika ilə, xalqımızla yaxından tanış olandan sonra, Azərbaycanın dərdlərini duyub hiss edəndən, görəndən sonra, Azərbaycanın məsələləri ilə daha yaxından məşğul olacaqsınız.

Hörmətli cənab Butros Butros-Qali, sizi bütün dünyada böyük bir siyasət adamı və böyük bir diplomat, eyni zamanda böyük bir alim kimi tanıyırlar. Azərbaycan ictimaiyyətinə yaxşı məlumdur ki, siz həyat və fəaliyyətiniz dövründə, həm elmi işlə məşğul olarkən, həm də böyük diplomatik vəzifələr həyata keçirərkən, Misir Ərəb Respublikasının rəhbərlərindən biri olduğunuz zaman çox böyük işlər görmüsünüz və gördüyünüz işlərə görə də böyük hörmət qazanmısınız. Birləşmiş Millətlər Təşkilatının Baş katibi vəzifəsində sizin fəaliyyətiniz bütün dünyaya məlumdur və sizin bu fəaliyyətinizə Azərbaycanda da böyük hörmət və ehtiram var.

Birləşmiş Millətlər Təşkilatının əsas vəzifələrindən biri bütün dünya ölkələrinin, dünya millətlərinin arasında sülh və əmin-amanlıq yaratmaq və dünya ölkələrinin, dünya dövlətlərinin inkişaf etməsinə kömək etməkdən ibarətdir. Üç il bundan öncə müstəqillik qazanmış Azərbaycan xalqının, müstəqil Azərbaycan dövlətinin bu baxımdan BMT-nin fəaliyyətinə çox böyük ehtiyacı var. Bizim arzumuz budur ki, dünyanın hər bir yerində sülh olsun, əmin-amanlıq olsun. Ancaq bizim regionda, Azərbaycanın ərazisində sülh, əmin-amanlıq olması həm bizim xalq üçün, həm də bütün dünya ictimaiyyəti üçün ən zəruri bir vəzifədir. Altı il müharibə şəraitində yaşayan, böyük itkilər vermiş, torpaqlarının bir qismini itirmiş Azərbaycan xalqı sülhün bu gün bizim üçün nə qədər lazım olmasını hamıdan çox hiss edir və bilir. Azərbaycanda hər bir vətəndaş sülh və əmin-amanlıq arzusu ilə yaşayır, ərazi bütövlüyümüzün bərpa olunması arzusu ilə yaşayır, işğal edilmiş torpaqlarımızın geri qaytarılması arzusu ilə yaşayır, insanların firavan yaşaması arzusu ilə yaşayır. Bütün bu arzuların yerinə yetirilməsinə nail olmaq üçün xalqımız Birləşmiş Millətlər Təşkilatına böyük ümidlər bəsləyir. Mən şübhə etmirəm ki, siz - dünyada çox təcrübəli bir insan, bir alicənab insan kimi, tutduğunuz vəzifədə əlinizdə olan imkanlardan istifadə edib, Azərbaycanın bu ağır vəziyyətdən çıxmasına bundan sonra daha güclü fəaliyyətlə yardım edəcəksiniz.

Azərbaycan xalqı sizi əziz qonaq kimi, hörmətli bir dost kim qəbul edibdir və bu gün sizin şərəfinizə bu salonda toplaşanların hamısı bu hissiyyatla buraya gəlibdir. Bu hissiyyatlarla mən sizi bir daha salamlayıram, sizə öz hörmət və ehtiramımı bildirirəm və badələri Birləşmiş Millətlər Təşkilatının Baş katibi, dünya miqyasında tanınmış ictimai-siyasi xadim, böyük alim, Azərbaycan xalqının dostu olan cənab Butros Butros-Qalinin şərəfinə qaldırmağı rica edirəm.

Azərbaycan Respublikası Milli Məclisinin BMT-nin Baş katibi Butros Butros-Qalinin Azərbaycan səfərinə həsr olunmuş təntənəli iclasında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışı - 31 oktyabr 1994-cü il

Möhtərəm Baş katib, cənab doktor Butros Butros-Qali, hörmətli Məclis üzvləri, mətbuat nümayəndələri!

Birləşmiş Millətlər Təşkilatının Baş katibi cənab Butros Butros-Qali Azərbaycan Respublikasında, Azərbaycan torpağında rəsmi səfərdədir. Cənab Butros Butros-Qalinin respublikamıza rəsmi səfəri, buradakı görüşləri, bizimlə apardığı geniş söhbətlər - bütün bunlar BMT Baş katibinin, bu nüfuzlu beynəlxalq təşkilatın, şəxsən cənab Butros Butros-Qalinin müstəqil Azərbaycan Respublikasına, Azərbaycan xalqına göstərdiyi qayğının, hörmətin və mərhəmətin nümayişidir.

İndi Azərbaycan parlamentində, respublika ictimaiyyətinin nümayəndələri qarşısında cənab Butros Butros-Qali çox məzmunlu, dəyərli nitq söylədi, Birləşmiş Millətlər Təşkilatının fəaliyyəti barəsində məlumatlar verdi, həm də bu beynəlxalq təşkilatın Azərbaycan Respublikasının müstəqilliyinə, respublikamızın müstəqil dövlət kimi Dünya Birliyində yerinə əhəmiyyət verdiyini bildirdi.

Hörmətli cənab Butros Butros-Qali, sizin Azərbaycana səfərinizə görə, burada apardığınız çox səmərəli işə görə, bu gün burada söylədiyiniz nitqə və Azərbaycan xalqına göstərdiyiniz diqqətə görə sizə Azərbaycan Respublikası adından, şəxsən öz adımdan dərin minnətdarlığımı və təşəkkürümü bildirirəm.

Cənab doktor Butros Butros-Qali BMT-nin 49 illik fəaliyyətindən danışdı və bu təşkilatın yarandığı dövrdən indiyə qədər dünyada sülhün, təhlükəsizliyin, əmin-amanlığın təmin olunması üçün apardığı işlərdən, əldə etdiyi nailiyyətlərdən danışdı.

Azərbaycan xalqı, müstəqil Azərbaycan Respublikası BMT-nin fəaliyyətinə yüksək qiymət verir, cənab Butros Butros-Qalinin bu gün buradakı nitqini çox məmnuniyyətlə qəbul edir və həmin məlumatlardan bir daha dərk edir ki, Birləşmiş Millətlər Təşkilatı 49 illik fəaliyyəti dövründə böyük işlər görübdür, dünyanın indiki şəraitdə olması üçün təminatlar yaradıbdır. Birləşmiş Millətlər Təşkilatı dünya tarixində bu təşkilatın yarandığı dövrə qədər mövcud olmuş bütün beynəlxalq təşkilatların hamısından üstün nailiyyətlər əldə edib və yaşadığı dövrdə daha da səmərəli bir təşkilata çevrilibdir, fəaliyyət göstərdiyi 49 ildə bütün dünya ölkələri üçün, dünya xalqları üçün nə qədər gərəkli olduğunu sübut edibdir. Buna görə də bütün dünyada hörmət və ehtiram qazanıbdır. Yarandığı dövrdən indiyə qədər, «soyuq müharibə» dövründə də, onun dəf olunması yolunda da və «soyuq müharibə»dən sonrakı dövrdə də dünya qarşısında, dünya ölkələri və xalqları qarşısında böyük işlər görübdür.

«Soyuq müharibə» dövründən sonrakı vaxtda BMT qarşısında yeni, çox mürəkkəb və mühüm vəzifələr durmuşdur. BMT-nin tərkibi get-gedə artmış, ayrı-ayrı xalqların və ayrı-ayrı ölkələrin müstəqillik əldə etməsində bu təşkilatın böyük fəaliyyəti olmuşdur. Əgər yaranan vaxtda bu təşkilat 50 dövlətdən ibarət idisə, indi BMT 180-dən çox dövləti, ölkəni birləşdirir. Son illərdə dövlətlər arasındakı münaqişələrin dayandırılmasında, millətlər arasındakı ziddiyyətlərin, münaqişələrin aradan götürülməsi sahəsində BMT çox böyük işlər görmüşdür.

Azərbaycan xalqı, Azərbaycan Respublikası BMT-nin fəaliyyətinə, xüsusən də onun son dövrlərdə əldə etdiyi nailiyyətlərə yüksək qiymət verir və bu təşkilatın Baş katibi cənab Butros Butros-Qalinin fəaliyyətini yüksək qiymətləndirir. Üç il bundan əvvəl Azərbaycan Respublikası dövlət müstəqilliyini əldə edib, 1992-ci ilin yanvar ayında Birləşmiş Millətlər Təşkilatının üzvlüyünə daxil olub və bu müddətdə respublikamız, xalqımız daim BMT-nin qayğısını və müsbət münasibətini hiss edibdir. Bunlara görə mən fürsətdən istifadə edib, Birləşmiş Millətlər Təşkilatına və onun Baş katibinə Azərbaycan xalqı adından Azərbaycan Respublikası adından təşəkkürümü bildirirəm.

Azərbaycan xalqının azadlığa nail olması, respublikamızın dövlət müstəqilliyi əldə etməsi bizim üçün tarixi hadisədir. Azərbaycan Respublikasının BMT üzvlüyünə qəbul olunması tarixi hadisədir. Mən bu gün bir daha bəyan etmək istəyirəm ki, Azərbaycan xalqı heç vaxt öz müstəqilliyini əldən verməyəcəkdir. Respublikamız günü-gündən dövlət müstəqilliyini möhkəmləndirəcək və inkişaf etdirəcəkdir. Biz dəfələrlə bildirmişik və bu gün bir daha, BMT Baş katibinin hüzurunda bildirmək, bəyan etmək istəyirəm ki, Azərbaycan Respublikası daxili və xarici siyasətində demokratik prinsipləri əsas götürmüşdür, bu cür də fəaliyyət göstərəcək və Dünya Birliyində öz layiqli yerini tutacaqdır. Biz respublikamızda demokratik dövlət qurmaq yolu ilə gedirik. Azərbaycanda demokratik, hüquqi, sivilizasiyalı cəmiyyət qurmaq yolu ilə gedirik. Azərbaycanda insan, söz, vicdan azadlığını, siyasi plüralizmi bərqərar etmək yolu ilə gedirik. Azərbaycan Respublikasının iqtisadiyyatını sərbəst bazar iqtisadiyyatına yönəltməyə, inkişaf etdirməyə çalışırıq. Mən əminəm ki, bizim tutduğumuz strateji yol Azərbaycan xalqının mənafeyinə uyğundur və xalqımızı, respublikamızı Dünya Birliyinə, dünya iqtisadiyyatına bağlayan yoldur.

Altı ildir ki, Azərbaycan müharibə şəraitində yaşayır. Ermənistan Respublikası tərəfindən hərbi təcavüzə məruz qalıbdır, böyük itkilər veribdir, böyük çətinliklərlə qarşılaşıbdır. Bu dövrdə respublikamızın daxilində də ictimai-siyasi vəziyyət sabit olmamışdır. Xarici və daxili qüvvələr ölkəmizdə daxili sabitliyi pozmağa, aranı qarışdırmağa çalışmışlar. Bu qüvvələr Azərbaycanın müstəqilliyini pozmağa, ölkəmizi parçalamağa çalışan qüvvələrdir. Ancaq son hadisələr, xüsusən oktyabrın 4-də dövlət çevrilişinə cəhd göstərən qüvvələrin darmadağın olması və Azərbaycan xalqının milli həmrəyliyi, vətəndaş həmrəyliyi, öz dövlətçiliyini qorumaq əzmi bir daha sübut etdi ki, Azərbaycan xalqının müstəqilliyini heç kim poza bilməz, xalqımız öz müstəqilliyini, öz dövlətçiliyini qorumağa qadirdir. Bundan sonra da xalqımız tutduğu yolla daha böyük əzmlə gedəcəkdir.

Oktyabrın əvvəlində baş vermiş hadisələr zamanı, Azərbaycanda dövlət çevrilişinə cəhd göstərən qüvvələrin hərəkətləri ilə əlaqədar yaranmış gərgin vəziyyət dövründə Azərbaycan xalqının müdrikliyi müşahidə olundu, eyni zamanda bütün dünyaya nümayiş etdirildi. Dünyanın böyük dövlətləri, habelə BMT də Azərbaycan Respublikasının dövlətçiliyinin qorunmasını dəstəklədilər və Azərbaycanda qanuni dövlətin qorunub saxlanmasına tərəfdar çıxdılar.

Azərbaycan xalqı öz tarixinin çətin bir dövrünü yaşayır. Respublikamızın qarşısında böyük bir problemlər var. Ölkəmiz dərin iqtisadi-sosial böhran içindədir. Azərbaycan Respublikası müharibə vəziyyətində yaşayır. Ermənistan tərəfindən təcavüz nəticəsində respublikamızın torpaqlarının 20 faizi işğal olunubdur. İşğal olunmuş torpaqlardan bir milyondan çox azərbaycanlı qaçqın düşmüşdür.

Biz əminik ki, Azərbaycan xalqı, Azərbaycan dövləti bütün bu çətinliklərin öhdəsindən gələcək, biz bu çətinlikləri ötüb keçəcəyik və müstəqil respublikamız öz fəaliyyətini gələcəkdə daha sürətlə davam etdirəcəkdir.

Bizim həyatımızda ən ağır, ən çətin məsələ Azərbaycanı hərbi vəziyyətdən, müharibədən çıxarmaqdan, respublikamıza qarşı yönəldilmiş təcavüzün qarşısını almaqdan ibarətdir. Bu məsələlər BMT-nin Baş katibi cənab Butros Butros-Qali ilə bu günlərdə çox ətraflı müzakirə olundu. Mən bu müzakirələrdən razıyam və ümidvar olduğumu bildirmək istəyirəm ki, bu görüşlər və müzakirələrdən sonra Azərbaycan Respublikasının Ermənistan təcavüzündən xilas olması, Azərbaycanın sülh və əmin-amanlıq, təhlükəsizlik şəraitində yaşaması, ölkəmizin ərazi bütövlüyünün təmin olunması üçün müəyyən addımlar atılacaqdır. Bu məsələlərin həll edilməsi üçün Birləşmiş Millətlər Təşkilatı, onun Təhlükəsizlik Şurası və şəxsən Baş katib cənab Butros Butros-Qali çox işlər görürlər.

Bildiyiniz kimi, Ermənistanın Azərbaycana təcavüzü, Azərbaycan torpaqlarının işğalı ilə əlaqədar BMT Təhlükəsizlik Şurası dörd qətnamə qəbul edibdir. Bu qətnamələrdə işğalçı silahlı qüvvələrin qeyd-şərtsiz Azərbaycan torpağından çıxması tələb olunur, Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı prinsipi bir daha təsdiq edilir. Təəssüf ki, BMT Təhlükəsizlik Şurasının bu qətnamələri və təşkilatın Baş katibi cənab Butros Butros-Qalinin

verdiyi bir neçə bəyanat da Ermənistan tərəfindən yerinə yetirilməyibdir.

Ancaq bunlara baxmayaraq, BMT və xüsusən cənab Butros Butros-Qali bu istiqamətdə öz işlərini davam etdirirlər. Mən cənab Butros Butros-Qali ilə sentyabrın əvvəlində Qahirədəki, sonra isə Nyu-Yorkdakı görüşlərimdə və onun Azərbaycana rəsmi səfəri zamanı Bakıda keçirdiyimiz görüşlərdə də tam əmin oldum ki, BMT və onun Baş katibi cənab Butros Butros-Qali respublikamıza Ermənistan tərəfindən edilən hərbi təcavüzün aradan qaldırılması ilə əlaqədar və bölgədə sülhün, təhlükəsizliyin bərqərar olunması yolunda öz fəaliyyətlərini göstərəcəklər.

Aparılan danışıqlarda cənab Butros-Qali dəfələrlə bəyan edibdir ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrində əks olunmuş prinsiplər dəyişməzdir və bu beynəlxalq təşkilat həmin prinsiplər əsasında bundan sonra da fəaliyyətini davam etdirəcəkdir. Bu prinsiplər Azərbaycan Respublikasının ərazi bütövlüyünün, sərhədlərinin toxunulmazlığı, Azərbaycan Respublikasının suverenliyinin saxlanılmasının təmin olunması, bir dövlətin başqa bir dövlətin sərhədini pozmasına, ərazisini zorla ələ keçirməsinə yol verilməməsi, Azərbaycan torpaqlarını işğal etmiş erməni silahlı birləşmələrinin qeyd-şərtsiz bu torpaqlardan çıxarılmasıdır.

Cənab Butros-Qali dəfələrlə bəyan etmişdir ki, bu prinsiplər dəyişməzdir və həmin prinsiplər əsasında BMT bundan sonra da fəaliyyətini davam etdirəcəkdir.

Azərbaycan daim sülhsevər siyasət aparmışdır. Bu siyasəti axıra çatdırmaq, müharibəyə son qoymaq üçün, bölgədə sülh və əmin-amanlıq, təhlükəsizlik şəraiti yaratmaq üçün biz bütün addımları atmışıq və bundan sonra da atacağıq. Bunun üçün biz bütün vasitələrdən istifadə edirik. Beynəlxalq təşkilatların - BMT-nin, ATƏM təşkilatının imkanlarından, ATƏM çərçivəsindəki Minsk qrupunun fəaliyyətindən, ayrı-ayrı ölkələrin, o cümlədən ABŞ-ın, Rusiyanın, Türkiyənin təşəbbüslərindən və xüsusən son zamanlar Rusiyanın vasitəçilik səylərindən səmərəli istifadə edirik və bundan sonra da istifadə etməyə çalışacağıq. Bunların nəticəsində Ermənistanla Azərbaycan arasında müharibə dayandırılıb, yəni atəşkəs rejimi yaranıbdır. Biz bu atəşkəs rejiminin saxlanması üçün fəaliyyət göstəririk və verdiyimiz bəyanatlara sadiq qalacaq, atəşkəs rejiminin davam etdirilməsinə çalışacağıq. Eyni zamanda atəşkəs rejimi dövründə Böyük Sülh Müqaviləsinin əldə olunmasını zəruri hesab edirik və bu barədə bütün beynəlxalq təşkilatlara müraciət edirik. Müharibəyə son qoymaq üçün, etibarlı sülh yaratmaq üçün bizim şərtlərimiz çox sadədir. Erməni silahlı qüvvələri Azərbaycanın işğal olunmuş torpaqlarını qeyd-şərtsiz tərk etməli, Azərbaycan Respublikasının ərazi bütövlüyü təmin olunmalı, işğal edilən ərazilərdən qovulmuş azərbaycanlılar öz doğma ocaqlarına qaytarılmalıdır. Erməni silahlı qüvvələri bütün rayonlarımızdan, xüsusən də Laçın və Şuşadan çıxarılmalıdır. Bu məsələlər həll olunduqda Dağlıq Qarabağın statusu müzakirə oluna bilər və burada yaşayan erməni əhalisinin təhlükəsizlik məsələsi də müzakirə edilməlidir. Bütün bu məsələlərin hamısı birlikdə həll olunmalıdır. Əgər bu məsələlər birlikdə həll olunsa, biz bölgədə uzunmüddətli sülh əldə etmiş olarıq.

Bir daha qeyd edirəm ki, bizim əsas şərtimiz işğal olunmuş ərazilərdən Ermənistan silahlı qüvvələrinin qeyd-şərtsiz çıxarılması və bir milyondan artıq Azərbaycan vətəndaşının, qaçqının öz yaşayış yerlərinə qayıtmasıdır.

Ümidvar olduğumu bildirmək istəyirəm ki, BMT və onun Baş katibi cənab Butros Qali bizim burada apardığımız danışıqlar əsasında bu sahədə Azərbaycan Respublikasına əlindən gələn köməyi edəcəkdir.

Birləşmiş Millətlər Təşkilatının humanitar sahədə fəaliyyətinə mən yüksək qiymət verirəm və humanitar məsələlər üzrə BMT Ali Komissarlığının Azərbaycandakı fəaliyyətini qiymətləndirirəm. BMT-nin Azərbaycandakı nümayəndəliyinin də fəaliyyətini yüksək qiymətləndiririk.

Mən Baş katib Butros Qalidən bir daha xahiş edirəm ki, Azərbaycanın ağır sosial-iqtisadi vəziyyətində - bunu Baş katibin özü qaçqınlarla görüşündə də gördü. O, özü bir daha yəqin etdi ki, qaçqınlar necə ağır vəziyyətdə yaşayır - Azərbaycana humanitar yardım edilməsi sahəsində tədbirlər görsün.

Beləliklə, mən qısaca olaraq respublikamızın bugünkü vəziyyəti haqqında hörmətli qonağımız cənab Butros Qaliyə bir daha məlumat verərək əmin olduğumu bildirmək istəyirəm ki, Azərbaycan

Respublikasının müstəqilliyinin möhkəmlənməsi, respublikamızın ərazi bütövlüyünün təmin olunması, ölkəmizin müharibə şəraitindən çıxarılması, əmin-amanlığın yaranması üçün, ümumiyyətlə, bölgədə sülhün bərqərar olması üçün Birləşmiş Millətlər Təşkilatı və şəxsən onun Baş katibi cənab Butros Qali bundan sonra da öz köməyini əsirgəməyəcəkdir.

Azərbaycan Respublikası vətəndaşları adından BMT-nin bütün orqanlarına və bu təşkilatın Baş katibi cənab Butros Qaliyə bir daha dərin hörmət və ehtiramımı bildirirəm. Cənab Butros Qali dünyada tanınmış məşhur ictimai-siyasi xadim, böyük alimdir, BMT-nin Baş katibi vəzifəsində dünyada böyük hörmət qazanıbdır. Onun respublikamıza səfərini yüksək qiymətləndirirəm və əmin olduğumuzu bildirmək istəyirəm ki, Birləşmiş Millətlər Təşkilatının Baş katibi vəzifəsində cənab Butros Qali bundan sonra da uzun illər səmərəli fəaliyyət göstərəcəkdir, dünyada sülhün, əmin-amanlığın bərqərar olması üçün öz səylərini göstərəcək və Azərbaycan xalqının dostu kimi Azərbaycan Respublikasının ərazi bütövlüyü və müstəqilliyinin təmin olunması üçün əlindən gələni əsirgəməyəcəkdir.

Cənab Butros Qali!

Sizə böyük vəzifənizdə və dünya üçün əhəmiyyətli fəaliyyətinizdə uğurlar diləyirəm, şəxsi həyatınızda səadət və xoşbəxtlik arzulayıram.

Siz bizim ölkəmizə xoş gəlmisiniz. Sizi dostluq və səmimiyyət arzuları ilə yola salırıq. Sağ olun!

BMT-nin 50 illik yubileyi ilə əlaqədar BMT Baş Məclisinin xüsusi təntənəli iclasında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışı - Nyu-York, 22 oktyabr 1995-ci il

Hörmətli sədr!

Hörmətli dövlət və hökumət başçıları!

Hörmətli baş katib!

Xanımlar və cənablar!

Bütün dünyada sülhün, təhlükəsizliyin və sabitliyin möhkəmlənməsinə çox böyük töhfələr vermiş Birləşmiş Millətlər Təşkilatının əlli illiyi münasibətilə mən sizi Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Birləşmiş Millətlər Təşkilatının yaradılmasından keçən yarım əsr ərzində böyük müsbət dəyişikliklər baş vermişdir. Bu da dünyanın əsaslı şəkildə yeniləşməsini və BMT Nizamnaməsinin prinsiplərinin əməli surətdə həyata keçirilməsini sübut edir.

Ən başlıca nəticə budur ki, «soyuq müharibə» illərindəki kəskin qarşıdurmaya baxmayaraq, yeni dünya müharibəsinin meydana çıxmasına yol verilməmişdir. Müstəmləkəçilik, aparteid, irqi ayrı-seçkilik keçmişdə qalmışdır. Xalqlar öz talelərini həll etmək imkanı qazanmışlar, milli azadlıq və dövlət müstəqilliyi əldə etmişlər.

Vaxtilə Sovetlər İttifaqının tərkibində olmuş respublikaların indi dövlət müstəqilliyi və suverenlik qazanmaları tarixi hadisədir.

Ümumbəşəri dəyərlər dünyada geniş yayılır və bərqərar olur. Bunların arasında azadlıq, demokratiya və insan haqları ideyaları xüsusi yer tutur. İctimai-siyasi və dövlət quruculuğunda, iqtisadiyyatda, həyatın bütün sahələrində demokratik dəyişikliklər həyata keçirmək zərurəti çox ölkələr üçün ən vacib amil olmuşdur.

BMT-nin bütün üzvləri, xüsusən iqtisadi cəhətdən inkişaf etmiş və demokratik ənənələri olan iri dövlətlər bu nəticələrin əldə olunması üçün öz töhfələrini vermişlər. Lakin burada xüsusi rol Birləşmiş Millətlər Təşkilatına məxsusdur. O, 50 il ərzində bəşəriyyətin tarixində ən nüfuzlu və ən səlahiyyətli beynəlxalq təşkilata çevrilmişdir.

Ümidvaram ki, bu təşkilatın işi üçün meydana çıxmış maliyyə çətinlikləri onun gələcək uğurlu fəaliyyəti naminə aradan qaldırılacaqdır.

Bütün bunlar bizi sevindirir və bizdə iftixar hissi doğurur. Ancaq dünya hələ də tam təhlükəsiz, mükəmməl və ideal vəziyyətdə deyildir. Elə problemlər var ki, bunlar köklü şəkildə həll olunmalıdır. Dövlətlər arasındakı münasibətlərdə beynəlxalq hüquq normalarının pozulması, beynəlxalq terrorizm, kütləvi qırğın silahlarının yayılması, aclıq və səfalətin aradan qaldırılması, ekoloji fəlakətlərin qarşısının alınması məhz belə problemlərdir. Dünyanın bir çox regionlarında qanlı müharibələrə, milyonlarla insanların saysız-hesabsız əzab-əziyyətlərinə səbəb olan təcavüzkar millətçilik və separatizm halları sülh üçün böyük təhlükədir.

Ermənistan Respublikası tərəfindən Azərbaycana qarşı təcavüzkarlıq yeddi ildən çoxdur ki, davam etməkdədir. Bu təcavüz ölkəmizin Dağlıq Qarabağ bölgəsini qəsb etmək məqsədi daşıyır. Erməni silahlı qüvvələri Azərbaycan ərazisinin iyirmi faizindən çox hissəsini işğal edib, həmin ərazilərdən zorla qovulmuş bir milyondan çox vətəndaşımız qaçqına çevrilib, hazırda çadır şəhərciklərində ağır, dözülməz vəziyyətdə yaşayır. BMT Təhlükəsizlik Şurası Ermənistan silahlı qüvvələrinin işğal etdikləri Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul edib. Ancaq həmin qətnamələr təcavüzkar tərəfindən yerinə yetirilmir. Buna görə də ATƏT-in Minsk qrupu çərçivəsində münaqişənin sülh yolu ilə nizamlanması üçün aparılan proses hələlik istənilən nəticələri vermir.

Hörmətli dövlət və hökumət başçıları, mən bu gün sizə, Birləşmiş Millətlər Təşkilatına, ATƏT-ə müraciət edərək, Ermənistan - Azərbaycan münaqişəsinin sülh yolu ilə nizamlanmasına, Azərbaycanın ərazi bütövlüyünün, onun beynəlxalq miqyasda tanınmış sərhədlərinin

toxunulmazlığının bərpa olunmasına təsirli yardım göstərməyinizi xahiş edirəm.

Azərbaycan xalqının iradəsini ifadə edərək bəyan edirəm ki, biz yer kürəsinin hər hansı bir nöqtəsində və hər hansı bir formada təcavüzkarlığı pisləyirik. Biz sülh istəyirik. Biz bütün dünyada sülh istəyirik, bizim regionda sülh istəyirik, bütün qonşu dövlətlərlə sülh və mehriban münasibətlər istəyirik. Bu ümidlərlə, bu inamla mən bu şərəfli kürsünü tərk edirəm.

Diqqətinizə görə sağ olun!

BMT-nin Yaxın və Orta Şərqdə narkotik vasitələrin qanunsuz dövriyyəsinə nəzarət və bununla bağlı problemlər üzrə yardımçı komissiyasının 32-ci sessiyasında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi - «Gülüstan» Sarayı, 17 fevral 1997-ci il

Hörmətli xanımlar və cənablar, hörmətli qonaqlar!

Mən sizi - Birləşmiş Millətlər Təşkilatının narkotiklərə nəzarət proqramının çərçivəsində Yaxın və Orta Şərq ölkələri toplantısının - 32-ci sessiyasının iştirakçılarını salamlayır və bu mühüm işinizdə sizə uğurlar arzulayıram.

Narkotiklərə nəzarəti, narkomaniya ilə narkobiznes ilə mübarizə əsrimizin son illərində dünyada ümumbəşəri bir problem olmuşdur. Bu mübarizə hər bir ölkənin, xalqın, millətin fiziki və şüuri sağlamlığı uğrunda aparılan mübarizədir. Bunu nəzərə alaraq, Azərbaycan Respublikasında narkotiklərə nəzarət, narkomaniya və narkobizneslə mübarizə məsələsi son illər ümummilli proqram çərçivəsində aparılır və biz buna xüsusi fikir veririk. Bu baxımdan biz həmin problemlərə həsr olunmuş beynəlxalq toplantının, sessiyanın Azərbaycanın paytaxtı Bakıda keçirilməsini qiymətləndirir, buna xüsusi əhəmiyyət veririk. Hesab edirik ki, bu sessiyanın keçirilməsi Yaxın və Orta Şərq ölkələrində bu problemlə mübarizə aparılması işinə kömək edəcəkdir.

Bu problem hər bir ölkəni, hər bir dövləti narahat etdiyi kimi, eyni zamanda, ölkələrarası, dövlətlərarası problemə çevrilmişdir. Buna görə də hesab edirəm ki, sessiya çərçivəsində aparacağınız müzakirələr, irəli sürülən fikirlər və qəbul etdiyiniz qərarlar hər bir ölkədə, xüsusən Yaxın və Orta Şərqdə, dünyada bu problemin həll olunması, narkomaniya və narkobiznesə qarşı mübarizənin gücləndirilməsi üçün faydalı olacaqdır.

Bu problem bir neçə cəhətdən ibarətdir. Biz ölkəmizdə, Azərbaycanda bu problemin bütün istiqamətləri sahəsində lazımi tədbirlər görürük. Biz Azərbaycanda belə hesab edirik ki, birinci növbədə hər bir ölkədə narkomaniyanın qarşısının alınması üçün çox ciddi təşkilati, profilaktik tədbirlər görülməli, lazımi işi aparılmalı, səhiyyə, təbliğat orqanları narkomaniyanın insan üçün, bəşəriyyət, cəmiyyət üçün nə qədər təhlükəli, faciəli olduğunu hərtərəfli açıb göstərməli və insanları bu xəstəliyə qurşanmaqdan çəkindirməlidirlər.

Narkomaniya xəstəliyi artır. Bu problemə diqqətin güclənməsinə, görülən tədbirlərə baxmayaraq, bu xəstəlik geniş yayılır. Dünyada statistikanın göstəricilərinə görə bu, belədir. O cümlədən Azərbaycanda da son illər bu xəstəliyin artmasının, yayılmasının şahidiyik. Keçmiş zamanlarda bizim ölkələrdə, o cümlədən Azərbaycanda bu xəstəliyin hansı səviyyədə, nə qədər olması müəyyən dərəcədə gizli saxlanırdı. Ancaq indi biz bu cür münasibətlərdən imtina etmişik və hesab edirik ki, hər bir mənfi hal, təhlükəli xəstəlik haqqında həqiqəti olduğu kimi bilmək və onu ictimaiyyətə olduğu kimi çatdırmaq lazımdır. Bu cür münasibətlə, bu yolla narkomaniya kimi təhlükəli xəstəliyin qarşısını almaq tədbirlərini səmərəli həyata keçirmək olar. Ona görə biz ölkəmizin bütün orqanlarını problemə bu cür yanaşmaqla narkomaniyaya qarşı mübarizəyə səfərbər etmişik, ümummilli proqram tərtib etmişik. Onun həyata keçirilməsi üçün lazımi dövlət orqanlarına, ictimai təşkilatlara göstərişlər verilmiş, onların üzərinə vəzifələr qoyulmuşdur. Bu gün Azərbaycanın bütün dövlət orqanlarını, ictimaiyyətini narkomaniya xəstəliyinə qarşı ciddi mübarizə aparmağa bir daha dəvət edirəm. Güman edirəm ki, bu problemin həlli, narkomaniya ilə mübarizə sahəsində, narkomaniya xəstəliyinin yayılmasına qarşı tədbirlərin gücləndirilməsi sizin bugünkü sessiyanın işində də özünə layiq yer tutacaq və qəbul edəcəyiniz sənədlərdə öz əksini tapacaqdır.

Narkomaniya xəstəliyinin yayılması səbəbləri aydındır. Narkotik maddələrin gizli, qeyri-qanuni istehsal olunması, onların qanunsuz dövriyyəsi, satılması, istehsal edilən ölkələrdən başqa ölkələrə gizli surətdə, qeyri-qanuni yollarla daşınması kimi hallar narkotik maddələrin, narkomaniya xəstəliyinin yayılmasına səbəb olan əsas amillərdir.

Ona görə də hər bir ölkədə narkotik maddələrin istehsalı, onların qeyri-qanuni istifadəsi ilə ciddi

mübarizə aparılmalıdır. Məlumdur ki, narkotik maddələrin müəyyən miqdarda istehsalı yalnız və yalnız tibb, müalicə məqsədləri ilə bağlıdır. Bu hallardan əlavə, başqa məqsədlər üçün narkotik maddələrin istehsalı tamamilə qadağan olunmalı, qarşısı ciddi alınmalı və qeyri-qanuni istehsalla məşğul olan şəxslər, qruplar, təşkilatlar ciddi məsuliyyətə cəlb edilməlidirlər. Biz respublikamızda məsələni belə qoymuşuq. Mən məsələnin belə kəskin qoyulmasını bu gün beynəlxalq toplantı qarşısında bir daha bəyan edirəm və Azərbaycan Respublikasının bütün təşkilatlarından həmin vəzifələrin yerinə yetirilməsini tələb edirəm.

Eyni zamanda qeyd etmək istəyirəm ki, bizim ölkəmizdə narkotik maddələrin qeyri-qanuni istehsalı cüzi xarakter daşıyır, yayılmayıbdır və çox məmnunam ki, bu xəstəlik, yəni qeyri-qanuni istehsal xəstəliyi bəzi başqa respublikalarla müqayisədə respublikamızda çox az yer tutur. Ancaq nə qədər az yer tutmuş olsa da, bu cür halların kökü tamamilə kəsilməlidir.

Eyni zamanda məlumdur ki, narkotik maddələrin qeyri-qanuni dövriyyəsi, yəni bir ölkədən başqa ölkələrə daşınması, yayılması halları son illər geniş xarakter almışdır. Burada indicə gətirilən faktlar, məlumatlar bunu sübut edir. Əfqanıstanda bir ildə 2500 ton tiryək istehsal edilirsə, bu, çox təhlükəli haldır. Təkcə Əfqanıstan xalqı üçün yox, bütün başqa ölkələr üçün çox təhlükəli haldır və Əfqanıstan bizim bölgəyə - Yaxın və Orta Şərqə mənsub olduğuna, yaxın olduğuna görə bu və bu kimi faktlara çox ciddi münasibət göstərməliyik. Ancaq təkcə Əfqanıstan deyil, Yaxın və Orta Şərqin bir neçə ölkələrində narkotik maddələrin qeyri-qanuni istehsalı və gizli yollarla başqa ölkələrə daşınması, satılması böyük bir biznesə çevrilmişdir. Təəssüflər olsun ki, bu biznesə - narkobiznesə həm o ölkələrin müəyyən qrupları, dəstələri qoşulmuş, həm də başqa ölkələrin, yəni həmin narkotik maddələrin yayılması, satılması ilə məşğul olan ölkələrin qrupları, dəstələri qoşulmuşdur. Bu, həqiqətdir, bunu etiraf etməliyik və belə bir halla mübarizə aparmağı, hesab edirəm, sizin sessiya özünün əsas vəzifələrindən biri hesab etməlidir.

Azərbaycan öz coğrafi mövqeyinə görə Şərq ilə Qərb arasında, Şimalla Cənub arasında yerləşən bir ölkədir. Bizim ölkəmizdən bir çox yollar keçir, bir çox nəqliyyat vasitələri başqa ölkələri bizim ölkəmizlə bağlayır. Bunlar hamısı zərurətdən doğan hallardır və ölkəmizin, bizə qonşu olan ölkələrin bir-biri ilə sıx əlaqə saxlaması üçün çox lazımdır. Ancaq bu yolların, bu nəqliyyat vasitələrinin, imkanların narkotik maddələrin bir ölkədən başqa ölkəyə daşınması üçün və Azərbaycan ərazisinin bu məqsədlə istifadə edilməsinin yolverilməz olduğunu mən bu gün bir daha qətiyyətlə bildirirəm. Azərbaycan Respublikasının bütün müvafiq orqanlarından bir daha tələb edirəm ki, ölkəmizin ərazisindən narkotik maddələrin daşınması üçün tranzit yol kimi istifadə olunması hallarının qarşısını almaqdan ötrü əlavə tədbirlər görsünlər. Bu baxımdan Azərbaycanın Sərhəd Qoşunlarının, gömrük orqanlarının qarşısında çox məsuliyyətli vəzifələr durur. Onlar bunu birinci dərəcəli vəzifə kimi qəbul etməli və yerinə yetirməlidirlər. Azərbaycanın hüquq-mühafizə orqanları narkomaniya ilə və xüsusən narkobizneslə, o cümlədən narkotik maddələrin Azərbaycan ərazisindən daşınması halları ilə ciddi mübarizə aparmalı və onlar da bu vəzifələri özlərinin birinci dərəcəli vəzifəsi kimi qəbul etməlidirlər.

Narkomaniya və narkotik maddələrin qeyri-qanuni dövriyyəsi haqqında danışarkən, şübhəsiz ki, yalnız Yaxın və Orta Şərqdə olan ölkələr barədə yox, dediyim kimi, bunu bütün dünya üçün ümumbəşəri problem kimi başa düşmək lazımdır və biz bunu belə hesab edirik. Çünki Yaxın və Orta Şərqdən cürbəcür vasitələrlə daşınan narkotik maddələrin çox hissəsi başqa ölkələrə, Avropa ölkələrinə də gətirilir. Həmin ölkələrdə də bu mübarizəni gücləndirmək və bizim bölgənin ölkələri ilə Avropa ölkələri arasında bu barədə müştərək işlərin aparılması üçün tədbirlər görmək lazımdır.

Birləşmiş Millətlər Təşkilatının narkotiklərə nəzarət haqqında proqramı və BMT-nin bu sahədə apardığı iş, onun xüsusi orqanlarının fəaliyyəti təqdirəlayiqdir. Mən Azərbaycanın adından bir daha bildirmək istəyirəm ki, narkotik maddələrin qeyri-qanuni dövriyyəsi, qanunsuz istifadə olunması, narkobiznes bu gün üçün də, gələcək üçün də həqiqətən bəşəriyyətə təhlükə doğuran amillərdən biridir. Ümidvar olduğumu bildirmək istəyirəm ki, Birləşmiş Millətlər Təşkilatı özünün bu proqramının bundan sonra da geniş miqyasda həyata keçirilməsi üçün lazımi tədbirlər görəcək

və öz səylərini göstərəcəkdir.

Azərbaycan Respublikası bu proqramın həyata keçirilməsi sahəsində öz üzərinə düşən vəzifələri bundan sonra da layiqincə yerinə yetirəcək və bəşəriyyətin bu böyük təhlükədən - narkomaniya xəstəliyindən və narkobiznes kimi təhlükəli bir haldan xilas edilməsi üçün öz səylərini göstərəcəkdir.

Hörmətli qonaqlar! Siz buraya, Azərbaycana, Bakıya məhz bu gün müzakirəyə çıxarılmış məsələ ilə əlaqədar toplaşmısınız. Eyni zamanda, beynəlxalq xarakterli hər bir belə toplantı, görüş ölkələri bir-birinə daha da yaxınlaşdırır, ölkələr arasında əlaqələrin yaranmasına və inkişafına kömək edir. Belə görüşlər ölkələr, xalqlar, millətlər arasında dostluq, mehribanlıq əlaqələri yaradır, xalqların, ölkələrin bir-birini daha da anlaması üçün şərait yaradır. Ümidvar olduğumu bildirmək istəyirəm ki, hörmətli qonaqlar, siz bu imkandan istifadə edərək ölkələrimiz və xalqlarımız arasında olan əlaqələrin inkişaf etməsi və möhkəmlənməsi üçün də səylər göstərəcəksiniz, beləliklə, Yaxın və Orta Şərqdə, bütün dünyada sülhün, əmin-amanlığın qorunması, saxlanması, möhkəmlənməsi üçün öz töhfələrinizi verəcəksiniz.

Müstəqil dövlət kimi Azərbaycan gəncdir. Azərbaycanın dövlət müstəqilliyinin cəmi beş yaşı var. Eyni zamanda, Azərbaycan xalqının çoxəsrlik qədim və zəngin tarixi, böyük mədəniyyəti, özünəməxsus milli-mənəvi ənənələri var. Ümidvaram ki, siz bu günlərdə Azərbaycanda olduğunuz zaman xalqımızın həm tarixi keçmişi, həm də bu günü ilə yaxından tanış ola biləcəksiniz. Mən arzu edərdim ki, siz xalqımız, ölkəmiz, müstəqil dövlətimiz haqqında doğru-düzgün təəssüratlar əldə edəsiniz.

Azərbaycan Respublikası öz dövlət müstəqilliyini möhkəmləndirmək və inkişaf etdirmək yolu ilə gedir. Azərbaycan Respublikasında hüquqi, demokratik, sivilizasiyalı dövlət qurulur, respublikamızın həyatında böyük dəyişikliklər baş verir. Azərbaycan Respublikasının sosial-iqtisadi həyatı böyük dəyişikliklər prosesi keçirir. Azərbaycan sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı yolu ilə gedərək dünya iqtisadiyyatına daha da sıx bağlanmaq əzmindədir.

Bu proseslər Azərbaycan dövləti qarşısında, xalqımız qarşısında bir çox problemlər meydana çıxarır. Biz bu problemləri həll edirik və ümidvaram ki, onların hamısını müvəffəqiyyətlə həll edəcəyik.

Ancaq eyni zamanda Azərbaycan Respublikasının həyatında onun özündən asılı olmayaraq yaranmış çox ağır, çətin bir problem də var. O problem qonşu Ermənistanın Azərbaycana səkkiz il bundan öncə etdiyi hərbi təcavüzdür, bu hərbi təcavüz nəticəsində Azərbaycan ərazisinin 20 faizinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmasıdır, işğal edilmiş torpaqlardan bir milyondan artıq Azərbaycan vətəndaşının yerindən-yurdundan zorla çıxarılması, didərgin düşməsidir.

Bu təcavüz nəticəsində döyüşlər gedib, vuruşmalar olub, qan tökülüb, Azərbaycan xalqı qurbanlar, şəhidlər veribdir. Azərbaycan Respublikasının işğal olunmuş ərazilərindəki varidatı viran edilib, dağıdılıbdır.

Ancaq bütün bunlara baxmayaraq, Azərbaycan daim bəyan edib və mən bu gün də bəyan edirəm ki, biz sülh tərəfdarıyıq, məsələlərin sülh yolu ilə həll olunmasının tərəfdarıyıq. Bu məqsədlə də 1994-cü ilin mayında Ermənistan ilə Azərbaycan arasında atəşin dayandırılması haqqında saziş əldə edilmiş və bu müddətdə Ermənistan-Azərbaycan hərbi münaqişəsinin, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması üçün danışıqlar aparılır. Məsələnin sülh yolu ilə həlli üçün ötən illərdə çox iş görülüb, çox yollar axtarılıbdır.

Nəhayət, keçən il dekabrın əvvəlində Lissabon şəhərində ATƏT-in Zirvə görüşündə Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması üçün mühüm bir sənəd qəbul edilibdir. Bu sənəddə münaqişənin sülh yolu ilə həllinin prinsipləri öz əksini tapıbdır: Azərbaycan Respublikasının və Ermənistan Respublikasının ərazi bütövlüyünün tanınması, Dağlıq Qarabağa Azərbaycan Respublikasının tərkibində yüksək dərəcəli özünüidarə statusu verilməsi, Dağlıq Qarabağın bütün əhalisinin təhlükəsizliyinin təmin olunması. Biz bu prinsiplər əsasında danışıqlar aparmaq məqsədi daşıyırıq və danışıqlar nəticəsində məsələnin sülh yolu ilə həll edilməsinə nail

olmağa çalışırıq. Hesab edirəm ki, beynəlxalq təşkilatların köməyi ilə, ATƏT-in Minsk qrupunun fəaliyyəti nəticəsində, Birləşmiş Millətlər Təşkilatının bu məsələyə daimi qayğısı və diqqəti ilə böyük ölkələrin və xüsusən Minsk qrupunun həmsədri olan Rusiya, Amerika Birləşmiş Ştatları və Fransanın bundan sonra da bu məsələyə daha ciddi qoşulması vasitəsilə məsələnin sülh yolu ilə həllinə nail olacağıq.

Hörmətlin qonaqlar! Hər bir ölkənin özünəməxsus problemi var. Eyni zamanda bütün bəşəriyyəti, dünyanı, dünyanın bütün insanlarını narahat edən problemlər də var. Bəzən ayrı-ayrı ölkələrin daxilində olan, ölkələrin bir-birinin arasında olan problemlər ümumbəşəri problemlərə çevrilir. Biz insanların rahat yaşaması, dünyanın hər yerində onların sülh və əmin-amanlıq şəraitində yaşaması üçün əngəl olan bütün problemlərin həll edilməsinin tərəfdarıyıq və bu sahədə daim öz səylərimizi göstəririk. Son illərdə dünyanın bir çox bölgələrində ölkələri, insanları, xalqları narahat edən problemlər separatizm problemidir, terrorizm problemidir, hərbi münaqişələr problemidir. Biz bütün dünyada, dünyanın hər bir bölgəsində separatizmin əleyhinə olmuşuq və onun əleyhinəyik. Biz beynəlxalq terrorizmi pisləmişik, pisləyirik və daim onun əleyhinə çıxırıq. Biz dövlətlərarası, ölkələrarası, millətlərarası münaqişələrin hamısının sülh yolu ilə həll olunmasının tərəfdarıyıq və belə münaqişələrin gələcəkdə baş verməməsi üçün də lazımi tədbirlər görülməsinin tərəfdarıyıq. Biz dünyada, hər bir bölgədə sülhün, əmin-amanlığın bərqərar olmasını istəyirik və bu sahədə öz səylərimizi göstəririk. Biz dünyada ümumbəşəri problemlərin vaxtında həll olunmasının tərəfdarıyıq, o cümlədən dünyada bütün insanlar üçün böyük təhlükə olan narkomaniya ilə və narkobizneslə mübarizədə bundan sonra da ön sıralarda gedəcəyik.

Hörmətli qonaqlar, hörmətli sessiya iştirakçıları! Qarşınızda duran vəzifələrin müzakirəsində və gələcək işlərinizdə uğurlar arzulayır, sizə, xalqlarınıza, ölkələrinizə sülh, əmin-amanlıq, səadət diləyirəm. Sağ olun.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin YUNİSEF-in Azərbaycandakı nümayəndəliyinin təşəbbüsü ilə Bakıda yaradılmış «Azərbaycan Beynəlxalq Gənclər Poçt Xidməti» və «Uşaqlara Kömək Xətti» xidmətlərinin açılışı mərasimində çıxışı - 23 iyul 1997-ci il

Hörmətli xanımlar və cənablar!

Bu gün biz buraya BMT-nin YUNİSEF təşkilatının Azərbaycanda gözəl bir təşəbbüsü münasibətilə toplaşmışıq. YUNİSEF, ümumiyyətlə, dünyada xeyirxah işlər görmək, gənclərə qayğı göstərmək, uşaqların problemlərini həll etmək üçün yaranmış təşkilatdır. Mən çox məmnunam ki, bu təşkilat Azərbaycanda kök salıbdır və səmərəli fəaliyyət göstərir. Biz YUNİSEF-in Azərbaycanda gördüyü bir çox dəyərli işlərin şahidi olmuşuq. Ümumiyyətlə, YUNİSEF-in Azərbaycandakı fəaliyyəti bizi çox sevindirir və mən bu fəaliyyəti yüksək qiymətləndirirəm. Bu gün YUNİSEF uzun müddət hazırlayıb meydana gətirdiyi bir işini bizə təqdim edir. Gənclərin poçt xidmətinin, etimad telefon xəttinin yaranması Azərbaycanda, demək olar, yeni bir iş formasıdır. Bu işin çox böyük əhəmiyyəti var. Mən bu işin sosial xarakterini və əhəmiyyətini qeyd etmək istəyirəm.

Bu işin ən böyük xüsusiyyəti ondan ibarətdir ki, o, gənclərə aiddir, gənclərə qayğının təzahürüdür. Nəhayət, fiziki cəhətdən qüsurlu olan, çətinliklərlə rastlaşan gənclərə göstərilən qayğı və diqqətin təzahürüdür. Ona görə də bu gün burada təqdim olunan iş, yenə deyirəm, YUNİSEF təşkilatının nə qədər hümanist, xeyirxah olduğunu və insanların həyatının ən çətin nöqtələrinə nüfuz etdiyini göstərir. Bunların Uşaq hüquqları Konvensiyası ilə bağlı olması və hamısının birlikdə böyük humanist xarakter daşıması həm YUNİSEF-in fəaliyyətinin, həm də bu gün burada təqdim edilən işin nə qədər dəyərli olduğunu göstərir.

Mən YUNİSEF-in Azərbaycandakı nümayəndəliyinin xeyirxah işini - bu gün bizə təqdim etdikləri həm gənclərin poçt xidmətinin, həm də etimad telefon xəttinin yaranmasını təbrik edirəm, bu gözəl işin uğurlu gələcəyinə inanır və uğurlar arzu edirəm.

Hesab edirəm ki, bu iş eyni zamanda Azərbaycanda bu qəbil işlərin hazırlanması, görülməsi və yayılması üçün örnək olacaq və respublikanın həm özəl, həm dövlət sektorundakı şəxslər, təşkilatlar, həm də Azərbaycanda fəaliyyət göstərən şirkətlər, firmalar gələcəkdə belə xeyirxah, gözəl təşəbbüslərlə çıxış edəcəklər.

Təsadüfi deyil ki, bu işin başlanğıcından indiyə qədər, yəni əməli surətdə həyata keçirilməsinə gəlib çatana qədər Azərbaycanda həm xarici ölkələrdən gəlmiş şirkətlər, təşkilatlar, həm də respublikanın dövlət və özəl təşkilatları bu işə kömək göstərmiş, yardım etmişlər. YUNİSEF-in Azərbaycandakı nümayəndəsi cənab Laurenti böyük bir siyahı təşkil edən təşkilatların, idarələrin, nazirliklərin başçılarına öz təşəkkürünü bildirdi. Mən də bu işin yaradılmasında, qurulmasında və bugünkü səviyyəyə gətirilib çatdırılmasında iştirak edən təşkilatların, idarələrin, şəxslərin hamısına təşəkkür edirəm.

Şübhəsiz ki, xüsusi minnətdarlıq və təşəkkür YUNİSEF təşkilatına və onun Azərbaycandakı nümayəndəliyinədir. Ümidvaram ki, gördüyü işlərin nəticəsindən ruhlanaraq, YUNİSEF bundan sonra Azərbaycanda öz fəaliyyətini genişləndirəcək və bizi yeni-yeni təşəbbüslərlə sevindirəcəkdir. Azərbaycanda sosial-iqtisadi problemlər çoxdur.

Respublikamızın keçid dövrünü yaşaması, Azərbaycana Ermənistan tərəfindən edilən hərbi təcavüz nəticəsində bir milyondan artıq vətəndaşımızın didərgin düşməsi və əksəriyyətinin çadırlarda yaşaması belə problemləri daha da çoxaldıbdır. Biz bu sosial-iqtisadi problemlərin həll olunması, mövcud çətinliklərin aradan qaldırılması, insanların həyat tərzinin, rifah halının yaxşılaşdırılması üçün ardıcıl fəaliyyət göstəririk və bu gün cəsarətlə deyə bilərəm ki, müəyyən nəticələr də əldə edə bilirik. Ancaq bizim hələ ki, beynəlxalq təşkilatların yardımına və indi Azərbaycanda fəaliyyət göstərən çoxsaylı firmaların, şirkətlərin humanitar, xeyirxah əməllərinə ehtiyacımız var.

Bir də qeyd etmək istəyirəm ki, təkcə YUNİSEF təşkilatı tərəfindən deyil, başqa təşkilatlar,

xüsusən Azərbaycana humanitar yardım göstərən digər təşkilatlar tərəfindən də, o cümlədən ölkəmizdə fəaliyyət göstərən şirkətlər, ələlxüsus neft şirkətləri tərəfindən əhalinin ayrı-ayrı təbəqələrinə, həyatımızın ayrı-ayrı sahələrinə edilən yardımı, xeyirxah təşəbbüsləri də görürük.

Bunlar hamısı bizi bir-birimizə daha da yaxınlaşdırır, əməkdaşlığımızı daha da inkişaf etdirir və Azərbaycanın həyatında, onun sosial-iqtisadi problemlərinin həll olunmasında yeni bir mərhələ, yeni bir mənzərə yaradır. Bunlar da bugünkü Azərbaycanın gerçəkliklərıdir, ölkəmizdə gedən müsbət dəyişikliklərin, proseslərin əlamətləridir. Mən tam əminəm ki, bu müsbət proseslər, dəyişikliklər gələcəkdə daha sürətlə inkişaf edəcəkdir.

Dünya ölkələri ilə, beynəlxalq təşkilatlarla bizim əməkdaşlığımız gündən-günə genişlənir və tam əminəm ki, daha sürətlə inkişaf edəcək və bunlar hamısı yeni, müstəqil, azad Azərbaycanın yaranmasına kömək göstərəcəkdir.

Bu əlamətdar hadisə münasibətilə sizi bir daha təbrik edir və bu gözəl, xeyirxah işdə uğurlar arzulayıram. Sağ olun.

BMT Təhlükəsizlik Şurasının üzvü olan dövlətlərin daimi nümayəndələri ilə görüşdə Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi - Nyu-York, BMT-nin binası, 28 iyul 1997-ci il

Hörmətli sədr!

Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının hörmətli üzvləri!

Sizi ürəkdən salamlayır və Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının üzvləri ilə ilk dəfə görüşməyi özüm üçün böyük hadisə hesab edirəm. Bu, Azərbaycan prezidenti kimi mənim üçün çox mühüm hadisədir.

Mən Azərbaycan haqqında, onun bugünkü həyatı, qarşılaşmış olduğu və bu gün də qarşılaşdığı mürəkkəb problemlər haqqında məlumat vermək üçün sizinlə görüş keçirilməsini xahiş etmişəm. Sizinlə görüşə çox az vaxt ayrıldığını nəzərə alaraq, Azərbaycan haqqında lap qısaca danışmağı zəruri sayıram.

Sovetlər İttifaqının dağılmasından sonra Azərbaycan öz dövlət müstəqilliyini əldə etmiş, dünyanın bir çox ölkələri ilə dərhal diplomatik əlaqələr yaratmış, Birləşmiş Millətlər Təşkilatına qəbul olunmuşdur və hazırda Dünya Birliyinin tamhüquqlu üzvüdür. Dövlət müstəqilliyinin əldə edilməsi Azərbaycan üçün tarixi hadisədir. Ötən illər Azərbaycanın suverenliyinin və dövlət müstəqilliyinin möhkəmləndirməsinə, dönməz edilməsinə həsr olunubdur. Mən bu gün bəyan edirəm ki, bu bizim üçün müqəddəs vəzifədir. Biz Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi və inkişaf etdirməsi, beynəlxalq həyatda daha fəal, müstəqil iştirakı üçün bundan sonra da əlimizdən gələni edəcəyik.

Azərbaycanda demokratik hüquqi, dünyəvi dövlət qurulur, demokratik dəyişikliklər həyata keçirilir. Demokratiya prinsipləri Azərbaycanda milli dövlət quruculuğunun əsasını təşkil edir, bu zəmində konkret tədbirlər həyata keçirilir. 1995-ci ilin noyabrında ümumxalq səsverməsi yolu ilə müstəqil Azərbaycan Respublikasının ilk demokratik Konstitusiyası qəbul edilmişdir. Elə həmin vaxt çoxpartiyalılıq əsasında Azərbaycan parlamentinə seçkilər keçirilmişdir. İndi parlament fəal işləyir, Azərbaycanda milli dövlət quruculuğunun həyata keçirilməsinin qanunvericilik bazasını yaradır.

Bizim ölkəmizdə şəxsiyyət, insan hüquqlarının hamısı, siyasi plüralizm təmin olunmuşdur, partiyalar, siyasi, ictimai təşkilatlar və hərəkatlar sərbəst fəaliyyət göstərirlər. Bunlar çoxdur. Milli mənsubiyyətindən, dilindən, dinindən, dərisinin rəngindən asılı olmayaraq Azərbaycanın bütün vətəndaşları bərabər hüquqlara malikdirlər. Bir də deyirəm, Azərbaycanda dünyəvi dövlət qurulur.

Azərbaycanın iqtisadiyyatı bazar iqtisadiyyatı prinsipləri əsasında yenidən qurulur. Bu məqsədlə iqtisadi islahatlar aparılır, özəlləşdirmə prosesi geniş həyata keçirilir. Torpaq islahatı haqqında qanun xüsusilə mühümdür. Bu qanuna əsasən torpaq xüsusi mülkiyyətə verilir. Bazar münasibətləri, bazar iqtisadiyyatı Azərbaycanın bütün iqtisadiyyatının yenidən qurulmasının əsası və strateji məqsədidir. Azərbaycanın iqtisadiyyatı bütün dünya üçün açıqdır, biz xarici sərmayələrin ölkəmizə gəlməsini fəal surətdə təşviq edirik. Bildirməliyəm ki, artıq Azərbaycana sərmayələr gəlir və ümidvarıq ki, bu, gələcəkdə daha da artacaqdır.

Xarici sərmayədarlar üçün Azərbaycanda maksimum əlverişli şərait yaradılmışdır, ən başlıcası isə lazımi qanunlar qəbul edilmişdir. Bütün bunların əsasında, yəni iqtisadi islahatların həyata keçirilməsi, ölkənin xarici sərmayələr üçün açıq olması, xüsusən xarici ticarətin sərbəstləşdirilməsi nəticəsində Azərbaycanın iqtisadiyyatında müsbət dəyişikliklər baş verir.

Sovetlər İttifaqı dağıldıqdan sonra Azərbaycanın iqtisadiyyatı bir çox illər tənəzzül edirdi. Ancaq ötən ildən etibarən bizim ölkəmizdə iqtisadi yüksəliş başlayıb, inflyasiya aradan qaldırılıb və indi əslində yoxdur, milli valyuta - manat digər valyutalara, xüsusən dollara nisbətdə möhkəmlənir. Bu ilin göstəriciləri ümid verir ki, biz iqtisadi islahatların aparılmasından daha böyük nəticələr əldə edəcəyik.

Ancaq Azərbaycan öz müstəqilliyi dövründə çox ciddi problemlərlə də qarşılaşmışdır. Bunlardan ən başlıcası hələ 1988-ci ildə, Ermənistanın və Azərbaycanın Sovetlər İttifaqının tərkibində olduğu dövrdə Dağlıq Qarabağı Azərbaycandan qoparmaq və Ermənistana birləşdirmək məqsədi ilə Ermənistan tərəfindən başlanmış hərbi təcavüzdür. Bu təcavüz böyük faciəyə, böyük müharibəyə gətirib çıxardı. Çoxlu qurbanlar verdik, çox insanlar həlak oldular. Hərbi təcavüz nəticəsində müxtəlif səbəblərə görə Ermənistan silahlı birləşmələri Azərbaycan ərazisinin 20 faizini, o cümlədən Dağlıq Qarabağı işğal edə bildilər. İşğal olunmuş torpaqlardan bir milyondan çox azərbaycanlı zorla qovulub çıxarılmışdır. Onlar neçə illərdir ki, Azərbaycanın müxtəlif bölgələrində çadırlarda, çox ağır şəraitdə yaşayırlar, işğal edilmiş torpaqlarda insanların əsrlərlə topladığı varidat, əmlak, qurub-yaratdıqları hər şey - evlər, istehsal müəssisələri, məktəblər, xəstəxanalar, mədəniyyət ocaqları müqəddəs yerlər dağıdılmış, talan edilmişdir. Törədilmiş vəhşiliyin həddi-hüdudu yoxdur.

Bütün bunlara baxmayaraq, biz 1994-cü ildə atəşi dayandırmağa və atəşkəs haqqında saziş imzalamağa razı olduq. 1994-cü ilin mayında atəşkəs haqqında saziş imzalandı və üç ildən artıqdır ki, hərbi əməliyyatlar yoxdur. Eyni zamanda tam sülh də yoxdur. Azərbaycan ərazisinin 20 faizi işğal altında qalır, öz yerlərindən qovulmuş bir milyon azərbaycanlı çox ağır şəraitdə yaşayır.

Atəşkəs illərində bu problemin sülh yolu ilə həllinə dair danışıqlar aparılmışdır. Bilirsiniz ki, bu işlə ATƏT-in Minsk qrupu məşğul olur. O, müəyyən iş görmüşdür, amma bu problemi hələ də həll etmək mümkün olmamışdır.

Yeri gəlmişkən, bu münaqişənin atəşkəs haqqında saziş bağlanana qədərki tarixindən danışsaq, Təhlükəsizlik Şurası Ermənistanın Azərbaycana qarşı təcavüzü haqqında məsələni, yaxud Dağlıq Qarabağ münaqişəsi adlandırdıqları məsələni müzakirə etmişdir. Bu barədə Təhlükəsizlik Şurasının dörd qətnaməsi və Təhlükəsizlik Şurası sədrinin altı və ya yeddi bəyanatı qəbul olunmuşdur. Təhlükəsizlik Şurasının dörd qətnaməsinin hamısı - 822-ci, 853-cü, 874-cü nəhayət, 884-cü qətnaməsi Azərbaycanın müxtəlif bölgələrinin işğalı ilə əlaqədar qəbul edilmişdir. Birinci qətnamə Laçın və Şuşa işğal ediləndə qəbul olunmuşdur. Sonra böyük rayon olan Kəlbəcər rayonu, daha sonra Ağdam, Füzuli, Zəngilan rayonları işğal ediləndə siz qətnamə qəbul etdiniz, qəsbkara öz təcavüzkar hərəkətlərini dayandırmağı tapşırdınız. Ancaq təəssüf ki, bu qətnamələr kağız üzərində qaldı, həyata keçirilmədi. Təcavüzkar öz hərəkətlərini davam etdirdi. Fikir verin, sizin 1992-ci ildə qəbul etdiyiniz birinci qətnamə ilə 1993-cü ilin noyabrında qəbul olunmuş sonuncu qətnamə arasında təxminən il yarım vaxt keçmişdi. Bu müddətdə Ermənistan silahlı birləşmələri Azərbaycanın 6 və ya 7 rayonunu işğal edə biliblər.

Artıq dediyim kimi, axırda elə oldu ki, ərazimizin 20 faizi işğal altına alındı. ATƏT-in Minsk qrupu müvafiq iş görür. 1994-cü ilin dekabrında ATƏT-in Budapeşt Zirvə görüşündə bu məsələ ilə əlaqədar mühüm qərar - danışıqlar prosesini fəallaşdırmaq zəruriliyi və ATƏT-in sülhməramlı qüvvələrini yaradıb onlardan Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasında istifadə etmək haqqında qərar qəbul olundu.

Nəhayət, 1996-cı ilin dekabrında ATƏT-in Lissabon Zirvə toplantısında ilk dəfə, zənnimizcə, mühüm sənəd - Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dincliklə aradan qaldırılması prinsipləri haqqında ATƏT-in hazırkı sədrinin bəyanatı qəbul edildi. Bu sənədin vacibliyi ondadır ki, burada üç prinsip müəyyənləşdirilib - Azərbaycanın və Ermənistanın ərazi bütövlüyünün tanınması, Azərbaycan Respublikasının tərkibində Dağlıq Qarabağa yüksək dərəcədə özünüidarə statusu verilməsi, Dağlıq Qarabağın bütün əhalisinin təhlükəsizliyinin təmin olunması. Həmin qərar Azərbaycanın suverenliyinə xələl gətirsə də, bizi tamamilə qane etməsə də, biz bu məsələnin dincliklə tənzimlənməsində irəliləmək üçün Lissabonda həmin sənədin qəbul olunmasına razılıq verdik. Lakin erməni tərəfi qeyri-konstruktiv mövqe tutdu -ATƏT-in üzvü olan 54 dövlətdən 53-ü bu sənədin lehinə, Ermənistan isə əleyhinə səs verdi.

Lissabon Zirvə toplantısından sonra ATƏT-in Minsk qrupunun həmsədrliyi yarandı. Onadək bu qrupun həmsədrləri Rusiya və Finlandiya idi. Cari ilin yanvarından Rusiya, Amerika Birləşmiş Ştatları və Fransa Minsk qrupunun həmsədrləridir. Bu, bizdə nikbinlik hissi və böyük ümidlər

doğurdu. Ona görə ki, əgər Təhlükəsizlik Şurasının daimi üzvləri olan üç iri dövlət öz üzərinə bu münaqişənin dincliklə aradan qaldırılmasına nail olmaq öhdəlikləri götürmüşsə, bu, təbii olaraq, ümid də doğurur, inam da. İyunun 20-də, «Səkkizlər»in Denver görüşündə Rusiya, ABŞ və Fransa prezidentləri Boris Yeltsin, Bill Klinton və Jak Şirak Dağlıq Qarabağ münaqişəsinin tez bir zamanda dincliklə aradan qaldırılmasının zəruriliyi haqqında birgə bəyanat verdilər. Bu, daha böyük ümid və nikbinlik doğurur.

Minsk qrupu bizə konkret təkliflər vermişdir və biz onları nəzərdən keçirmişik, şübhəsiz ki, bu təkliflərdə çox şey bizi qane etmir. Təkliflər iki hissədən ibarətdir. Birinci hissə işğal qoşunlarının çıxarılmasının, Azərbaycanın Dağlıq Qarabağ ətrafındakı altı inzibati rayon ərazisinin azad edilməsinin, həmin rayonların didərgin salınıb qaçqın vəziyyətinə düşmüş sakinlərinin oraya qayıtmasının zəruriliyinə aiddir. İkinci hissə Azərbaycan Respublikasının tərkibində Dağlıq Qarabağın statusunu müəyyənləşdirməyə və Laçın, Şuşa rayonlarının ərazilərini işğal qoşunlarından azad etmək məsələsinin həllinə həsr olunmuşdur.

Gördüyünüz bu xəritə Azərbaycan ərazisini onun işğal olunmuş torpaqları ilə birlikdə çox inandırıcı surətdə göstərir. Xəritədə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisi qırmızı rənglə, erməni silahlı birləşmələrinin işğal etdikləri, Dağlıq Qarabağa daxil olmayan, lakin onu əhatələyən və azərbaycanlılar yaşamış rayonlar yaşıl rənglə, Dağlıq Qarabağın tərkibinə daxil olmayan, daha doğrusu, keçmişdə onun tərkibində olmamış, lakin Dağlıq Qarabağdan Ermənistan ərazisinə gedən yolun keçdiyi Laçın rayonunun ərazisi, habelə əsasən azərbaycanlıların məskunlaşdıqları və mədəniyyət mərkəzi kimi Azərbaycan üçün böyük tarixi dəyərə malik Şuşa rayonunun ərazisi sarı rənglə çəkilmişdir. Bu təkliflərdə həmin rayonlar haqqında müddəaya Dağlıq Qarabağın statusunu müəyyənləşdirməklə eyni zamanda baxmaq nəzərdə tutulur.

Təkrar edirəm, bu təkliflərdə hələ çox şeyi razılaşdırmaq, işləyib təkmilləşdirmək lazımdır. Biz çox şeyi qəbul edə bilmərik. Buna baxmayaraq, biz bu təklifləri danışıqlar üçün əsas kimi götürməyi mümkün hesab etdik. Bu gün sizə bəyan edirəm ki, biz xəritədə yaşıl rənglə boyanmış bu altı rayonunun azad edilməsi və onların sakinlərinin oraya qayıtması barədə razılığa gəlmək üçün həmin əsasda danışıqlar apara bilərik, eyni zamanda danışıqlar aparıb ikinci mərhələdə - Laçın və Şuşa rayonlarının azad edilməsi haqqında, habelə Dağlıq Qarabağın statusu haqqında məsələlər həll olunmalıdır. Bu, buraya ATƏT-in sülhyaratma qüvvələrinin yeridilməsini tələb edəcəkdir. Dediyim kimi, 1994-cü ilin dekabrında Budapeşt Zirvə görüşündə ATƏT Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması üçün xüsusi olaraq sülhməramlı qüvvələr yaradılması haqqında qərar qəbul etmişdir. Biz təxminən bu mərhələdəyik.

Təəssüf ki, erməni tərəfi Dağlıq Qarabağa müstəqillik statusu verilməsində təkid edir, tələb edir. Yeri gəlmişkən, 1996-cı ilin dekabrında ATƏT-in Lissabon Zirvə toplantısında Ermənistan nümayəndə heyəti təxminən bu cür mövqelərdən çıxış etmişdir. Biz demişik və bu gün sizə Təhlükəsizlik Şurasının üzvlərinə bir daha demək istəyirəm, biz işğal olunmuş ərazilərin azad edilməsi, bir milyon qaçqının öz yaşayış yerlərinə qayıtması və Ermənistanla Azərbaycan arasında uzunmüddətli sülh yaranması naminə tam sülhə nail olmaq üçün kompromislərə getməyə hazırıq. Biz kompromislərə gedirik, amma yol verə bilmərik ki, Azərbaycan ərazisində ikinci erməni dövləti yaradılsın. Biz hesab edirik ki, Azərbaycan Respublikasının tərkibində Dağlıq Qarabağa çox böyük səlahiyyətlərlə birlikdə yüksək özünüidarə statusu verilə bilər. Lakin həm ərazicə, həm dövlət quruculuğuna görə, həm də dövlətçilik prinsiplərinə görə Dağlıq Qarabağ Azərbaycan Respublikasının tərkibində olmalıdır. Həm də bizim təklif etdiyimiz statusa görə Dağlıq Qarabağ bütün ölkələrlə iqtisadi əlaqələr üçün, digər əlaqələrin - mədəni, humanitar əlaqələrin həyata keçirilməsi üçün, Ermənistanla sıx qarşılıqlı əlaqələr saxlamaq üçün çox böyük səlahiyyətlərə malik olacaqdır. Amma dövlətçilik prinsipləri var və biz bu prinsipləri poza bilmərik. Erməni tərəfi isə Dağlıq Qarabağa müstəqillik verilməsinə çalışır. Təkrar edirəm ki, bu, mümkün deyildir. Bu, heç də ancaq bizim üçün mümkün deyildir, ona görə mümkün deyildir ki, bu, Birləşmiş Millətlər Təşkilatının, ATƏT-in prinsiplərinə və nizamnamələrinə, beynəlxalq hüquq normalarına ziddir. Belə düşünürəm ki, heç kim, o cümlədən Təhlükəsizlik Şurası, BMT, ATƏT bu beynəlxalq

hüquq normalarının pozulması ilə razılaşmamalıdır, çünki əks halda bu, nəinki Azərbaycan üçün, eləcə də bir çox ölkələr üçün ağır nəticələrə gətirib çıxarar.

Əslinə qalsa, indi bizim üçün, dövlət quruculuğu, iqtisadi islahatlar sahəsində Azərbaycanın qarşısında duran vəzifələrin yerinə yetirilməsi üçün, bir çox digər məsələlərin həll edilməsi üçün problem olan başlıca məsələ bundan ibarətdir.

Demək istəyirəm ki, biz qonşu ölkələrlə normal qarşılıqlı münasibətdəyik. Gürcüstanla tam dostluq münasibətlərimiz var.

Rusiya ilə dostluq münasibətləri, normal münasibətlər, İranla normal münasibətlər, Türkiyə ilə dostluq münasibətləri, yaxşı münasibətlər saxlayırıq. Azərbaycan öz müstəqilliyini və suverenliyini çox ciddi şəkildə qoruyur. Qonşularımızdan, xüsusən Ermənistandan fərqli olaraq, Azərbaycan ərazisində xarici qoşunlar yoxdur, respublikanın sərhədlərini isə Azərbaycanın öz sərhəd qoşunları mühafizə edirlər. Məlum olduğu kimi, Ermənistanda böyük miqdarda Rusiya qoşunları və Rusiya hərbi bazaları var. Rusiya qoşunları Gürcüstan ərazisində də var, orada Rusiyanın hərbi bazasını yerləşdirmək nəzərdə tutulur. Bizdə belə şeylər yoxdur və biz hesab edirik ki, buna heç bir ehtiyac da yoxdur.

Bizi bu da narahat edir ki, üç ildən artıqdır davam edən atəşkəs şəraitində Rusiya Müdafiə Nazirliyinin ayrı-ayrı vəzifəli şəxsləri, bu yaxınlarda məlum olduğu kimi, bu üç il ərzində Ermənistana qanunsuz olaraq böyük miqdarda silah və döyüş sursatı göndərmişlər. Bu rəqəmlər artıq elan edilmişdir və bizdə silahların konkret siyahısı var, ümumi dəyəri bir milyard dollar olan bu silahlar arasında uzağı vuran zenit raketləri, bir çox digər ağır silah, müasir tanklar, «Qrad» qurğuları və çoxlu başqa şeylər var. Təkrar edirəm ki, indi biz bütün silahların konkret siyahısına malikik. Bu siyahı Rusiya Müdafiə Nazirliyi tərəfindən elan olunmuşdur, Rusiya Baş Prokurorluğunda da var və o, həmin məsələ ilə əlaqədar istintaq aparır.

Əlbəttə, bu, son dərəcə ağır faktdır. Rusiya Minsk qrupunda vasitəçilik etdiyi və biz bu məsələnin dincliklə nizama salınmasına kömək göstərilməsi üçün bu ölkəyə böyük ümidlər bəslədiyimiz bir vaxtda bu silahların göndərildiyi aşkara çıxarılmışdır. Hələ bu ilin martında mən bu məsələ barəsində prezident Boris Yeltsinə xüsusi məktub göndərmişdim. Bu yaxınlarda mən Rusiyada rəsmi səfərdə oldum və onunla bu barədə bir daha danışdım. O bildirdi ki, bu məsələ prokurorluğa tapşırılıb, təhqiqat aparılır, təqsirkarlar aşkara çıxarılacaqdır. Bizə isə təkcə təqsirkarların aşkara çıxarılması deyil, həm də bu silahların aşkara çıxarılması, Ermənistandan alınıb Rusiyaya qaytarılması lazımdır. Çünki Ermənistanda böyük miqdarda qanunsuz silahın olması təkcə Azərbaycan üçün deyil, həm də bütün qonşu ölkələr üçün böyük təhlükə törədir.

Demək istədiyim əslində bunlardır. Mən çox şey deyə bilərdim, ancaq vaxtımız azdır, istəyirəm ki, Sizin mənə sual verməyinizə də vaxt qalsın. Diqqətinizə görə sağ olun.

Rusiya Federasiyası nümayəndəsinin 1-ci müavini Aleksandr Qorelikin çıxışına arayış

Çıxışınıza görə təşəkkür edirəm. Sağ olun. Biz Minsk konfransının həmsədri kimi Rusiyaya bu gün də böyük ümidlər bəsləyirik və əməkdaşlıq edəcəyik.

O ki qaldı axırıncı qeydinizə, (Rusiyanın Ermənistana ümumi dəyəri bir milyard dollar olan qanunsuz silah satması. -Red) həqiqətən, mən Moskvada olarkən Rusiya-Azərbaycan-Ermənistan komissiyası yaradılması haqqında qərar qəbul edildi. Onun yaradılmasında məqsəd, əvvəla, Rusiyanın hərbi strukturlarından Ermənistana bu qədər böyük miqdarda silahların hansı yolla, haradan qanunsuz, qeyri-leqal surətdə verildiyini, ikincisi, Sovet İttifaqı parçalanan dövrdə Ermənistanda, Azərbaycanda nə qədər silah qaldığını aydınlaşdırmaqdır.

Məsələyə aydınlıq gətirmək istəyirəm. İş burasındadır ki, yanvar-fevral aylarında Rusiya Müdafiə Nazirliyinin və MDB ölkələri ilə əməkdaşlıq nazirliyinin öz orqanları Rusiyadan Ermənistana qanunsuz olaraq silahlar göndərilməsi barədə məsələ qaldırdıqda, bunu əvvəlcə hamı inkar etdi. Lakin faktlar üzə çıxarıldıqda və onların bir çoxu mətbuat səhifələrində dərc edildikdə, iyulun əvvəllərində Moskvada prezident Boris Yeltsinlə və Rusiya Federasiyasının digər rəhbərləri

ilə görüşlərim zamanı birdən ortaya məsələ çıxdı ki, demə, Sovet İttifaqı parçalanan dövrdə Azərbaycanda Ermənistandakına nisbətən daha çox silah qalmışdır. Mən təbii olaraq dedim ki, əvvəla, bunu yoxlamaq lazımdır, ikincisi isə, bunun artıq 1994-1997-ci illər dövründə Rusiyanın hərbi idarələri tərəfindən Ermənistana silahların qanunsuz, qeyri-leqal surətdə göndərilməsi faktlarına heç bir dəxli ola bilməz. Bu, əsla ona kompensasiya ola bilməz ki, Azərbaycanda Ermənistandakına nisbətən daha çox silah qalmışdır. Buna baxmayaraq, yoxlamaq lazımdır. Mən, məsələn, bu gün bəyan edirəm ki, həmin məlumat gerçəkliyə uyğun deyildir. Lakin ortaya belə bir fakt atıldığına görə biz razılaşdıq. Deməliyəm ki, mən baş nazirin birinci müavini başda olmaqla Azərbaycan tərəfindən nümayəndə heyətinin tərkibi haqqında Rusiya Federasiyasına təqdimat vermişəm və bu komissiyanın əməli fəaliyyətini gözləyirəm.

Sədr: Zati-aliləri, cənab prezident Əliyev, Sizə göndərilmiş suallara cavab verə bilərsinizmi?

Heydər Əliyev: Əslinə qalsa, cəmi bir sual oldu ki, bunu da Böyük Britaniyanın səfiri verdi.

Hər şeydən öncə, bu görüşlə əlaqədar məmnun qaldığımı bir daha ifadə etmək istərdim. Buraya toplaşdığınıza görə, məni diqqətlə dinlədiyinizə görə Sizə təşəkkür edirəm. Mən bunu Azərbaycanın problemlərinin həllində, xüsusən Ermənistan-Azərbaycan münaqişəsinin Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasında Təhlükəsizlik Şurasının fəal iştirakı kimi qiymətləndirirəm.

Təhlükəsizlik Şurasının çıxış edən üzvləri ATƏT, onun Minsk qrupu, Minsk konfransı tərəfindən həyata keçirilən tədbirlərlə, başa düşdüyüm kimi, bizim tədbirlərimizlə həmrəy oldular. Bir daha demək istəyirəm ki, biz işğal olunmuş Azərbaycan torpaqlarının erməni silahlı qüvvələrindən tamamilə azad edilməsi, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması və Azərbaycan Respublikasının tərkibində Dağlıq Qarabağa yüksək özünüidarə statusu verilməsi şərtilə münaqişənin dincliklə aradan qaldırılması mövqelərində möhkəm dayanmışıq. Biz Minsk konfransının həmsədrləri, onun bütün üzvləri ilə də, Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası ilə də bu mövqelərdə əməkdaşlıq edəcəyik.

Ümidvaram ki, Təhlükəsizlik Şurasının üzvü olan ölkələrin səfirləri bu problemin həllində bizə dəstək verməkdə və kömək göstərməkdə davam edəcəklər. Bunun üçün hamınıza təşəkkür edirəm.

Böyük Britaniyadan olan səfirin sualına cavab verərək demək istəyirəm ki, biz Xəzər dənizində onun mineral ehtiyatlarından istifadə edilməsi, neft və qaz hasilatı üçün Xəzərin hələ 1970-ci ildə müəyyən olunmuş sektorlara bölünmə prinsipləri əsasında fəaliyyət göstəririk.

O vaxtlar Xəzər dənizi bütünlüklə Sovetlər İttifaqına məxsus idi. SSRİ dövründə Xəzərdə neft və qaz çıxarılması ilə Azərbaycan məşğul olurdu. Amma Sovetlər İttifaqına daxil olan müttəfiq respublika kimi, o, Azərbaycan neftçilərinin fəaliyyət dairəsinin genişləndiyini və Xəzər dənizinin xeyli hissəsini əhatə etməyə başladığını nəzərə alaraq bunu edirdi. Bu isə Xəzəryanı digər ölkələrin, o cümlədən Türkmənistanın və Qazaxıstanın mənafelərinə toxunurdu. 1970-ci ildə sovet hökuməti Xəzər dənizinin sektorlara bölünməsi haqqında qərar qəbul etdi. Bax, bu sektor bölgüsü çərçivəsində də biz işimizi görürük. Sizə bildirmək istəyirəm ki, Xəzər dənizinin dibindəki mineral ehtiyatlardan istifadə olunmasına dair gələcək işlərin həyata keçirilməsi üçün bu sektor bölgüsünü biz məqbul hesab edirik.

Doğrudur, bəzi ölkələr bununla razılaşmır, kondominium - sahildən 45 mil məsafədəki zona haqqında qalan ərazinin isə ümumi olması barədə təkliflər irəli sürürlər. Amma bu məsələdə Xəzəryanı dövlətlərin fikirləri eyni deyildir. Azərbaycan və Qazaxıstanın rəyi bir cür, Rusiya, İran və müəyyən dərəcədə də Türkmənistanın rəyi başqadır. Ancaq hesab edirəm ki, biz danışıqlar aparacaq və vahid fikrə gələcəyik. Hələlik isə nümunə, yaranmış praktika var və biz bunun əsasında fəaliyyət göstəririk.

O ki qaldı Türkmənistanın bu yaxınlarda meydana çıxmış iddialarına, birincisi, təkrar edirəm, biz Xəzərdə çoxdan, 50 ildir ki, iş görürük. «Azəri», «Çıraq» yataqlarının istifadə olunmasına dair birinci müqavilə 1994-cü ilin sentyabrında beynəlxalq neft şirkətləri konsorsiumu ilə, o cümlədən həm Amerika şirkətləri, həm «Britiş petroleum», həm «Statoyl» şirkətləri, Türkiyə şirkəti və

digər şirkətlərlə imzalanmışdır. İndi bu yaxınlarda Türkmənistan tərəfi qəfildən deyir ki, guya bu yataqlara Türkmənistanın da aidiyyatı var. Şübhəsiz ki, bu, düzgün deyildir, çünki 1970-ci ildə müəyyən edilmiş və bu gün də mövcud olan sektor bölgüsünə görə həmin yataqlar Azərbaycan sektorunda yerləşir. Buna baxmayaraq, əgər onlar belə məsələ qaldırırlarsa, bunu müzakirə etmək və yataqların kimə mənsub olduğunu müəyyənləşdirmək olar.

Mənim başa düşdüyüm kimi, «Kəpəz» yatağına gəldikdə isə, o, Türkmənistan və Azərbaycan sektorlarının sərhədində yerləşir. Biz bu yatağa dair müqavilə imzalamamışıq. Mən Moskvada olarkən Rusiyanın «LUKoyl» və «Rosneft» şirkətlərinin təklifi ilə həmin yatağın işlənməsində əməkdaşlığın mümkünlüyü haqqında saziş imzalanmışdır. Bu zaman yatağın sərhəddə olması nəzərə alınmışdır, yəni yatağın bir hissəsi Azərbaycan sektorunda, digər hissəsi Türkmənistan sektorunda yerləşir. Ona görə də vaxtilə, SSRİ dövründə bu yatağa rus sözü olan «promejutoçnı» adı vermişdilər, yəni o deməkdir ki, - Rusiyanın buradakı nümayəndəsi təsdiq edə bilər,- yatağın yarısı orada, yarısı burada yerləşir və o vaxt belə də qəbul olunmuşdu. Sonra Azərbaycan bu yatağı «Kəpəz», Türkmənistan isə «Sərdar» adlandırdı. Yatağın əzəli adı isə «promejutoçnı»dır, yəni sərhəddə yerləşən. Biz bu yataq barəsində Rusiya şirkətləri ilə birlikdə Türkmənistanla əməkdaşlıq etməyə hazırıq.

Bu məsələ ilə əlaqədar vəziyyət belədir. Yeri gəlmişkən, Türkmənistan ümumiyyətlə, ziddiyyətli bəyanatlar verir. O, Xəzərin sektorlara bölünməsi ilə indiyədək razılaşmaq istəmir, hesab edir ki, Xəzər dənizinin müəyyən sahil zonaları üzrə, onun qalan hissəsindən isə ümumi qaydada istifadə olunmalıdır. Lakin Türkmənistan indi birdən «Kəpəz» yatağı və digər yataqlar barəsində iddialar irəli sürərək, Xəzərin sektorlara bölünməsini əsas götürür. Əgər Türkmənistan Xəzər dənizinin sektorlara bölünməsinə tərəfdardırsa, qoy bunu bəyan etsin və biz də bilərik ki, bizim kimi, o da buna tərəfdardır, onda biz müəyyənləşdirərik ki, hansı yataq kimin sektorunda yerləşir. Xəzər dənizinin sektorlara bölündüyünü tanımadan, bu yatağın Azərbaycan sektorunda deyil, Türkmənistan sektorunda yerləşdiyi barədə gözlənilmədən iddialar irəli sürmək, sadəcə olaraq, məntiqə uyğun deyildir. Məsələ, bax, belədir.

Bu görüşə görə, məni dinlədiyinizə görə, sizinlə şəxsən tanış olduğuma görə sizə bir daha təşəkkürümü bildirirəm. Təkrar edirəm, mən Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasına ilk dəfədir gəlirəm və bunu özüm üçün mühüm hadisə hesab edirəm. Mənim kitablarımı sizə veriblər. Odur ki, onlardan istifadə etməyə çalışın.

Sağ olun. Diqqətinizə görə təşəkkür edirəm.

Azərbaycan Prezidenti Heydər Əliyevin BMT-nin Baş katibi Kofi Annan ilə görüşdə söhbətindən - Nyu-York, BMT-nin binası, 28 iyul 1997-ci il

Hörmətli cənab Kofi Annan!

İlk öncə mənim və təmsil etdiyim Azərbaycan Respublikasının ünvanına söylədiyiniz səmimi sözlərə görə Sizə minnətdarlığımı bildirirəm. Mən prezident Bill Klintonun dəvəti ilə ABŞ-a rəsmi səfərə gəlməyimdən və Nyu-Yorkda BMT-nin Baş katibi ilə görüşümdən məmnunam. Cənab Kofi Annan, mən Sizi BMT-nin Baş katibi kimi yüksək vəzifəyə seçilməyiniz münasibətilə bir daha ürəkdən təbrik edirəm və dünya xalqları arasında birliyin, sıx əlaqələrin yaranması, sülhün, əmin-amanlığın bərqərar edilməsi sahəsində qlobal problemlərin müvəffəqiyyətlə həllində Sizə uğurlar arzulayıram.

Bu nüfuzlu beynəlxalq təşkilatda mehribanlıqla qarşılanmağımdan razılıqla söhbət açaraq bildirirəm ki, nüvə silahı sınaqlarının tamamilə qadağan olunması barədə müqaviləni burada imzaladığımı tarixi bir hadisə kimi qiymətləndirir və bəyan edirəm ki, müstəqil Azərbaycan Respublikası sülhsevər bir ölkədir və o, Dünya Birliyi tərəfindən tanınan hüquq normalarına həmişə böyük hörmətlə yanaşır.

BMT-nin üzvü olan Azərbaycan Respublikasının qarşılaşdığı ən ağrılı problemlərdən biri Ermənistan silahlı qüvvələrinin Azərbaycana təcavüzü nəticəsi olaraq respublikamızın ərazisinin 20 faizinin işğal olunması, bir milyondan çox vətəndaşımızın yerlərindən-yurdlarından zorla qovularaq çadırlarda ağır və dözülməz şəraitdə yaşamasıdır. Bu təcavüz nəticəsində Azərbaycanın iqtisadiyyatı və mədəniyyəti böyük talanlara və dağıntılara məruz qalmış, on minlərlə dinc əhali həlak olmuş, yaralanmış və əsir götürülmüşdür.

Cənab Baş katib, Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində ölkəmizə dəymiş ziyan barədə konkret təsəvvür əldə etmək, məsələnin əsl mahiyyəti ilə tanış olmaq üçün qarşımızdakı Azərbaycan xəritəsinə nəzər salmaq kifayətdir. Azərbaycanın təkcə işğal olunmuş ərazisi 16 min kvadrat kilometrdir ki, bunun da yalnız 4 min kvadrat kilometri Dağlıq Qarabağa daxildir. Bütün bunlara baxmayaraq, Azərbaycan münaqişənin sülh yolu ilə nizama salınmasının tərəfdarıdır. Çox təəssüf ki, Ermənistan tərəfi münaqişənin aradan qaldırılması barədə BMT Təhlükəsizlik Şurasının müvafiq qərarlarına məhəl belə qoymur və Azərbaycan torpaqlarını işğal altında saxlamaqda davam edir. Lakin Azərbaycan münaqişənin sülh yolu ilə aradan qaldırılması yolunda səylərini bir an belə olsun zəiflətmir. Elə bu məqsədlə də 1994-cü il mayın 12-də Ermənistanla əldə edilmiş atəşkəs haqqında sazişə dönmədən əməl edir və bundan sonra da əməl edəcəkdir. Biz ATƏT-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının ötən ilin dekabrında Lissabonda keçirilmiş Zirvə görüşünün bu münaqişənin sülh yolu ilə aradan qaldırılması üçün qəbul etdiyi əsas prinsipləri yüksək qiymətləndiririk və onları rəhbər tutaraq, sülh əldə edilməsi üçün əməli addımlar atmağa hazırıq. Biz Azərbaycan torpaqlarının işğaldan tezliklə azad edilməsini, müstəqil dövlətimizin ərazi bütövlüyünün bərpa olunmasını, qaçqınlarımızın doğma evlərinə qayıtmasını istəyirik və bunun üçün həmişə sülh təşəbbüsləri ilə çıxış edirik. Lakin Ermənistan öz təcavüzkar niyyətlərindən əl çəkmək istəmir və dünya ölkələri tərəfindən qəbul olunmuş prinsiplərin yerinə yetirilməsinə etinasızlıq göstərir.

Hörmətli Baş katib, bir daha nəzərinizə çatdırmaq istərdim ki, biz dünyanın üç böyük nüfuzlu dövlətinin - ABŞ-ın, Rusiyanın, Fransanın ATƏT-in Minsk qrupuna həmsədrlik etməsindən olduqca məmnunuq və prezidentlər Bill Klintonun, Boris Yeltsinin və Jak Şirakın Denverdə imzaladıqları birgə bəyanatı münaqişənin tezliklə həll edilməsi sahəsində mühüm addım kimi qiymətləndiririk.

Mən Rusiyanın Ermənistana qeyri-qanuni yolla külli miqdarda silah verməsini xüsusi olaraq nəzərə çatdırmaq istərdim. Bu məsələyə beynəlxalq təşkilatlar, xüsusilə BMT ciddi diqqət yetirməlidir. Axı heç kəsə gizli deyildir ki, müharibədə uzunmüddətli atəşkəsin davam etdiyi bir vaxtda Ermənistanın külli miqdarda silah əldə etməsi bu münaqişənin sülh yolu ilə aradan

qaldırılmasına, bütövlükdə bölgədə əmin-amanlığın bərqərar edilməsinə yalnız çox böyük təhlükə yaradır.

Keçmiş Sovet İttifaqına mənsub olmuş, yeni müstəqillik qazanmış respublikalar arasında təkcə Azərbaycanda heç bir xarici ölkənin silahlı qüvvələri və hərbi bazaları yoxdur. Məgər bu faktın özü Azərbaycanın həqiqi müstəqillik qazanmasından xəbər vermirmi? Bir daha bildirirəm ki, Azərbaycanın müstəqilliyi əbədi, dönməz və sarsılmazdır.

Hazırda Azərbaycanda ictimai-siyasi vəziyyət sabitdir, hüquqi demokratik dövlət quruculuğu və islahatların həyata keçirilməsi sahəsində böyük işlər görülür. Bazar münasibətləri yolunu seçmiş ölkəmizin iqtisadiyyatının Dünya Birliyinə sıx bağlanması sahəsində əldə edilmiş xeyli nailiyyətlərimiz vardır.

Xəzərin Azərbaycan sektorundakı yataqların birgə işlənməsi üçün dünyanın bir çox dövlətlərinin nüfuzlu şirkətləri ilə imzalanmış müqavilələr Azərbaycanın zəngin təbii sərvətlərindən birgə istifadə olunması sahəsində böyük imkanlar açmışdır. Ölkəmizə külli miqdarda sərmayələr qoyulması yaxın illərdə yeni müəssisələr yaradılmasına və deməli, yeni iş yerləri açılmasına xeyli yardım göstərəcəkdir. Bildirirəm ki, respublikamızın qapıları xarici iş adamları üçün açıqdır və Azərbaycanda onların fəaliyyəti üçün hər cür şərait yaradılmışdır.

Hörmətli cənab Kofi Annan!

BMT-nin ayrı-ayrı strukturları ilə ölkəmiz arasında əməkdaşlığın hazırkı vəziyyətindən razı qaldığımı bildirərək, BMT-nin inkişaf proqramı çərçivəsində respublikamızda həyata keçirilən tədbirləri yüksək qiymətləndirirəm və Sumqayıtın sərbəst iqtisadi zona elan edilməsi üçün görülən işlərin çox böyük əhəmiyyəti olduğunu vurğulayıram.

Cənab Kofi Annan! Görüşümüzün sonunda Sizi - BMT-nin hörmətli Baş katibini Azərbaycana rəsmi səfərə dəvət edirəm.

Cənab Baş katib, respublikamız adından Sizə nəfis Azərbaycan xalçası hədiyyə edirəm.

BMT-də akkreditə olunmuş xarici jurnalistlər üçün mətbuat konfransında Azərbaycan Prezidenti Heydər Əliyevin bəyanatı - Nyu-York, BMT-nin mətbuat mərkəzi - 28 iyul 1997-ci il

Hörmətli xanımlar və cənablar!

Mən sizin hamınızı salamlayıram. Birləşmiş Millətlər Təşkilatının binasında bu mətbuat konfransında iştirak etməyimdən məmnun qaldığımı bildirirəm.

Mən Amerika Birləşmiş Ştatlarına prezident cənab Bill Klintonun dəvəti ilə rəsmi səfərə gəlmişəm. Bu səfər zamanı Birləşmiş Millətlər Təşkilatını da ziyarət etməyi zəruri hesab etmişəm.

Azərbaycan Respublikasının prezidenti kimi bu, Amerika Birləşmiş Ştatlarına mənim ilk rəsmi səfərimdir. Sabah Vaşinqtona yola düşəcəyəm. Orada bir çox görüşlər - Ağ evdə, Konqresdə, Dövlət Departamentində, Pentaqonda görüşlərim olacaqdır. Bu səfərimin əsas məqsədi isə Amerika-Azərbaycan əlaqələrini inkişaf etdirmək üçün yeni addımlar atmaqdan ibarətdir.

Azərbaycan Sovetlər İttifaqı dağıldıqdan sonra müstəqillik əldə etmiş bir ölkədir. Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesi gedir. Azərbaycanda demokratik proseslər həyata keçirilir. Azərbaycanın iqtisadiyyatı bazar iqtisadiyyatı prinsipləri əsasında qurulur və inkişaf etdirilir.

1995-ci ilin noyabrında Azərbaycanda ilk demokratik Konstitusiya qəbul olunubdur. 1995-ci ildə çoxpartiyalı sistem əsasında, demokratik şəraitdə Azərbaycan parlamentinə seçkilər keçirilibdir. Azərbaycanda geniş iqtisadi islahatlar, özəlləşdirmə proqramı, torpaq islahatı, torpağın xüsusi mülkiyyətə verilməsi proqramı və başqa proqramlar həyata keçirilir. Bunlar da öz müsbət nəticələrini verir. Azərbaycan bəzi obyektiv səbəblər üzündən bu islahatların keçirilməsinə başqa ölkələrə nisbətən gec başlayıbdır. Ancaq buna baxmayaraq, biz qısa müddətdə bu islahatların əməli nəticələrini müşahidə edirik.

İqtisadiyyat da keçən ildən başlayaraq inkişaf edir. İnflyasiyanın qarşısı tamamilə alınıb, xarici ticarət sərbəstləşdirilibdir. Kənd təsərrüfatında istehsal olunan məhsulun artıq 80 faizi özəl sektorun hesabınadır. Bu ilin birinci yarısında ümumi daxili məhsul 5,2 faiz artıbdır. Sənaye və kənd təsərrüfatı istehsalı da qalxmaqdadır. Bu islahatların həyata keçirilməsi ardıcıl surətdə davam edir və davam edəcəkdir.

Azərbaycan tam müstəqil dövlətdir, müstəqilliyini qorumağı özünün əsas vəzifəsi hesab edir. Dövlətimizin ərazisində heç bir başqa ölkənin silahlı qüvvələri, hərbi bazaları yoxdur. Azərbaycan müstəqil olaraq özü öz sərhədlərini qoruyur.

Azərbaycanın çətin problemləri də var. 1988-ci ildən etibarən Ermənistan tərəfindən Azərbaycana hərbi təcavüz başlayıbdır. Ermənistanın bu təcavüzünün məqsədi Azərbaycanın tərkibində olan Dağlıq Qarabağ vilayətini respublikamızdan ayırıb Ermənistana birləşdirməkdən ibarət olubdur. Bu təcavüz müharibəyə çevrilib, döyüşlər gedib, qan tökülüb, insanlar tələf olubdur və bəzi səbəblərdən Azərbaycan ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilibdir. İşğal olunmuş ərazilərdən bir milyondan artıq Azərbaycan vətəndaşı yerindən-yurdundan zorla çıxarılıbdır. Onların əksəriyyəti ağır vəziyyətdə çadırlarda yaşayır.

Üç il bundan əvvəl, 1994-cü ilin may ayında Ermənistanla Azərbaycan arasında atəşin dayandırılması haqqında saziş imzalanıbdır. İndi atəş yoxdur. Biz bu atəşkəs rejiminə riayət edirik və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunmasına çalışırıq. Bu məsələ ilə ATƏT-in Minsk qrupu məşğul olur. Bu ilin əvvəlindən Minsk qrupuna üç ölkə - Rusiya, Amerika Birləşmiş Ştatları, Fransa həmsədrlik edirlər.

ATƏT-in keçən ilin dekabrında Lissabon Zirvə görüşündə Ermənistan Azərbaycan münaqişəsinin sülh yolu ilə həll edilməsi üçün prinsiplər qəbul olunubdur. Bu prinsiplər Azərbaycan və Ermənistan respublikalarının ərazi bütövlüyünün tanınması, Dağlıq Qarabağa Azərbaycan Respublikasının tərkibində yüksək dərəcəli özünüidarəetmə hüququ verilməsi və Dağlıq Qarabağın bütün əhalisinin

təhlükəsizliyinin təmin edilməsidir. Məsələnin sülh yolu ilə həlli naminə biz bu prinsiplərə razı olmuşuq. ATƏT-in Lissabon Zirvə görüşündə bu beynəlxalq təşkilatın üzvü olan 54 dövlətdən 53-ü bu prinsiplərə dəstək veribdir, onları müdafiə edibdir, ancaq Ermənistan buna etiraz edibdir.

Minsk qrupunun həmsədrləri olan Rusiya, Amerika və Fransanın prezidentləri bu ilin 20 iyununda Denver şəhərində birgə bəyanat veriblər. Onlar Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması üçün səy göstərəcəklərinə söz veriblər.

Amerika Birləşmiş Ştatları ilə bizim əlaqələrimiz yaxşı vəziyyətdədir. Ancaq bu əlaqələrin daha da genişlənməsi və inkişaf etməsi üçün böyük imkanlar vardır. Bu məsələlər Vaşinqtonda müzakirə olunacaqdır. Bu baxımdan Konqresin 1992-ci ildə Azərbaycana qarşı qəbul etdiyi ədalətsiz qərarın - 907-ci maddənin ləğv olunması da müzakirə ediləcəkdir.

Mən qarşıdakı danışıqlara, görüşlərə çox böyük əhəmiyyət verirəm. Hesab edirəm ki, Vaşinqton görüşləri Azərbaycan-Amerika ənənələrində yeni mərhələ açacaqdır. Mən bu səfərə böyük ümidlərlə gəlmişəm.

Bu gün Birləşmiş Millətlər Təşkilatının Baş katibi cənab Kofi Annan ilə də görüşmüşəm. Mən bu görüşdən çox məmnunam. Azərbaycanın problemlərinə, xüsusən Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması probleminə cənab Baş katibin çox müsbət münasibətini hiss etdim. O, ATƏT-in Minsk qrupunun qərarlarına və addımlarına dəstək verəcəyini bəyan etdi.

Təəssüf ki, vaxtımız azdır. Ona görə də mən çıxışımı tamamlayıram və sizin suallarınıza cavab verməyə hazıram.

Sual: Cənab prezident, çox sağ olun. Mən həm «Əl-həyat» qəzetini təmsil edirəm, həm də Birləşmiş Millətlər Təşkilatında Müxbirlər Assosiasiyasının rəhbəriyəm.

Mən Sizə bir neçə sualla müraciət etmək istəyirəm. Birinci sualım belədir: Bu gün Siz BMT-nin Baş katibi cənab Kofi Annanla görüşünüz zamanı BMT-nin sülhməramlı qüvvələrinin regionda yerləşdirilməsi, o cümlədən regiondan çəkiləcək boru kəmərlərinizin qorunmasında BMT qüvvələrinin iştirakı məsələlərini müzakirə etdinizmi? İkinci sualım: Bu gün axşam Amerikadakı yəhudi təşkilatları sizin şərəfinizə ziyafət verəcəklər. Bu o deməkdirmi ki, Siz İranı neft boru kəmərlərinin çəkilməsindən kənarlaşdırmaq istəyirsiniz?

Cavab: Birincisi, - mən bir daha deyirəm, - cənab Kofi Annanla görüşüm çox əhəmiyyətli oldu. Ancaq biz Birləşmiş Millətlər Təşkilatının sülhməramlı qüvvələrindən istifadə olunmasını tələb etməmişik. ATƏT-in 1994-cü ilin dekabr ayında Budapeştdə keçirilmiş Zirvə görüşündə bu beynəlxalq təşkilatın sülhməramlı qüvvələrinin yaradılması haqqında qərar qəbul olunubdur. Ermənistan-Azərbaycan münaqişəsini aradan qaldırmaq üçün ATƏT-in sülhməramlı qüvvələrindən istifadə edilməlidir. Cənab Kofi Annan bəyan etdi ki, o, bunu dəstəkləyir.

Neft kəmərləri hələ çəkilməyibdir. Onların qorunması üçün tədbirlər görmək hələ tezdir. Güman edirəm ki, sülhməramlı qüvvələrin buraya cəlb edilməsinə ehtiyac olmayacaqdır. Hər bir ölkə onun ərazisindən keçən neft kəmərlərinin mühafizə edilməsini öz üzərinə götürməlidir.

Yəhudi cəmiyyətlərinin prezidentləri konfransının məni bu gün ziyafətə dəvət etməsini məmnuniyyətlə qəbul etmişəm, bu görüşdə iştirak edəcəyəm. Azərbaycanda yəhudilər də yaşayırlar. Azərbaycanda yaşayan digər milli azlıqlar kimi, yəhudilər də ölkəmizin bərabərhüquqlu vətəndaşlarıdır. Azərbaycanda heç vaxt yəhudilərə qarşı, yaxud bir antisemit siyasəti olmayıbdır, onun əlamətləri olmayıbdır. Ona görə də yəhudi icmalarının mənə diqqət göstərmələri tamamilə təbiidir. Bu, heç bir başqa ölkənin mənafeyinə qarşı yönəldilmiş bir təşəbbüs deyildir. Sağ olun.

Samir Sambar: Sizə məlumat üçün deyim ki, Azərbaycanın xarici işlər naziri də burada iştirak edir.

Sual: Cənab prezident, mən həmin sualımı davam etdirmək istəyirəm. Əslində mənim məqsədim bu məsələdə Sizin İranla bağlı mövqeyinizi bilmək idi. Yəni İrandan neft kəmərlərinin çəkilməsinə bir çox qüvvələr etiraz edirlər. Mən bu məsələdə Sizin mövqeyinizi bilmək istəyirəm.

Cavab: Bilirsiniz, kim etiraz edirsə, onlardan soruşun. Biz İrandan neft kəmərinin çəkilməsinə

etiraz etməmişik. Ancaq neft kəmərini biz çəkmirik. Neft kəmərini böyük müqavilələrdə iştirak edən konsorsiumun üzvləri, şirkətlər, konsorsium çəkir. Konsorsium bu neft kəmərlərinin haradan çəkilməsini qərara alırsa, biz də ona öz münasibətimizi bildiririk.

Sual: Hörmətli prezident Heydər Əliyev, mən Türkiyənin «Milliyyət» qəzetindənəm. Sizə belə bir sualla müraciət etmək istəyirəm. Yaxın zamanlarda Bakıda bir saziş - Xəzər dənizi neftinin Çeçenistan ərazisindən Novorossiysk limanına getməsi haqqında saziş imzalandı. Möhtərəm prezident, Siz Bakı-Ceyhan neft kəmərinin çəkiləcəyinə inanırsınızmı? Sizin fikrinizcə, Türkiyədən keçəcək bu boru kəməri nə vaxt çəkiləcəkdir?

Cavab: Bu ayın əvvəlində həqiqətən Bakıda Rusiya, Çeçenistan və Azərbaycan arasında ilkin nefti Rusiya ərazisindən Qara dənizin Novorossiysk limanına nəql edəcək boru xətti barədə müqavilə imzalanıbdır.

Bu boru xətti artıq yaranıbdır. Sadəcə, onun Çeçenistan ərazisindən keçməsi üçün bu anlaşma lazımdır.

Böyük boru kəmərinin Türkiyə ərazisindən keçməsi və Ceyhan limanına çatdırılması haqqında bu ilin mayında Türkiyədə səfərdə olarkən mənə həddindən artıq çox suallar vermişdilər. Mən onlara cavab vermişdim və sizə də cavab verirəm ki, bu boru kəmərinin Türkiyə ərazisindən Ceyhana keçməsini istəyirəm və buna nail olmaq üçün çalışacağam.

Sual: Cənab prezident, mən Avakyanam, erməni mətbuatını təmsil edirəm. Nyu-Cersi Ştatında yerləşən erməni radiostansiyasının müxbiriyəm. Mənim Sizə belə bir sualım vardır: Siz Dağlıq Qarabağın müstəqillik əldə etməsinə qarşı davamlı olaraq çıxışlar etmisiniz. Sumqayıtda, Gəncədə, Bakıda baş vermiş hadisələri, Ermənistanın doqquz ildən bəri davam edən blokadasını nəzərə alsaq, Dağlıq Qarabağda yaşayan insanlar Sizin onlara yüksək muxtariyyət vermək barədə bəyanatlarınıza necə inana bilərlər? İkinci sualım isə belədir: Ermənistan öz ərazisindən Naxçıvana humanitar yardımın keçirilməsi üçün yol açdığı bir halda, nə üçün Azərbaycan hökuməti öz ərazisindən Ermənistana humanitar yardımların aparılmasına qarşı çıxır?

Cavab: Hörmətli xanım, bilirsiniz, sizin sualınız qərəzli materiallar əsasında qurulubdur. Doqquz il bundan öncə Ermənistan-Azərbaycan münaqişəsini yaradan Azərbaycan deyil, Ermənistandır. Azərbaycan və Ermənistan sülh şəraitində yaşadığı bir zaman Ermənistan 1988-ci ildə Dağlıq Qarabağı Azərbaycandan zorla qoparıb Ermənistana birləşdirmək üçün belə bir hərbi münaqişə başlayıbdır. Bu hərbi münaqişə, Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizi işğal olunubdur. Bu torpaqları Ermənistan silahlı qüvvələri işğal ediblər. Bu ərazidə yaşayan bir milyon azərbaycanlı öz yerindən-yurdundan didərgin düşübdür.

1988-ci ildə münaqişə başlayarkən Dağlıq Qarabağda 170 min əhali yaşayırdı. Onun cəmisi 70 faizi erməni, 30 faizi isə azərbaycanlı idi. Onlar bir yerdə rahat yaşayırdılar. Ancaq bu təcavüz nəticəsində Azərbaycan ərazisində, Dağlıq Qarabağda yaşayan azərbaycanlılar öz evlərindən-eşiklərindən qovulublar. Dağlıq Qarabağın ətrafında olan 7 inzibati rayon işğal olunubdur. Onların sırf azərbaycanlılardan ibarət olan əhalisi öz yerindən qovulubdur. Bu təcavüz nəticəsində gedən döyüşlərdə on minlərlə azərbaycanlı şəhid, həlak olubdur. İşğal olunmuş ərazilərimizdə bütün yaşayış yerləri, məktəblər, xəstəxanalar, uşaq bağçaları, mədəniyyət ocaqları, tarixi abidələrimiz sənaye müəssisələri - hamısı bütünlüklə dağıdılıbdır.

Ermənistan ərazisində Azərbaycan tərəfindən bir qarış torpaq da işğal olunmayıbdır. Belə halda siz deyirsiniz ki, «Sizin Dağlıq Qarabağa muxtariyyət verməyinizə necə inansınlar?»

Siz Sumqayıt, Gəncə hadisələrini xatırlayırsınız. Keçmişdə münaqişə zamanı hər yerdə nəsə olubdur. Ancaq Azərbaycan ərazisinin 20 faizinin işğal edilməsi, bir milyondan artıq vətəndaşımızın yerindən-yurdundan qovulması və onların əksəriyyətinin şəhid olması, həlak olması heç bir şeylə müqayisə oluna bilməz. Ancaq hesab edirəm ki, biz bütün bunlara baxmayaraq, yenə də irəliyə baxmalıyıq, geriyə yox.

Ermənistan ilə Azərbaycanın taleyi onları qonşu yaşamağa məcbur edibdir və biz qonşu yaşamalıyıq, münasibətləri bərpa etməliyik. Bizim ölkələrimiz arasında sülh olmalıdır və

insanlarımız bir-birinə xeyirxah münasibət göstərməlidirlər.

Mən görürəm sizin əlinizdə bir kitabça var. O, Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş Azərbaycan torpaqlarından didərgin düşmüş adamların vəziyyətini əks etdirən kitabçadır. Güman edirəm ki, o kitabçaya, mən məsləhət görərəm ki, Sizə hələ bir kaset də versinlər, onlara baxandan, həmin qaçqınların vəziyyətini görəndən sonra siz fikrinizi dəyişdirəcəksiniz.

Mən sizi sülhə dəvət edirəm. Mən rica edirəm, Amerikada yaşayan ermənilərə də deyəsiniz ki, mən hamını sülhə dəvət edirəm.

Sual: Xahiş edirəm ABŞ-a bu rəsmi səfəriniz zamanı imzalanacaq neft müqavilələri barədə də bir neçə kəlmə deyəsiniz.

Cavab: Bilirsiniz, mən sizə indiyədək imzalanmış neft müqavilələri haqqında danışa bilərəm. Azərbaycan transmilli neft şirkətləri ilə indiyədək altı böyük neft müqaviləsi imzalamışdır. Bu müqavilələrin iştirakçıları Amerika Birləşmiş Ştatlarının, Böyük Britaniyanın, Fransanın, Almaniyanın, İtaliyanın, Norveçin, Türkiyənin, İranın, Səudiyyə Ərəbistanının, Yaponiyanın şirkətləridir. Bu müqavilələr həyata keçirilir. Bir neçə müqavilə də hazırlanıbdır. Biz bunları bəlkə də Vaşinqtonda imzaladıq. İki gün gözləyin, bu müqavilələr imzalanandan sonra biləcəksiniz. Mən sizə təşəkkür edirəm. Sağ olun.

BMT-də akkreditə olunmuş dünya dövlətlərinin daimi nümayəndələri - səfirləri ilə görüşdə Azərbaycan Prezidenti Heydər Əliyevin çıxışı - Nyu-York, BMT-nin binası, 29 iyul 1997-ci il

Hörmətli sədr!

Hörmətli səfirlər, möhtərəm xanımlar və cənablar!

Sizin hamınızı ürəkdən salamlayıram və bu gün sizinlə görüşməyə və sizin qarşınızda çıxış etməyə imkan verildiyinə görə sizə dərin minnətdarlığımı bildirirəm.

Mən prezident Bill Klinton cənablarının dəvəti ilə Amerika Birləşmiş Ştatlarında rəsmi səfərdəyəm. Bu, Azərbaycan prezidenti kimi mənim Amerika Birləşmiş Ştatlarına ilk rəsmi səfərimdir. Mən Birləşmiş Millətlər Təşkilatına öz böyük hörmətimi bildirmək və təbii olaraq, Azərbaycan haqqında, onun bugünkü həyatı haqqında danışmaq üçün Dünya Birliyinin bu mötəbər beynəlxalq təşkilatında dünən də olmuşam, bu gün də.

Mən Birləşmiş Millətlər Təşkilatının Baş katibi Kofi Annan cənabları ilə görüşmüşəm. Dünən mən Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasında oldum, onun üzvləri ilə görüşdüm və bu gün sizin qarşınızdayam - Birləşmiş Millətlər Təşkilatına daxil olan ölkələrin BMT-də akkreditə edilmiş daimi nümayəndələri qarşısındayam.

Mən bu imkanı yüksək qiymətləndirirəm və bu görüşü keçirmək təşəbbüsü üçün Birləşmiş Millətlər Təşkilatının islam seksiyasına təşəkkür edirəm. Fürsətdən istifadə edərək, Azərbaycan haqqında, respublikanın bugünkü həyatı haqqında, problemlərimiz haqqında bir neçə söz demək və təbii olaraq, sizin suallarınıza vaxt saxlamaq istəyirəm.

Keçmişdə Sovet İttifaqına daxil olmuş digər respublikalar kimi, Azərbaycan da dövlət müstəqilliyini SSRİ dağıldıqdan sonra əldə etmişdir. Dövlət müstəqilliyinə nail olmaq Azərbaycan xalqı üçün tarixi hadisədir və o öz dövlət müstəqilliyini qoruyub saxlamaq və möhkəmlətmək, Azərbaycanın hər hansı digər bir dövlətin hakimiyyəti və ya tabeliyi altında bir daha olmaması üçün bu müstəqilliyin pozulmasına yol verməmək əzmindədir.

Azərbaycan dövlət müstəqilliyi əldə etdiyi vaxtdan bəri hüquqi, demokratik, dünyəvi dövlət qurmaq, bütün sahələrdə demokratik islahatlar aparmaq xətti götürmüşdür. 1995-ci ildə ümumxalq referendumu yolu ilə Azərbaycanda ilk demokratik konstitusiya qəbul edildi və həmin ilin noyabrında çoxpartiyalılıq əsasında demokratik seçkilər yolu ilə Azərbaycan parlamentinə seçkilər keçirildi. Parlamentimiz fəaliyyət göstərir, burada təxminən səkkiz partiya təmsil olunmuşdur. Parlamentimiz öz qanunvericilik funksiyalarını fəal həyata keçirir.

Azərbaycan Konstitusiyasında bütün insan hüquqları nəzərdə tutulur, onun üçdə bir hissəsi bu hüquqlara həsr edilib. Azərbaycanda siyasi plüralizm prinsipi, mətbuat azadlığı bərqərar olub, rəsmən qeydə alınmış 30-dan artıq siyasi partiya, müxtəlif hərəkatlar, qeyri-hökumət təşkilatları fəaliyyət göstərirlər. Azərbaycanda 600-dək qəzet çıxır, onların mütləq əksəriyyəti müxtəlif təşkilatlara, özəl təşkilatlara, siyasi partiyalara məxsusdur və çoxu da müxalif təşkilatların, partiyaların ixtiyarındadır.

Azərbaycan çoxmillətli dövlətdir. Milli mənsubiyyətindən asılı olmayaraq bütün adamların dini etiqad azadlığı, vicdan azadlığı və hüquq bərabərliyi bizdə tamamilə təmin edilmişdir.

Azərbaycanda iqtisadi həyat seçdiyimiz strateji yolla gedir. Bu yol bazar iqtisadiyyatı yaratmaqdan, iqtisadiyyatı bazar prinsipləri əsasında yenidən qurmaqdan ibarətdir. Bütün sahələrdə iqtisadi islahatlar aparılır, mülkiyyətin özəlləşdirilməsi geniş səpgidə həyata keçirilir, torpaq islahatı haqqında qanun qəbul edilib və bu qanuna uyğun olaraq bütün torpaq xüsusi mülkiyyətə verilir. Azərbaycanda xüsusi sahibkarlıq üçün hər cür şərait yaradılıb, özəl sektorun yaradılması iqtisadi siyasətimizin strateji istiqamətlərindən biridir.

Azərbaycan bütün ölkələrlə, bütün dünya ilə inteqrasiya üçün açıqdır. Son illərdə ölkəmizə, xüsusən neft və qaz yataqlarımızın işlənməsi üçün, eləcə də iqtisadiyyatın digər bütün sahələrində əməkdaşlıq üçün böyük məbləğdə xarici sərmayələr qoyulmuşdur.

Özəlləşdirmə haqqında qanunda xarici şirkətlərin, xarici hüquqi və fiziki şəxslərin mülkiyyət almaq imkanı nəzərdə tutulur, yəni özəlləşdirmə prosesində Azərbaycan vətəndaşları olmayan adamlar da iştirak edə bilərlər.

Bütün bu iqtisadi, siyasi islahatlar, sosial sahədə islahatlar bizə Sovet İttifaqı dağıldıqdan sonra qarşılaşdığımız çətinlikləri, xüsusən də istehsal sahəsində, iqtisadiyyatda təxminən 1988-ci ildə başlanmış durğunluğu aradan qaldırmağa imkan vermişdir. 1996-cı ildə biz dönüş yaratmağa müvəffəq olduq və 1997-ci ilin birinci yarısının göstəricilərinə görə, cari il respublikamızda iqtisadiyyatın və sosial sahənin daha da inkişaf etdirilməsi ili olacaqdır. Şübhəsiz ki, bu, iqtisadi və sosial islahatlar aparılmasının nəticəsidir və təbii olaraq, bizə respublikamızın əhalisinin həyat səviyyəsini ardıcıl surətdə yüksəltməyə imkan verir.

Bununla bərabər, Azərbaycanda problemlər var. Respublikamızın mürəkkəb problemlərindən biri bizə zorla qəbul etdirilmiş Ermənistanla Azərbaycan arasındakı münaqişədir. Bildiyiniz kimi, bu münaqişə hələ 1988-ci ildə başlanıb, o vaxtlar Azərbaycan və Ermənistan Sovet İttifaqının tərkibində idi. Münaqişə erməni tərəfinin, daha doğrusu, Ermənistan Respublikasının təşəbbüsü ilə başlanıb və bundan da məqsəd Azərbaycan Respublikası ərazisinin bir hissəsini - Dağlıq Qarabağ Muxtar Vilayətini qoparıb Ermənistana birləşdirməkdir. Buna səbəb o idi ki, Dağlıq Qarabağda ermənilər də yaşayırdı. Həqiqətən, Dağlıq Qarabağda münaqişə başlanan vaxtadək bütün əhali 170 min nəfərdən ibarət idi, onların 70 faizi erməni millətindən, 30 faizi Azərbaycan millətindən olan şəxslər idi. Dağlıq Qarabağ Vilayəti Azərbaycan Respublikasının tərkibində muxtariyyət hüquqlarına malik idi və bu hüquqlardan iqtisadi həyatda da, sosial həyatda da, siyasi həyatda da istifadə edirdi, buna görə də bu münaqişəni başlamağa əsas yox idi, lakin münaqişə başlandı. Zənnimcə, bu, Sovet İttifaqının həmin dövrdəki bəzi rəhbərlərinin havadarlığı ilə, özü də görünür, məhz o vaxtlar Ermənistanda olmuş ekstremist, qəsbkar qüvvələrə yarınmaq üçün edilmişdir.

Təəssüf ki, hətta sovet hakimiyyəti illərində, - 1988-ci ildən 1991-ci ilin axırlarınadək, SSRİ hələ mövcud olan dövrdə, - bu münaqişənin qarşısını almaq mümkün olmadı və o, daha da genişlənib hərbi əməliyyatlar xarakteri aldı. Müxtəlif səbəblərə və ayrı-ayrı dövlətlər tərəfindən Ermənistana havadarlıq edildiyinə görə erməni tərəfi üstünlüyə malik oldu, bunun nəticəsində erməni silahlı birləşmələri Azərbaycan ərazisinin 20 faizini işğal etdilər. Dağlıq Qarabağdan ən əvvəl Azərbaycan millətindən olan bütün şəxslər qovuldular və o, tamamilə işğal olundu. Sonra işğalçı qüvvələr öz əməliyyatının radiusunu genişləndirdi və Dağlıq Qarabağ Vilayətinə bitişik olan təxminən yeddi inzibati rayon qəsb edildi. Ümumiyyətlə, 86 min kvadrat kilometr olan Azərbaycan ərazisinin 16 min kvadrat kilometrindən çoxu, yəni onun 20 faizi işğal olunmuşdur.

Dağlıq Qarabağ ətrafındakı işğal edilmiş Azərbaycan rayonlarında ancaq Azərbaycan millətindən olan adamlar yaşayırdılar. Bu işğal nəticəsində onların hamısı zorla, silah gücünə həmin rayonlardan qovuldu, indi Azərbaycanın müxtəlif rayonlarında yerləşdirilmişdir, onların böyük əksəriyyəti artıq neçə illərdir çadırlarda və təbii olaraq, çox ağır şəraitdə yaşayır.

Bu münaqişə, müharibə nəticəsində Azərbaycana çox böyük maddi ziyan vurulmuş, on minlərlə adam həlak olmuşdur. Mənəvi zərər də çox böyükdür. İşğal olunmuş ərazilərdə hər şey, o cümlədən yaşayış evləri, inzibati binalar, məktəblər, xəstəxanalar, mədəniyyət ocaqları, bütün infrastruktur, müqəddəs yerlər, milli arxitektura, incəsənət abidələri dağıdılmış, qarət edilmişdir. Bu torpaqlarda törədilmiş vəhşilik, azğınlıq son həddə çatır.

Biz öz ərazi bütövlüyümüzü, öz suverenliyimizi qoruyaraq bu münaqişənin dayandırılmasına çalışırıq və 1994-cü ildə atəşkəsə razılıq verdik. Ermənistanla Azərbaycan arasında atəşkəs haqqında saziş bağlandı. Bu, 1994-cü ilin mayında olmuşdur. Atəşkəs rejimi indiyədək qalır və mən bunu 1988-ci ildən başlanmış qanlı müharibə fonunda tərəflərin mühüm nailiyyəti hesab edirəm.

Səciyyəvi haldır ki, atəşkəs rejimi xarici çoxmillətli sülhyaratma qüvvələri cəlb olunmadan, yəni razılaşmalar əsasında, münaqişə tərəflərinin qüvvələri ilə saxlanılır. Bu, qeyd edilməli olan mühüm müsbət amildir.

Münaqişəni dincliklə aradan qaldırmaq prosesini ATƏT-in 1992-ci ildə yaradılmış Minsk

qrupu həyata keçirir. Bu məsələ ilə Birləşmiş Millətlər Təşkilatı da, Təhlükəsizlik Şurası da məşğul olmuşdur. Dağlıq Qarabağın hüdudlarından kənarda yerləşən Azərbaycan rayonları işğal edilərkən BMT-nin Təhlükəsizlik Şurası bu məsələyə bir neçə dəfə baxmışdır. 1992-ci ilin təxminən axırlarından başlayaraq Təhlükəsizlik Şurasının dörd qətnaməsi - 822, 853, 874 və 884 nömrəli qətnamələri qəbul edilmişdir. Bundan başqa, bu məsələ ilə əlaqədar Təhlükəsizlik Şurası sədrinin bir neçə xüsusi bəyanatı olmuşdur. Bütün bu qətnamələrdə, bəyanatlarda erməni silahlı birləşmələrinin işğal etdikləri Azərbaycan rayonlarından çıxarılması, bu rayonların qeyd-şərtsiz azad edilməsi tələbi aydın və dürüst şəkildə irəli sürülmüşdür, lakin Təhlükəsizlik Şurasının bu qətnamələri və onun sədrinin bəyanatları həmin əraziləri işğal etmiş ermənilər tərəfindən yerinə yetirilməmişdir və həyata keçirilməmiş qalmışdır.

Bununla bərabər, BMT və Təhlükəsizlik Şurası ATƏT-ə bu məsələ ilə məşğul olmaq mandatı vermiş və 1992-ci ildə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin dincliklə aradan qaldırılması üçün ATƏT öz tərkibində Minsk konfransı - Minsk qrupu yaratmışdır. Bütün bu müddətdə Minsk qrupu bu məsələ ilə ardıcıl məşğul olmuşdur. Ancaq təəssüf ki, müsbət nəticələr olmamışdır. 1994-cü ilin dekabrında ATƏT-in Budapeşt Zirvə görüşündə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi müzakirə edilmişdir. ATƏT-in qərarı qəbul olunmuşdur. Bu qərarda məsələni Azərbaycanın ərazi bütövlüyü prinsipləri və işğalçı qoşunları onların qəsb etdikləri Azərbaycan rayonlarından çıxarmaq prinsipləri əsasında tez bir zamanda dincliklə tənzimləmək nəzərdə tutulur. Elə o vaxt işğalçı qoşunların qəsb olunmuş Azərbaycan ərazilərindən çıxarılmasında və münaqişənin dincliklə aradan qaldırılmasının təmin olunmasında istifadə etmək üçün ATƏT-in çoxmillətli sülhməramlı qüvvələrini yaratmaq haqqında qərar qəbul edilmişdir.

1996-cı ilin dekabrında ATƏT-in Lissabon Zirvə görüşündə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi yenə də yüksək səviyyədə müzakirə mövzusu olmuşdur. O vaxt münaqişəni dincliklə aradan qaldırmaq prinsipləri qəbul edilmişdir. Bu prinsiplər üç bənddən ibarətdir. Birincisi, Azərbaycan Respublikasının və Ermənistan Respublikasının ərazi bütövlüyünün tanınması. İkincisi, Azərbaycanla saziş əsasında Dağlıq Qarabağa Azərbaycan Respublikasının tərkibində yüksək özünüidarə statusu verilməsi. Üçüncüsü, Dağlıq Qarabağın bütün əhalisi üçün təhlükəsizliyin təmin edilməsi. Təəssüf ki, ATƏT-in bütün üzvlərinin dəstəklədiyi bu sənəd, - ona 53 dövlət səs vermişdi, - Ermənistan tərəfindən rədd edildi, Ermənistan onun əleyhinə səs verdi. Təəssüf ki, Ermənistan Dağlıq Qarabağa müstəqillik statusu verilməsi iddiaları və tələbləri mövqeyində indiyədək qalmaqdadır.

Əlbəttə, biz hesab edirik ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin dincliklə nizama salınması üçün kompromislər, fəal tədbirlər lazımdır. Azərbaycan həmişə kompromisli mövqelər tutur. Azərbaycanın Lissabon Zirvə görüşündə dincliklə nizamasalma prinsiplərinin qəbul edilməsinə razılıq verməsi də onun tərəfindən edilmiş kompromisdir. Dağlıq Qarabağa ən yüksək özünüidarə statusu verilməsinə razılığın özü də böyük kompromisdir, çünki bu, unitar bir dövlət kimi Azərbaycanın suverenliyinə xələl gətirir. Lakin erməni tərəfi kompromisə getmir və təkrar edirəm, Dağlıq Qarabağa müstəqillik verilməsi mövqelərində indiyədək qalmaqdadır.

Biz bu gün də kompromis mövqedə durmuşuq, amma heç vaxt razılaşa bilmərik ki, Dağlıq Qarabağa müstəqillik statusu verilsin. Biz razılaşa bilmərik ki, Azərbaycanın ərazisində ikinci erməni dövləti yaradılsın. Buna görə də Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasını tələb edirik.

Lissabon Zirvə görüşündən sonra ATƏT-in Minsk qrupunun həmsədrliyində dəyişikliklər baş verdi. İndi Rusiya, Amerika Birləşmiş Ştatları və Fransa onun həmsədrləridir. Biz bunu alqışlayırıq, ona görə ki, əgər dünyanın üç iri dövləti, Təhlükəsizlik Şurasının üç daimi üzvü Ermənistanla Azərbaycan arasında münaqişənin həlli üzrə Minsk konfransında həmsədrlik funksiyasını həyata keçirmək öhdəliyini öz üzərlərinə götürürsə, deməli, onlar bu məsələni həll etməlidirlər və buna qadirdirlər, odur ki, biz bu dəyişikliyi alqışladıq və buna böyük ümidlər bəsləyirik.

İyunun 20-də Denverdə «Səkkizlər»in dövlət başçılarının görüşündə Rusiya prezidenti Boris Yeltsin, Amerika prezidenti Bill Klinton və Fransa prezidenti Jak Şirak Ermənistan-Azərbaycan

Dağlıq Qarabağ münaqişəsinin dincliklə aradan qaldırılmasının zəruriliyi haqqında birgə bəyanat vermişlər. Bu, müsbət addımdır, biz sonrakı konkret tədbirləri gözləyirik.

İyunun əvvəllərində yeni heyətdə Minsk konfransının həmsədrləri yeni təkliflər irəli sürdülər. Biz onları nəzərdən keçirmişik və iyulun 18-də onlarla regionda yenidən görüşdük, onların yeni təkliflərini aldıq. Bu təkliflər iki hissədən ibarətdir. Birinci hissədə erməni silahlı birləşmələrinin işğalı altında olan altı rayondan onların çıxarılması, bu rayonların sakinlərinin öz yaşayış yerlərinə qayıtması nəzərdə tutulur. İkinci hissə Dağlıq Qarabağın statusunun qəti olaraq müəyyənləşdirilməsinə və bununla eyni zamanda Azərbaycanın digər iki rayonu - Laçın və Şuşa rayonları haqqında məsələnin həllinə, yəni onların işğalçı qoşunlardan azad edilməsinə və bu rayonların sakinlərinin oraya qayıtmasına aiddir.

Şübhəsiz ki, bu təkliflərdə əvvəlki təkliflərlə müqayisədə müsbət məqamlar var, lakin işlənməli, tənzimlənməli olan məsələlər də var. Elə məsələlər var ki, biz onlarla razılaşa bilmərik. Buna baxmayaraq, biz bu təkliflərə müsbət cavab verdik, çünki hesab edirik ki, onlar danışıqlar prosesini gücləndirmək üçün əsas ola bilər, indi biz bu istiqamətdə əməli tədbirlər gözləyirik.

Söhbətin nədən getdiyini əyani surətdə göstərmək istərdim. Bu, Azərbaycanın xəritəsidir. Bu, Ermənistandır, bura Naxçıvan Muxtar Respublikasıdır və o, Azərbaycana məxsusdur. Müxtəlif rənglərlə boyadılmış bu Azərbaycan əraziləri erməni silahlı birləşmələri tərəfindən işğal olunmuşdur. Dağlıq Qarabağın ərazisi qırmızı, Azərbaycanın Dağlıq Qarabağ ətrafında və ancaq azərbaycanlıların yaşamış olduğu inzibati rayonlarının ərazisi yaşıl, Laçın və Şuşa rayonlarının ərazisi sarı rənglə boyanmışdır. Laçın rayonu Dağlıq Qarabağla Ermənistan arasında yerləşir. Erməni tərəfi Dağlıq Qarabağla Ermənistan arasında nəqliyyat-kommunikasiya əlaqəsinin olması baxımından Laçın rayonunu özü üçün mühüm sayır.

Laçın rayonundan keçib Dağlıq Qarabağı Ermənistanla birləşdirən yol qara xətlə çəkilmişdir. Bura Şuşa rayonudur, o, Dağlıq Qarabağ Muxtar Vilayətinin tərkibinə daxil olmuşdur, lakin orada həmişə əsasən azərbaycanlılar yaşamışlar. Şuşa rayonu Azərbaycanın tarixi və mədəni mərkəzidir, orada Azərbaycan xalqının nadir memarlıq və incəsənət abidələri var. Ona görə də biz əyanilik üçün bu rayonları sarı rənglə boyamışıq, bu zaman onu əsas tutmuşuq ki, Minsk qrupunun həmsədrləri tərəfindən axırıncı dəfə təqdim olunmuş təkliflərdə söhbət məhz bundan gedir ki, yaşıl rənglə boyanmış bu rayonlar işğalçı qoşunlardan azad edilməli, bu sülhməramlı əməliyyatın həyata keçirilməsi üçün yaradılmalı olan ATƏT-in sülhməramlı qüvvələri Dağlıq Qarabağ vilayətinin sərhədində və Ermənistanla Azərbaycanın sərhədində, - mən işğal edilmiş əraziləri nəzərdə tuturam, - yerləşdirilməlidirlər. Bu təkliflərə uyğun olaraq növbəti mərhələdə Dağlıq Qarabağın statusu məsələsinə və bu məsələ ilə eyni zamanda Laçın və Şuşa rayonları ərazilərinin işğalçı qoşunlardan azad edilməsi məsələsinə baxılmalıdır.

Erməni tərəfinin həmişə irəli sürdüyü məsələ Ermənistanla əlaqə üçün Dağlıq Qarabağa dəhliz verilməsindən ibarətdir. Biz bu cür dəhlizi həmişə təklif etmişik, yeri gəlmişkən, bu gün də təklif edirik. Bu dəhliz beynəlxalq sülhməramlı qüvvələrin nəzarəti altında Laçın rayonunun ərazisində verilə bilər. Bu dəhlizin parametrləri barədə bizim konkret mülahizələrimiz də var. Odur ki, bu bölgədə sülhün və dincliyin tamamilə bərqərar edilməsi üçün sülhməramlı qüvvələrin nəzarəti altında olacaq bu dəhliz Dağlıq Qarabağın Ermənistanla müntəzəm əlaqəsini büsbütün təmin edəcəkdir.

İndi danışıqlar üçün, bu məsələnin həlli üçün məqbul mövqe məhz bundan ibarətdir.

O ki qaldı Dağlıq Qarabağa status verilməsinə, biz dəfələrlə demişik ki, bu statusu dünyada mövcud olan nümunələr əsasında, belə muxtar qurumlar üçün dünyada mövcud olan statuslar əsasında verməyə hazırıq. Belə qurumlar Rusiyanın tərkibində də var. Məsələn, Tatarıstan Rusiyanın tərkibində çox yüksək özünüidarə statusuna malikdir. Belə qurumlar Avropada da, Yer kürəsinin başqa hissələrində də mövcuddur. Yəni artıq bu cür praktika var və bu praktika tarixən təşəkkül tapmışdır. Biz bu cür statusun hər hansı modelindən istifadə edərək onu Dağlıq Qarabağ barəsində də tətbiq edə bilərik. Lakin bir daha təkrar edirəm ki, biz Dağlıq Qarabağa müstəqillik statusu verilməsi ilə əsla razılaşa bilmərik. Hesab edirəm ki, buna Dünya Birliyi də

yol verməməlidir, çünki iddialar Birləşmiş Millətlər Təşkilatının nizamnaməsinə, beynəlxalq hüquq normalarının prinsiplərinə və ATƏT-in prinsiplərinə ziddir.

Hazırda dünyada müxtəlif münaqişələr baş verir, onlardan bəziləri bununla bağlıdır ki, ayrı-ayrı milli qurumlar müstəqillik əldə etməyə çalışırlar. Belə hallardan heç birində bu cür tələb ödənilməmişdir. Bu, burada da ödənilməməlidir və ödənilə bilməz. Ona görə ki, erməni xalqı artıq çoxdan öz müqəddəratını müəyyənləşdirib, müstəqil Ermənistan Respublikası simasında öz dövlətinə malikdir. Daha bir, sonra isə ola bilsin üçüncü və dördüncü Ermənistan Respublikası yaradılması beynəlxalq hüquq normalarının müasir anlayışlarına heç cür sığışa bilməz.

İndi bizi narahat edən başlıca məsələ, əslində məhz bundan ibarətdir. Təbii ki, bununla bağlı digər məsələlər də var və onlar Azərbaycan üçün böyük çətinliklər yaradır. Məsələn, 1992-ci ildə Amerika Birləşmiş Ştatlarının Konqresi Azərbaycanın Ermənistanı guya blokadaya aldığına görə ölkəmiz barəsində çox ədalətsiz bir qərar qəbul etdi. ABŞ tərəfindən Azərbaycana hər hansı yardım göstərilməsinə embarqo qoyuldu. Lakin indi Amerika cəmiyyətində, Konqresdə, ABŞ hökumətində bu qərarın ədalətsizliyi barədə rəy yetişir və biz də onun ləğv edilməsinə çalışırıq. Amma bu da bu məsələ ilə bağlıdır. Yeri gəlmişkən, demək istəyirəm ki, Ermənistan o vaxtlar da Azərbaycan tərəfindən blokadaya alınmamışdı və bu gün də blokadada deyildir. Ermənistan Gürcüstan ərazisi ilə Qara dəniz limanlarına çıxmaq üçün, İran ərazisi ilə başqa ölkələrə çıxmaq üçün kifayət qədər yaxşı kommunikasiya əlaqələrinə malikdir. Buna görə də guya Ermənistanın kommunikasiya blokadası şəraitində qaldığı və buna guya Azərbaycanın təqsirkar olduğu barədə süni surətdə yaradılmış rəy gerçəkliyə qətiyyən uyğun deyildir. Bu, gerçəkliyə onda da uyğun olmayıbdır, indi də uyğun deyildir.

Yeri gəlmişkən, əgər blokadadan danışmalı olsaq, onda baxın, Azərbaycan dəmir yolu ilə Ermənistanla kommunikasiya əlaqələrinə malik idi, dəmir yolu Bakıdan başlayaraq İran Azərbaycan sərhədi boyu bu xətlə gedir, onun təxminən 40 kilometri Ermənistan ərazisindən, sonra Naxçıvan Muxtar Respublikasının ərazisindən keçib Ermənistana gedir. Erməni silahlı birləşmələri Azərbaycanın İranla həmsərhəd olan və dəmir yolunun keçdiyi Füzuli, Cəbrayıl, Zəngilan rayonlarını bir-birinin ardınca işğal edərək, bu yolu özləri dağıtmış, özləri özlərini bu dəmir yol kommunikasiyasından məhrum etmişlər. Halbuki ağır blokada vəziyyətində olan Naxçıvan Muxtar Respublikasıdır. İndi o, Azərbaycanın əsas hissəsi ilə nə avtomobil yoluna malikdir, nə də dəmir yoluna. Naxçıvan Azərbaycanla ancaq hava yolu ilə əlaqə saxlayır. Görün, kim blokada vəziyyətindədir. Əlbəttə, Azərbaycanın Naxçıvan Muxtar Respublikası. Həm də bu blokada ölkəmizə qarşı erməni təcavüzünün nəticəsidir. Bu reallıqlar barəsində sizə ona görə məlumat verirəm ki, sizdə düzgün təsəvvür olsun.

Bütün bunlardan danışaraq bəyan etmək istəyirəm ki, biləsiniz: Ermənistan-Azərbaycan münaqişəsini dincliklə aradan qaldırmaq, tam sülhə nail olanadək atəşkəs rejimini saxlamaq mövqelərində Azərbaycan qəti dayanmışdır. Bu gün sizə qəti şəkildə bildirirəm ki, biz hərbi əməliyyatların yenidən başlanmasına heç vaxt yol verməyəcəyik, biz bunu istəmirik. Biz sülh istəyirik, məsələnin dincliklə tənzimlənməsini, Ermənistanla Azərbaycan arasında, nəhayət, uzunmüddətli və möhkəm sülh əldə edilməsini istəyirik. Bu, həm Ermənistanın, erməni xalqının xeyrinədir, həm də Azərbaycanın, Azərbaycan xalqının xeyrinədir.

Tale elə gətirmişdir ki, biz əsrlər boyu, minillər boyu qonşu olaraq yaşayırıq və gələcəkdə də belə olacaqdır. Heç kim - nə ermənilər, nə də azərbaycanlılar planetin başqa bir hissəsinə köçmək fikrində deyildirlər. Ona görə də bu reallığı nəzərə almaq və bunu əsas tutmaq lazımdır. Bu münaqişə nə qədər ağır olsa da, aradan qaldırılmalıdır. Sülh yaratmaq lazımdır. Bu, Ermənistanın xeyrinədir, çünki o, Azərbaycanla çox fəal iqtisadi əlaqələrə, ticarət əlaqələrinə malik olacaqdır. Bu, Azərbaycanın da xeyrinədir. Lakin bu, Azərbaycanın ərazi bütövlüyünün tamamilə bərpa olunması, onun işğal olunmuş ərazilərinin erməni silahlı qüvvələrindən azad edilməsi, bir milyon azərbaycanlı qaçqının öz yaşayış yerlərinə, o cümlədən də azərbaycanlıların Dağlıq Qarabağ ərazisinə qayıtması, Dağlıq Qarabağa Azərbaycan Respublikasının tərkibində yüksək dərəcəli status verilməsi şərtilə mümkündür.

Bizim mövqeyimiz qətidir, bununla birlikdə, hesab edirik ki, bütün bunlara nail olmaq üçün gələcəkdə də mümkün kompromislərə getmək lazımdır. Lakin bizim tərəfimizdən kompromis edilmişdir və biz erməni tərəfindən də kompromisə gedilməsini gözləyirik.

Sizə demək istədiyim bunlardır. Hələ çox şey deyə bilərdim, lakin vaxt saxlamaq istəyirəm ki, mənə sual verə biləsiniz, əlbəttə, əgər suallarınız varsa. Diqqətinizə görə sağ olun.

Engin Ansay (İslam Konfransı Təşkilatının BMT-dəki daimi nümayəndəsi): Hörmətli səfirlər, bildiyiniz kimi, bu, BMT-nin üzvü olan bir sıra digər dövlətlərin dəvət edilmiş nümayəndələrinin iştirakı ilə səfirlər səviyyəsində islam qrupunun geniş iclasıdır. Möhtərəm prezident Heydər Əliyev buraya gələrək bəyanatla çıxış etdi və sizə təklif etdi ki, suallarınızı verəsiniz. Əgər sualınız varsa, mən arzu edənlərə söz verirəm.

Nabil əl-Ərəbi (Misir səfiri): Azərbaycan prezidentinin ünvanına söylənilmiş təbrik sözlərinə qoşulmaq istərdim, mənə onu bu gün, dünən Təhlükəsizlik Şurasında dinləmək şərəfi nəsib oldu. Təhlükəsizlik Şurasında o öz hökumətinin mövqeyini, sülh proqramını şərh etdi, öz ölkəsindəki vəziyyətdən danışdı. Onun çıxışını dinləməyə imkan verib bizə göstərdiyi şərəfə görə ona bir daha təşəkkür etmək istəyirəm. Sağ olun.

Engin Ansay: Çıxış etmək istəyən varmı? Əgər yoxdursa, onda icazə verin, islam qrupunun üzvlərinə, prezident Əliyevə onun mühüm çıxışına görə dərin minnətdarlığımı bildirim. Onu əmin etmək istərdim ki, qrup onun toxunduğu mühüm məsələlərin nəzərdən keçirilməsini davam etdirəcəkdir.

Heydər Əliyev: Bu görüşə gəldiyinizə görə, məni çox diqqətlə dinlədiyinizə görə sizin hamınıza təşəkkür etmək istəyirəm. Mən bunda Azərbaycan Respublikasına, onun problemlərinə və xüsusən hamınızı narahat edən bir məsələyə - Ermənistanla Azərbaycan arasında münaqişənin həlli məsələsinə qayğı və diqqət görürəm. Ümidvaram ki, mənim izahatlarım, açıq, səmimi sözlərim və sülhsevər mövqeyimizi dürüst şərh etməyim sizə Birləşmiş Millətlər Təşkilatında və təbii olaraq, sizin hər birinizə öz ölkələrinizdə Ermənistanla Azərbaycan arasında münaqişənin tezliklə aradan qaldırılmasına mümkün yardımı göstərməyə kömək edəcəkdir. Biz ATƏT-in, onun Minsk konfransının imkanından istifadə edirik. Lakin bütün Dünya Birliyinin ali təşkilatı kimi Birləşmiş Millətlər Təşkilatı, təbii olaraq, daha böyük imkanlara malikdir. Siz bizim işlərimizə nəzarət edirsiniz və istəyirəm ki, münaqişənin dincliklə, ədalətlə, obyektiv surətdə aradan qaldırılmasının zəruriliyi ilə həmişə həmrəy olasınız.

Misir səfirinə Azərbaycanın ünvanına söylədiyi xoş sözlərə görə təşəkkür edirəm. Cənab sədr, Azərbaycanın ünvanına xoş sözlərinizə görə və belə görüşü təşkil edə bildiyinizə görə sizə təşəkkür edirəm. Sizə bunun üçün təşəkkür edirəm.

Reqlamentə görə, hələ 15 dəqiqə vaxtım qalır. Odur ki, ikinci məruzəni etmək istədim, amma sizə rəhm etməyi qərara aldım və buna görə də ikinci məruzəni etməyəcəyəm. Sağ olun, görüşənədək, gələn görüşlərədək.

YUNESKO- nun Baş direktoru Federiko Mayor cənablarına - Bakı şəhəri, 3 sentyabr 1997-ci il

Hörmətli cənab Federiko Mayor, insanın bütün hüquq və vəzifələrinin həyata keçməsi, inkişaf və demokratiya üçün sülhün zəruri olduğunu bir daha təsdiq edən insanın sülh hüququ haqqında Bəyannamənin layihəsini diqqətlə öyrəndim və bu barədə mülahizələrimlə bölüşmək istəyirəm.

Sona çatmaqda olan XX əsr bəşər tarixində çox ziddiyyətli bir səhifədir. Bir tərəfdən elmin və texnikanın inkişafı insanların yaşayış səviyyəsini yüksəltməyə imkan yaratdı, digər tərəfdən isə həmin nailiyyətlər insanın özünə qarşı yönəldi. İnsanları kütləvi şəkildə məhv edə bilən silahların kəşf edilməsi bütün bəşəriyyəti böyük bir təhlükə altında qoydu. Bu gün insan hüquqlarının beynəlxalq ictimaiyyət tərəfindən ümumbəşəri bir dəyər kimi qəbul edilməsinə baxmayaraq, onlar bir çox yerlərdə kobudcasına pozulur və bu da yalnız ayrı-ayrı dövlətlərdə bərqərar olunmuş totalitar rejimlərlə əlaqədar deyil. İnsan hüquqlarını kütləvi şəkildə pozan başlıca amil müharibədir.

Müharibələr nəticəsində insanların ən əsas hüququ – yaşamaq hüququ pozulur, onların yaşadıqları yerlər dağıdılır, mədəni sərvətlər məhv olunur, ailə üzvləri arasında əlaqələr kəsilir, insanlar öz yurdlarından didərgin düşür və böyük faciələrə düçar olur. Bütün bunlara bəraət qazandıra bilən heç bir səbəb yoxdur və ola da bilməz.

Yaxşı məlumdur ki, sülh olmadan insan hüquqlarına tam riayət olunması mümkün deyil. Sülh isə yalnız müharibənin olmaması demək deyil. Sülh həmçinin elə bir şəraitdir ki, bütün insanlar zorakılıqdan və qorxudan azad yaşayırlar, Hesab edirik ki, Bəyannamə layihəsində çox düzgün olar sülhün iki - beynəlxalq və daxili aspekti əks edilir.

Beynəlxalq aspektdə sülh bir tərəfdən dövlətlər arasında müharibələrin olmaması, digər tərəfdən isə xalqlar arasında qarşılıqlı hörmətə, etibara əsaslanan münasibətlərin mövcudluğu deməkdir.

Daxili aspektdə isə sülh məfhumu «vətəndaş sülhü» mənasını daşıyır ki, bu da vətəndaşların öz aralarında və vətəndaşlarla dövlət hakimiyyəti arasında münasibətləri ehtiva edir. Buna görə hər bir insanın sülh hüququ həm təhlükəsiz yaşamaq hüququ, həm də dövlətin idarə edilməsində fəal iştirak etmək və dövlətin daxili və xarici siyasəti haqqında dolğun və obyektiv məlumat almaq hüququ deməkdir. Öz xalqının mənafeyinə qarşı yönəlmiş və ya bu mənafelərin digər xalqlara qarşı qoyulması siyasəti yol verilməzdir.

Biz inanırıq ki, insan hüquqlarını təmin edən demokratik dövlət müharibəni birinci başlamaz. Burada xüsusi qeyd etmək istəyirəm ki, 1988-ci ildən bəri davam edən Ermənistanın Azərbaycana silahlı təcavüzü nəticəsində ərazimizin 20 faizi işğal edilmiş, 1 milyondan artıq vətəndaşımız öz yurdlarından didərgin düşmüş, on minlərlə insanlar həlak olmuş, mədəni sərvətlərimiz dağıdılmışdır. Lakin bütün bunlara baxmayaraq, Azərbaycan Respublikası sülhsevər siyasət apararaq, 1994-cü ilin may ayından atəşkəsin əldə olunmasına, ölkədə siyasi sabitliyə, vətəndaş həmrəyliyinə nail olmuş və münaqişəni yalnız sülh yolu ilə həll etmək niyyətindədir. Hesab edirəm ki, bütün bunlar Azərbaycanın insan hüquqlarına nə qədər hörmət etməsinə əyani sübutdur.

Biz sülhü insan həyatında ən ülvi məqsəd hesab edirik və bu baxımdan onun layihədə yalnız insan hüququ kimi deyil, həm də hər kəsin vəzifəsi kimi müəyyən edilməsini dəstəkləyirik. Hər bir insan dərk etməlidir ki, o, sülhün qorunmasına məsuliyyət daşıyır. Əgər bir kəs müharibənin mümkünlüyünü qəbul edirsə, deməli, onun başlanmasına rəvac verir. Digər tərəfdən isə sülhün öz-özünə bərqərar olacağını hesab etmək sadəlövhlük olardı, hər şey insanların özündən asılıdır. Əlbəttə, demək olar ki, hələ heç vaxt dünyada ümumi sülh olmayıb.

Amma bunu deməklə biz belə bir sülhün mümkünsüzlüyünü sübut etmiş olmuruq. Əgər ideya gerçəkliyə uyğun gəlmirsə, bu hələ o demək deyil ki, ideya düzgün deyil. Odur ki, bütün dövlətlər, təşkilatlar və insanlar hərəsi öz səviyyəsində sülhün bərqərar olmasına və onun qorunub saxlanmasına çalışmalıdırlar.

Sülh dövlətlərin siyasəti ilə sıx əlaqədə olmaqla yanaşı, həmçinin və bəlkə də hər şeydən əvvəl elm, təhsil və mədəniyyət məsələsidir. Yaxşı məlumdur ki, müharibənin əsas səbəblərindən biri

insanlar və xalqlar arasında dözümsüzlük şəraitidir.

Dözümsüzlük isə insanı zorakılığa vadar edə bilər. Buna görə də başlıca məqsəd insanlar arasında sülh, ədalət, azadlıq, qarşılıqlı hörmət, humanizm və bərabərlik ideyalarının yayılması, müharibə təbliğatı, dini, milli, irqi və sairə zəminlərdə düşmənçilik və ya ədavət salmaq məqsədi güdən hərəkətlərin qadağan olunmasındadır.

Layihənin son bəndində göstərilir ki, bütün dövlətlər insanların sülh hüququnu təmin etmək üçün bütün tədbirləri, o cümlədən konstitusion, qanunvericilik, inzibati, iqtisadi, sosial mədəni xarakterli və digər tədbirləri həyata keçirməlidirlər.

Şübhə etmirəm ki, Azərbaycan Respublikasının 1995-ci ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Konstitusiyaya digər qanunvericilik aktlarında bununla əlaqədar bir müddəaların olmasından xəbərdarsınız.

Belə ki, Konstitusiyanın müqəddiməsində Azərbaycan xalqının ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək niyyəti bəyan edilir. Daha sonra Konstitusiyada təsbit edildiyi kimi, Azərbaycan Respublikası başqa dövlətlərin müstəqilliyinə qəsd vasitə kimi və beynəlxalq münaqişələrin həlli üsulu kimi müharibəni rədd edir. Konstitusiyaya görə Azərbaycan dövlətinin ali məqsədi insan hüquq və azadlıqlarının təmin edilməsidir. Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsinin qayğısına qalır, insan ləyaqətini alçaldan və ya insanpərvərlik prinsiplərinə zidd olan dinlərin yayılmasını və təbliğ edilməsini qadağan edir, həmçinin, insanları hər hansı bir diskriminasiyadan müdafiə edir. Sülhün qorunmasında mədəniyyətin danılmaz rolunu nəzərə alaraq qeyd etmək lazımdır ki, Konstitusiya hər kəsin mədəni sərvətlərindən sərbəst istifadə etmək hüququnu, eləcə də milli mənsubiyyətini qoruyub saxlamaq və ana dilindən istifadə etmək hüquqlarını təmin edir, irqi, milli, dini, sosial ədavət və düşmənçilik oyadan təşviqatı və təbliğatı qadağan edir. Bu qadağanlar Azərbaycan Respublikasının cinayət qanunvericiliyində də öz əksini tapmışdır.

Biz inanırıq ki, bütün insanlar aralarında olan fərqlərə baxmayaraq, eyni tarixi köklərə malikdir və həyatda eyni məqsədlərə nail olmaq istəyirlər. Bəşəriyyətin keçmişi və bu günü bizə dəhşətli müharibələrdən xəbər verməyinə baxmayaraq, inanırıq ki, onun gələcəyi sülhdür.

Bu inama sadiq olaraq və bütün insanlara sülh arzulayaraq bildirmək istəyirəm ki, biz YUNESKO-nun insanların sülh hüququ haqqında Bəyannaməsinin qəbul edilməsi təklifini təqdirəlayiq hal hesab edirik və Bəyannamə layihəsini dəstəkləyirik.

Sizi əmin etmək istəyirəm ki, Azərbaycan Respublika demokratik, hüquqi, dünyəvi dövlət kimi bundan sonra da öz siyasətini yalnız sülhün bərqərar olmasına yönəldəcək və bu siyasətə sadiq qalacaqdır.

Dərin hörmət və ehtiramla,
Heydər Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin BMT-nin Baş katibi Kofi Annan ilə görüşdəki söhbətindən - Tehran, 11 dekabr 1997-ci il

Kofi Annan: Cənab prezident, Sizi səmimiyyətlə salamlayıram, görkəmli dövlət xadimi Heydər Əliyevlə görüşümdən şərəf duyduğumu bildirirəm.

Cənab prezident, Sizin Amerika Birləşmiş Ştatlarına ilk rəsmi səfəriniz, cənab Bill Klintonla, ABŞ hökumətinin digər rəsmi vəzifəli şəxsləri ilə keçirdiyiniz görüşlər, apardığınız danışıqlar, imzaladığınız sənədlər Amerika ictimaiyyətində böyük maraq doğurmuşdur.

Heydər Əliyev: Cənab Kofi Annan, mən də Sizi salamlayıram, xoş sözlərə görə Sizə minnətdarlığımı bildirirəm və Sizinlə görüşdən məmnun qaldığımı vurğulayıram və Azərbaycan ilə BMT arasında münasibətlərin hazırkı vəziyyətindən razılıqla bəhs edirəm.

ABŞ-a səfərim zamanı, cənab Kofi Annan, Sizinlə keçirdiyim görüşü, apardığım danışığı yüksək qiymətləndirirəm və İslam Konfransı Təşkilatının VIII zirvə toplantısında BMT Baş katibinin iştirakının böyük əhəmiyyət kəsb etdiyini vurğulayıram.

Ermənistanın Azərbaycana 1988-ci ildən bəri davam edən təcavüzündən söhbət açarkən bu münaqişənin aradan qaldırılması üçün BMT-nin qəbul etdiyi qətnamələri, Təhlükəsizlik Şurasının qərarlarını xatırlatmaq istərdim. Bildirirəm ki, Ermənistan indiyədək bu mühüm sənədlərə etinasızlıq göstərir.

Hörmətli cənab Kofi Annan, Sizə də yaxşı məlum olduğu kimi, ATƏT-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının 1996-cı ilin dekabrında Lissabonda keçirilən zirvə görüşündə Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün əsas prinsiplər qəbul olunmuşdur. Zirvə görüşünün məlum qərarlarından sonra Minsk qrupu çərçivəsində danışıqlar aparılmış, həmsədrlər münaqişənin sülh yolu ilə həllinə dair yeni təkliflər irəli sürmüşlər.

Bildirirəm ki, ölkəmizin ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş, bir milyondan çox vətəndaşımız yerindən-yurdundan zorla qovularaq qaçqın vəziyyətində, ağır şəraitdə çadırlarda yaşayır. Biz Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması, sərhədlərinin toxunulmazlığının təmin edilməsi, qaçqınların doğma yerlərinə qayıtması və münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün həmişə kompromis mövqedə dayanmışıq. Biz istəyirik ki, bu münaqişə beynəlxalq hüquq normaları əsasında həll edilsin. Azərbaycan münaqişənin ilk mərhələdə həll olunması barədə Minsk qrupu həmsədrlərinin təkliflərini əsas kimi qəbul etmişdir. Birinci mərhələdə Azərbaycanın işğal edilmiş altı rayonunun işğaldan azad edilməsi, ikinci mərhələdə isə Şuşa və Laçın rayonlarının işğaldan azad olunması ilə bərabər, Dağlıq Qarabağa Azərbaycan Respublikasının tərkibində yüksək muxtariyyət statusu verilməsi nəzərdə tutulur.

Kofi Annan: Bildirirəm ki, ATƏT-in Lissabon zirvə görüşündə qəbul edilmiş prinsiplər Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması üçün yaxşı əsas yaratmışdır. Nəzərə çarpdırıram ki, həmsədrlərin irəli sürdüyü təkliflərə də BMT tərəfdardır. BMT hər bir ölkənin o cümlədən müstəqil Azərbaycan Respublikasının ərazi bütövlüyünü tanıyır və onun haqq işini dəstəkləyir.

Heydər Əliyev: Cənab Kofi Annan, mən Sizi Azərbaycana rəsmi səfərə dəvət edirəm.

Kofi Annan: Dəvət məmnunluqla qəbul olunur.

Birləşmiş Millətlər Təşkilatının «Qadınlar və silahlı münaqişələr» mövzusunda beynəlxalq konfransının iştirakçılarına – 17 may 1998-ci il

Hörmətli konfrans iştirakçıları!

Sizi - Bakıda keçirilən beynəlxalq konfransın iştirakçılarını səmimi qəlbdən salamlayır və işinizdə uğurlar arzulayıram.

XX əsrin səciyyəvi xüsusiyyətlərindən biri dünya xalqlarının ictimai-siyasi həyatında qadınların fəallığının artmasıdır. Danılmaz faktdır ki, müharibələrin, silahlı münaqişələrin acı nəticələrinin əsas ağırlığı qadınların üzərinə düşür. Odur ki, onların sülh və əmin-amanlıq uğrunda, müharibələrə, silahlı münaqişələrə qarşı mübarizə yollarında böyük qətiyyət və əzmkarlıq göstərmələri tamamilə təbiidir.

Bu məsələlərə həsr olunmuş beynəlxalq konfransın məhz Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində keçirilməsi təsadüfi deyildir. On ildən artıqdır ki, müharibə vəziyyətində yaşayan, erməni silahlı qüvvələrinin təcavüzü nəticəsində torpaqlarının 20 faizini itirən, işğal olunmuş torpaqlardan didərgin düşərək çadırlarda ağır şəraitdə yaşayan bir milyondan artıq qaçqın və köçkünü olan respublikamızın hər bir vətəndaşı, xüsusilə qadınlar silahlı münaqişənin gətirdiyi fəlakətlərin nə olduğunu öz gündəlik həyatında hiss edir, dərindən dərk edir.

Dörd ildir ki, cəbhədə atəşkəsə nail olunmuşdur, hərbi əməliyyatlar dayandırılmışdır. Lakin münaqişəni dinc yollarla həll etmək üçün respublikamızın göstərdiyi bütün səylərə, BMT-nin müvafiq qərarlarına, ATƏT-in Minsk qrupunun bu istiqamətdə gördüyü işlərə baxmayaraq, hələ də sülh əldə edilməmişdir. Ümid edirəm ki, konfransınız Azərbaycan xalqının, xüsusilə qadınlarımızın həyatına böyük müsibətlər gətirmiş bu münaqişənin sülh yolu həlli məsələlərinə diqqət yetirəcək və bu işdə öz yardımını əsirgəməyəcəkdir.

Azərbaycan Respublikasının Konstitusiyası cəmiyyətdə qadınların kişilərlə hüquq bərabərliyini təmin edir. Respublikada qadınların ölkənin ictimai-siyasi həyatında, dövlət strukturlarında geniş təmsil olunması üçün imkanlar yaradılır.

Sizi əmin etmək istəyirəm ki, demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolu ilə inamla gedən Azərbaycan Respublikası qadınların hüquqlarının daha da genişləndirilməsi üçün bundan sonra da var qüvvəsini sərf edəcəkdir.

Hörmətli konfrans iştirakçıları!

Konfransınız bölgəmiz üçün xüsusi əhəmiyyət kəsb edən məsələlərə həsr olunmuşdur. Arzu edirəm ki, qadınların haqq səsi silahlı münaqişə alovlarını həmişəlik söndürsün və bəşəriyyət XXI əsrə sülhün və əmin-amanlığın tam bərqərar olduğu bir şəraitdə daxil olsun.

Heydər Əliyev
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri

Birləşmiş Millətlər Təşkilatının Baş katibi cənab Kofi Annana - Bakı şəhəri, 18 iyul 1998-ci il

Hörmətli cənab Baş katib!

Məmnuniyyətlə Sizin məktubunuzla tanış oldum. Toxunduğunuz məsələlərin vacibliyi şübhəsiz ki, bütün dövlətlərin diqqət mərkəzindədir.

Böyük ruh yüksəkliyi ilə Birləşmiş Millətlər Təşkilatının Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 50 illik yubileyini qeyd edirik. Məhz bu bəyannamədə insan hüquqları sahəsində ilk rəsmi sənədlərdən biri olmaqla onun mətnində təsbit olunmuş ümumbəşəri hüquqların dəyəri tam şəkildə səciyyələndirilir.

Bəşəriyyətin indiki inkişaf mərhələsi planetimizin sosial-siyasi və mənəvi simasının ən dərin dəyişiklikləri ilə əlamətdardır. Əlbəttə, bu dəyişikliklər müsbət xarakter daşıyır və beynəlxalq münasibətlərin ab-havasına olduqca əlverişli təsir göstərir.

Azərbaycan Respublikası da baş verən proseslərdən kənarda qalmamışdır. Sülh və tərəqqi yolunda Azərbaycan dövləti öz siyasətini həmişə bəşəriyyətin yüksək və daimi dəyərlərinə - demokratiyaya, insan hüquqlarının və azadlıqlarının təmin edilməsinə yönəltmişdir.

Hörmətli dost!

Güman edirəm ki, Azərbaycanda son illərdə əldə edilmiş nailiyyətlər tanış olmaq sizin üçün maraqsız olmayacaq.

1995-ci ildə ümumxalq səsverməsi yolu ilə müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbul edilməsi və çoxpartiyalı parlamentinin seçilməsi cəmiyyətin demokratikləşdirilməsi və hüquqi dövlətin qurulması prosesinin ən vacib mərhələlərindən biridir. Konstitusiya, Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin müddəalarını özündə əks etdirərək və demokratik cəmiyyətlərin təcrübəsini nəzərə alaraq yaradılmışdır. Qanunvericilik sistemində mövcud olmuş müstəsna cəza tədbiri - ölüm cəzası - dövlətimizə keçmiş Sovet İttifaqından acınacaqlı miras kimi qalmışdır. Halbuki 1993-cü ilin iyun ayından başlayaraq, Azərbaycanda ölüm hökmü icra olunmamış, faktiki olaraq onların icrasına tərəfimdən moratorium qoyulmuşdur. Sonradan bu moratorium reallığa çevrilərək, Azərbaycanda ölüm hökmünün ləğv edilməsi zərurətinə gətirib çıxarmışdır.

İnsan hüquqlarının təmin edilməsini ümumdövlət vəzifəsi hesab edərək, bu il fevralın 3-də ölüm cəzasının ləğv edilməsi təşəbbüsü ilə parlamentə müraciət etdim və humanist akt qəbul edildi.

Bununla da Şərq aləmində ilk dəfə olaraq Azərbaycanda ölüm cəzasının ləğvi ölkəmizin dünyəvi, demokratik və hüquqi dövlət quruculuğu yolunda mühüm bir addım oldu.

Lakin dövrümüzün reallığı ondan ibarətdir ki, insanların təhlükəsiz yaşamaq hüququ bir çox yerlərdə kobudcasına pozulur və bunların başlıca amili müharibələrdir.

Şübhəsiz ki, insan hüquqlarını təmin edən demokratik dövlət müharibəni birinci başlamaz. Burada xüsusi qeyd etmək istəyirəm ki, 1988-ci ildən bəri davam edən Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü nəticəsində on minlərlə insanlar həlak olmuş, onların yaşadıqları yerlər dağıdılmış, mədəni sərvətlər məhv olunmuş, ailə üzvləri arasında əlaqələr kəsilmiş, bir milyondan artıq soydaşlarımız öz yurdlarından didərgin düşmüş və böyük faciələrə düçar olmuşlar. Lakin bütün bunlara baxmayaraq, bir daha bəyan edirəm ki, Azərbaycan dövləti münaqişəni yalnız sülh yolu ilə həll etmək niyyətindədir. Biz sülhü insan həyatında ən ülvi məqsəd hesab edirik. Digər tərəfdən sülhün öz-özünə bərqərar olacağını hesab etmək sadəlövhlük olardı. Müharibələr bütün bəşəriyyəti böyük bir təhlükə altında qoyur. Odur ki, bütün dövlətlər, beynəlxalq təşkilatlar və hər bir insan sülhün bərqərar olunmasında məsuliyyət daşıyır və onun qorunub saxlanılmasına öz səylərini əsirgəməməlidir.

Bu gün hər bir şəxsin həyatında və cəmiyyətdə insan hüquqlarının reallığa çevrilməsi amalı ilə yaşayan Azərbaycan dövləti insan hüquqları sahəsində 20-dək beynəlxalq konvensiya və sazişlərə, o cümlədən 1992-ci il iyulun 21-də «Uşaq hüquqlarına dair» , 1995-ci il iyunun 30-

da isə «Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında» konvensiyalara qoşulmuşdur və üzərinə götürdüyü öhdəliklərə sadiqdir.

Yəqin sizə məlumdur ki, bu ilin may ayında Azərbaycan hökuməti ilə BMT-nin İnkişaf Proqramının «Qadın hüquqları-insan hüquqları, Qadınlar hərbi münaqişələrdə» mövzusunda subregional konfransı keçirilmişdir.

İnsan hüquqlarının müdafiəsi sahəsində zəruri hüquqi mexanizmlərin yaradılması məqsədi ilə bu ilin fevral ayında «İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında» fərman, aprel ayında isə «Birləşmiş Millətlər Təşkilatının Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 50 illiyinin keçirilməsi haqqında» sərəncam imzalamışam və müvafiq tədbirlərin keçirilməsi barədə tapşırıqlar vermişəm. Bununla bağlı insan hüquqlarının müdafiəsinə dair dövlət proqramının təsdiq edilməsi, BMT-nin Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 50 illiyi münasibətilə yubiley tədbirlərinin keçirilməsi üzrə komissiyanın yaradılması və BMT-nin Azərbaycandakı nümayəndəliyi ilə insan hüquqlarının müdafiəsinə dair proqramın hazırlanmasını, ölkəmizdə Ombudsman təsisatının, insan hüquqları problemləri üzrə elmi tədqiqat institutunun yaradılması barədə təkliflərimi xüsusilə qeyd etmək istərdim. Bu günlərdə Azərbaycan hökuməti ilə BMT-nin İnsan Hüquqları Üzrə Mərkəzi arasında əməkdaşıq proqramının təsdiqlənməsi gözlənilir.

Sizi əmin etmək istərdim ki, əldə etdiyimiz nailiyyətlərlə kifayətlənməyərək, biz demokratiyanın möhkəm binasının qurulması yolunda fəal iş aparmaqda davam edirik. Bu bina ölkəmizin hər bir vətəndaşı azad yaşamaq hüququna nail olacaq və onun ictimai quruluşu dünyanın ən zəngin nümunələrindən geri qalmayacaqdır.

Dərin hörmət və ehtiramla,
Heydər Əliyev,
Azərbaycan Respublikasının Prezidenti.

Azərbaycan Prezidentinin sədrliyi ilə ölkəmizdə BMT-nin Ümumdünya insan hüquqları bəyannaməsinin 50 illik yubileyini keçirən dövlət komissiyasının iclasında Heydər Əliyevin giriş sözü - 3 dekabr 1998-ci il

Bu il Birləşmiş Millətlər Təşkilatının insan hüquqları haqqında qəbul etdiyi Ümumdünya bəyannaməsinin 50-ci ildönümüdür. Azərbaycanda da bu il insan hüquqları problemlərinə həsr olunan ildir. Biz bu münasibətlə ilin əvvəlində lazımi qərarlar qəbul etmişik və Birləşmiş Millətlər Təşkilatının Ümumdünya insan hüquqları bəyannaməsinin 50-ci ildönümü münasibətilə tədbirlərin hazırlanması, keçirilməsi üçün Dövlət Komissiyası təşkil etmişik.

Hesab edirəm ki, ilin əvvəlindən indiyədək çox işlər görülmüşdür və bu gün Dövlət Komissiyasının iclasına toplaşmışıq. İclasa komissiyanın üzvləri ilə yanaşı, respublikanın dövlət, hökumət orqanlarının məsul vəzifəli şəxsləri, Azərbaycanda fəaliyyət göstərən qeyri-dövlət təşkilatlarının nümayəndələri də dəvət olunubdur. Bugünkü iclasın məqsədi görülən işləri təhlil etmək və Azərbaycanda insan hüquqları ilə əlaqədar gələcək tədbirləri müəyyən etməkdir.

Yekun nitqi

- Hörmətli komissiya üzvləri, xanımlar və cənablar!

Komissiyanın iclasında komissiya üzvlərinin və iclasa dəvət olunmuş qeyri-dövlət təşkilatları nümayəndələrinin çıxışlarında Azərbaycanda insan hüquqlarının vəziyyəti və son illər görülən işlər, əldə olunun nailiyyətlər haqqında ətraflı məlumat verildi. Bunların əsasında məmnuniyyətlə demək olar ki, Birləşmiş Millətlər Təşkilatının Ümumdünya, beynəlxalq insan hüquqlarının qorunması haqqında qəbul etdiyi bəyannaməni biz Azərbaycanda son illərdə əməli surətdə həyata keçiririk və xeyli işlər görülüb, müəyyən nailiyyətlər də əldə olunubdur.

Bu sahə Azərbaycan cəmiyyəti üçün yeni sahədir. Bu sahə Azərbaycanın dövlət müstəqilliyi əldə olunandan sonra Azərbaycanda real yaranmış bir sahədir. Doğrudur, keçmişdə bizim tərkibində olduğumuz sovetlər ittifaqı dövləti də 1948-ci ildə Birləşmiş Millətlər Təşkilatı tərəfindən qəbul olunmuş bəyannaməyə qoşulmuşdur. Ancaq etiraf etmək lazımdır ki, sovetlər ittifaqında bəyannamədən irəli gələn vəzifələr demək olar ki, həyata keçirilməmişdir. Çünki sovetlər ittifaqı öz ideoloji prinsipləri çərçivəsində yaşayırdı. Bir də, demək olar ki, bu bəyannamənin məzmunu, mənası, əhəmiyyəti haqqında az məlumata malik idi.

Azərbaycan dövlət müstəqilliyini əldə edən andan Birləşmiş Millətlər Təşkilatının bəyannaməsinə qoşulmuş hesab olunur. Ancaq Azərbaycanda da dövlət müstəqilliyi əldə ediləndən sonra dərhal bu sahədə lazımi işlər görülməsinə başlanmamışdı. Bəlkə də bunu heç gözləmək də mümkün deyil. Çünki dövlət müstəqilliyini bəyan edən hər bir ölkə bir çox çətin və ağır problemlərlə rastlaşır və bilirsiniz ki, Azərbaycan daha da çətin, daha da ağrılı problemlərlə rastlaşmışdır. Ermənistanın Azərbaycana etdiyi təcavüz, gedən müharibə və o illər Azərbaycanın daxilində mövcud olan mürəkkəb, çətin, qarmaqarışıq ictimai-siyasi vəziyyət - bunlar hamısı, təbiidir ki, insan hüquqlarının qorunması ilə əlaqədar Birləşmiş Millətlər Təşkilatının bəyannaməsinin Azərbaycanda həyata keçirilməsi üçün lazımi şərait yaratmamışdı. Amma eyni zamanda, bunun subyektiv səbəbləri də vardır. Bəzi dövlət orqanları, yaxud dövləti təmsil edən şəxslər, əksinə, insan hüquqlarını kobudcasına pozmuşlar və insan hüquqları ilə əlaqədar olan tələblərin həyata keçirilməsinin qarşısını almışlar, yaxud da ona mane olmuşlar.

Biz Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesini apararkən bu prosesin içində insan hüquqları əsas yer tutur və beləliklə biz bu quruculuq işini ötən illərdə apararkən insan hüquqlarının Azərbaycanda təmin olunması sahəsində çox işlər görə bilmişik. Bu barədə bu gün ətraflı məlumatlar verildi və mən bəyan edirəm ki, nəhayət, müstəqil Azərbaycanın 1995-ci ildə qəbul olunmuş ilk Konstitusiyası Azərbaycanda insan hüquqlarının təmin edilməsi, qorunması və o cümlədən Birləşmiş Millətlər Təşkilatının Ümumdünya insan

hüquqları bəyannaməsinin həyata keçirilməsi üçün bütün imkanları yaradıbdır. Bizim vəzifəmiz və borcumuz Konstitusiyanın tələblərini həyata keçirməkdir və Azərbaycanın ali qanunvericilik orqanı tərəfindən qəbul olunmuş qanunları yerinə yetirməkdir.

Ola bilər, hələ bəzi qanunlar da qəbul olunmayıbdır, bundan sonra olacaqdır. Ancaq əgər biz Konstitusiyanın müddəalarını və qəbul olunmuş qanunları həyata keçirə bilsək, demək olar ki, müstəqil dövlətimizin indiki mərhələsində çox iş görmüş olarıq. Ona görə də mən bu gün komissiyanın iclasında Azərbaycanın bütün dövlət, hökumət orqanlarını və Azərbaycanda fəaliyyət göstərən bütün qeyri-dövlət təşkilatlarını - hamısını öz səylərini birləşdirməyə və insan hüquqlarının qorunması, təmin olunması ilə əlaqədar Konstitusiyanın və qanunların tələblərini həyata keçirməyə səy göstərməyə dəvət edirəm.

Şübhəsiz ki, bu mövzu çox geniş mövzudur. İnsan hüquqlarına dar çərçivədə baxmaq olmaz. Təəssüflər olsun ki, bəzi təşkilatlar və bəzi insanlar tək Azərbaycanda yox, elə dünyanın beynəlxalq təşkilatlarında da insan hüquqlarına yalnız ayrı-ayrı şəxslərin, fərdlərin hüquqları çərçivəsində baxırlar. Şübhəsiz ki, bu, yanlış fikirdir və bəyannamə özü də göstərir ki, insan hüquqları geniş mənada anlanılmalıdır. Burada bu barədə dəyərli fikirlər söylənildi və xüsusən bu fikir Azərbaycan üçün çox əhəmiyyətlidir. Çünki hər bir fərdin hüququ qorunmalıdır və təmin olunmalıdır, ancaq əgər insanların hüququ kütləvi surətdə pozulursa, hüquqları tapdalanırsa, yaxud da ki, bütün xalqın hüququ pozulursa, tapdalanırsa, bu məsələ daha da çox diqqəti cəlb etməlidir və buna münasibət daha da üstün xarakter daşımalıdır. Mən də bu fikirlə razıyam ki, Azərbaycan xalqına qarşı son iki əsrdə edilən soyqırım, təcavüz insan hüquqlarının pozulması, tapdalanması baxımından ən dəhşətli bir hadisədir.

İndi Ermənistan adlanan torpaqlardan azərbaycanlıların əsrlər boyu, min illər boyu yaşadıqları ana torpağından, ana vətənindən zorla çıxarılması, sürgün edilməsi və bunların hamısının qanlı hadisələrlə müşayiət olunması, insanların həlak olması, tələf olması, varidatını itirməsi - bütün bunlar Azərbaycan xalqının böyük bir tarixi dövründə hüquqlarının pozulmasını göstərir.

Biz bu gün şikayətlənə bilərik ki, xalqımızın hüquqlarının pozulmasına dünya ictimaiyyəti, beynəlxalq aləm, beynəlxalq təşkilatlar diqqət yetirməyiblər, bizə qayğı göstərməyiblər. Ancaq eyni zamanda onu da etiraf etməliyik ki, bizim özümüz də, yəni Azərbaycan xalqı da öz hüquqlarının kütləvi, dəhşətli, kobud şəkildə tapdalanması faktı ilə müəyyən qədər razılaşmış və təəssüflər olsun ki, dünyada bu vəhşiliyə, bu cinayətə qiymət verilməsi üçün lazımi tədbirlər görülməmişdir. Başqa xalqlar öz hüquqlarını qorumaq üçün bu barədə bəlkə də həddindən artıq çox işlər görürlər. Bəlkə də onların hüquqları heç o qədər pozulmayıb, amma onlar bunu dünya ictimaiyyətinə nə qədər çatdırırlar. Ancaq biz isə on illər, min illər boyu bunlara dözmüşük. Çox vaxt səsimizi də gur çıxarmamışıq və lazımi işlər də görməmişik. Elə bu əsrin özündə, XX əsrin özündə Azərbaycan xalqının hüquqları çox anlarda pozulubdur. Sovet hakimiyyəti tərəfindən də xalqımızın hüquqları dəhşətli şəkildə pozulubdur. İndi bunu belə qiymətləndirmək olar ki, bütün sovet ittifaqı ərazisində yaşamış insanların hamısının hüquqları pozulubdur. Bu, ümumi bir xarakter daşıyıbdır və dövlətin xüsusiyyətindən irəli gəlibdir.

Ancaq eyni zamanda, azərbaycanlıların sovet hakimiyyəti dövründə 1948-ci ildə Ermənistandan kütləvi deportasiya olunması, yaxud da 30-cu illərdə azərbaycanlıların kütləvi şəkildə bizim bugünkü Azərbaycandan İrana sürgün edilməsi, yaxud 1944-cü ildə Gürcüstan ərazisindən azərbaycanlıların sürgün edilməsi və bir çox belə hallar lazımi qiymətini almayıbdır. XX əsrin əvvəllərində, tutaq ki, 1918-ci ildə, yaxud da 1920-ci ildə ermənilər tərəfindən azərbaycanlıların soyqırımları o vaxt hakimiyyətsizlik dövründə olubdur. Ancaq 1920-ci ildən sonra, yəni sovet hakimiyyəti dövründə Azərbaycan xalqının hüquqlarının tapdalanması, pozulması mövcud dövlət hakimiyyəti dövründə olubdur.

Nəhayət, 1988-ci ildə azərbaycanlıların Ermənistan ərazisindən zorla çıxarılması və onlara verilən işgəncələr, itkilər, ölümlər və nəhayət, Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində ölkəmizin ərazisinin bir qisminin işğal edilməsi ilə əlaqədar azərbaycanlıların öz doğma torpaqlarından, işğal olunmuş torpaqlardan zorla çıxarılması - bunlar hamısı Azərbaycan

xalqının və hər bir azərbaycanlının hüquqlarının vəhşicəsinə pozulmasıdır. Ancaq təəssüflər olsun ki, - yenə də deyirəm, - bu, hamıya aiddir, bunlar adi bir hala çevrilibdir.

İndi isə biz müstəqil dövlət çərçivəsində yaşayarkən və insan hüquqları problemləri ilə məşğul olarkən, yalnız ayrı-ayrı fərdlərin hüquqları haqqında danışıq gedir, yaxud mübarizə gedir, mübahisə gedir. Bir daha qeyd edirəm, hər bir insanın hüququ qorunmalıdır. Ancaq əgər bu gün Azərbaycanın müasir mənzərəsini biz siyasi nöqteyi-nəzərdən qiymətləndirsək, dünya miqyasında Azərbaycan xalqının hüquqlarının kütləvi surətdə, vəhşicəsinə pozulması aşkardır, göz qabağındadır. Biz Birləşmiş Millətlər Təşkilatının Ümumdünya insan hüquqları bəyannaməsi haqqında danışarkən, yaxud bu bəyannamə haqqında iş görərkən bütün sahələrdə, beynəlxalq aləmdə, beynəlxalq təşkilatlarda, hər yerdə bu məsələni, yəni Azərbaycan xalqının hüquqlarının kütləvi şəkildə, vəhşicəsinə pozulmasını ön plana çatdırmalıyıq və bunu yaymalıyıq, bunu bildirməliyik. Bu, bizim tarixi vəzifəmizdir, hər bir azərbaycanlının tarixi vəzifəsidir. Hərə öz imkanları çərçivəsində gərək bu vəzifəni yerinə yetirsin. Ola bilər, kiminsə bu barədə imkanı böyük olsun, kiminsə kiçik olsun. Ancaq elə görülən kiçik iş də başqa böyük işlə birlikdə bizim ümumi işimizi təşkil edir.

Mən hesab edirəm ki, bizim dövlət orqanlarımız, hökumət orqanlarımız bu məsələlərlə ciddi məşğul olmalıdırlar - kampaniya şəklində yox, mütəmadi olaraq, ardıcıl. Bizim mətbuat orqanlarımız, elmi tədqiqat təşkilatlarımız, ictimai təşkilatlarımız, qeyri-dövlət təşkilatlarımız - hamısı bu işlə ciddi məşğul olmalıdırlar. Bu məsələ barəsində Azərbaycanda hamı həmfikir olmalıdır. Bu məsələ barəsində iqtidar-müxalifət ola bilməz. Bu bizim ümumi milli işimizdir. Bu bizim ümumi mənəvi işimizdir, mənəvi borcumuzdur. Burada heç kəs özü üçün bir fayda axtarmamalıdır. Heç kəs bu məsələni özü üçün istismar etməməlidir. Heç kəs bu məsələdən öz şəxsi məqsədi üçün sui-istifadə etməməlidir. Hamı əl-ələ verib, birləşib bütün dünya ictimaiyyətinə, dünya dövlətlərinə, dünya xalqlarına sübut etməlidir ki, Azərbaycan xalqının hüquqları on illərlə, yüz illərlə pozulur və XX əsrin sonunda Azərbaycan xalqının hüquqları dəhşətli pozulubdur və tapdalanıbdır.

Şübhəsiz ki, bununla yanaşı, biz insan hüquqları ilə əlaqədar bütün başqa sahələrdə də öz fəaliyyətimizi göstərməliyik. Son illər görülən işlər barədə verilən məlumatlar onu göstərir ki, biz həqiqətən hüquqi dövlət yaradırıq, demokratik dövlət yaradırıq və insan hüquqlarının qorunmasını ümumxalq işi, ümumdövlət işi etməyə çalışırıq.

Məlumdur ki, görülən işləri qiymətləndirərək, bu sahədə nöqsanların, çatışmazlıqların olduğunu da etiraf etmək lazımdır. Ona görə etiraf etmək lazımdır ki, biz bu nöqsanları və çatışmazlıqları aradan qaldıraq. Ona görə yox ki, bundan kimsə hansı məqsədlərdən ötrüsə istifadə etsin. Biz ictimaiyyətə, xalqa, ölkəyə həmişə həqiqəti bildirməliyik. Ancaq eyni zamanda, həqiqəti təhrif edənlərin də qarşısını almalıyıq. Təhrif edənlərin qarşısı - yəni o mənada ki, bu barədə düzgün məlumat verməklə - alınmalıdır.

Bizim gördüyümüz işlərdən ən əhəmiyyətlisi bundan ibarətdir ki, Azərbaycanda ölüm hökmü ləğv olunubdur. Bilirsiniz, bu, tarixi bir hadisədir. Bizim ictimaiyyət, xalqımız bunu olduğu kimi qiymətləndirməlidir. Bu, adi bir hadisə, addım deyildir.

Ölüm hökmünün ləğv olunması hansısa bir cinayətkara rəhm etmək məqsədi daşımır. O, ümumbəşəri, ümumxalq əhəmiyyətinə malik bir məsələdir. Ölüm hökmünün ləğv olunması onu göstərir ki, respublikamız, müstəqil Azərbaycanın dövləti humanist siyasət aparan bir dövlətdir.

İnsanı öldürmək ən böyük vəhşilikdir. Kimsə kimi öldürürsə o, vəhşilik edir. Ən ağır cinayət edən şəxs də əgər dövlət məhkəməsi tərəfindən qəbul olunmuş hökmlə öldürülərsə bunun özü də ağır bir işdir. Yenə də deyirəm, ölüm hökmünün ləğv edilməsi qlobal xarakter daşıyan bir hadisədir. Yəni əsrlər boyu yaşadığımız Azərbaycanda bizim millətimizin və keçmiş zamanlardan indiyə qədər olan dövlətlərimizin ardıcıl surətdə həyata keçirdiyi bu ölüm cəzası siyasətinə biz «yox» dedik, onun qarşısını aldıq.

Ona görə də mən hesab edirəm ki, bax, elə bu mövzunun özü bizim elmi tədqiqat təşkilatları, hüquqşünaslar üçün çox əhəmiyyətli bir mövzudur. Yenə də deyirəm, mən çalışdım ki, bunun geniş

əhəmiyyətini sizə izah edim. Bu, bir, beş, on adam üçün deyildir. Məsələn, biz ölüm hökmünü ləğv edəndə ölüm hökmü ilə 100-120 nəfər insan həbsxanada idi. Onların hər biri məhkəmələr tərəfindən ədalətli cəzalandırılmışdı.

Bu ölüm hökmünü ləğv etməzdən əvvəl mən bir neçə dəfə təklif vermişdim ki, ölüm hökmünə məhkum olan adamlardan bəzilərinin sənədlərinə baxıb mənə gətirin, əfv edim, yaxud ölüm hökmünü ləğv edin, başqa bir cəza ilə əvəzləşdirin. Əfv bölməsi, əfv işi ilə məşğul olanlar bunları təhlil edib gəlib mənə deyirdilər ki, elələri var ki, 5-6 adam öldürübdür, özü də vəhşicəsinə öldürübdür. Onu ölüm hökmündən necə azad etmək olar? Burada da həqiqət vardır. Ancaq bunlara baxmayaraq, 5 adam öldürmüş həmin adamı da biz - dövlət öldürmək istəmədik. Bu, dövlətin nə qədər humanist, insanpərvər olduğunu, insanı nə qədər yüksək qiymətləndirdiyini və eyni zamanda, insanın tərbiyə edilməsinə nə qədər böyük inamını göstərir.

Bizim qeyri-dövlət təşkilatları, başqa təşkilatlar da bu hadisəyə o qədər dəyərli münasibət göstərə bilmədilər. Müxalifətdə olan bəzi təşkilatlar isə elə hesab etdilər ki, burada heç bir şey olmayıbdır. Amma tarixi bir hadisə baş veribdir.

Son illərdə Azərbaycanda insan hüquqlarının qorunması, insan azadlıqlarının təmin olunması sahəsində çox işlər görülübdür. O cümlədən, xüsusən, qlavlit ləğv olunubdur. Mətbuat orqanlarında müəyyən məhdudiyyətlər var idi. Yəni həmin qlavlit də senzura fəaliyyətini tam həyata keçirmirdi. Ancaq müəyyən məhdudiyyətlər var idi və onların aradan götürülməsi Azərbaycanda insanlara həqiqətən bütün azadlıqların verildiyini dünyaya nümayiş etdirir. Ancaq verilən bu azadlıqlardan insanlar gərək ağılla, insafla istifadə etsinlər, bu imkanları öz şəxsi məqsədləri üçün istismar etməsinlər, bunlardan sui-istifadə etməsinlər.

Mən bu məsələyə də müəyyən qədər dialektik nöqteyi-nəzərdən yanaşıram. Yəni hesab edirəm ki, bilirsiniz, bu məhdudiyyətlər var idi, bu məhdudiyyətləri götürəndən sonra, ola bilər, bəzi mətbuat orqanları sadəcə, özlərini itiriblər. Hesab ediblər ki, bu azadlıqlardan artıq istifadə edib böhtan da demək, yalan da yazmaq, söyüş də söymək, təhqir də etmək və başqa şeylər də etmək olar.

Məlumdur ki, bu cür məqalələrin, mətbuatda dərc olunan fikirlərin müəllifləri beləliklə, öz mədəni səviyyələrinin hansı dərəcədə olduğunu, yaxud da ki, ümumiyyətlə, mədəni səviyyələrinin olmadığını göstərirlər. Dedim ki, mən buna dialektik nöqteyi-nəzərdən baxıram. Güman edirəm ki, zaman keçdikcə insanlar da anlayacaqlar ki, bu azadlıqlardan qərəzli, böhtançı mövqedən yox, vətəndaş mövqeyindən çıxış edərək istifadə etmək lazımdır.

Ancaq mən təəssüf edirəm ki, dövlətin, hökumətin yaratdığı bu imkanlar gətirib belə mənfi hallara çıxarır. Bir neçə qəzetlərdə son aylarda ardıcıl surətdə böhtan, təhqir xarakterli məqalələr dərc olunubdur və o təhqir olunanlar, böhtanlara məruz qalanlar öz hüquqlarını qorumaq üçün bir azca hərəkət edərkən həmin məqalələrin müəllifləri hay-küy salıblar, «hüquqlarının pozulması» haqqında danışırlar, hətta aclıq aksiyaları da keçirirlər.

Aclıq aksiyası keçirmək bəlkə zəiflik əlamətidir. Şəxsən mən bunu belə qiymətləndirirəm. Öz haqqı, hüququ uğrunda mübarizə aparan öz mənliyini qoruyaraq mübarizə aparmalıdır. Aclıq edib kiminsə rəhmini, ona yazığı gəlməsini, yaxud da belə bir ağır vəziyyətdə kiminsə hansısa yola getməsi ilə bir şeyə nail olmaq olmaz. Ona görə də mən aclıq edənlərin hamısına məsləhət görərdim ki, bunlardan əl çəksinlər. Şübhəsiz, həqiqi aclıq edən insanlara mənim yazığım gəlir və istəməzdim ki, kimsə öz bədənini özü zəiflətsin, bunun nəticəsində hansısa bir çətinliklə rastlaşsın.

Rusiya televiziyası ilə dünən məlumat verildi ki, Ulyanovsk vilayətində müəllimlər altı aydır məvacib almırlar, uzun müddət aclıq ediblər və onlardan biri vəfat edibdir. Bunu böyük bir hadisə kimi verdilər. Ancaq o aclığın yəqin ki, əsası vardır. Çünki bu adam işləyibdir, maaş almalıdır, maaşını vermirlər.

Ancaq mən belə düşünürəm ki, bizim Azərbaycanda son vaxtlar aparılan bu aclıqlar dünyada heç analoqu olmayan aclıq kimi bir şeydir. Mən bu gün bir daha bəyan edirəm ki, aclıq aksiyalarının dayandırılmasını məsləhət görürəm. Eyni zamanda, inanıram ki, bizim ədliyyə, məhkəmə orqanları

bütün işlərə ədalətli baxacaqlar. Əgər bu işlər xüsusi bir xarakter daşıyan işlər formasına gəlib çıxırsa, bu, artıq ictimaiyyətin ümumi nəzarəti altındadırsa, mən heç cür düşünə bilmərəm ki, hansısa bir məhkəmə burada ədalətsizlik edəcəkdir. Bu mətbuat işçiləri əgər doğrudan da həqiqət uğrunda mübarizə aparırlarsa, mən bu gün üzümü bütün ədliyyə, məhkəmə orqanlarına tutaraq müraciət edirəm ki, hamı ədalətli olsun. Ədliyyə, məhkəmə orqanları xüsusən ədalətli olsunlar. Ancaq belə hadisələrlə Azərbaycanda ictimai-siyasi vəziyyəti pozmağa cəhd etmək lazım deyildir. İctimai-siyasi vəziyyəti bunlarla pozmaq olmaz.

Beləliklə, bir də qeyd edirəm, Azərbaycanda insan hüquqları ilə əlaqədar aparılan işlər öz müsbət nəticələrini verir. Arzu edirəm ki, bizim dövlət, hökumət orqanları və qeyri-dövlət təşkilatları da bundan sonra insan hüquqlarının qorunması ilə əlaqədar öz səylərini birləşdirsinlər. Bu elə bir sahədir ki, burada bir-birinə fərq qoymaq lazım deyildir.

Mən çox məmnunam ki, bizim bugünkü iclasımızda qeyri-dövlət təşkilatlarının nümayəndələri də iştirak edirlər, bəziləri də çıxış etdilər. Hesab edirəm ki, çox əhəmiyyətli bir neçə fikir söylədilər və təkliflər də irəli sürdülər. Ümumiyyətlə, mən bizim aparata, yəni Prezidentin İcra Aparatına tapşırıram ki, burada irəli sürülən təkliflərin hamısını qısa bir müddətdə təhlil etsinlər və lazımi tədbirlər görsünlər. Əgər bu barədə mənim müvafiq qərarlar qəbul etməyim lazım olarsa, bu təklifləri mənə təqdim etsinlər.

Yenə də qeyd edirəm, qeyri-dövlət təşkilatları nümayəndələrinin bu gün burada iştirak etməsi müsbət haldır. Mən arzu edirəm ki, bu təcrübə gələcəkdə də davam etsin, bütün qeyri-dövlət təşkilatlarının hamısı öz siyasi dünyagörüşündən, hansısa bir partiyaya, təşkilata mənsubluğundan asılı olmayaraq Azərbaycanın ümummilli mənafeləri naminə səylərini birləşdirsinlər.

Azərbaycanın dövlət başçısı kimi mən ölkəmizdə bu qeyri-dövlət təşkilatlarının təbəqələşməsinə, yaxud bir-biri ilə ziddiyyət aparmasına, bir-biri ilə qarşıdurma mövqeyinə gəlməsinə tamamilə etiraz edirəm. Əksinə, mən bütün təşkilatları səylərini birləşdirməyə dəvət edirəm. Bəyan edirəm ki, Azərbaycanın hökumət, dövlət orqanları hər bir təşkilatla bu sahədə əməkdaşlıq etməyə hazırdır.

İndiyədək görülən işlərə qiymət verərək, eyni zamanda demək lazımdır ki, bizim qarşıda hələ görüləsi çox işlərimiz də vardır. Müstəqil Azərbaycan üçün çox şey yenidir. O cümlədən insan hüquqlarına qayğı diqqət və onların BMT-nin Ümumdünya bəyannaməsi prinsipləri əsasında qorunması da yeni bir haldır.

Təbiidir ki, biz qısa bir zaman içərisində cəmiyyəti, insanların hamısını bu prinsiplərə alışdıra bilmərik. Hətta dövlət orqanlarında da bu prinsiplərə tam riayət edilməsinə nail ola bilmərik. Reallıq bundan ibarətdir. Məsələn, Konstitusiyanı qəbul etmək, şübhəsiz, böyük iradə tələb edirdi. Amma biz bu iradəmizi Konstitusiya layihəsində əks etdirdik. Konstitusiyanın layihəsi də xalq tərəfindən referendum vasitəsilə qəbul olundu. Qanunlar ali qanunvericilik orqanında müzakirə edilib qəbul olunur. Amma bunların icra olunması - bu, böyük bir prosesdir, çox böyük prosesdir. İnsanların şüurunun dəyişməsi, psixoloji dəyişiklik, hüquqi bilik səviyyəsinin artması - bunlar isə zaman, vaxt tələb edir.

Beləliklə, mən hesab edirəm, biz öz işimizi ardıcıl aparmalıyıq. Ancaq heç kəs də nə özü üçün, nə də başqaları üçün illüziya yaratmasın ki, insan hüquqları sahəsində Azərbaycan yüksək səviyyəyə çatıbdır, ya çatmalıdır. Mən hesab edirəm ki, Azərbaycan buna hələ çata bilməyibdir. Çünki, yenə də deyirəm, biz bütün ictimaiyyətimizi bu işə alışdırmalıyıq. İcra orqanlarını bu işə tam alışdırmalıyıq. Gərək icraçının özünün şüurunda bu, öz yerini tapsın ki, o, qanunu, Konstitusiyanın tələblərini olduğu kimi icra edə bilsin. Amma bu, təkcə icraçıdan da asılı deyildir. Gərək adi bir vətəndaş da anlasın ki, o, qanuna riayət etməlidir, tabe olmalıdır, öz həyatını qanun çərçivəsində qurmalıdır. Ancaq təəssüflər olsun ki, bu gün insan hüquqlarından danışanların bəziləri və «Azərbaycanda insan hüquqlarının pozulması» haqqında səs-küy salanların özləri qanunlara riayət etmirlər, qanunları pozurlar, başqa insanların hüquqlarını pozurlar. Kiminsə hüququnu müdafiə edir, amma başqasının hüququnu pozur, başqasının hüququna təcavüz edirlər. Real vəziyyət bundan ibarətdir.

Ona görə də mən yenə deyirəm, heç kəs, o cümlədən, müxalifətdə olan təşkilatlar hesab etməsin ki, Azərbaycanda insan hüquqlarını qorumaq onlara tapşırılıbdır. Yox. İnsan hüquqları Azərbaycan dövləti, dövlət və hökumət orqanları, respublikamızın Konstitusiyası və ölkəmizin qəbul etdiyi qanunlar tərəfindən qorunur. Bu sahədə görülən işlər göz qabağındadır. Kim həqiqətən Azərbaycanda insan hüquqlarının qorunmasına və hüquqi dövlətin inkişaf etməsinə çalışırsa, hökumətlə, dövlətlə, bütün təşkilatlarla əlbir olmalıdır, yenə də deyirəm, bu mövzunu istismar etməməlidir, bundan öz şəxsi məqsədləri üçün sui-istifadə etməməlidir.

Biz İnsan hüquqları üzrə Elmi Tədqiqat İnstitutu yaratdıq, yəni bu barədə qərar qəbul etdik. Mən hesab edirəm ki, bu institutun qarşısında çox böyük vəzifələr durur. Arzu edərdim ki, institut bu sahədə bilikli mütəxəssislərlə, alimlərlə təşkil olunsun və yaxşı işlər görsün.

Ümumiyyətlə, mən nitqimin əvvəlində dediyim kimi, ümummilli məsələlər barəsində daha da geniş iş görmək lazımdır. Ayrı-ayrı fərdlərin hüquqlarını müdafiə etmək hər kəsin, dövlətin borcudur. Biz bunu etməliyik və edəcəyik. Amma bizim xalqımızın, millətimizin hüquqlarının qorunmasına çalışmaq və onun tapdalanmasının bundan sonra qarşısını almaq, Azərbaycan xalqına qarşı indiyə qədər edilmiş bu ədalətsizlikləri geniş təhlil etmək, böyük əsərlər, kitablar, böyük bədii əsərlər yaratmaq və bunu bütün dünyaya aşkar etmək, sübut etmək bir nəslin işi deyildir. Bu, bir çox nəsillərin işidir. Ancaq biz indi bu işə könüllü surətdə başlamalıyıq və gələcək nəsillərə də vəsiyyət etməliyik, yəni əsas yaradıb onlara hazır vəziyyətdə çatdırmalıyıq. Bu, on illərlə davam etdirilməlidir. Ancaq biz bunun əsasını könüllü surətdə qoymalıyıq. Mən azərbaycanlıların 1948-ci ildə Ermənistandan deportasiyası ilə əlaqədar verdiyim fərmanda da və başqa təşəbbüslərimdə də bu məqsədi daşıyırdım.

İnsan hüquqlarının qorunması ilə əlaqədar son vaxtlar mən öz nitqlərimdə demişəm, bu gün bir daha təkrar edirəm, - biz əfv və amnistiya tədbirləri də görəcəyik. Prezidentin İcra Aparatında bu barədə lazımi işlər görülür və təkliflər hazırlanır. Mən bu gün bir daha tapşırıram ki, bu təkliflərin hazırlanması sürətləndirilsin. Mən verdiyim sözləri həyata keçirmək istəyirəm, əfv fərmanları vermək və amnistiya haqqında təşəbbüs irəli sürmək istəyirəm. Materialları tezliklə hazırlayıb mənə təqdim etmək lazımdır.

Hesab edirəm ki, komissiyamız öz işini davam etdirməlidir. Siz düşünməyin ki, komissiya yalnız bu bəyannamənin 50-ci ildönümünü qeyd etmək üçün yaranıbdır. Bu komissiya daimi xarakter daşımalıdır. Şübhəsiz ki, dekabr ayının 10-da böyük bir təntənəli mərasim də keçiriləcəkdir. İndiyə qədər bir neçə konfrans keçirilibdir, bu günlərdə də keçiriləcəkdir. Ancaq bununla iş bitmir. Yəni bizim bu işimiz kampaniya xarakteri daşımır. Biz bəyannamənin 50-ci ildönümünü qeyd edərək dünyaya bəyan edirik ki, Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlət quraraq insan hüquqlarının qorunması bəyannaməsinə sadiqdir və bundan sonra da sadiq olacaqdır, dünya miqyasında, Azərbaycanın ərazisində bu bəyannamədən irəli gələn bütün tədbirləri həyata keçirəcəkdir.

Hesab edirəm ki, komissiyanın gələcək işləri haqqında da bir iş planı tərtib etmək lazımdır. Biz bu iş planına sonra baxarıq, onu təsdiq edərik. Həmin iş planı əsasında 1999-cu ildə də işlər görülməlidir və davam etdirilməlidir.

Beləliklə, hesab edirəm ki, bu gün biz komissiyamızın iclasında qarşımızda duran məsələləri müzakirə etdik. Bir daha tapşırıram ki, irəli sürülən təkliflərin hamısına baxılsın və mənə məruzə edilsin. Sağ olun.

BMT-nin Ümumdünya insan hüquqları bəyannaməsinin 50 illiyinə həsr olunmuş təntənəli yığıncaqda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi - 10 dekabr 1998-ci il

Hörmətli xanımlar və cənablar!

Sizi Birləşmiş Millətlər Təşkilatının qəbul etdiyi Ümumdünya insan hüquqları bəyannaməsinin 50-ci ildönümü münasibətilə ürəkdən təbrik edirəm.

İkinci Dünya müharibəsindən sonra yaranmış Birləşmiş Millətlər Təşkilatı dünyada böyük müharibələrin qarşısının alınması, sülhün, əmin-amanlığın qorunub saxlanılması, müstəmləkəçiliyin ləğv olunması, hər bir insanın rahat yaşaması üçün çox xidmətlər göstərmişdir.

Birləşmiş Millətlər Təşkilatının böyük xidmətlərindən biri də 50 il bundan öncə bəşər tarixində ilk dəfə olaraq Ümumdünya insan hüquqları bəyannaməsinin qəbul edilməsidir. Bu bəyannamə qəbul edilərkən ona 50-55 dövlət səs vermişdir. Ancaq ötən 50 il ərzində bu bəyannamə dünyanın demək olar ki, əksər ölkələrinin, dövlətlərinin dövlət idarəetməsinin, quruluşunun əsas prinsipinə çevrilmişdir. Bunlar böyük nailiyyətdir.

Biz bu bəyannamənin 50 illik yubileyini bu gün təntənəli surətdə qeyd edərkən Birləşmiş Millətlər Təşkilatına minnətdarlığımızı bildiririk, Birləşmiş Millətlər Təşkilatını, onun baş katibini bu münasibətlə təbrik edirik.

Məndən əvvəl çıxış edən natiqlər Ümumdünya insan hüquqları bəyannaməsinin Azərbaycanda həyata keçirilməsi və onun müsbət nəticələri haqqında çox ətraflı məlumat verdilər, dəyərli fikirlər dedilər. Mən bütün bu fikirlərə və son illərdə Ümumdünya insan hüquqları bəyannaməsindən irəli gələn prinsiplərin Azərbaycanda həyata keçirilməsi ilə əlaqədar görülən işlərə verilən qiymətə görə sizə təşəkkür edirəm.

Birləşmiş Millətlər Təşkilatının Azərbaycandakı nümayəndəsi cənab Ercan Murat həm Ümumdünya insan hüquqları bəyannaməsi, həm də Azərbaycanda son illər görülən işlər haqqında dəyərli fikirlər söylədi və bizim işimizə müsbət qiymət verdi. Mən bunu qiymətləndirirəm və bu münasibətə görə təşəkkür edirəm.

Azərbaycanda insan hüquqlarının qorunması, Ümumdünya insan hüquqları bəyannaməsinin tələblərinin həyata keçirilməsi son yeddi il ərzində təmin olunubdur. Məlumdur ki, Azərbaycan dövlət müstəqilliyini elan edən andan, Birləşmiş Millətlər Təşkilatının qəbul etdiyi Ümumdünya insan hüquqları bəyannaməsinə qoşulmuşdur. Beləliklə, əgər bu bəyannamənin 50 illik tarixi varsa, Azərbaycan bu bəyannamə ilə əlaqədar yeddi il ərzində fəaliyyət göstərir. Ancaq hamımıza məlumdur ki, bu yeddi ilin də hamısında biz bu bəyannamənin tətbiq olunmasını təmin edə bilməmişik.

Həqiqət ondan ibarətdir ki, Ümumdünya insan hüquqları bəyannaməsinin həyata keçirilməsinə biz son illərdə başlamışıq və burada artıq qeyd edildiyi kimi, çox işlər görülmüşdür. 1995-ci ildə qəbul olunmuş Konstitusiyada insan hüquqlarına aid bütün maddələrin əks olunması Azərbaycanın məhz insan hüquqlarının qorunması yolu ilə getməsinə əyani sübutdur. Bundan sonra qəbul olunan qanunlar da bunu göstərir və ən əsası isə - bizim bu sahədəki əməli işimiz bunu göstərir.

1998-ci il Azərbaycan üçün demək olar ki, Ümumdünya insan hüquqları bəyannaməsi, insan hüquqları ili olubdur. 1998-ci ildə Azərbaycanda görülən işlər, qəbul olunan qərarlar və həyata keçirilən tədbirlər ictimaiyyətə məlumdur. Bu gün bu barədə burada deyildi.

Biz Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət qururuq. Bu üç söz bizim dövlət quruculuğumuzun əsas mənasını, məzmununu, əsas prinsiplərini təşkil edir. Bu sözlərin üçü də - demokratiya da, hüquq da, dünyəvilik də insan haqlarından irəliyə gələn sözlərdir. Beləliklə, biz müstəqil Azərbaycanda öz strateji yolumuzu artıq müəyyən etmişik və bu yolla gedirik.

Bu gün biz Ümumdünya insan hüquqları bəyannaməsinin 50-ci ildönümünü qeyd edərək artıq gələcək vəzifələrimiz haqqında danışmalı və düşünməliyik. Çünki üzərimizə düşən vəzifələr böyükdür, çoxdur. Ötən illərdə görülən işlər Azərbaycanda insan hüquqlarının bütün sahələrdə

təmin olunmasına hələ gətirib çıxarmayıbdır. Bu da təbiidir. Çünki qısa bir zamanda buna nail olmaq mümkün deyildir. Bu gün biz Birləşmiş Millətlər Təşkilatının Ümumdünya insan hüquqları bəyannaməsinin ötən 50 il müddətində dünyada keçirilməsini nəzərdən keçiririk. Görürük ki, bəyannamə, insan hüquqlarının dövlət prinsiplərinə çevrilməsi və onların tətbiq olunması dünyanın müxtəlif ölkələrində müxtəlif zaman, vaxt tələb edibdir.

Bizim vəzifəmiz ondan ibarətdir ki, tutduğumuz yolla ardıcıl olaraq gedək. Mən bu gün bəyan edirəm ki, Azərbaycan dövləti, hökuməti bundan sonra da Azərbaycanda insan hüquqlarının qorunmasını özünün əsas vəzifəsi hesab edir və bu prinsiplə yaşayacaq, işləyəcəkdir.

İnsan haqlarının qorunmasında hakimiyyət orqanlarının üzərinə çox vəzifə düşür. Təbiidir, hər bir insan cəmiyyətdə həm öz hüquqlarını təmin etməlidir, həm də cəmiyyətdə insan hüquqlarının qorunmasına səylər göstərməlidir. Bu, hər bir Azərbaycan vətəndaşından tələb olunur. Ancaq hakimiyyət orqanları, hakimiyyət orqanlarında vəzifə daşıyan insanlar - Azərbaycan vətəndaşları insan hüquqlarının qorunması və təmin olunması üçün xüsusi məsuliyyət daşıyırlar. Hesab edirəm ki, əgər vəzifəli şəxslər, hakimiyyət orqanlarında çalışan insanlar insan hüquqlarının qorunmasını özlərinin əsas vəzifəsi kimi dərk edə bilsələr biz bu sahədə çox nailiyyətlər əldə edə bilərik.

Mən bu gün Azərbaycanda bütün hakimiyyət orqanlarından, dövlət, hökumət orqanlarında vəzifə daşıyan bütün vətəndaşlardan insan hüquqlarının qorunması ilə əlaqədar üzərinə düşən vəzifələrin yerinə yetirilməsini tələb edirəm. Bəyan edirəm ki, biz bu məsələni həmişə diqqət mərkəzində saxlayacağıq və hər bir vəzifəli şəxsin işini onun bu sahədəki vəzifələrini yerinə yetirməsi ilə qiymətləndirəcəyik.

Hesab edirəm ki, əgər vəzifəli şəxslər vətəndaşların hüquqlarının qorunmasına ciddi yanaşsalar biz çox şeylərə nail ola bilərik. Təəssüflər olsun ki, bir çox hallarda, - bunu bu gün etiraf etmək lazımdır, - vəzifəli şəxslər hesab edirlər ki, qanun onlar üçün deyildir. Biz belə faktların şahidiyik. Bu gün bəyan edirəm ki, belə faktlarla ciddi mübarizə aparılmalıdır. Belə şəxslər hakimiyyət orqanında işləyə bilməzlər. Onlar öz işlərindən kənarlaşdırılmalıdır. Biz hər bir vətəndaşın hüququnun qorunmasına çalışmalıyıq.

Təbiidir, vətəndaşlarımız içərisində cinayət edənlər də var, qanunu pozanlar da var, başqalarının hüquqlarına təcavüz edənlər də var, ümumiyyətlə qanuna, hüquqa riayət etməyənlər də vardır. Hakimiyyət orqanlarının, vəzifəli şəxslərin vəzifəsi bütün bunlarla mübarizə aparmaqdır. Ancaq bu mübarizəni apararkən qanuna riayət etmək, qanun çərçivəsində hərəkət etmək, qanun əsasında fəaliyyət göstərmək lazımdır. Mən inanıram ki, Azərbaycanın vətəndaşları, Azərbaycanda hakimiyyət orqanlarında çalışanlar insan hüquqları məsələsini həmişə diqqət mərkəzində saxlayacaqlar.

Bizdə bu sahədə təbliğat da geniş olmalıdır, hüquq təhsili də gücləndirilməlidir. Biz hüquq haqqında danışarkən bilməliyik ki, əgər vətəndaşlar qanunu bilmirlərsə, öz hüquqlarını, nəyi edə bilərlər, nəyi edə bilməzlər - bunu bilmirlərsə onlardan qanuna tabe olmağı tələb etmək də ədalətli olmur.

Biz keçmişdə, yəni sovet hakimiyyəti dövründə qanunlar əsasında yaşamadığımıza görə insanlarda hələ qanunu bilmək, qanunu öyrənmək, qanuna riayət etmək vərdişi yaranmayıbdır. Bu vərdiş də bir günə, iki günə yarana bilməz. Demək, biz çalışmalıyıq ki, bu proses inkişaf etsin. Bu prosesi özbaşına da buraxmaq olmaz. Biz bu prosesə təsir göstərməliyik. Biz bu prosesi istiqamətləndirməliyik. Bunun üçün də hüquq təhsili təkcə məktəblərdə, yaxud universitetlərdə olmamalıdır, cəmiyyətin bütün sahələrində olmalıdır.

Biz bu gün 50 illik yubileyi qeyd edərkən, hesab edirəm, gələcək üçün əsas qənaətimiz ondan ibarət olmalıdır ki, Azərbaycan vətəndaşlarını hüquqi təhsil nöqteyi-nəzərindən inkişaf etdirək. Bu, böyük bir işdir. Mənə belə gəlir ki, bu işi mütəşəkkil və ardıcıl surətdə aparmaq üçün proqram da yazmaq lazımdır və onun həyata keçirilməsini təmin etmək lazımdır.

Bir sözlə, Azərbaycan müstəqil dövlət kimi Ümumdünya insan hüquqları bəyannaməsinə sadiqdir və bundan sonra da sadiq olacaqdır. Biz həyatımızın bütün sahələrində və xüsusən dövlət quruculuğu prosesində Konstitusiyada həkk olunmuş insan hüquqlarına aid bütün maddələrin

həyata keçirilməsini təmin edəcəyik. Konstitusiyanın maddələrindən irəli gələn vəzifələri həyata keçirmək üçün bundan sonra da yeni qanunlar qəbul edəcəyik və beləliklə Azərbaycanı həqiqətən demokratik, hüquqi, dünyəvi dövlət edəcəyik.

İnsan hüququ hər bir insanın hüququdur, eyni zamanda hər bir xalqın hüququdur. Biz ölkənin daxilində insan hüquqları ilə əlaqədar nöqsanların aradan qaldırılmasına və insan hüquqlarının bərqərar olmasına səlahiyyətliyik və bunu təmin edə bilərik. Ancaq Azərbaycan xalqının hüquqlarının pozulması, tapdalanması isə bizim xalqımızı incidən və narahat edən haldır. Bu, eyni zamanda Dünya Birliyini, Birləşmiş Millətlər Təşkilatını da narahat etməlidir. Bu da burada deyildiyi kimi, Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində Azərbaycan ərazisinin bir qisminin işğal olunması, bu müharibədə insanların həlak olması, bütün hüquqlarının pozulması və bir milyondan artıq azərbaycanlının yerindən-yurdundan zorla çıxarılması ilə əlaqədar bütün hüquqlarının pozulmasıdır. Təəssüflər olsun ki, dünyanın insan hüquqları ilə məşğul olan bir çox beynəlxalq mərkəzləri bu sahəyə diqqət yetirmirlər, bəziləri hətta bu sahəni insan hüquqlarının pozulması kimi qiymətləndirə bilmirlər. Bu, bizi çox narahat edir. Ona görə də bu gün Ümumdünya insan hüquqları bəyannaməsinin 50-ci ildönümünü bayram edərək, biz Birləşmiş Millətlər Təşkilatından, ATƏT-dən və insan hüquqları ilə məşğul olan bütün beynəlxalq təşkilatlardan, onların mərkəzlərindən tələb edirik ki, Azərbaycan xalqının hüquqlarının kütləvi surətdə pozulmasına son qoyulsun.

Xalqımız dözümlü xalqdır və torpaqlarımızın işğal olunmasına da biz hələ ki, dözürük. İnsanların bütün hüquqlardan məhrum olaraq çadırlarda yaşamasına da biz dözürük. Xalqımıza edilmiş bu təcavüzə və hüquqlarımızın tapdanmasına da dözürük. Dözürük ona görə ki, biz sülhsevər xalqıq. Müstəqil Azərbaycan dövləti sülhpərvər siyasət tərəfdarıdır və Ermənistan-Azərbaycan münaqişəsini də biz sülh yolu ilə həll etmək istəyirik. Ona görə də biz beynəlxalq təşkilatlarla, xüsusən ATƏT-lə, onun Minsk qrupu ilə, Minsk qrupunun həmsədrləri olan Rusiya, Amerika Birləşmiş Ştatları, Fransa ilə sıx əməkdaşlıq edirik. Bu əməkdaşlığın müsbət nəticələrinə də inanırıq. Ancaq eyni zamanda məsələnin gecikməsi və beynəlxalq aləmin, Dünya Birliyinin get-gedə bu hərbi təcavüzü unutması, insan hüquqlarının bu qədər tapdalanmasına göz yumması bizim hər birimizi, bütün Azərbaycan xalqını narahat edir. Bu da təbiidir. Güman edirəm, Birləşmiş Millətlər Təşkilatı da, ATƏT də, bütün beynəlxalq təşkilatlar da məhz bu gün, məhz bu il ümumiyyətlə dünyada insan hüquqlarının kütləvi pozulması ilə əlaqədar ciddi tədbirlər görməlidirlər, biz bunu tələb edirik.

Məmnuniyyətlə demək olar ki, Azərbaycanda 1998-ci ildə Ümumdünya insan hüquqları bəyannaməsinin 50 illik yubileyi ilə əlaqədar çoxsaylı tədbirlər bizim cəmiyyətimizə, vətəndaşlarımıza fayda vermişdir. Konfranslar, elmi sessiyalar, müxtəlif yığıncaqlar və elə bu təntənəli mərasim - hamısı birlikdə Azərbaycanda cəmiyyətin, hər bir vətəndaşın diqqətini insan hüquqları probleminə cəlb edir. Bu, özü-özlüyündə bizim ümumi işə çox böyük fayda verir. Mən bunların hamısından məmnun olduğumu bildirərək, indiyə qədər görülən işləri yüksək qiymətləndirdiyimi bir daha bəyan edirəm və sizi, Azərbaycanın bütün vətəndaşlarını Ümumdünya insan hüquqları bəyannaməsinin 50-ci ildönümü münasibətilə təbrik edirəm. Hər bir Azərbaycan vətəndaşına ən əsas hüquq - yaşamaq hüququ, xoşbəxt yaşamaq hüququ arzu edirəm. Sizin hamınıza bu ümumbəşəri işdə uğurlar diləyirəm. Sağ olun.

Azərbaycan Prezidenti Heydər Əliyevin BMT-nin Ümumdünya Ərzaq Proqramının nümayəndə heyətini qəbul edərkən söhbətindən 14 yanvar 1999-cu il

Heydər Əliyev: Azərbaycana xoş gəlmisiniz. Mən sizi səmimi qəlbdən salamlayıram. Sizin bu səfərinizi qiymətləndirirəm və güman edirəm ki, bu səfərinizin nəticəsində Azərbaycana Birləşmiş Millətlər Təşkilatının humanitar yardımları artacaqdır.

Güman edirəm ki, siz burada olduğunuz günlərdə Azərbaycanın bugünkü vəziyyəti ilə tanış ola bilmisiniz. Baş nazir Artur Rasizadə mənə söylədi ki, bu barədə sizinlə çox ətraflı danışıqlar aparılıbdır. Bizim Azərbaycanın bugünkü gerçəkliyi çox ziddiyyətlidir. Biz bir tərəfdən dörd ildən çoxdur ki, Ermənistan-Azərbaycan münaqişəsində atəşi dayandırmışıq və Azərbaycanın daxilində keçmişdə olan cürbəcür neqativ halları aradan qaldırmışıq. İctimai-siyasi sabitliyi təmin etmişik və Azərbaycanda ardıcıl olaraq iqtisadi, siyasi, sosial islahatlar həyata keçiririk. Bunlarla yanaşı, ikinci tərəfdən, Azərbaycanın həyatını çox çətinləşdirən, ağırlaşdıran odur ki, Azərbaycan ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. İşğal olunmuş bu torpaqlardan zorla çıxarılmış və vaxtilə Ermənistanın ərazisindən zorla çıxarılmış bir milyondan artıq qaçqın, köçkün Azərbaycanda ağır şəraitdə, əksəriyyəti çadırlarda çox ağır vəziyyətdə yaşayır. Onlar hamısı öz torpaqlarına qayıtmaq arzusu ilə yaşayırlar, ona görə də bütün əzab-əziyyətlərə dözürlər. Ancaq məsələnin həll olunması gecikir və iqtisadi vəziyyət də günü-gündən xarablaşır.

Güman edirəm, siz artıq bunların hamısını görmüsünüz və sizə ətraflı danışıblar. Mən sadəcə, onları sizə bir daha xatırlatmaq istədim. Ümid edirəm ki, siz Azərbaycanın bugünkü reallığını nəzərə alaraq gələcəkdə Azərbaycan ilə Birləşmiş Millətlər Təşkilatı arasındakı əməkdaşlığın da planlarını quracaqsınız. Buyurun.

Robert Hauzer (BMT-nin Ümumdünya Ərzaq Proqramının Şərqi Avropa və MDB ölkələri üzrə şöbəsinin müdiri): Cənab prezident, çox sağ olun. Əvvələn, bugünkü qəbula görə sizə dərin minnətdarlığımı bildirmək istəyirəm. İkinci növbədə, sizin hökumətin biz bütün səviyyələrdə göstərdiyi dəstəyə, yardıma və əməkdaşlığa görə hökumət nümayəndələrinizə minnətdarlığımı bildirmək istəyirəm. Demək istəyirəm ki, həm regionlarda, həm də Bakıda bizə hər cür dəstək verilmişdir, bizimlə hər cür əməkdaşlıq aparılmışdır. Baxmayaraq ki, bizim Azərbaycana bu səfərimiz qısamüddətlidir, bu səfər öz məhsuldarlığı ilə fərqlənir və ümumi götürsək, əməkdaşlıq ruhunda keçmişdir.

Qeyd edirəm ki, bizim səfərimiz qısa bir səfərdir. Lakin bu səfərin qısalığına baxmayaraq biz bəzi regionlarda olmuşuq və ölkə daxilində qaçqınlarla görüşmüşük, onlardan kifayət qədər məlumat almışıq. Bu səfərimiz zamanı humanitar məsələlərlə məşğul olan cənab Əli Həsənovla görüşmüşük və sizin qeyd etdiyiniz kimi, baş nazir cənab Artur Rasizadə ilə də ətraflı görüşümüz olmuşdur. Biz baş nazirlə görüşərkən bunu müzakirə etmişik, bunu təkrarən sizə bildirmək istəyirik.

Əlbəttə, yüz dəfə eşitməkdənsə, bir dəfə görmək lazımdır və elə bilirəm ki, bu missiya, yəni mən və həmkarlarım hər şeyi kifayət qədər görə bildik, məsələ ilə kifayət qədər tanış olduq. Artıq bəzi nəticələri çıxarmışıq və gələcəkdə necə əməkdaşlıq etməyi özümüz üçün planlaşdırmışıq.

Mən bir şeyi qəti əminliklə deyə bilərəm ki, biz bugünkü günə qədər qurbanlar olmuşuq. Yəni biz Xəzər regionu ətrafında və neft ətrafında gedən söhbətlərin qurbanı olmuşuq. Bizdə belə bir təsəvvür var idi ki, Azərbaycan artıq çox zəngin, varlı bir ölkədir. Amma onu demək istəyirəm ki, bu hələ belə deyildir. Lakin biz gələcəyə böyük ümidlə baxırıq. Belə hesab edirik ki, çox tezliklə ölkənizin bu təbii zənginliyi həyata keçiriləcək və o, həqiqətən varlı bir ölkə olacaqdır. Hələlik isə elə bilirəm ki, ölkənizin yardıma ehtiyacı vardır. Xüsusilə də bunlar ölkənin o təbəqəsidir ki, biz onları daxili qaçqınlar adlandırırıq.

Bu missiyanın əsas fikri ondan ibarətdir ki, biz həm rəhbərlərimizə, həm də donor ölkələrə və təşkilatlara belə məlumat çatdıracağıq ki, Azərbaycana yardım davam etdirilməlidir. Lakin

bu yardımın əsas istiqaməti bir qədər dəyişilməlidir. İndi əsas istiqamət daha çox reabilitasiya və qaçqınların məşğuliyyətinə yönəldilməlidir. Biz baş nazirlə bu məsələlərin hamısını ətraflı müzakirə etmişik. Ona görə də bütün bu məsələləri sizinlə müzakirə etmək fikrində deyilik. Lakin bizim fikrimiz ondan ibarətdir ki, ölkədaxili qaçqınlara yardım davam etdirilməlidir. Xüsusilə də psixoloji yardımı davam etdirməliyik, onları psixoloji vəziyyətdən çıxara bilək.

Köhnə atalar misalında deyildiyi kimi, balıqçıya balıq verməkdənsə, qarmaq verməliyik ki, həmin balıqçı balığı tuta bilsin. Bu baxımdan, sözümün davamı kimi, demək istəyirəm ki, eyni zamanda həmin balıqçı balığı o qədər ovlamalıdır ki, bu, yalnız onun ailəsi üçün yox, bütün ölkə üçün kifayət etsin. Biz elə bu ruhda da işimizi davam etdirmək fikrindəyik.

Heydər Əliyev: Mən sizə təşəkkür edirəm. Əvvəla, çox məmnunam ki, siz yerlərdə olmusunuz və xüsusən, yerindən-yurdundan didərgin düşmüş insanlarla görüşmüsünüz, onların vəziyyətini özünüz müşahidə etmisiniz.

Azərbaycan zəngin ölkə olmaq istəyir və bunun üçün əsas da vardır. Ancaq hələ zəngin deyilik və bunun üçün çox vaxt lazımdır. Biz məğrur millətik. Əgər biz zəngin olsaydıq, heç vaxt heç kəsdən yardım istəməzdik. Əksinə, başqalarına yardım edərdik. Əgər biz zəngin ölkələrdən və Birləşmiş Millətlər Təşkilatından, onun humanitar yardım idarələrindən Azərbaycanda ağır vəziyyətdə yaşayan qaçqınlara, köçkünlərə yardım istəyiriksə, demək, biz məcburiyyət qarşısındayıq. Ona görə də mən istərdim ki, buradakı təəssüratlarınız, gördükləriniz sizin Azərbaycanla əməkdaşlığınızın gələcəkdə əsasını təşkil etsin.

Biz çox çalışırıq ki, işğal olunmuş torpaqlar azad edilsin və yerindən-yurdundan didərgin düşmüş azərbaycanlılar öz yerlərinə qayıtsınlar. Əgər buna nail ola bilsək, biz bu yardımdan imtina edəcəyik, yaxud da bu yardımın forması dəyişiləcəkdir. Təəssüf ki, biz hələ indiyə qədər buna nail ola bilməmişik. Bizim böyük nailiyyətimiz odur ki, müharibəni dayandırmışıq, qan tökülməsinin qarşısını almışıq, atəşkəs rejimi yaratmışıq və dörd il yarımdır ki, bu atəşkəs rejimini saxlayırıq. Amma insanları düşdüyü ağır vəziyyətdə də yaşatmaq lazımdır. Buna da bizim özümüzün gücümüz çatmır. Bu həm Azərbaycanın iqtisadiyyatında gedən proseslərlə əlaqədardır, həm də yerindən-yurdundan didərgin düşmüş insanların əksəriyyətinin işsiz olması ilə əlaqədardır.

Ona görə də, güman edirəm ki, sizin bu missiyanız gələcəkdə bizim əməkdaşlığımızın əsasını təşkil etmək üçün çox əhəmiyyətlidir. Mən sizə təşəkkür edirəm. Çox məmnunam ki, siz belə böyük tərkibdə gəlib Azərbaycanı ziyarət etmisiniz. Ümidvaram ki, sizin bu missiyanızın müsbət nəticələrini biz görəcəyik.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Avropa Bürosunun direktoru cənab Anne-Villem Baylaveldin başçılığı ilə Ali Komissarlığın Şərqi Avropa dövlətlərində çalışan rezident nümayəndələrini qəbul edərkən söhbətindən - Prezident sarayı, 18 mart 1999-cu il

Heydər Əliyev: Hörmətli qonaqlar, mən sizi salamlayıram. Azərbaycana, bizim ölkəmizə xoş gəlmisiniz. Birləşmiş Millətlər Təşkilatının çoxsaylı nümayəndə heyətini görməkdən çox məmnunam.

Birləşmiş Millətlər Təşkilatı ilə, onun bütün strukturları ilə biz daim sıx əməkdaşlıq etməyə çalışırıq. Birləşmiş Millətlər Təşkilatının Azərbaycandakı daimi nümayəndəsi ilə də bizim sıx əməkdaşlığımız vardır. Birləşmiş Millətlər Təşkilatı ilə əməkdaşlıqda bizi çox məsələlər maraqlandırır. Bunların içərisində qaçqınlar, köçkünlər problemi xüsusi yer tutur. Çünki siz yaxşı bilirsiniz ki, Ermənistan-Azərbaycan münaqişəsi ilə əlaqədar bir milyondan artıq vətəndaş öz ölkəmizdə qaçqın olubdur. Bu, bizim ən ağır, ən çətin problemlərimizdən biridir. Ona görə də biz bu sahəyə xüsusi diqqət yetiririk və mən BMT-nin bu sahə üzrə məsul vəzifəli şəxslərinin Azərbaycana gəlməsini qiymətləndirirəm. Güman edirəm ki, siz bu səfəriniz zamanı Azərbaycanda qaçqınların, köçkünlərin vəziyyəti ilə daha da yaxından tanış ola biləcəksiniz. Mən də sizə bu sahədə kömək edə bilərəm.

Sabah mən qaçqınların məskunlaşdığı düşərgələrdən birində olmağı qərara almışam. Mən özüm sizə onların vəziyyətini göstərə bilərəm. Buyurun, mən sizi dinləyirəm.

Anne-Villem Baylaveld: Cənab prezident, çox sağ olun ki, Novruz bayramı ərəfəsində bizim nümayəndə heyətini qəbul edirsiniz. İcazə verin, bu imkandan istifadə edərək Sizi və bütün Azərbaycan xalqını Novruz bayramı münasibətilə təbrik edim.

Cənab prezident, qaçqınlar üzrə ali komissar xanım Aqata mənim vasitəmlə öz salamlarını Sizə yetirir və bu il Azərbaycana gəlmək fikrində olduğunu bildirmək istəyir. Sizə məlum olduğu kimi, mən bir həftədir ki, sizin ölkənizdə, Azərbaycandayam. Bu müddət ərzində çalışmışam ki, Azərbaycanda qaçqınların vəziyyətinin hansı səviyyədə olduğunu yaxşı anlayım. Eyni zamanda biz bu müddət ərzində regional görüşlər - keçmiş SSRİ ölkələrində işləyən bizim nümayəndələrin görüşünü keçirmişik. Bu görüşlər zamanı çalışmışıq ki, qaçqınların problemlərini həll etməyin ən yaxşı üsullarını öyrənək. Biz ümumi problemləri aramağa çalışmışıq və ayrı-ayrı vəziyyətləri nəzərdən keçirmişik.

Biz görüşlər zamanı həmçinin öz təcrübəmizi bir-birimizlə bölüşmüşük və bu təcrübə mübadiləsi zamanı hökumətə daha yaxşı yardım yollarını arayıb-axtarmağa çalışmışıq ki, doğma yurdlarından zorla qovulmuş insanların - qaçqınların vəziyyətini düzəltmək üçün gələcəkdə əlimizdən gələni edə bilək.

Heydər Əliyev: Çox gözəl. Mən görürəm ki, siz Azərbaycana xüsusi diqqət göstərmisiniz. Keçmişdə Sovetlər İttifaqına mənsub olan ölkələrdəki nümayəndələrinizin hamısını Azərbaycanda, Bakıda toplamısınız. Mən bunu çox yüksək qiymətləndirirəm.

Güman edirəm ki, siz və müxtəlif ölkələrdə olan nümayəndələriniz bu günlərdə Azərbaycanla yaxından tanış olarkən ölkəmizin problemlərini daha yaxşı biləcəksiniz və Birləşmiş Millətlər Təşkilatında daha da geniş məlumat olacaqdır.

Anne-Villem Baylaveld: Cənab prezident, deməliyəm ki, burada olduğumuz müddətdə cənab Əli Həsənov bizə çox yardım etmişdir və biz birlikdə Azərbaycanın müxtəlif regionlarına səyahət etmişik, iki qaçqın düşərgəsində olmuşuq. Qeyd etməliyəm ki, cənab Həsənov öz işinə sadiq bir adamdır. Həqiqətən onu doğma yurdlarından zorla qovulmuş, qaçqın düşmüş insanların taleyi dərindən maraqlandırır. Biz Sizin keçən ilin sentyabrında verdiyiniz fərmanı eşitdikdən, bu haqda məlumat aldıqdan sonra çox xoşhal olduq. Çünki həmin fərmana görə Siz qaçqınlara, zorla qovulmuş şəxslərə yeni iş imkanları açmaq haqqında sərəncam vermisiniz. Məhz həmin

fərmanın nəticəsidir ki, Sizin hökumətin işçi qrupu ilə hökumətinizdə olan həmkarlarla bizim həmkarlar arasında çox yaxşı, sıx əlaqə yaranmışdır və biz işləyərək həm bir-birimizə kömək edirik, həm də qaçqınların vəziyyətini düzəltmək üçün yardım göstəririk. Məhz bunun nəticəsidir ki, Sizin və bizim həmkarlarımız birgə plan işləyib hazırlamışlar. Mən bunu tamamlayıcı plan adlandırardım. Bu, çox gözəl plandır. İstərdim ki, belə bir plan başqa ölkələrdə də hazırlansın və həyata keçirilsin.

Bizim Tbilisidəki nümayəndəmiz cənab Əkbər Menemençioğlu bir neçə həftədir Bakıdadır. O, həmin planı burada çox dərindən öyrənir ki, Gürcüstanda onu daha yaxşı tətbiq edə bilsin. Mən bu planla əlaqədar olaraq Azərbaycanı Cenevrədə misal çəkəcəyəm. Azərbaycan haqqında deyəcəyəm ki, həqiqətən, öz ölkəsi daxilində doğma yerlərindən mərhum olmuş şəxslərə geri dönənədək çox böyük qayğı, diqqət göstərilir.

Cənab prezident, Sizin hökumətin yoxsulluğu aradan götürmək və qaçqınlar üçün hər bir şərait yaratmaq planına, uzunmüddətli siyasətinizə böyük hörmətimiz vardır. Eyni zamanda bizim birgə uğurlu işimiz, Sizin hökumətlə Birləşmiş Millətlər Təşkilatının uğurlu əməkdaşlığı donorların da bu işə cəlb olunmasını təmin edəcəkdir. Mən yalnız bizim axtardığımız donorları yox, Azərbaycan tərəfindən axtarılan donorları da nəzərdə tuturam. Yalnız donorlar vasitəsilə burada olan qaçqınların vəziyyətini həqiqətən yaxşılaşdırmaq üçün lazımi fondlar yaradıla bilər.

Cənab prezident, çox hallarda donorlar buraya gəlməkdə və vəsait ayırmaqda tərəddüd edirlər. Onlar bunu əsas səbəb gətirirlər ki, hökumətlə BMT-nin kifayət qədər əlaqəsi, əməkdaşlığı yoxdur. Lakin mən deyə bilərəm ki, biz çox gözəl əlaqədəyik, çox gözəl əməkdaşlıq edirik və bu da donorların buraya gəlməsi üçün gözəl işarədir.

Cənab prezident, eyni zamanda icazə verin, Sizin vətəndaşlıq haqqında fərmanınızla əlaqədar olaraq öz hörmət və ehtiramımı bildirim. Bu, bizə böyük ruh vermişdir və çox perspektivli bir fərmandır. Biz Sizin parlamentin üzvləri ilə çox sıx əlaqədəyik, yaxşı əməkdaşlıq edirik. Xüsusilə də parlamentin hüquq komissiyasının üzvləri ilə sıx əlaqədə işləyirik və çox şadıq ki, qaçqınlar haqqında qanunun qəbul edilməsi sahəsində böyük tərəqqi əldə olunubdur. Biz çox məmnunuq ki, qeyri-hökumət təşkilatları haqqında qanunvericilik fəaliyyətində də irəliyə doğru addım atılmışdır və biz əlimizdən gələni edəcəyik ki, bu sahədə Sizə yardım edək. Eyni zamanda çalışacağıq ki, Avropa Şurasının işçi qrupu ilə sizin əlaqənizi möhkəmləndirək və bu vasitə ilə həmin qanun qəbul və təsdiq olunsun.

Cənab prezident, beləliklə, artıq dörd-beş ildir ki, bizim Qaçqınlar üzrə Ali Komissarlıq ölkənizdə çalışır. Sizin hökumətlə sıx əlaqədədir. Elə bilirəm ki, bu müddət ərzində birgə işin nəticəsi kimi biz qaçqınlıq əziyyətini çəkən şəxslərin vəziyyətlərinin bir qədər yaxşılaşması üçün müəyyən işlər görə bilmişik. Bundan sonra da görəcəyimiz işlər çoxdur və biz bunu böyük məmnuniyyətlə edəcəyik.

Heydər Əliyev: Mən təşəkkür edirəm. Sizin nümayəndə heyətindən kimsə söz demək istəyirmi? Deyəsən, yoxdur.

Mən bir daha sizin bu günlərdə Azərbaycanda olmağınızdan və həmçinin başqa ölkələrdəki nümayəndələrinizin də Azərbaycanda sizinlə bərabər olmasından çox məmnunam. Mən sizin məlumatınızı çox diqqətlə dinlədim. Deyə bilərəm ki, həqiqətən, Birləşmiş Millətlər Təşkilatı ilə, sizin Ali Komissarlıqla Azərbaycan arasındakı əməkdaşlıq uğurludur. Əgər donorlardan kimsə hesab edirsə ki, bu əməkdaşlıq istənilən səviyyədə deyil, ola bilər, onlar həqiqi vəziyyəti bilmirlər. Güman edirəm ki, siz onlara lazımi izahatlar, məlumatlar verəcəksiniz.

Bir daha qeyd edirəm ki, Azərbaycanda ölkənin əhalisinin sayına nisbətdə qaçqınlar, köçkünlər həddən artıq çoxdur. Son siyahıyaalmanın yekunlarına görə Azərbaycanın bugünkü əhalisi 8 milyona yaxındır. 8 milyon əhalidən bir milyonunun qaçqın vəziyyətində olması həddindən artıq ağır, çətin bir hadisədir. Siz bilirsiniz ki, onların əksəriyyəti çadırlarda yaşayır. Təsəvvür etmək çətindir ki, bir il yox, beş il, altı il insanlar çadırda yaşasınlar. Ancaq bu həqiqətdir, bu reallıqdır. Mən həmişə bizim vətəndaşlarımızın, yerindən-yurdundan didərgin düşmüş, qaçqın, köçkün vəziyyətində yaşayan vətəndaşlarımızın dözümlülüyünə heyran olduğumu bildirirəm.

Azərbaycan öz daxili imkanları ilə qaçqınların, köçkünlərin yaşaması üçün əlindən gələni edir. Ancaq bilirsiniz ki, bizim imkanlarımız da məhduddur. Təsəvvür edin, ərazimizin 20 faizi işğal olunubdur. İşğal olunmuş torpaqlar ən münbit torpaqlardır. Biz o torpaqlardan istifadə etməkdən mərhum olmuşuq. Bu ərazilərdə bizim vaxtilə yaratdığımız zavodlar, fabriklər, digər istehsal müəssisələri və insanın yaşaması üçün lazım olan bütün imkanların hamısı əlimizdən çıxıbdır. Ona görə də bizim daim yardıma ehtiyacımız vardır.

Təbiidir ki, bizim əsas məqsədimiz işğal olunmuş torpaqların işğal etmiş qüvvələrdən azad olunması, vətəndaşlarımızın öz yerinə-yurduna qayıtmasıdır. Belə olan halda biz məsələləri daha da uğurla həll edə bilərik. Təəssüf ki, hələ biz buna nail ola bilməmişik və Ermənistan tərəfi bu məsələlərdə qeyri-konstruktiv mövqe tutur.

Vaxtilə Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin Azərbaycanın ayrı-ayrı bölgələrini işğal etməsi ilə əlaqədar bir neçə qətnaməsi olubdur və o qətnamələrdə tələb edilibdir ki, Ermənistan silahlı qüvvələri işğal olunmuş torpaqlardan şərtsiz olaraq çıxsınlar. Ancaq Ermənistan hökuməti BMT-nin Təhlükəsizlik Şurasının bu qətnamələrini indiyə qədər yerinə yetirməyibdir. Aydındır ki, o qətnamələr indi də öz qüvvəsini saxlayır.

Siz bilirsiniz ki, biz bu münaqişəni sülh yolu ilə həll etmək istəyirik və ATƏT-in Minsk qrupu çərçivəsində çox fəal əməkdaşlıq edirik. Ancaq bu da hələ bir nəticə verməyibdir. Hər halda bizim qarşımızda duran vəzifəmiz və məqsədimiz işğal olunmuş torpaqların azad edilməsi, Azərbaycanın bir dövlət kimi ərazi bütövlüyünün bərpa olunması və yerindən-yurdundan köçmüş, didərgin düşmüş vətəndaşlarımızın öz torpaqlarına qayıtmasıdır.

Məlumdur ki, işğal edilmiş torpaqlarda Azərbaycanın bütün mülkiyyəti dağıdılıbdır. Ancaq buna baxmayaraq insanlar öz torpaqlarına qayıtmaq istəyir və biz inanırıq ki, onlar öz torpaqlarına qayıdandan sonra qısa bir müddətdə özlərinin yaşayışı üçün şərait yarada biləcəklər. Məlumdur ki, vətən məhəbbəti, torpaq məhəbbəti, doğma yer məhəbbəti hər şeydən üstündür. Biz insanlar üçün bunu təmin etməliyik. Ancaq hələ ki, buna nail ola bilməmişik. Biz qaçqınların, köçkünlərin vəziyyətini mümkün qədər yaxşılaşdırmalıyıq və arzumuz, istəyimiz ondan ibarətdir ki, Birləşmiş Millətlər Təşkilatı bu problemə daha da diqqətlə yanaşsın, daha da çox qayğı göstərsin və humanitar yardımları mümkün qədər artırsın. Güman edirəm, siz Azərbaycanda olduğunuz müddətdə mənim bu fikirlərimi təsdiq edən faktların şahidi oldunuz.

Mən məmnunam ki, Birləşmiş Millətlər Təşkilatının Ermənistandakı nümayəndəsi də bu gün buradadır - Bakıda, Azərbaycandadır. Güman edirəm ki, o, qaçqınların vəziyyətini, Azərbaycanın vəziyyətini görəndən sonra Ermənistan-Azərbaycan münaqişəsinin tezliklə həll olunması üçün Ermənistanda daha da çox səylər qoyacaqdır.

Bir sözlə, biz sizinlə bundan sonra da sıx əməkdaşlıq edəcəyik. Ümid edirik və mən bu gün də inanıram ki, siz, Birləşmiş Millətlər Təşkilatı Azərbaycanın bu probleminin həll olunmasına bundan sonra da yardım edəcəksiniz və qaçqınların, köçkünlərin vəziyyətini yaxşılaşdırmaq üçün humanitar yardımlarınızı artıracaqsınız.

Anne-Villem Baylaveld: Cənab prezident, çox sağ olun. Mən Sizi əvvəlcədən inandırmaq istəyirəm ki, biz fəaliyyətimizi başlamışıq və bunu artırırıq. Donorların bəziləri ilə danışmışıq və ümid edirəm ki, bizim əməkdaşlığımız daha da uğurlu olacaqdır. Lakin Sizdən xahiş etmək istəyirəm ki, Siz də donorlara eyni müraciəti edəsiniz, onlardan bizim etdiyimiz xahişi edəsiniz. Çünki praktika göstərir ki, hökumətinizin, yaxud da BMT-nin donorlara ayrı-ayrılıqda müraciət etməsi bir o qədər də səmərəli olmur. Ona görə də biz gərək birgə - həm hökumət, həm də BMT - donorlara müraciət edək və bu işin lazımlılığını onlara inandırmağa çalışaq.

Cənab prezident, biz çox gözəl anlayırıq ki, qaçqınlar və köçkünlər ölkə üçün çox ağır bir yükdür. Lakin inanın ki, humanitar yardım məsələsi də çətindir.

Cənab prezident, Sizin verdiyiniz fərman bizim dediklərimizi təsdiq edir. Qaçqınlara yalnız nicat yardımları kifayət etmir. Onların vəziyyətini həqiqətən yaxşılaşdırmaq üçün onları işə cəlb etmək lazımdır və bu baxımdan biz çox şadıq ki, Birləşmiş Millətlər Təşkilatı burada - bu məsələ ilə əlaqədar Dünya Bankı ilə birlikdə çalışır və biz bu problemi birgə həll etməyə səy göstəririk.

Bu barədə siyasətimiz belədir ki, istəmirik onlar həmişə ehtiyacda olsunlar. İstəyirik ki, bir növ onlar istehsalçıya çevrilsinlər. Eyni zamanda böyük ümidlər bəsləyirik ki, bu problem aradan götürüləcəkdir. Humanitar agentlik kimi bizim yardımlarımız çox məhduddur. Lakin bu məsələnin siyasi həlli tapılan kimi biz sizinlə olacağıq. Sizin ən yaxın yardımçınız olacağıq.

Heydər Əliyev: Təşəkkür edirəm, çox sağ olun. Mən bir daha bəyan edirəm ki, bütün imkanlarımızdan qaçqınların vəziyyətini yaxşılaşdırmaq üçün istifadə edirik. Onları əmək fəaliyyətinə daha da çox cəlb etmək sahəsində işlər gördük və görürəm ki, siz artıq bunları yaxşı qiymətləndirirsiniz. Amma bunlar hamısı onların vəziyyətinin yaxşılaşdırılmasını təmin etmir. Biz daim onların qarşısında borcluyuq.

Biz də bilavasitə donorlara müraciət edəcəyik. Sizin bu məsləhətinizi yaxşı qəbul edirəm. Yəqin ki, bu barədə Əli Həsənov təkliflər hazırlayacaqdır. Yəni siz də, biz də bütün imkanlardan istifadə etməliyik.

Ercan Murad (BMT-nin Azərbaycandakı rezident-əlaqələndiricisi): Cənab prezident, biz cənab Əli Həsənovla razılaşmışıq, mayın 5-də Bakıda beynəlxalq seminar keçirəcəyik. Bu seminarın məqsədi cənab Baylaveldin dediyi kimi, aydındır. Sizin hökumətinizin donorlara edəcəyi təkliflərlə bağlı, həmçinin qaçqın, köçkün probleminin həli üçün hazırlanmış proqramın Dünya Bankının köməyindən istifadə edərək birlikdə həyata keçməsinə nail olmaq lazımdır. Artıq bəzi təşkilati işlər görülmüşdür. İki gün ərzində Bakıdakı donorlara, Moskvadakı, Ankaradakı səfirliklərə, eyni zamanda digər Avropa, Amerika donor mərkəzlərinə dəvətnamələr göndəriləcəkdir. İstəyirik ki, bu yaxşı seminar olsun.

Heydər Əliyev: Bu, çox yaxşı təşəbbüsdür. Mən bu təşəbbüsü dəstəkləyirəm və bu barədə sizə yardım etməyə hazıram. Hamınıza can sağlığı arzu edirəm. Sizi də Novruz bayramı münasibətilə təbrik edirəm və bütün işlərinizdə uğurlar arzulayıram.

(Sonra Heydər Əliyev BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Yerevandakı nümayəndəsi Lars Tomas Biratdan Ermənistandakı vəziyyəti xəbər aldı).

Lars Tomas Birat: Vəziyyətin o qədər də yaxşı olduğunu demək olmaz. Burada olduğu kimi, orada da - həm Yerevanda, həm də Ermənistanın digər bölgələrində Birləşmiş Millətlər Təşkilatı və digər beynəlxalq təşkilatlar əllərindən gələni etməyə çalışırlar ki, vəziyyət yaxşılaşsın. Əlbəttə, mənim Bakıya gəlmək imkanı əldə etməyim çox əvəzsiz şansdır. Mən gəldim və hər şeyi öz gözlərimlə görə bildim.

Heydər Əliyev: Siz çalışın ki, onlar işğal olunmuş torpaqları azad etsinlər. Onda problemlər tez həll oluna bilər. Sağ olun.

Birləşmiş Millətlər Təşkilatının Baş katibi zati-aliləri Kofi Annana - 5 iyul 1999-cu il

Hörmətli baş katib, imkandan istifadə edərək, Ümumdünya İnsan Hüquqları Bəyannaməsində təsbit edilmiş insan hüquqlarının və əsas azadlıqlarının təmin edilməsi kimi yüksək amala nail olmaq üçün səy göstərdiyinizə və ölkəmizin Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin məqsədlərinə daim sadiq olduğu barədə verdiyiniz qiymətə görə Sizə minnətdarlığımı bildirirəm.

Bununla belə, qeyd etməyi zəruri hesab edirəm ki, Azərbaycan Respublikası mütərəqqi bəşəriyyətlə birlikdə ümumdünya bəyannaməsinin müddəalarının həyata keçirilməsinə yönəldilmiş tədbirlərdə fəal iştirak edir.

Dövlət müstəqilliyini əldə etmiş Azərbaycan Respublikası demokratik prinsiplərə, insan hüquqlarına və əsas azadlıqlarına hörmət və riayət edilməsinə sadiq olduğunu bəyan etmişdir.

Ümumdünya bəyannaməsinin məqsəd və vəzifələrini yerinə yetirən Azərbaycan Respublikası 125 beynəlxalq konvensiyalara, o cümlədən insan hüquqlarının müdafiəsi sahəsində çoxtərəfli müqavilələrə - «İqtisadi, sosial və mədəni hüquqlar haqqında beynəlxalq pakt»a, «Mülki və siyasi hüquqlar haqqında beynəlxalq pakt»a, «İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında beynəlxalq konvensiya»ya, «İşgəncələrə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və cəzalara qarşı konvensiya»ya, «Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında konvensiya»ya və «Uşaq hüquqları haqqında konvensiya»ya qoşulmuşdur.

İnsan hüquqları sahəsində beynəlxalq sazişlərdə və Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmiş yaşamaq hüququna təminat verilməsi məqsədi ilə Şərqdə ilk dəfə olaraq 1998-ci il fevralın 10-da Azərbaycan Respublikasında ölüm cəzasının ləğv edilməsi haqqında qanun qəbul edilmişdir. 1998-ci il dekabrın 11-də isə ölkəmiz «Mülki və siyasi hüquqlar haqqında beynəlxalq pakt»ın ölüm cəzasının ləğv edilməsinə yönəldilmiş ikinci fakultativ protokoluna qoşulmuşdur.

Əsas insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin olunması, onların müdafiəsi məqsədi ilə Azərbaycan Respublikasında müvafiq qanunlar, prezidentin fərman və sərəncamları, o cümlədən «Məlumat azadlığı haqqında», «Sərbəst toplaşmaq haqqında», «Azərbaycan Respublikasının qanunları, Azərbaycan Respublikası Prezidentinin «İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında» Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında» fərmanları, «Birləşmiş Millətlər Təşkilatının Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 50 illiyinin keçirilməsi haqqında», «İnsan hüquqlarının müdafiəsinə dair dövlət proqramının təsdiq edilməsi haqqında» sərəncamları və digər normativ-hüquqi aktlar qəbul edilmişdir.

Hal-hazırda beynəlxalq təşkilatların dəstəyi ilə insan hüquqlarının müdafiəsi sahəsində bir sıra qanunların layihələri hazırlanır.

Ölkəmiz insan hüquqlarının müdafiəsi sahəsində nüfuzlu beynəlxalq təşkilatlarla, o cümlədən BMT-nin İnsan Hüquqları üzrə Ali Komissiyasının İdarəsi ilə əməkdaşlığı yüksək qiymətləndirir və daim inkişaf etdirir.

Azərbaycan Respublikası hökuməti ilə BMT-nin İnsan hüquqları üzrə Mərkəzi arasında 1998-ci il avqustun 18-də imzalanmış «İnsan hüquqlarının inkişaf etdirilməsi və müdafiəsi üzrə potensialının gücləndirilməsi və infrastrukturunun yaradılması»na dair layihə sənədinin əhəmiyyətini xüsusilə vurğulamaq istərdim.

Son illər ərzində Azərbaycan dilində orta və ali təhsil müəssisələri üçün insan hüquqlarının müdafiəsi sahəsində müxtəlif dərsliklər və tədris vasitələri dərc edilmişdir.

Azərbaycan Respublikası Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin bütün maddələri ilə yanaşı, 30-cu maddədə əks olunmuş müddəaları tamamilə dəstəkləyir və onların həyata keçirilməsinə səy göstərir.

Bütün yuxarıda göstərilənlərlə bərabər, beynəlxalq ictimaiyyətin və Birləşmiş Millətlər Təşkilatının nəzərini bir daha Ermənistanın ölkəmizə qarşı təcavüzü nəticəsində bir milyondan artıq soydaşlarımızın Ermənistandakı və Azərbaycanın işğal olunmuş ərazilərindəki daimi yaşayış yerlərindən didərgin salınmasına, etnik təmizləmə və ayrı-seçkiliyə, bununla da insan hüquq və azadlıqlarının kütləvi surətdə pozulmasına yetirmək istərdim.

Göstərilənləri qeyd etməklə, öz doğma yurdlarından qovulmuş azərbaycanlıların pozulmuş hüquq və azadlıqlarının bərpası məqsədi ilə, işğal edilmiş Azərbaycan ərazilərinin azad olunması, qaçqınların və məcburi köçkünlərin öz torpaqlarına tezliklə qayıtması üçün səylərinizi əsirgəməməyə və Azərbaycan xalqının qanuni mənafelərini dəstəkləməyə çağırıram.

Dərin hörmətlə,
Heydər Əliyev
Azərbaycan Respublikasının Prezidenti.
Bakı şəhəri

Azərbaycan Prezidenti Heydər Əliyevin BMT-nin Qaçqınlar üzrə Ali Komissarı Sadako Oqatanı qəbul edərkən söhbətindən - 9 sentyabr 1999-cu il

Heydər Əliyev: Gənc müstəqil dövlət kimi Azərbaycanın problemləri çoxdur. Bu problemlərin də bir çoxunun həll olunması Birləşmiş Millətlər Təşkilatı ilə əlaqədardır. Məlumdur ki, Birləşmiş Millətlər Təşkilatı dünyanın bütün dövlətlərinin təşkilatıdır. Ona görə də hər bir dövlətin Birləşmiş Millətlər Təşkilatı ilə əlaqələri və əməkdaşlığı var. Amma müstəqilliyini son zamanlarda əldə etmiş gənc dövlətlərin Birləşmiş Millətlər Təşkilatı ilə əməkdaşlığa ehtiyacı daha da artıqdır. Bunların içərisində isə o ölkələrdə ki münaqişələr, qaçqınlar var, çox çətin problemlər var, onlar Birləşmiş Millətlər Təşkilatının köməyinə daha da möhtacdırlar.

Siz Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarı kimi Azərbaycanda olan vəziyyəti yəqin ki, yaxşı bilirsiniz. Güman edirəm ki, siz son iki gün ərzində burada olduğunuz zaman bu məsələlərlə daha da yaxından tanış olursunuz. Ona görə də mən sizin Azərbaycana gəlməyinizə xüsusi əhəmiyyət verirəm. Sizin Qafqaza səfəriniz, xüsusən Azərbaycana olan ziyarətiniz bizim üçün çox vacib, çox əhəmiyyətlidir. Buyurun, sizi dinləyirəm.

Sadako Oqata: Cənab prezident, Azərbaycanı ziyarət etmək bizim üçün həm xoş, həm də şərəflidir. Bizi qəbul etdiyinizə və göstərilən qonaqpərvərliyə görə Sizə minnətdaram. Sizə xüsusilə minnətdarlığımızı bildirmək istəyirəm ki, altı ay bundan əvvəl mənim burada olan nümayəndələrimi qəbul etmisiniz. Buna görə onlar Sizə çox minnətdardırlar.

Biz dünən Sizin baş nazirin müavini tərəfindən müşayiət olunmuşuq və Azərbaycanın bir sıra bölgələrini ziyarət etmişik. Qaçqınlar yaşayan Biləsuvarda, Horadizdə olmuşuq.

Mənim başçılıq etdiyim ofis BMT-də qaçqınlar və ölkə daxilində didərgin düşmüş şəxslərlə məşğuldur. Çox təəssüf ki, dünyanın bu hissəsində də həmin insanlara rast gəlmək olur. Əlbəttə, Qafqaz regionunda, xüsusən Azərbaycanda insanların yerlərindən didərgin düşməsi problemini çox yaxşı dərk edirik. Bu şəxslərin problemlərinin yüngülləşdirilməsi üçün hökumətin göstərdiyi səylərə görə Sizə minnətdarlığımızı bildirmək istəyirik.

Məlumdur ki, bütün bu şəxslər münaqişənin qurbanlarıdır və ona görə də Dağlıq Qarabağ probleminin həll olunması sahəsindəki şəxsi təşəbbüsünüzə görə Sizə minnətdarlığımızı bildirirəm. Bir şeyi dəqiq deyə bilərəm ki, qaçqınlar və yerlərindən didərgin düşmüş şəxslər həqiqətən evlərinə dönmək istəyirlər. Ona görə də minnətdar olardım ki, bütün bu məsələləri müzakirə edərkən siyasi problemlərin həllində onların da maraqlarını nəzərə alasınız. Eyni zamanda, biz onların problemlərinin yüngülləşməsi, həll olunması üçün Sizin hökumətin üzvləri ilə birlikdə səylər göstəririk.

Dünən mənim söhbət etdiyim insanların hamısı öz evlərinə dönmək istəyir. Bu baxımdan, məsələnin həllinin mümkün yolları haqqında Sizin fikirlərinizi bilmək istərdik. Biz isə, öz növbəmizdə, Sizə yardım etməyə hazırıq.

Heydər Əliyev: Siz yəqin ki, burada olduğunuz zaman, respublikanın vəziyyəti ilə tanış olduğunuz müddətdə bilirsiniz ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ölkəmiz, xalqımız, dövlətimiz üçün əsas, həlledici bir problemdir. Ermənistanın Azərbaycana torpaq iddiası ilə etdiyi hərbi təcavüz və bunun əsasında yaranmış Dağlıq Qarabağ problemi, sonra isə Ermənistan-Azərbaycan hərbi münaqişəsi artıq 12 ildir Azərbaycanı çox ağır vəziyyətə salıbdır.

Bu dövrdə çox şeylər olub, amma nəticə nədən ibarətdir? Nəticə də ondan ibarətdir ki, Azərbaycanın suverenliyi, ərazi bütövlüyü pozulub, ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub, işğal edilmiş ərazilərdən bir milyona qədər insan yerindən-yurdundan didərgin düşübdür. İşğal olunmuş ərazilərdə 700-dən artıq yaşayış məntəqəsi dağıdılıb, orada olan bütün əmlak dağıdılıb, Azərbaycana həddindən artıq ziyan dəyibdir.

Azərbaycana Ermənistan tərəfindən hərbi təcavüz edilib, ancaq Ermənistan dünya birliyi, o cümlədən Birləşmiş Millətlər Təşkilatı tərəfindən təcavüzkar kimi tanınmayıbdır. Həmişə çalışıblar ki, bu problemi Azərbaycanın daxili problemi kimi qiymətləndirsinlər. Təbiidir, Dağlıq

Qarabağ Azərbaycanın tərkib hissəsidir. Əgər Dağlıq Qarabağ ilə Azərbaycan arasında hərbi münaqişə olsaydı, bu, Azərbaycanın daxili problemidir. Amma münaqişə birinci gündən Dağlıq Qarabağla yox, Ermənistanla Azərbaycan arasında başlayıbdır. Münaqişənin əsası Azərbaycanın tərkib hissəsi olan Dağlıq Qarabağı özünə birləşdirmək haqqında Ermənistanın qəbul etdiyi qərar nəticəsində həyata keçirdiyi hərbi əməliyyatlar olubdur.

Ona görə də biz hesab edirik ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi dünyada olan bütün münaqişələrdən buna görə fərqlidir. Təəssüf ki, böyük dövlətlər, Birləşmiş Millətlər Təşkilatı tərəfindən bu məsələyə ədalətli münasibət göstərilməyib, bu münaqişənin mahiyyəti düzgün müəyyən edilməyibdir. Bütün bunların nəticəsində də Ermənistan silahlı qüvvələrinin qarşısı heç bir tərəfdən alınmadığına görə və şübhəsiz ki, Azərbaycan dövlətinin də bir çox günahlarına görə Azərbaycan ərazisinin böyük bir qismi işğal olunubdur.

Əgər Dağlıq Qarabağ Azərbaycanın daxilində muxtar vilayət olduğu halda, Azərbaycanla münaqişəni başlayanda ona heç bir dövlət kömək etməsəydi, onun arxasında Ermənistan kimi dövlət durmasaydı, biz münaqişəni özümüz həll edəcəkdik.

Dağlıq Qarabağda hələ 1988-ci ildə etnik təmizləmə aparılıb və oradakı bütün azərbaycanlılar çıxarılıbdır. Bunu ermənilər ediblər. Azərbaycan dövlətinin daxilində ermənilər muxtar bir vilayətdə ölkənin əsas milləti olan azərbaycanlıları oradan çıxarıblar. Bu problemi Azərbaycan özü həll edə, öz hüquqlarını müdafiə edə bilərdi. Ancaq Ermənistan bu işə qarışmasaydı. Ermənistan bu işə qarışandan sonra, - yəni təcavüzü Ermənistan başlayıbdır, - əlbəttə, Ermənistan, Dağlıq Qarabağ qüvvələri və Ermənistanın arxasında duran, ona dəstək verən, kömək edən başqa qüvvələr hamısı birlikdə Azərbaycanın nəinki Dağlıq Qarabağ vilayətini, həm də onun ətrafındakı yeddi böyük rayonu işğal edib və orada yaşayan sırf azərbaycanlıları öz yerlərindən-yurdlarından didərgin salıblar.

Təəssüflər olsun ki, Birləşmiş Millətlər Təşkilatı bu məsələyə biganə qalıbdır. Doğrudur, BMT-nin Təhlükəsizlik Şurası Azərbaycanın Dağlıq Qarabağ yox, Laçın, Şuşa, Kəlbəcər və sonra digər rayonları işğal olunarkən bir neçə qətnamə çıxarıbdır. O qətnamələrdə tələb ediblər ki, işğal olunmuş torpaqlar işğalçı qüvvələrdən azad edilsin. Amma Ermənistan nəinki buna əməl etməyib, bu qətnamələrə heç məhəl də qoymayıbdır. BMT -nin Təhlükəsizlik Şurası yenə buna biganə qalıbdır.

Beləliklə, dediyim kimi, Azərbaycanda bir milyona qədər qaçqın yaranıbdır. Ona görə mən sizə deyirəm ki, Ermənistan-Azərbaycan münaqişəsi və bunun nəticəsində Azərbaycanda yaranmış qaçqınlar, əlbəttə ki, bütün başqa yerlərdəkindən fərqlidir. Bu, bizə keçmişdən qalmış mirasdır. Bizim üzərimizə indi məsuliyyət düşür ki, bu münaqişəni həll edək, Azərbaycanın ərazi bütövlüyünü bərpa edək, işğal olunmuş torpaqlarımızı azad edək. Siz gördüyünüz həmin o insanları, - hansılar ki, yerlərinə qayıtmaq istəyirlər, - öz yerinə-yurduna, evinə qaytaraq.

Bu barədə Azərbaycanın siyasəti yenə də çox doğru-düzgün siyasətdir. Yəni biz birinci növbədə məsələnin sülh yolu ilə həll olunması fikrini irəli sürdük. Müharibəni dayandırdıq və beş ildən artıqdır ki, atəşkəs rejimi şəratində yaşayırıq. Baxmayaraq ki, 6-7 ildir qaçqınlar sizin gördüyünüz həmin düşərgələrdə, çadırlarda yaşayırlar.

1994-cü ilin may ayından indiyə qədər məsələnin sülh yolu ilə həll olunması üçün danışıqlar aparırıq. Bu müddətdə çox iş görmüşük, böyük məsafə qət olunubdur. Xüsusən ATƏT-in Minsk qrupu və ona həmsədrlik edən Rusiya, Amerika Birləşmiş Ştatları, Fransa çox səylər qoyublar. Məsələn, 1996-cı ildə ATƏT-in Lissabon zirvə görüşündə Ermənistan-Azərbaycan münaqişəsinin həll olunması üçün əldə edilmiş sənəd bizi məsələnin sülh yolu ilə həllinə xeyli yaxınlaşdırdı. Ancaq Ermənistan tərəfi ATƏT-in zirvə görüşündə qəbul olunmuş sənəddən imtina etdi, o şərtləri qəbul etmədi. Ona görə də bundan sonra vəziyyət yenə gərginləşdi. Keçən ilin noyabr ayında ATƏT-in Minsk qrupunun işçi qrupu bizə yeni bir variant təqdim edibdir ki, məsələnin həlli üçün «Ümumi dövlət» formulunu qəbul etmək lazımdır. Biz bunu qəbul edə bilmərik. Bunu qəbul etmək Dağlıq Qarabağa müstəqillik vermək deməkdir. Bunu qəbul etmək Azərbaycanın ərazisində ikinci erməni dövləti yaratmaq deməkdir. Şübhəsiz ki, biz bu ədalətsizliyə razı ola bilmərik. Vəziyyət

bundan ibarətdir.

Siz gördüyünüz insanlar çox ağır vəziyyətdə yaşayırlar. Siz bir, ya iki düşərgədə olmusunuz. Azərbaycanın ərazisində onlarca belə düşərgə var. Hörmətli xanım, bilirəm, siz bu işlərlə çox illərdir məşğul olursunuz. Təbiidir ki, siz başqa ölkələrdə də qaçqınlar görmüsünüz, onların yaşadığı şəraiti görmüsünüz. Ancaq Azərbaycan qaçqınları kimi dəhşətli vəziyyətdə yaşayanlar inanmıram ki, dünyanın başqa bir yerində var. Bizim də, siz gördüyünüz həmin qaçqınların, köçkünlərin də bir məqsədi var: işğal edilmiş torpaqların azad olunması, onların öz yerlərinə qayıtması.

Mənə söylədilər ki, siz Füzuli rayonunun işğaldan azad edilmiş bir hissəsində olmusunuz. Orada Birləşmiş Millətlər Təşkilatının, Dünya Bankının yardımı ilə bəzi bərpa işləri aparılıb, onları da görmüsünüz. Amma eyni zamanda orada dağıdılmış evləri də görmüsünüz, elədirmi? Siz bunları balaca bir dairədə görmüsünüz. Təsəvvür edin ki, Azərbaycan ərazisinin 20 faizində bütün evlər, xəstəxanalar da, məktəblər də, kitabxanalar da, mədəniyyət sarayları da - hamısı belə dağıdılıbdır. Amma təəssüflər olsun ki, dünya ictimaiyyəti, o cümlədən Birləşmiş Millətlər Təşkilatı bu cür barbarlığa, vandalizmə lazımi qədər fikir vermir. Mən niyə belə kəskin deyirəm? Çünki həmişə bizimlə danışanda Ermənistanla Azərbaycanın vəziyyətini eyni səviyyədə tuturlar. Hesab edirlər ki, münaqişə var, günahkar hər iki tərəfdir, gedin münaqişəni həll edin. Ancaq hansı tərəf nə zərər çəkibdir - bunu nəzərə alan yoxdur.

Bu sözləri ki, sizə deyirəm, mənim qəlbimdə acı hissiyyatlar var. Sizə deyirəm biləsiniz ki, biz nə kimi çətin bir dövr yaşayırıq.

Ancaq bunlarla yanaşı, biz ümidimizi itirməmişik, biz nikbinik. Hesab edirik ki, məsələni həll etmək mümkündür və bunun üçün də çalışırıq. Çalışırıq ki, məsələ sülh yolu ilə həll olunsun. Azərbaycan müharibənin, döyüşlərin yenidən başlanmasının əleyhinədir, bunun tərəfdarı deyildir. Baxmayaraq ki, buna əsasımız var, çünki bizim torpaqlarımız işğal olunubdur. Ancaq biz məsələni sülh yolu ilə həll etmək istəyirik.

Güman edirəm ki, əgər Birləşmiş Millətlər Təşkilatı, ATƏT, onun Minsk qrupu, dünya birliyindəki başqa təsirli qüvvələr bu münaqişənin həllinə kömək etsələr, biz bunu həll edə bilərik.

Ancaq bir dəqiqəlik nəzərə alaq ki, biz bu gün bunun həll olunması haqqında hansısa qərar qəbul etdik. Təsəvvür edirsinizmi, onun həyata keçirilməsi üçün nə qədər vaxt lazımdır? Bəzi adamlar belə düşünür ki, bu gün qərar qəbul olunacaq, sabah qaçqınlar öz yerlərinə qayıdacaqlar. Bu, sadəcə, məsələyə səthi münasibətdir. Bizim qarşımızda duran birinci məsələ problemin sülh yolu ilə həll olunması, işğal olunmuş torpaqların azad edilməsi, ondan sonra o torpaqlarda yaşayış üçün imkan yaradılması, yəni oraların bərpası, sonra isə onların oraya köçüb yaşamasıdır. Yenə də deyirəm, siz Füzulidə olduğunuz zaman bu prosesi gördünüz. O, sadəcə, Azərbaycan ərazisinin kiçik bir hissəsidir.

Ona görə də, şübhəsiz ki, biz əsas məsələnin həllinə nail olmalıyıq. Bundan sonra - ikinci mərhələdə də yardıma çox böyük ehtiyacımız olacaqdır. Amma indi, hələ ki, heç bir məsələ həll olunmayıb, demək, o insanlara yardım etmək lazımdır. Biz indiyə qədər humanitar yardım almışıq. Bunlara görə sizə, Birləşmiş Millətlər Təşkilatına təşəkkür edirəm. Ancaq təəssüflər olsun, bəzən səslər gəlir ki, humanitar yardımlar azaldılsın, yaxud kəsilsin. Bəs bu insanlar necə yaşasınlar?

Mən hesab edirəm ki, bütün bunlara görə siz Azərbaycanı ziyarət edərək, bundan sonra da həm məsələnin sülh yolu ilə həlli barəsində, həm də bu insanların yaşayışını müəyyən qədər normal səviyyədə saxlamaq üçün humanitar yardım göstərilməsi işində bizə kömək edəcəksiniz.

Sadako Oqata: Cənab prezident, çox sağ olun ki, bu problemin tarixi haqqında məlumat verdiniz, məsələnin perspektivləri barədə fikirlərinizi bölüşdünüz. Mən Sizin bütün hisslərinizi tam anlayıram.

Məlum olduğu kimi, biz Azərbaycana yardımı 1992-ci ildən başlamışıq. Elə bu zaman Ermənistana da yardım göstərməyə başlamışıq. Məlum olduğu kimi, Ermənistanda da qaçqınlar var. Onların sayı təxminən 250 mindir. Onlar Azərbaycandan Ermənistana qaçmış ermənilərdir. Eyni zamanda Azərbaycanda Ermənistandan qovulmuş 300 minə qədər azərbaycanlı var. Münaqişə

davam etdikcə Dağlıq Qarabağdan və onun ətrafından 600 min adam da onlara əlavə olunmuşdur. Gördüyünüz kimi, bunlar çox böyük rəqəmlərdir. Biz əlimizdən gələni edirik ki, qaçqınlara yardım göstərək və bunun öhdəsindən gələk.

Mən tam anlayıram ki, təklikdə bütün bu problemlərin öhdəsindən gəlməyə qadir deyiləm. Çünki qaçqınlar problemindən əlavə, burada hərbi, siyasi problemlər də var və ümumiyyətlə bu, kompleks bir problemdir. Bizim edə biləcəyimiz və indiyədək etdiyimiz bu insanlara müəyyən qədər yardım göstərmək, onların vəziyyətini yaxşılaşdırmağa çalışmaqdır. Lakin bütün bunlar hamısı müvəqqəti addımlardır. Eyni zamanda biz ümidlə yaşayırıq ki, bütün siyasi və hərbi problemlər münaqişəyə qatılmış ölkələrin liderləri tərəfindən həll olunacaqdır. Bu baxımdan Sizin tutduğunuz mövqeyə böyük hörmətim var. Baxmayaraq ki, bütün çətinliklərlə üzləşirsiniz, amma yenə də çalışırsınız ki, məsələni sülh yolu ilə həll edəsiniz.

Əlbəttə, dağıntıların çox böyük olduğunu mən əvvəl də eşitmişdim. Lakin Füzuli rayonuna getdikdən və oradakı dağıntıları öz gözümlə gördükdən sonra bunların nə dərəcədə nəhəng olduğunu təsəvvür edə bildim. İndi anlayıram ki, bunların bərpası, reabilitasiyası çox böyük və gərgin zəhmət tələb edəcəkdir. Lakin deməliyəm ki, əgər siyasi çətinliklər aradan götürülərsə və insanların yenidən öz yerlərinə dönməsi üçün təhlükəsizlik təminatı verilərsə, biz yenə yardım göstərməyə hazır olduğumuzu bildirəcəyik. Zənnimcə, bizim elə bir imkanımız olacaq ki, bütün bu problemləri hansı yollarla həll etmək, hansı üsullardan istifadə etmək üçün bir daha görüşək.

Siyasi baxımdan bütün problemlər həll edildikdən və razılıq əldə olunduqdan sonra Siz təhlükəsizliyi necə təmin etmək fikrindəsiniz? Bütün bu problemlər həll olunana qədər biz Azərbaycanda qalmaqda və yardım göstərməkdə davam edəcəyik. Qaçqınlara və ölkə daxilində yerlərindən didərgin düşmüş insanlara bizim humanitar yardımımıza gəldikdə isə, böyük səbirsizliklə danışıqların başa çatmasını gözləyirik. İndiyədək biz Azərbaycanda qaçqınlara və məcburi köçkünlərə yardım göstərməkdən ötrü 41 milyon ABŞ dolları ayırmışıq. 10 milyon dollar da onlara sığınacaq təmin etməkdən ötrü verilmişdir. Başa düşürəm ki, bu, bəlkə də qənaətbəxş rəqəm deyil, onların bütün problemlərini həll etmir. Lakin hər halda biz bunu etmişik. Eyni zamanda çalışmışıq ki, onların özlərini dolandırması üçün iş yerləri ilə təmin edək. Bu sahədə xüsusilə baş nazirin müavini cənab Həsənova minnətdarlığımı bildirmək istəyirəm, - o da bu istiqamətdə çalışır.

Deməliyəm ki, belə vəziyyət həmişəlik davam edə bilməz. Biz yerlərindən didərgin düşmüş insanların problemlərini tamamilə həll edə bilmərik. Ona görə də bu problemin siyasi cəhətdən həll olunması sahəsində Sizin göstərdiyiniz səyləri, təşəbbüsünüzü xüsusi qiymətləndirir və bu yolda Sizə hər cür uğur arzulayırıq.

Heydər Əliyev: Sizin sözlərinizə, tövsiyələrinizə görə və xüsusən Azərbaycandakı qaçqınların, köçkünlərin həyatını müəyyən qədər yaxşılaşdırmaq üçün göstərdiyiniz yardımlara görə təşəkkür edirəm. Təbii ki, bu yardımlar çox azdır. Amma nə edək, bundan artıq edə bilmirsiniz. Biz arzu edərdik ki, daha da çox olsun.

Biz bütün bu çətinliklərə dözmüşük və dözəcəyik. Amma bir daha sizə müraciət edirəm ki, Azərbaycana diqqətinizi daha da artırın. Əgər mümkünsə, yardımınızı daha da artırın. Münaqişənin həll olunması isə, başa düşürəm, bunun çoxu bizim üzərimizə düşür. Amma hər halda sizinlə bizim aramızda bundan sonra görüləsi işlər çoxdur. Hesab edirəm ki, biz bundan sonra daha da səmərəli əməkdaşlıq edəcəyik.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin BMT-nin Qaçqınlar üzrə Ali Komissarı Sadako Oqata ilə görüşdəki söhbətindən – Davos, 29 yanvar 2000-ci il

Heydər Əliyev: Hörmətli xanım Oqata! Xoş gördük sizi. Dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı olan BMT-nin Qaçqınlar üzrə Ali Komissarı ilə görüş məni çox məmnun edir.

Sadako Oqata: Cənab prezident ilə görüşümdən çox şadam. Dünya İqtisadi Forumunda «Qafqazın və Mərkəzi Asiyanın perspektivləri: İpək yolu və ya böyük oyun» mövzusunda keçirilən sessiyada Sizin çıxışınızı maraqla dinlədiyim Davosda keçirdiyiniz görüşlərdən xəbərdaram. Azərbaycanın haqq işinin dünya ictimaiyyətinə daha geniş çatdırılması sahəsində bütün bunlar xüsusi əhəmiyyət daşıyır.

Heydər Əliyev: Siz bilirsiniz ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün ATƏT-in Minsk qrupu çərçivəsində və bir-başa danışıqlar aparılır.

Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində yerindən-yurdundan zorla qovularaq uzun illərdən bəri çadırlarda məskunlaşan azərbaycanlı qaçqınların qarşılaşdıqları problemlər həddindən çoxdur. Əzab-əziyyətlərə mətanətlə sinə gərən, doğma torpağa qayıtmaq həsrəti ilə yaşayan bu insanlara diqqət və qayğının artırılması çox vacibdir.

Ədalətin bərpa olunması, qaçqınlarımızın doğma evlərinə qayıtması naminə BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı ilə Azərbaycan arasında əlaqələr daha da möhkəmləndirilməlidir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev BMT-nin İnsan Hüquqları Komissiyasının işgəncələrə qarşı xüsusi məruzəçisi Naycel Rodli ilə söhbətindən 15 may 2000-ci il

Heydər Əliyev: Hörmətli qonaqlar, mən sizi salamlayıram, Azərbaycana xoş gəlmisiniz. Bilirəm ki, bir neçə gündür ki, buradasınız. Mən buna şadam. Çünki gələn qonaqların Azərbaycanda çox olması bizim üçün nə qədər əhəmiyyətlidir. Ölkəni tanımaq üçün, ölkə ilə tanış olmaq üçün bir gün, iki gün o qədər yetərli deyil. Siz bu barədə bizim ölkəmizə gələn başqa adamlardan fərqlənirsiniz. Çox görüşlər keçirmisiniz. Amma hesab edirəm ki, bizim cəmiyyətimizlə, şəhərlə də tanış olmusunuz. Buyurun.

Naycel Rodli: Cənab prezident, məni qəbul etdiyinizə görə çox sağ olun. Həqiqətən, bizim burada keçirdiyimiz vaxt, səfərimiz çox maraqlı olmuşdur. Təmasda olduğum həmkarlarım əllərindən gələni etmişlər ki, biz yalnız intensiv görüşlər keçirməyək, yalnız ofislərin içərisini görməyək, həbsxanalarda, zindanlarda olmayaq, eyni zamanda, şəhərin görkəmli yerlərini də görək. Praktiki olaraq onlar bizi şəhərin gözəl yerlərinə aparmışlar. Onlar əllərindən gələni etmişlər ki, mən az da olsa Azərbaycan mədəniyyəti haqqında məlumat öyrənim.

Heydər Əliyev: Bu, çox yaxşıdır. Çünki Azərbaycana gələnlərdən həbsxanalara, zindanlara gedən yalnız sizsiniz. Onların heç biri zindanı görmür. Ona görə sizin üçün başqa yerləri çox görmək daha da lazımdır ki, bir az balans yaratsın.

Naycel Rodli: Hər şeydən əvvəl, rəsmi dövlət sektorundan olan həmkarlarıma əməkdaşlığa görə minnətdarlığımı bildirmək istəyirəm. Bilirəm ki, cənab Fuad Ələsgərov səfərin proqramını hazırlamaq, nümayəndələrin buraya gəlməsi və burada hansı planlar üzrə işləməsi üçün həddindən artıq çox iş görmüşdür. Xarici İşlər Nazirliyində insan haqlarına cavabdeh şəxs də səfər vaxtı bizimlə çox sıx işləmişdir. Praktiki olaraq, burada olduğum müddətdə məni maraqlandıran bütün nazirlərlə görüşlərim təşkil edildi. İstədiyim bütün təcridxanalara baş çəkə bildim. Mənim üçün bu şərait yaradıldı və istədiklərimizin hamısına nail olduq.

Burada olduğumuz müddətdə bütün lazımi yerlərə getdik və gördük ki, keçmiş SSRİ-nin digər yerlərində olduğu kimi, burada da müəyyən dəyişikliklər baş verməkdədir. Bütün bunlara görə, mənimlə təmasda olan həmkarlarıma minnətdarlığımı bildirirəm. Onlar əllindən gələni etdilər ki, bizim bu səfərimiz səmərəli olsun.

Hazırda, bugünkü vəziyyətdə mən hələ ki, heç bir nəticə çıxarmaq istəmirəm, heç bir şərh vermək, yaxud da məsləhət vermək fikrində deyiləm. Bizim proqramımız o qədər sıx idi, aldığımız məlumat o qədər çoxsahəli idi ki, yəni biz həm rəsmi, həm də qeyri-rəsmi - müxtəlif mənbələrdən aldığımız məlumatların hamısı haqqında yenidən fikirləşməliyik, onlardan nəticə çıxarmalıyıq. Lakin qeyd etmək istəyirəm ki, ölkədə gedən ümumi inkişaf artıq bizim məşğul olduğumuz sahəyə də toxunmuşdur və bu, çox vacibdir.

Əlbəttə, bu, mənim vəzifəmə birbaşa daxil olmasa da, lakin böyük məmnuniyyətlə bildirmək istəyirəm ki, Sizin ölkədə ölüm hökmü ləğv edilmişdir və buna tam əməl olunur. Bilirəm ki, insan hüquqlarının qorunmasına dair Sizin bir neçə qərarınız olmuşdur və eyni zamanda işgəncələrə qarşı cəmiyyətin verdiyi məsləhətlərə də lazımi qaydada əməl edilir. Hazırda Siz və ofisiniz əsas hüquqi islahatlar üzərində işləyirsiniz və bunun ən böyük kulminasiyası Cinayət Prosessual Məcəlləsinin qəbul edilməsi olacaqdır. Əlbəttə, çox istərdim səfərim bir qədər sonra olaydı ki, mən bütün bunların nəticəsini görə biləydim. Lakin artıq indidən əminəm ki, onlara çox böyük təsiri olacaqdır.

Cənab prezident, Siz cinayətkarların saxlanıldığı yerlərə getmək haqqında danışdınız. Mən böyük məmnuniyyətlə qeyd etmək istəyirəm ki, Siz beynəlxalq təşkilatlarla, Qızıl Xaç Komitəsi ilə razılığa gəlmisiniz ki, onlar gəlib zindanlarda saxlanılan adamları görə bilsinlər.

Ümumiyyətlə, mən əsas etibarilə vəziyyəti bu cür qiymətləndirirəm. Lakin əgər siz hansısa spesifik məsələlərə toxunmaq istərsinizsə, bunu bir qədər dar çərçivədə müzakirə etməyə

hazıram.

Heydər Əliyev: Sizə təşəkkür edirəm. Sizin verdiyiniz bu məlumatlar, təbiidir ki, məndə böyük məmnuniyyət hissi doğurur.

Siz artıq qeyd etdiniz ki, bu sahədə biz bir çox qərarlar qəbul etmişik, bir çox tədbirlər həyata keçirmişik. Ancaq başqa sahələrdə olduğu kimi, bu sahədə də indi beynəlxalq hüquq normalarına uyğun Birləşmiş Millətlər Təşkilatının sənədlərinə uyğun iş aparmaq bizim üçün yenidir. Təbiidir, mən hesab etmirəm ki, burada biz hər şeyə nail olmuşuq. Amma eyni zamanda çox məmnunam ki, siz qeyd etdiniz, - xeyli işlər görülübdür və düz istiqamətdə gedir.

Sizin bu səfəriniz bizim üçün çox əhəmiyyətlidir. Çünki indi sizin burada məşğul olduğunuz sahə elə bir sahədir ki, bunu biz özümüz dərindən təhlil etmək imkanında deyilik.

Mən bir prezident kimi, iqtisadi islahatları keçirəndə onların nəticəsini özüm görürəm, istədiyim şey ilə də tanış oluram və bunu bilirəm. Kənd təsərrüfatı, sənaye, maliyyə sistemi - bunlar hamısı bizim üçün tanış sahələrdir. Amma mən şəxsən prezident kimi, yaxud da ki, mənim aparatımın başqa işçiləri həbsxanaya gedib orada olan vəziyyəti siz öyrəndiyiniz kimi öyrənə bilmərik.

Mən qərarlar qəbul edirəm və tələb edirəm ki, müvafiq icra orqanları o qərarları yerinə yetirsinlər. Bilirəm ki, onlar yerinə yetirməyə çalışırlar. Bu barədə mənə məlumatlar verirlər. Amma bu, nə qədər bizim istədiyimiz səviyyədədir, yaxud da ki, beynəlxalq hüquq normalarının tələbi səviyyəsindədir, - biz onu müəyyən edirik, amma sizin kimi müəyyən edə bilmərik. Ona görə sizin bu səfəriniz çox əhəmiyyətlidir.

Mən sizə açıq deyə bilərəm ki, sizin bu barədə müşahidə etdiyiniz bütün nöqsanların aradan qaldırılmasına biz hazırıq. Siz demədiniz, amma bilirəm ki, siz nöqsanlar müşahidə etmisiniz. Mənə deməyə o əsas verir ki, siz artıq qeyd etdiniz ki, son vaxtlar bizim qəbul etdiyimiz qərarlar nəticəsində müəyyən işlər görülüb və müəyyən nailiyyətlər əldə olunur. Buna görə sizin bu səfəriniz çox əhəmiyyətlidir. Mən sizə təşəkkür edirəm. Çox iş görmüsünüz.

O ki qaldı - deyirsiniz, Cinayət Prosessual Məcəlləsinin qəbul olunmasını görmək istərdiniz, - dəvət edirəm, ikinci dəfə gələsiniz, həmin məcəllə qəbul olunandan sonra ikinci dəfə gəlib bunlara baxasınız. Onda hər şey tamam olar. Mən təşəkkür edirəm. Ola bilər, bəzi məsələləri mənə demək istəyirsiniz.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin BMT-nin Vyanadakı nümayəndəliyinin binasında BMT Baş katibinin müavini, nümayəndəliyin baş direktoru Pino Arlakki ilə görüşü zamanı söhbətindən
Vyana, 7 iyul 2000-ci il

Pino Arlakki: Cənab prezident, bir neçə həftə bundan öncə Tehranda keçirdiyimiz görüşdən sonra Sizinlə burada görüşməkdən məmnunluq duyuruq. Siz BMT-nin Vyanadakı mərkəzini ziyarət etməklə bizə böyük şərəf verdiniz. Əminəm ki, Sizin ziyarətiniz Birləşmiş Millətlər Təşkilatının bu mərkəzi ilə ölkəniz arasında münasibətlərin inkişaf etdirilməsi yolunda həlledici mərhələ olacaqdır.

Bizim mərkəzin qarşısında duran ən böyük vəzifələrdən biri, baş katibin obrazlı şəkildə dediyi kimi, «sivil olmayan cəmiyyətə qarşı mübarizədir». Baş katib bunu deyərkən cəmiyyətlərin sabit inkişafına zərbə vuran, ona təhlükə doğura biləcək bütün amillərə qarşı mübarizəni, xüsusən narkotik vasitələrin qanunsuz dövriyyəsinə, mütəşəkkil cinayətkarlığa və «çirkli pulların yuyulmasına» qarşı birgə mübarizəni nəzərdə tutur.

Biz terrorizmin də daxil olduğu yeni təhlükələrə qarşı birgə mübarizəni təşkil etmək üçün BMT-nin üzvü olan dövlətlərlə birlikdə mübarizənin yeni strategiyaları və konsepsiyaları üzərində çalışırıq.

Adını çəkdiyim sahələr üzrə üzv dövlətlərdə həyata keçirilən tədbirlərin hamısı bizim üçün əhəmiyyətlidir. Bu baxımdan, fürsətdən istifadə edərək, ölkənizdə korrupsiyaya qarşı mübarizə ilə əlaqədar son dövrdə gördüyünüz tədbirlər münasibətilə, habelə Azərbaycanın Avropa Şurasına qəbul olunması ilə bağlı Sizi təbrik etmək istəyirəm. Biz bunu belə başa düşürük ki, Azərbaycan korrupsiyaya, mütəşəkkil cinayətkarlığa, terrorizmə və digər təhlükəli meyllərə qarşı mübarizə sahəsində öz qanunvericiliyini də beynəlxalq standartlara uyğunlaşdırmaq niyyətindədir.

Biz bu sahələrdə Sizinlə birgə çalışa bilərik. Artıq bizim Qafqazda həyata keçirdiyimiz proqramımız, layihəmiz vardır. Lakin Sizin bölgənin Əfqanıstandan Avropaya narkotik maddələrin daşındığı yolun üzərində yerləşdiyini nəzərə alsaq, deyə bilərik ki, görməli işlərimiz daha çoxdur. Bu gün imzalanacaq birgə protokol və həmçinin Sizinlə bugünkü müzakirələr, zənnimcə, gələcək çox məhsuldar əməkdaşlığımızın əsası olacaqdır.

Heydər Əliyev: Hörmətli cənablar, xanımlar!

Mən Birləşmiş Millətlər Təşkilatının Vyanadakı mərkəzinə ziyarətimi özüm üçün və ölkəm üçün çox əhəmiyyətli hadisə hesab edirəm.

Azərbaycan 1991-ci ildə dövlət müstəqilliyini əldə edəndən sonra dərhal Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınıb və BMT-nin üzvüdür. Biz bunu müstəqilliyimizin ən mühüm amillərindən biri hesab edirik. Birləşmiş Millətlər Təşkilatı ilə daim əməkdaşlıq edirik və bundan sonra da edəcəyik.

Doğrudur, Birləşmiş Millətlər Təşkilatı ilə əməkdaşlığımız dövründə bəzi məsələlərdən narazıyıq. Bu da ondan ibarətdir ki, bölgəmizdə Ermənistanla Azərbaycan arasında münaqişənin qarşısının alınmasında Birləşmiş Millətlər Təşkilatı təsirli qərarlar qəbul edə bilmir. Bilirsiniz ki, bu münaqişə nəticəsində Ermənistan silahlı qüvvələri Azərbaycan ərazisinin 20 faizini işğal edibdir. İşğal olunmuş torpaqlardan bir milyondan artıq azərbaycanlı yerindən-yurdundan zorla çıxarılıb və uzun müddətdir - altı-yeddi ildir ölkəmizin müxtəlif yerlərində, çadırlarda çox ağır vəziyyətdə yaşayırlar.

1992-1993-cü illərdə Ermənistan silahlı qüvvələrini Azərbaycanın ərazilərini işğal edərkən Azərbaycan Birləşmiş Millətlər Təşkilatına müraciət etmişdi. Birləşmiş Millətlər Təşkilatı bu müraciətlərə Təhlükəsizlik Şurasında dörd dəfə, bəlkə də çox baxmışdır. Hər halda 1992-1993-cü illərdə Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası Ermənistan silahlı qüvvələrinin Azərbaycandan qeyd-şərtsiz çıxması haqqında dörd qətnamə qəbul etmişdir. BMT Təhlükəsizlik Şurasının bu barədə bir neçə xüsusi bəyanatı da olmuşdur.

Amma Birləşmiş Millətlər Təşkilatının üzvü olan Ermənistan BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qərarların heç birisini yerinə yetirməyibdir. Belə çıxır ki, Təhlükəsizlik Şurası qərar qəbul edir, amma yerinə yetirmir. Bu da Birləşmiş Millətlər Təşkilatına hörmət gətirmir.

Mən həm keçmiş baş katib Butros Qaliyə, həm də indiki baş katib Kofi Annana bu sualı bir neçə dəfə vermişəm. Ancaq hər dəfə belə cavab almışam ki, Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının qətnamə və qərarlarının həyata keçirilməsi mexanizmi yoxdur. Əgər belə bir mexanizm yoxdursa, onu yaratmaq lazımdır. Əgər o, yaradılmırsa, demək, Birləşmiş Millətlər Təşkilatı özü qəbul etdiyi qətnamələrin həyata keçirilməsinə biganə qalır.

Mən bu gün burada bu sözləri deməyə məcburam. Çünki ölkəmizin düşdüyü vəziyyət məni buna məcbur edir. Azərbaycan torpaqlarının 20 faizi indiyə qədər Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Doğrudur, Birləşmiş Millətlər Təşkilatı bu məsələni bir növ üzərindən götürüb və ATƏT-ə həvalə edibdir.

1992-ci ildən bu məsələ ilə ATƏT məşğul olur və ATƏT də Ermənistan-Azərbaycan münaqişəsini həll etmək üçün xüsusi Minsk qrupu yaradıbdır. Minsk qrupunun həmsədrləri Rusiya, Amerika Birləşmiş Ştatları və Fransadır.

ATƏT-in 1994-cü il Budareşt zirvə görüşündə, 1996-cı il Lissabon zirvə görüşündə bu məsələnin həll edilməsi üçün mühüm qərarlar qəbul olunmuşdur. Amma Ermənistanın qeyri-konstruktiv mövqeyi nəticəsində bu qərarlar da həyata keçirilmir.

İndi ATƏT-in Minsk qrupu fəaliyyətini davam etdirir. ATƏT-in fəaliyyətdə olan sədri, Avstriyanın xarici işlər naziri bu yaxın vaxtlarda bizim bölgəyə gələcəkdir.

Bilirsiniz ki, biz 1994-cü ildə Ermənistanla Azərbaycan arasında müharibəni dayandırmışıq, atəşkəs haqqında saziş imzalamışıq və məsələnin sülh yolu ilə həll edilməsi üçün danışıqlar aparırıq. Ancaq hələ bir nəticə yoxdur.

Keçən ildən başlayaraq, Ermənistan prezidenti Robert Koçaryanla Azərbaycan prezidenti Heydər Əliyev arasında bilavasitə bir neçə görüş də keçirilmişdir. Bu məsələlər bir neçə dəfə Amerika prezidenti cənab Bill Klintonun yanında müzakirə olunub, son vaxtlar Rusiyanın yeni prezidenti cənab Putinin iştirakı ilə müzakirə edilibdir, Fransanın prezidenti cənab Jak Şirakın iştirakı ilə müzakirə olunubdur. Ancaq hələ ki, Azərbaycan torpaqları Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Bir milyondan artıq azərbaycanlı altı-yeddi ildir öz ölkəsində qaçqın-köçkün vəziyyətində, çadırlarda ağır şəraitdə yaşayır.

Hesab edirəm ki, Birləşmiş Millətlər Təşkilatı bu məsələlərə daha diqqətlə yanaşmalıdır. İndiki halda Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığı və Humanitar Yardımlar üzrə Ali Komissarlığı da Azərbaycanın ağır vəziyyətdə yaşayan qaçqın-köçkünlərinə daha səmərəli yardımlar göstərməlidirlər. Təəssüf ki, məlum olmayan səbəblərdən son illər bu yardımlar tədricən azalır. Bu da bizi narahat edir.

Cənab Arlakki, mən bilirəm, bu, sizin sahəniz deyildir. Amma siz Birləşmiş Millətlər Təşkilatı baş katibinin müavinisiniz və mən BMT-nin Vyana ofisindəyəm. Bu sözləri deməyə bilmərəm. Ümid edirəm ki, bu sözlər sizin üçün yalnız məlumat olmayacaq, mənim fikirlərimə öz tərəfinizdən reaksiya verəcəksiniz. «Reaksiya» deyəndə mən Birləşmiş Millətlər Təşkilatı tərəfindən əməli hərəkətləri nəzərdə tuturam.

İndi isə sizinlə bugünkü söhbətimizin əsas mövzusuna keçə bilərik. Siz bildirdiniz ki, son vaxtlar Azərbaycan narkotiklərlə mübarizə, mütəşəkkil cinayətkarlığa, korrupsiyaya qarşı mübarizə barəsində ətraflı əməli tədbirlər həyata keçirir. Mən təşəkkür edirəm ki, siz gördüyümüz işləri vurğulayır və qiymətləndirirsiniz. Biz həqiqətən bu sahələrdə mübarizəni dövlətçiliyimizin qorunması üçün və ümumiyyətlə dünyada bu çox təhlükəli halların qarşısının alınması üçün dövlətimizin mühüm vəzifəsi hesab edirik.

Narkotiklərlə mübarizə sahəsində biz bir çox tədbirlər görmüşük. Xüsusən, sizə məlumdur ki, mənim fərmanımla ayrıca komissiya yaradılmışdır və ona baş nazirin müavini rəhbərlik edir. Deyə bilərəm ki, bu komissiya çox güclü fəaliyyət göstərir. Biz narkotiklərlə mübarizə sahəsində üç konvensiyaya qoşulmuşuq. Amma bizim qonşularımız bu konvensiyalara hələ qoşulmayıblar.

Narkotiklərlə mübarizə sahəsində BMT ilə birlikdə mühüm bir proqram həyata keçirilir. Onun həyata keçirilməsi üçün BMT xüsusən bizim gömrük təşkilatı və Daxili İşlər Nazirliyi ilə əməli işlər görübdür. Bu proqramın birinci hissəsi başa çatıbdır. Onun həyata keçirilməsi üçün Birləşmiş Millətlər Təşkilatı müəyyən məbləğdə vəsait ayırıbdır. Ancaq mən bildirmək istəyirəm ki, sizinlə birlikdə tərtib olunmuş proqram həyata keçirilir, onun üçün ayrılan vəsaitdən istifadə edilibdir. Biz istəyirik ki, proqramın ikinci mərhələsini həyata keçirək. Amma bunu sizinlə birlikdə həm tərtib etməliyik, həm də, təbiidir ki, proqramın ikinci hissəsinin həyata keçirilməsi üçün Birləşmiş Millətlər Təşkilatı tərəfindən yenə də maliyyə köməyi göstərilməlidir.

Siz qeyd etdiniz ki, Azərbaycan öz coğrafi vəziyyətinə, mövqeyinə görə narkotiklərin həm Əfqanıstandan, Mərkəzi Asiyadan Qərbə, həm də İrandan Şimala, Qərbə daşındığı yolun üzərində yerləşir. Biz bunu bilirik, nəzərə alırıq, lazımi tədbirlər görürük. Ancaq bildirmək istəyirəm ki, nə Mərkəzi Asiyadan, Əfqanıstandan, nə də İrandan narkotiklərin Azərbaycan ərazisi vasitəsilə Qərbə çatdırılması üçün başqa kanallara bənzər güclü kanallar yoxdur. Yəni bizim apardığımız işlər bunların qarşısını alıbdır. Ona görə də bizim ərazi o qədər istifadə oluna bilmir. Bu da onunla əlaqədardır ki, biz bu sahədə həmişə çox ciddi tədbirlər görmüşük. Sizinlə bərabər tərtib olunmuş və həyata keçirilmiş proqram öz müsbət nəticələrini verir. Ancaq biz arxayınlaşmırıq, həmin kanalların qarşısını almaq üçün daim lazımi tədbirlər görürük və görəcəyik.

Biz nəinki narkotiklərin daşınması üçün tranzit ölkə kimi bununla mübarizə aparırıq, eyni zamanda istəyirik ki, ölkəmizdə vətəndaşlarımız arasında narkotik vasitələrdən istifadə yayılmasın. Böyük məmnuniyyətlə deyə bilərəm ki, başqa ölkələrə, çox ölkələrə nisbətən, bəlkə də hamısına nisbətən Azərbaycan əhalisi arasında narkotiklərdən istifadə olunması çox aşağı səviyyədədir. Şübhəsiz ki, biz mübarizə aparırıq, əhalimizin sağlamlığını qoruyuruq.

Mütəşəkkil cinayətkarlıqla mübarizə barədə. Təbiidir ki, narkotiklərlə mübarizə bunun bir hissəsidir. Amma mütəşəkkil cinayətkarlıqla məşğul olan qruplar bir çox başqa sahələrdə də özlərini göstərir. Məsələn - terrorizm, ekstremizm, separatizm. Biz bunlara qarşı həmişə mübarizə aparmışıq.

Bilirsiniz ki, Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra ölkədə daxili sabitlik pozulmuşdu. Azərbaycanda qanunsuz silahlı dəstələr həm 1990-1991-ci, həm də 1992-1993-cü illərdə silah yolu ilə dövlət çevrilişi etmək və bir neçə terror aktı həyata keçirmək cəhdləri göstərmişlər.

1993-cü ildə Azərbaycanda vətəndaş müharibəsi mövcud idi. Biz onun qarşısını aldıq. Ondan sonra silahlı dəstələr tərəfindən iki dəfə dövlət çevrilişinə cəhd göstərilmişdir. Bunların da qarşısı alınmışdır. Amma həmin cinayətkarların bir çoxu müxtəlif ölkələrdə gizlənirlər və özlərinin terrorçuluq niyyətlərindən əl çəkmirlər.

Məsələn, 1995-ci ildə Ukrayna prezidenti cənab Kuçma ilə mən Bakıdan hava limanına gedəndən iki saat öncə məlum oldu ki, yoldakı körpünün altına iki yüz kiloqram trotil qoymuşlar ki, avtomobillər keçəndə partlasın və iki prezident həlak olsun. Bizim hüquq-mühafizə orqanları yaxşı işlədi və bunun qarşısını aldılar.

Yaxud da, 1995-ci ilin payızında Azərbaycan prezidenti xarici səfərdən dönərkən müəyyən edilmişdi ki, prezidentin təyyarəsi hava limanına enəndə onu raketlə vurmalı idilər. Bu halda isə bizə hüquq-mühafizə orqanları yox, Allah kömək etdi. Bakı hava limanına təyyarələr iki istiqamətdən enir.

Amma əksər hallarda həmin raketin qurulduğu tərəfdən enir. Biz enərkən küləyin istiqaməti dəyişib, ona görə də təyyarə raket olan tərəfdən yox, başqa tərəfdən enmişdi. Amma onda bilmirdik ki, bizi vurmaq istəyirlər. Təyyarəni vurmaq üçün raket ata bilmədilər. Ancaq bir neçə gün sonra biz məsələni araşdırdıq, tapdıq. Terroristlərin bir qismi cəzalandırıldı. Amma bəziləri hələ də başqa ölkələrdə gizlənirlər.

Demək istəyirəm ki, bütün bu hallarda - dövlət çevrilişi, terror aktları cəhdlərində bəzi ölkələrin xüsusi xidmət orqanları da iştirak ediblər. Bu gün də bizə qarşı, Azərbaycan prezidentinə qarşı terror aktları törətmək niyyətləri qalmaqdadır.

Məsələn, 1995-ci ildə dövlət çevrilişinə cəhd edən qrupun başçılarından biri sonra gəlib Avstriyada, Zalsburq şəhərində gizlənmişdi. İki il burada yaşamışdı və ona burada sığınacaq vermişdilər. Biz onun Azərbaycana qaytarılması barədə Avstriya hökumətinə bir neçə dəfə müraciət etdik. Ancaq bizim müraciətlərimiz təmin olunmadı.

Sonra isə o, İrana getdi. İki ildir ki, orada ətrafına terrorist qruplar toplayır və Azərbaycan prezidentinə qarşı terror etmək istəyir. İran hökuməti də bizim tələbimizi yerinə yetirmir, onu qaytarmır. Ona görə mən Tehrana gedəndə orada məni xüsusi mühafizə edirdilər. Elə burada da mənim mühafizəmi çox gücləndiriblər. Çünki məlumatlar var idi ki, o, İrandan buraya gələcəkdir. Hər halda onun ailəsi Zalsburqda yaşayır.

Yəni bu faktları sizə çatdıraraq demək istəyirəm ki, bizim dövlətin siyasətində mütəşəkkil cinayətkarlığa qarşı mübarizə xüsusi yer tutur. Çünki ölkəmiz belə bir vəziyyətdədir.

Eləcə də korrupsiyaya qarşı çox güclü mübarizə aparılır. Mən 1997-ci ildə bu barədə çox ciddi fərmanlar vermişdim, lazımi tədbirlər görüldü. Yeni fərman vermişəm və qanun hazırlanır. Bu barədə bizim mövqeyimiz çox kəskindir.

Beləliklə, görürsünüz ki, bu sahələrdə bizim təcrübəmiz var. Ona görə əgər siz Cənubi Qafqazda narkotiklərlə mübarizə, mütəşəkkil cinayətkarlığa qarşı mübarizə ilə əlaqədar bir büro yaratmaq istəyirsinizsə, - mən eşitmişəm ki, istəyirsiniz, - onun qərargahını Bakıda, Azərbaycanda yaratsanız daha da faydalı olar.

Mən sizə bildirdim ki, biz konvensiyalara qoşulmuşuq. Bu gün memorandum imzalanacaqdır. Ancaq biz bilirik ki, hələ 1996-cı ildə siz Mərkəzi Asiya ölkələri ilə narkotiklərlə mübarizə haqqında memorandum imzalamısınız. Mənə məlumat verdilər ki, bu memorandum açıq sənəd xarakteri daşıyır və ona qoşulmaq olar. Mən bu gün bəyan edirəm ki, biz həmin memoranduma da qoşulmağa hazırıq. Təşəkkür edirəm.

Pino Arlakki: Cənab Prezident, ölkənizdəki vəziyyətlə əlaqədar bizə verdiyiniz ətraflı məlumata görə çox sağ olun. Münaqişənin həlli və narkotiklərlə mübarizə sahəsində görülən tədbirlər haqqında verdiyiniz məlumata görə Sizə təşəkkür edirik.

Narkotiklərin daşınması, terrorizm, vətəndaş müharibələri ifadələri bir çoxları üçün yalnız mücərrəd məna daşıyır. Onlar bu barədə ancaq qəzetlərdən, kitablardan oxuyur və bir də televiziyadan eşidirlər. İnsanların əksəriyyəti müharibənin nə demək olduğunu anlamır, terror aktının insan həyatı üçün nə qədər təhlükəli olduğunu təsəvvür etmirlər. Amma Sizin şəxsi həyatınız və iş təcrübəniz ölkədə güclü dövlət qurmaq və idarəçiliyi tam surətdə təmin etmək məqsədi ilə narkotik maddələrin daşınmasına və terrorizmə qarşı mübarizədə sərt mövqe tutmağın nə qədər vacib olduğunu göstərir.

Çıxışınızın əvvəlində dediniz ki, Birləşmiş Millətlər Təşkilatı münaqişələrin, xüsusilə Sizin bölgədə olan münaqişənin aradan qaldırılmasında səmərəli rol oynamayıb, Təhlükəsizlik Şurasının qətnamələri həyata keçirilməyibdir. Mən BMT-də olan bu problemdən xəbərdaram. Sizin ölkənizdəki münaqişə ilə əlaqədar qəbul olunmuş dörd qətnamədən də tam xəbərim var. Təəssüf ki, icra olunmamış qətnamələr təkcə Sizin ölkənizə aid deyildir. Bir çox münaqişələrə, müharibələrə dair, hətta dövlətlər arasında olan bir çox məsələlərin həllinə dair qətnamələr qəbul edilib, ancaq onlar da həyata keçirilməyibdir.

Cənab prezident, amma onu da bildirmək istəyirəm ki, həmin qətnamələrin yerinə yetirilməməsini bu gün mənim burada təmsil etdiyim baş katibin o qətnamələri yerinə yetirmək niyyətinin olmaması ilə izah etmək düzgün olmazdı. Başqa sözlə desək, həm baş katib, həm də onun mənim kimi təmsilçiləri əllərindən gələni edir ki, BMT Təhlükəsizlik Şurasının qətnamələri həyata keçirilsin, bir mexanizm olsun ki, qətnamələrin həyata keçirilməsi təmin edilsin.

Amma hər halda mən Sizin bu fikrinizi baş katibə çatdıracaq, Sizinlə bugünkü görüşüm barədə onunla şəxsən danışacağam. Sizi əmin edirəm ki, biz ölkənizin təhlükəsizliyi məsələlərinə daha həssas mövqedən yanaşacağıq.

BMT ilə Sizin ölkəniz arasında narkotiklərə, terrorizmə və mütəşəkkil cinayətkarlığa qarşı mübarizə sahəsində əməkdaşlığa gəldikdə isə, mən də məmnuniyyətlə bildirmək istəyirəm ki,

ölkənizlə birgə həyata keçirdiyimiz proqramın birinci hissəsi daha məhsuldar əməkdaşlıq üçün yaxşı zəmindir.

Əfqanıstandan və İrandan gətirilən narkotiklərin qarşısının alınması üçün Sizin ölkənizdə görülən tədbirlər yalnız öz ölkənizin xalqının sağlamlığını təmin etmək məqsədi daşımır, həm də bu narkotiklərin çatdırılması nəzərdə tutulan son nöqtənin, yəni Avropa ölkələrinin problemlərinin aradan qaldırılmasına xidmət edir. Ona görə də biz Qərbi Avropa ölkələri ilə birgə fəaliyyətimizdə həmin ölkələrə narkotik maddələrin daşınmasının qarşısını almaqda Azərbaycanın aparıcı rol oynadığı barədə məlumatları da onlara çatdıracağıq.

Anlaşma memorandumunu imzalamaqla biz qarşılıqlı əməkdaşlığımızı daha da gücləndirəcəyik. Mərkəzi Asiya ölkələri ilə imzaladığımız memoranduma qoşulmaq barədə bu gün burada bəyan etdiyiniz niyyəti də yüksək qiymətləndirir və alqışlayırıq. Hesab edirəm ki, Mərkəzi Asiyanın beş ölkəsi ilə imzaladığımız həmin anlaşma memorandumuna Azərbaycanın qoşulması ilə bu əməkdaşlığın çərçivəsi genişlənəcək və tam şəkil alacaqdır.

Ümidvar olduğumu bildirirəm ki, biz başqa sahələrdə - məsələn, terrorizm kimi meyllərə qarşı mübarizədə də yeni imkanlardan və perspektivlərdən istifadə edə bilərik. Mənim məsul olduğum idarə həm də terrorizmə qarşı mübarizə sahəsinə cavabdehdir və indi biz bundan ötrü xüsusi struktur yaradırıq.

Bizim işləyib hazırlamaq istədiyimiz vasitələrdən biri terroristlərin bir ölkədən digərinə ekstradisiyasını - təhvil verilməsini təmin etməkdir. Siz öz çıxışınızda terrorizmə qarşı mübarizədə tam əməkdaşlığın olmamasının əyani, bariz nümunəsini göstərdiniz. Bu sahədə daha sıx əməkdaşlığın təmin olunması hazırda sizin üzləşdiyiniz təhlükənin azaldılmasına və ölkənizdəki sabitliyin möhkəmlənməsinə xidmət edərdi.

Bütün bunları deməklə diqqəti ona yönəltmək istəyirəm ki, terrorizmə qarşı mübarizə sahəsindəki beynəlxalq əməkdaşlıq özündə daha konkret elementləri əks etdirir. Bu, sadəcə, vəkillərin, hüquqşünasların bir otağa toplaşaraq hazırladığı əməkdaşlıq sənədlərindən ibarət deyildir. Ona görə də hesab edirəm ki, biz birgə çalışmaqla bir çox sahələrdə, o cümlədən mütəşəkkil cinayətkarlığa qarşı mübarizə sahəsində böyük irəliləyişlərə nail ola bilərik.

Siz çox yaxşı bilirsiniz ki, terrorizm, narkotiklərin daşınması, mütəşəkkil cinayətkarlıq bəzən bir-biri ilə sıx bağlı olan meyllərdir. Eyni qrupa mənsub adamlar bu sahələrdə fəaliyyət göstərirlər və çox zaman da narkotik maddələrin qanunsuz satışından əldə edilən vəsait məhz terror aktlarının maliyyələşdirilməsinə sərf olunur.

Məlumat üçün bildirirəm ki, bu ilin oktyabrında Daşkənd şəhərində narkotik maddələrin daşınmasına qarşı mübarizə sahəsində tədbirlər barədə beynəlxalq konfrans keçirəcəyik. Mən fürsətdən istifadə edərək, Sizi bu ilin sonunda İtaliyanın Palermo şəhərində keçiriləcək beynəlxalq tədbirə dəvət edirəm.

İndi biz burada, Vyana şəhərində mütəşəkkil cinayətkarlığa qarşı mübarizəyə dair beynəlxalq konvensiyasının işlənib hazırlanmasının birinci mərhələsini bitirməkdəyik. Həmin konvensiya dünyanın bütün bölgələrində mütəşəkkil cinayətkarlığa qarşı mübarizə sahəsində ən güclü vasitə olacaqdır. Bunun sayəsində biz mütəşəkkil cinayətkarlıqla məşğul olan şəxslərin əmlakının müsadirə edilməsini, bu şəxslərin daha səmərəli şəkildə və tez bir zamanda bir ölkədən digərinə təhvil verilməsini təmin edə biləcəyik.

İtaliyanın Palermo şəhərində keçiriləcək tədbirimiz dekabrın 12-nə təyin edilib və dövlət, hökumət başçıları səviyyəsində təşkil olunacaqdır. BMT-nin baş katibi Kofi Annan, Avropa Komissiyasının sədri, İtaliya prezidenti və bir çox digər dövlət başçıları bu tədbirdə iştirak etmək barədə öz razılıqlarını veriblər. Dəvətimizi qəbul edib bu mühüm konfransda bizimlə bərabər olsaydınız, bizə şərəf verərdiniz və çox məmnun olardıq.

Heydər Əliyev: Qəbul edirəm və mütləq gələcəyəm.

Pino Arlakki: Əmin edirəm ki, orada Sizin üçün müvafiq təhlükəsizlik tədbirləri də təmin olunacaqdır. Sizin problemlərinizə oxşar problemləri olan bir şəxs kimi, mən Sizin nəyi nəzərdə tutduğunuzu başa düşürəm. Həm Siz, həm də mən bəxti gətirmiş insanlarıq.

Heydər Əliyev: Siz də belə şeylə rastlaşmısınız?

Pino Arlakki: Bəli.

Heydər Əliyev: Onda Siz məni yaxşı başa düşərsiniz.

Pino Arlakki: İcazə verirsinizsə, anlaşmanı imzalayarıq.

Heydər Əliyev: Bir məsələni də demək istəyirəm. Siz bilirsiniz ki, uzun illərdir Azərbaycanda kosmik tədqiqatlar mərkəzi yaradılıbdır. Onun əməkdaşları buraya gəlib prosedurda iştirak ediblər. Keçən il BMT-nin konfransında da iştirak ediblər. Bu da sizin sahəyə aid olan işdir. Əgər siz Azərbaycanın bu təşkilatını bölgə üçün bir mərkəz kimi müəyyən etsəniz, faydalı olar. Bu sahədə bizim yaxşı təcrübəmiz, alimlərimiz var. Hələ Sovetlər İttifaqı vaxtından, təxminən iyirmi ildir ki, bu təşkilat fəaliyyət göstərir. Ona görə bu əməkdaşlığı da genişləndirmək yaxşı olardı.

Pino Arlakki: Cənab prezident, Sizi əmin edirəm ki, biz bununla məşğul olacağıq. Burada da kosmik tədqiqatlarla məşğul olan bir mərkəz var və o, bilavasitə mənə tabedir.

Heydər Əliyev: Bəli, mən ona görə Sizə müraciət edirəm.

Pino Arlakki: Mən həmin mərkəzin menecerləri ilə danışaram. Əlimizdən gələni edərik ki, Sizin ölkənizlə bu sahədə də əməkdaşlığı təmin edək. Hesab edirəm ki, Sizin ölkənin təcrübəsindən və orada olan ekspertlərin xidmətlərindən istifadə edə bilərik. Neçə illər əvvəl olduğu kimi, həmin regionda Azərbaycanı indi də tədqiqat işlərini həyata keçirən bir mərkəzə çevirə bilərik.

Ümumdünya Sülh Zirvə görüşünün Baş katibi cənab Bava Çayna - 27 avqust 2000-ci il

Hörmətli cənab Bava Çayn!

28 avqust 2000-ci ildə BMT-də keçirilən dini və mənəvi rəhbərlərin yeni minilliyə həsr olunmuş Ümumdünya Sülh Zirvə görüşü ilə bağlı göndərdiyiniz məktuba görə təşəkkürümü bildirirəm. Sülh, qlobal anlaşma və beynəlxalq əməkdaşlığa nail olunması məqsədi ilə dünyanın dini rəhbərlərinin iştirakı və BMT-nin vasitəçiliyi ilə keçirilən tədbirin məramı və məqsədi müstəqil Azərbaycan Respublikası üçün çox vacibdir. Ümid edirəm ki, bu forum bütün dünyada hərbi münaqişələrdən və təcavüzkar müharibələrdən əzab çəkən milyonlarla insanın sülh və əmin-amanlıq şəraitində yaşamaq arzusunun parlaq təzahürü olacaqdır.

Azad və demokratik cəmiyyət quruculuğu yolunda qətiyyətli addımlarını atan və geosiyasi cəhətdən olduqca həssas bölgədə yerləşən müstəqil Azərbaycan Respublikası üçün sülhün, sabitliyin hökm sürdüyü təhlükəsiz mühit həyati əhəmiyyət kəsb edən bir məsələdir. Bu zərurət həm də onunla bağlıdır ki, qonşu Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və əsassız ərazi iddiaları müstəqil dövlətimiz və xalqımız üçün böyük problemlər yaratmışdır. Ərazimizin 20 faizi işğal olunmuş, on minlərlə insan öldürülmüş və yaralanmış, yüzlərlə qadın, uşaq və qoca əsir və yaxud girov götürülmüş, 1 milyondan çox insan və tarixi-etnik torpağında qaçqın və məcburi köçkünə çevrilmişdir. Bu gün ölkənin hər 8 vətəndaşından biri qaçqın və yaxud məcburi köçkün vəziyyətində yaşamaq məcburiyyətindədir. Güman edirəm ki, erməni təcavüzünün Azərbaycanda həyatın bütün sahələrinə nə dərəcədə mənfi təsir göstərdiyini anlamaq heç də çətin deyil.

Təcavüz nəticəsində xalqımızın böyük mənəvi və maddi itkilərə məruz qalmasına baxmayaraq, Azərbaycan Respublikası daxili və xarici siyasətində demokratiya və müstəqil dövlətçilik prinsiplərinə, eyni zamanda beynəlxalq hüquqi normalara daim sadiqlik nümayiş etdirir. Biz bu yolda xalqımızın sülhsevərlik, humanizm və dözümlük kimi yüksək mənəvi dəyərlərinə arxalanırıq.

Tarixin heç bir mərhələsində Azərbaycanda dini, milli ayrı-seçkilik, diskriminasiya faktı olmamışdır. Əsrlər boyu burada dünya dinləri dinc yanaşı fəaliyyət göstərmiş, bütün xalqlar dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq mehriban ailə şəraitində yaşamışlar. Azərbaycan xalqı öz milli mentalitetinə uyğun olaraq həm də qonşu dövlətlər və xalqlarla mehriban qonşuluq münasibətlərində olmuşdur. Bu mütərəqqi tarixi ənənələr bu gün də davam edir və Azərbaycan dövləti bölgədə sülhün və sabitliyin bərqərar olunması istiqamətində səylərini əsirgəmir.

Təbiidir ki, bütün bu məqsədlərə çatmaq üçün yalnız bir tərəfin istəyi kifayət deyildir. Beynəlxalq hüququn dövlətlərin ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı, milli və dini azlıqların hüquqlarının müdafiəsi kimi prinsiplərini əsas tutmaqla qarşılıqlı hörmət, anlaşma etimad və hər şeydən öncə bütün tərəflərin maraqlarının təmin olunması məqsədi ilə güzəştlər edilməsi ümdə şərtlərdəndir. Əks halda bəşəriyyət müharibə və münaqişə ocaqlarından xilas ola bilməz.

Ümidvar olduğumu bildirirəm ki, dünyanın mötəbər dini və mənəvi rəhbərlərinin xeyirxah məqsədlərə xidmət edən zirvə görüşü zəmanəmizin narahat məsələlərini dərindən müzakirə edəcək, bəşəriyyətin tarixi haqqı olan sülh, əmin-amanlıq şəraitində yaşaması işinə öz layiqli töhfəsini verəcəkdir.

Bu müqəddəs amal uğrunda hər birinizə böyük uğurlar arzulayıram.

Hörmətlə,
Heydər Əliyev
Azərbaycan Respublikasının Prezidenti.

Nyu-Yorkda Minilliyin Zirvə görüşündə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışı - 7 sentyabr 2000-ci il

Hörmətli cənab sədr!

Hörmətli həmkarlar!

Xanımlar və cənablar!

XX əsr başa çatır. Bu yüzillik bəşəriyyətin yaddaşında mənəvi-intellektual tərəqqi ilə və iki dünya müharibəsində tökülmüş qanlarla, imperiyaların süqutu və onlarca yeni suveren dövlətlərin yaranması ilə, «soyuq müharibə»nin doğurduğu gərginlik və sülh, sabitlik naminə göstərilən kollektiv səylərlə qalacaqdır. Bəs qarşıdan gələn yüzillikdə dünya necə olacaqdır?

İki sistemin qarşıdurmasının tarixə qovuşması, demokratik və sərbəst bazar ideyalarının üstünlük qazanıb yayılması elə bir dünyanın qurulmasına kömək etməlidir ki, orada bütün dövlətlərin mənafeləri nəzərə alınacaq və həqiqətən bərabərhüquqlu tərəfdaşlıq sahmana salınacaqdır. Amma beynəlxalq vəziyyətin inkişafının təhlili bizi belə bir acı nəticəyə gətirir ki, rəqabət stereotipləri hələ də mövcuddur. Biz çox çətin dövrdə yaşayırıq, düzgün olmayan bircə addım vəziyyəti alt-üst edə və keçmişə faciəli qayıdışa səbəb ola bilər. Ədalətli və təhlükəsiz dünya qaydası yaratmaq üçün çətin yol keçmək lazım gələcək və biz hamımız bu məqsədə can atmalıyıq.

Dünyanın inkişafının indiki mərhələsinin başlıca meyli qloballaşmadır. Bu mürəkkəb və heç də birmənalı olmayan prosesin perspektivləri bizim hamımızı düşündürür. Qloballaşma dövlətlərin sabit inkişafının, bütövlüyünün və idarəetmə sistemlərinin sabitliyinin təmin olunmasına, iqtisadi münasibətlərdə ayrı-seçkiliyin aradan qaldırılmasına, xalqların rifah halının yüksəldilməsinə kömək etməlidir. Beynəlxalq hüququn prinsipləri və normalarının aliliyi, dəyişikliklərin təkamül xarakteri, tərəfdaşlıq və daha çox inkişaf etmiş dövlətlərin daha az inkişaf etmiş dövlətlərə köməyi, qarşılıqlı etimad və ümumbəşəri dəyərlərə sədaqətlə yanaşı, milli fərqlərin də qəbul olunması bu prosesin müəyyənedici istiqamətləri olmalıdır. Demokratik inkişafın gücü onun rəngarəngliyindədir.

Azərbaycan qloballaşmanın müsbət mənada inkişafına öz töhfəsini verir. Mənim ölkəm dünya miqyasında geostrateji əhəmiyyətə malik öz coğrafi mövqeyindən, ehtiyatlarından və potensialından istifadə edərək, Şərq ilə Qərb arasında zəngin tarixi keçmişdən başlanan və gələcəyə istiqamətlənən körpü rolunu səmərəli surətdə həyata keçirir. Biz Böyük İpək yolunun bərpası, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin yaradılması və Xəzər hövzəsinin karbohidrogen ehtiyatlarının hasilatı və dünya bazarlarına nəqli üçün çox böyük səylər göstəririk. Dünyanın bir neçə regionunun dövlətlərinin azad və mükəmməl inkişafı üçün bu layihələrin həlledici əhəmiyyəti var, bunlar fövqəlmilli əməkdaşlığa təkan verəcək və qlobal şəraitin inkişafına müəyyənedici təsir göstərəcəkdir.

Ancaq xaricdən olan təhlükələr və daxili problemlər, təzyiq göstərilməsi və nüfuz dairələri uğrunda mübarizəyə cəlbetmə hələ bərkiməmiş gənc demokratiyalara öz xalqlarının mənafelərinə və arzularına cavab verən xətlərini sərbəst şəkildə həyata keçirməyə, öz dövlətçiliyini möhkəmləndirməyə və inkişaf etdirməyə, dinc quruculuqla məşğul olmağa imkan vermir. Onlar mövcud olduqları ilk gündən özlərinin müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda amansız mübarizəyə başlamağa məcbur olmuşlar.

Təcavüzlərdən, ərazi işğallarından və etnik təmizləmələrdən, təcavüzkar separatizmdən və terrorizmdən əzab çəkən dövlətlər tam hüquqla gözləyirlər ki, Birləşmiş Millətlər Təşkilatı ədalətli sülhün və təhlükəsizliyin bərqərar edilməsi və BMT nizamnaməsi prinsiplərinin müdafiəsi üçün maksimum səmərəli tədbirlər görəcəkdir.

Təəssüflər olsun ki, Cənubi Qafqaz həmin problemlərin, hədələrin və risklərin aydın şəkildə təzahür etdiyi regiona çevrilmişdir. Ermənistanın Azərbaycana qarşı təcavüzü - milyonlarla insana saysız-hesabsız fəlakətlər gətirmiş təcavüz Cənubi Qafqazda vəziyyətin sabitliyini pozan başlıca amil olmuşdur.

Bu təcavüzün gedişində Ermənistan silahlı qüvvələri Azərbaycan ərazisinin 20 faizini işğal etmiş, etnik təmizləmə aparmış və bir milyon azərbaycanlını öz doğma yerindən-yurdundan zorla qovub çıxarmışlar. Bununla əlaqədar BMT-nin Təhlükəsizlik Şurası qəbul etdiyi dörd qətnamədə Azərbaycan Respublikasının suverenliyini, ərazi bütövlüyünü və sərhədlərinin pozulmasını birmənalı şəkildə təsdiqləmiş və Ermənistan silahlı qüvvələrinin işğal etdikləri Azərbaycan ərazilərindən dərhal qeyd-şərtsiz çıxarılmasını tələb etmişdir. Ancaq Təhlükəsizlik Şurasının qərarları 1993-cü ildən bu günə qədər hələ də kağız üzərində qalmaqdadır.

1992-ci ildən etibarən Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması məsələsi ilə ATƏT məşğul olur, amma onun fəaliyyətinin nəticəsi yoxdur. Azərbaycan və Ermənistan prezidentlərinin ikitərəfli danışıqları davam edir, ancaq hələlik bunlar da bir nəticə verməmişdir. Altı ildən çoxdur ki, biz atəşkəsə əməl edirik, amma bu, problemi həll etmir. Mən Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsi üçün bütün lazımi tədbirləri görməyə çağırıram.

Ermənistan-Azərbaycan münaqişəsini həll etmədən və digər münaqişələri aradan qaldırmadan, xaricdən təzyiq amillərinə, o cümlədən, xarici hərbi qüvvələrin olmasına son qoymadan regionda sülhə və təhlükəsizliyə nail olmaq mümkün deyildir.

Cənubi Qafqaz regionuna siyasi tamlıq və bitərəflik statusu verilməsi Cənubi Qafqaz dövlətlərinin normal qarşılıqlı münasibətlərini qaydaya salmağa və onların dünya iqtisadi sisteminə ahəngdar inteqrasiyasını təmin etməyə imkan verər.

Səkkiz ildən bəri fəlakətli vəziyyətdə yaşayan Azərbaycanın qaçqın və köçkünlərinə göstərilən köməyə görə mən BMT sistemindəki təşkilatlara və donor ölkələrə minnətdarlığımı bildirirəm. Biz son dərəcə vacib olan humanitar yardımın həmin insanlar öz yaşayış yerlərinə qayıdana qədər davam etdirilməsinə və artırılmasına kəskin ehtiyac duyuruq.

Birləşmiş Millətlər Təşkilatının üzərinə dünyanın taleyi üçün çox böyük məsuliyyət düşür, biz ümidlərimizi ona bəsləyirik. Ciddi və rasional islahat təşkilatın, o cümlədən Təhlükəsizlik Şurasının səmərəliliyini artırmalıdır.

Sözümün sonunda planetimizdə sülh və təhlükəsizlik üçün kollektiv məsuliyyət daşıdığımızı vurğulamaq və əmin olduğumu bildirmək istəyirəm ki, «Minillik zirvə görüşü»nün yekunları XIX əsrə doğru yolumuzun etibarlı bünövrəsi olacaqdır.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin BMT-nin Uşaq Fondunun Mərkəzi və Şərqi Avropa, MDB və Baltik ölkələri üzrə regional nümayəndəsi Filip O'brayanı qəbul edərkən söhbətindən - Prezident sarayı, 20 oktyabr 2000-ci il

Heydər Əliyev: Azərbaycana xoş gəlmisiniz. YUNİSEF ilə Azərbaycan arasındakı əlaqələrə və əməkdaşlığa biz çox böyük əhəmiyyət veririk. Ümumiyyətlə, YUNİSEF kimi bir təşkilatın Birləşmiş Millətlər Təşkilatı çərçivəsində yaranması, təbii ki, çox böyük hadisədir. Onun gördüyü işlər olduqca əhəmiyyətlidir.

Azərbaycanın YUNİSEF-lə əməkdaşlığı 1993-cü ildən başlayıbdır. Xatirimdədir, 1994-cü ildə Nyu-Yorkda Birləşmiş Millətlər Təşkilatının Baş Məclisində olarkən mən YUNİSEF ilə Azərbaycan arasında bir sənədə imza atdım. Son illər Azərbaycanda bir çox məsələlərə, xüsusən, difteriyanın, polimielitin qarşısının alınmasına və başqa sahələrə YUNİSEF yardımlar edibdir. Mən YUNİSEF-in bu fəaliyyətini də yüksək qiymətləndirirəm.

YUNİSEF-in Azərbaycanla daha da səmərəli, Azərbaycan üçün çox faydalı əməkdaşlıq etmək üçün hələ böyük imkanları vardır. Güman edirəm ki, siz bu səfəriniz zamanı respublikamızda vəziyyətlə tanış olarkən mənim bu fikirlərimin nə qədər düzgün olduğunu da təsdiq edə bilərsiniz.

Biz istəyirik ki, YUNİSEF ilə Azərbaycan əməkdaşlığı daha da geniş olsun. Çünki buna böyük ehtiyac vardır. Xüsusən, qaçqın, köçkün vəziyyətində olan uşaqların, çadırlarda olan uşaqların vəziyyəti ilə əlaqədar. Buyurun.

Filip O'brayan: Zati-aliləri, təşəkkür edirəm. Bu gün burada olmağımdan böyük şərəf duyuram. Sizin ölkənizdə bir çox sahələrdə YUNİSEF-in missiyasının həyata keçirilməsində təşkilatımıza qarşılıqlı yardımçı oldunuz. Mən hər şeydən öncə Sizi iki hadisə münasibətilə təbrik etmək istəyirəm.

Birincisi, müstəqilliyinizin 9-cu ildönümünü bayram etməniz münasibətilə Sizi təbrik edirəm. Çox məmnun oldum ki, Siz müstəqillik bayramınızı qeyd etdiyiniz dövrdə mən də Sizin ölkənizdə olmuşam.

İkinci təbrikim olimpiya oyunlarında Azərbaycanın yaxşı yer tutması ilə əlaqədardır.

Heydər Əliyev: Təşəkkür edirəm.

Filip O'brayan: Bilirəm ki, bizim təşkilatımızın yardımçı olduğu, kömək göstərdiyi bir çox layihələrin Azərbaycanda həyata keçirilməsində Siz şəxsən iştirak etmisiniz. Azərbaycanda çoxsaylı qaçqın uşaqlarının olması ilə əlaqədar Sizin keçirdiyiniz narahatçılıqları biz bölüşürük.

Mən Azərbaycanın BMT-dəki təmsilçiliyinin YUNİSEF-in Direktorlar Şurasında sədr müavini vəzifəsində göstərdiyi müsbət fəaliyyətinə görə də Sizə YUNİSEF Təşkilatının icraçı direktorunun adından təşəkkürlərimi bildirmək istəyirəm. YUNİSEF-in uşaqların hüquqlarının müdafiəsi ilə məşğul olan daimi komitəsində Azərbaycanın daimi yer əldə etmək üçün namizədliyini irəli sürdüyünü eşidəndə çox məmnun oldum.

Zati-aliləri, Sizə məlum olduğu kimi, YUNİSEF gələn ilin sentyabr ayında Birləşmiş Millətlər Təşkilatı çərçivəsində uşaqların hüquqlarına aid sammit, zirvə görüşü keçirəcəkdir. Birləşmiş Millətlər Təşkilatının baş katibi Sizi bu zirvə görüşündə iştirak etmək üçün dəvət edibdir. Mən də öz növbəmdə YUNİSEF Təşkilatının icraçı direktoru adından bu dəvəti Sizə bir daha təkrar etməkdən, yetirməkdən məmnunluq duyuram. Hesab edirik ki, bu zirvə görüşü XXI əsrdə uşaqların hüquqlarının daha yaxşı qorunması və onların həyatının daha yaxşı təmin olunması baxımından fikir mübadiləsi aparılması üçün yaxşı imkan olacaqdır. Mən ümidvaram ki, qarşıdan gələn bir neçə il ərzində indiki vəzifəmdə Azərbaycan ilə daha sıx təmaslar saxlayacağam və Azərbaycanı, Sizin ölkənizi daha yaxından tanımaq imkanı əldə edəcəyəm.

Heydər Əliyev: Sağ olun. Əvvəla, Müstəqillik günü bayramı münasibətilə və Azərbaycanın olimpiya oyunlarında əldə etdiyi nailiyyətlərə görə təbrikinizlə bağlı təşəkkür edirəm. Həqiqətən,

Azərbaycan ilk dəfə olaraq XXVII yay olimpiya oyunlarında belə yüksək səviyyəyə gəlib çatmışdır. Şübhəsiz ki, bu, Azərbaycanda uşaqlara, gənclərə göstərilən qayğının nəticəsində olmuşdur. Çünki olimpiadanın iştirakçıları və xüsusən uğurlu nailiyyətlər əldə edənlər hamısı gənclərdir. Biz iki qızıl medal və bir bürünc medal almağımızdan fəxr edirik. 199 ölkənin içərisində 34-cü yer tutmuşuq. Azərbaycandan həm ərazi nöqteyi-nəzərdən, həm əhalinin sayına, həm də iqtisadi vəziyyətinə görə güclü olan bir çox dövlətlər bizdən arxada qalıblar.

Bizim bürünc medal alan boksçumuz Vüqar Ələkbərovun cəmi 19 yaşı var. Qızıl medalı alanlar da gəncdirlər. Deməк, Azərbaycanda gənclərə qayğı var, diqqət var və gənclər də öz imkanlarını nümayiş etdirə bilirlər.

Eyni zamanda, siz bilirsiniz ki, Ermənistanın Azərbaycana təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunubdur. Bir milyondan artıq Azərbaycan vətəndaşı işğal edilmiş torpaqlardan zorla çıxarılıb və çox ağır şəraitdə, əksəriyyəti isə xeyli vaxtdır, 7-8 ildir ki, çadırlarda yaşayır.

Təsəvvür edin, XX əsr sona çatır, amma bizim insanların bir hissəsi çadırda yaşayır, çadırda uşaqlar doğulur, çadırda gənclər böyüyür, çadırda təhsil alırlar, ailə qururlar. Bütün bunlara görə Azərbaycandakı uşaqların vəziyyəti sizin əhatə etdiyiniz bir çox ölkələrdə olan uşaqların vəziyyətindən daha da ağırdır.

Biz bilirik, Afrikada, Asiyada elə ölkələr var ki, orada həm böyüklər, həm uşaqlar çox ağır xəstəliklərə düçar olurlar, çətinliklər keçirirlər. Bunlar bizə məlumdur. Ancaq Avropa qitəsində yerləşən Azərbaycan kimi bir ölkənin ərazisində olan bu vəziyyət təbiidir ki, dözülməzdir. Ona görə sizin təşkilatınız, yəni YUNİSEF gərək ölkələrin hamısına bərabər gözlə baxmasın, YUNİSEF hər bir ölkəyə onun vəziyyətinə görə münasibət göstərməlidir, yardım etməlidir.

Mən çox arzu edərdim ki, siz üç-dörd saat vaxt sərf edib, - bunu vertolyot vasitəsilə etmək olar, - çadır şəhərciklərinin birini gedib görəsiniz. Onda sizi dəhşət bürüyər. İndi görürsünüz, küçədə yağış yağır və bu, birinci gün deyildir. Sabah qar yağacaqdır. Sonra yay gələndə qızmar istilər başlayacaqdır. Çadırlarda yaşayan insanlar üçün hər fəslin öz çətinliyi vardır. Yağışın altında çadırda yaşamaq və çadırdan çıxan kimi palçığın içində hərəkət etmək böyüklər üçün çətindir, amma uşaqlar üçün nə qədər çətindir!

Mən bilirəm ki, bu problemlərin həll edilməsində sizin imkanlarınız yoxdur. Ancaq köçkün vəziyyətində yaşayan, çadırlarda yaşayan uşaqlara xüsusi diqqət göstərmək, onlara xüsusi qayğı göstərmək və onlara yardımı artırmaq, hesab edirəm ki, sizin üçün mümkündür. Arzu edərdim ki, siz, ümumiyyətlə, YUNİSEF, Azərbaycan ilə əlaqədar proqramında mənim dediyim bu səbəblərə görə müəyyən dəyişikliklər etsinlər.

Siz bəyan etdiyiniz kimi, 2001-ci ilin sentyabr ayında Birləşmiş Millətlər Təşkilatının uşaqlarla əlaqədar sammit keçirməsi çox təqdirəlayiq haldır. Mən bu dəvəti qəbul edirəm və mütləq bu sammitdə iştirak edəcəyəm. Çünki bizim orada deyiləcək sözlərimiz vardır. Bütün bunları nəzərə alaraq, bir daha deyirəm, sizin bu gün Azərbaycanda olmağınız, ölkəmizlə daha da yaxından tanışlığınız bizim üçün çox əhəmiyyətlidir. Ancaq arzu edərdim ki, sizin bu səfəriniz, mənim dediyim sözlər nəzərə alınmaqla, Azərbaycana olan münasibətinizi, yəni yardımınızı, burada iş fəaliyyətinizi genişləndirməyinizi təmin etsin. Mən bu arzularımı sizə bildirirəm.

Filip O'brayan: Zati-aliləri, mən Sizin bu arzularınızı məmnuniyyətlə təşkilatımızın icraçı direktoruna çatdıracağam. Onu da deməк istəyirəm ki, Sizin olduqca səmimi şəkildə, xüsusən Azərbaycanda olan qaçqın uşaqların dözülməz şəraiti barədə söylədiklәriniz bizə çox təsir etdi. Elə bu sözləri söyləməyiniz onu göstərir ki, Siz o uşaqların vəziyyətinin yaxşılaşdırılması işinə sadiqsiniz. Hesab edirəm ki, Siz bu sadiqliyinizi Nyu-Yorkda olarkən bizim təşkilatımızla əlaqədar iki sənədə imza atmanızla bir daha təsdiq etmisiniz.

Zati-aliləri, arzu edərdim ki, YUNİSEF-in regional direktoru kimi mənim elə bir gücüm, qüvvəm olaydı ki, bütün bu münaqişələrə son qoyaydım. Amma doğru buyurdunuz ki, bu işlərin hamısını görmək heç də mənim imkanım daxilində deyildir. Müharibənin uşaqların vəziyyətinə etdiyi təsir göz önündədir və bu, bizi ağrıdır.

Siz doğru dediniz. Əslində, YUNİSEF-də elə biz də ayrı-ayrı ölkələrə, hətta uşaqlara eyni gözlə baxmırıq. Təşkilatımızın gücünü göstərən amillərdən biri də məhz ondan ibarətdir ki, biz ehtiyacı olan uşaqlara yardım əlimizi uzadırıq. Təşkilatımızın burada təmsil olunmuş nümayəndələri, mənim həmkarlarım sizin hökumətinizlə sıx əlaqələr quraraq, azərbaycanlı qaçqın uşaqların ehtiyaclarının öyrənilməsi və onlara yardım edilməsi işində səylə çalışırlar. Mən Sizi əmin etmək istəyirəm ki, bu gün burada qaldırdığınız ağrılı, ciddi problemlərin həll olunması üçün öz tərəfimizdən əlavə ehtiyatların tapılması və Azərbaycana yardımların artırılması üçün də əlimizdən gələni edəcəyik.

Əminəm ki, YUNİSEF Təşkilatının icraçı direktoru və Birləşmiş Millətlər Təşkilatının baş katibi zirvə görüşündə iştiraka dəvəti qəbul etməyiniz barədə xəbəri məmnuniyyətlə qarşılayacaqlar. Mən də çox məmnunam ki, Siz bu dəvəti qəbul etdiniz. Çünki indi burada mənə dediyiniz kövrəkliklə, həssaslıqla danışdığınız, azərbaycanlı qaçqın uşaqların vəziyyətini təsvir etdiyiniz kimi, həmin zirvə görüşündə də çıxış etsəniz, əminəm ki, bizim ümumi tədbirimizə töhfə vermiş olacaqsınız. Bir daha təkrar edirəm ki, YUNİSEF-in Bakıdakı ofisi Azərbaycan hökuməti və qeyri-hökumət təşkilatları ilə bərabər çalışaraq azərbaycanlı uşaqların həyatının inkişaf etdirilməsini, onların həyatına yenilik gətirilməsini istəyir. Mən də Sizi əmin edirəm ki, şəxsən bu işlərlə yaxından məşğul olacağam. Sağ olun.

Heydər Əliyev: Təşəkkür edirəm. Sizin bu sözləriniz məndə ümid yaradır. Arzu edirəm ki, bu ümidlər yerinə yetsin.

Təbiidir, siz dediniz ki, arzu edirsiniz münaqişələr həll olunsun, münaqişələrə son qoyulsun. Bunu hamıdan çox biz istəyirik, Azərbaycan istəyir. Çünki Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın ərazi bütövlüyü pozulubdur.

Qeyd etdiyim kimi, ölkəmizin ərazisinin 20 faizi işğal altındadır və darmadağın olunubdur. Bir milyon insan yerindən-yurdundan didərgin düşübdür. Biz bunlara son qoymaq istəyirik və Ermənistanla sülh əldə etmək istəyirik. Azərbaycanın ərazi bütövlüyünü təmin etmək istəyirik. Köçkünlərin, qaçqınların öz yerlərinə qaytarılmasını təmin etmək istəyirik. Ancaq təəssüf ki, Ermənistan bu barədə çox anlaşılmaz və təcavüzkar bir mövqe tutur. Sizə onu da bildirmək istəyirəm ki, Ermənistan Azərbaycan torpaqlarını geniş şəkildə işğal etdiyi zaman, 1992-1993-cü illərdə Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası bu məsələləri dəfələrlə müzakirə edibdir və dörd qətnamə çıxarıbdır. Təəssüf ki, Təhlükəsizlik Şurasının qətnamələri, - hansılar ki, Ermənistan silahlı qüvvələrinin işğal olunmuş rayonlardan dərhal, qeyd-şərtsiz çıxarılmasını tələb edir, - indiyə qədər Ermənistan tərəfindən həyata keçirilmir. Dözülməz vəziyyət haqqında mən bu yaxınlarda, sentyabr ayının 7-də Nyu-Yorkda Birləşmiş Millətlər Təşkilatının tribunasından yenə də Azərbaycanın sözünü dedim və Birləşmiş Millətlər Təşkilatını, onun Təhlükəsizlik Şurasını tənqid etdim ki, onlar özlərinin qəbul etdiyi qətnamələrin yerinə yetirilməsini təmin edə bilmirlər. Birləşmiş Millətlər Təşkilatı, təbiidir ki, tarixi əhəmiyyətə malik bir təşkilatdır. Biz buna inanırıq. Ancaq onun qərarları, qətnamələri hansı ölkə tərəfindən yerinə yetirilmirsə, demək, o, bunun üçün müəyyən imkanlar tapmalıdır. Xahiş edirəm, mənim bu sözlərimi də çatdırasınız.

Mən gələn il sentyabr ayında gələcəyəm. Allah etsin ki, o vaxta qədər biz Ermənistan-Azərbaycan münaqişəsinə son qoya bilək. Əgər buna nail olsaq, ondan sonra hələ bir neçə il də lazımdır ki, yerindən-yurdundan didərgin düşmüş insanlar öz torpağına qayıtsınlar. Amma onların torpağında hər şey dağıdılıbdır, hər şey viran olubdur. Yaşayış məntəqələri, yaşayış evləri yenidən yaranmalıdır. Hələ bizim qarşımızda nə qədər vəzifələr durur. Mən mütləq gələcəyəm.

Filip O'brayan: Zati-aliləri, mən bundan olduqca məmnunam. Çox sağ olun.

Heydər Əliyev: Sağ olun.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin BMT-nin Azərbaycandakı rezident-əlaqələndiricisi Ercan Murat və bu təşkilatın ölkəmizdəki nümayəndələrini qəbul edərkən söhbətindən - Prezident sarayı, 30 may 2001-ci il

Heydər Əliyev: Hörmətli Ercan Murat!

Hörmətli dostlar!

Mən belə başa düşürəm ki, bugünkü görüş hörmətli Ercan Muratın Azərbaycandan getməsi ilə əlaqədardır. Bu diplomatik işin, təbiidir, özünün müəyyən qaydaları vardır. Qoymurlar ki, insan bir yerdə çox işləsin, dəyişdirirlər. Yəqin ki, sizi də buna görə dəyişdiriblər. Ancaq belədir ki, biz ölkəmizdə işləyən adamlara öyrəşirik və onların Azərbaycandan getməsinə o qədər də razı olmuruq.

Siz burada işlədiyiniz dövrdə Azərbaycanın müxtəlif təşkilatları ilə səmərəli əməkdaşlıq etmisiniz. Ona görə də mən sizə təşəkkür edirəm. Güman edirəm ki, gələcək işinizdə bundan da yaxşı işləyəcəksiniz. Buyurun, mən sizi dinləyirəm.

Ercan Murat: Cənab prezident, icazə verin, vaxt tapıb bizi qəbul etdiyinizə görə öz adımdan, Birləşmiş Millətlər Təşkilatının Azərbaycandakı ixtisaslaşmış qurumlarına rəhbərlik edən və bu görüşün iştirakçısı olan həmkarlarım adından Sizə təşəkkürümü bildirim.

Siz Birləşmiş Millətlər Təşkilatının müxtəlif strukturlarının Azərbaycanda fəaliyyətinə daim dəstək vermisiniz. Ona görə bugünkü görüşü də biz müstəsna hal kimi qəbul etmirik.

Qərara aldıq ki, Sizinlə bugünkü görüşümüzdə, son dörd ildə - həmkarlarımla birlikdə burada fəaliyyət göstərdiyim müddətdə həyata keçirdiyimiz tədbirlər, gördüyümüz işlər barədə Sizə qısaca məlumat verək. Ondan sonra gələcək planlarımızı sizinlə bölüşək. Sizin tövsiyələrinizi və məsləhətlərinizi dinləyək.

Heydər Əliyev: Ancaq qısaca.

Ercan Murat: Birləşmiş Millətlər Təşkilatının Azərbaycanda diqqət yönəltdiyi əsas sahə Sizin hökumətinizin ölkənizdəki qaçqınların və məcburi köçkünlərin həyatının yaxşılaşdırılmasına yönəldilmiş səylərinə dəstək vermək olmuşdur. Biz bu sahədə əməkdaşlığımızın nəticələrindən çox məmnunuq. Xüsusilə biz bəzi məcburi köçkünlərin öz yurd-yuvalarına dönməsindən, məsələn, Horadiz qəsəbəsində öz əvvəlki yaşayış yerlərində məskunlaşaraq yeni həyata başlamalarından çox məmnunuq.

Bu baxımdan biz Abid Şərifovun idarəsi ilə çox müvəffəqiyyətlə əməkdaşlıq etmişik və bu işimiz davam edir. Eyni zamanda sizin hökumətinizlə, dövlət strukturları ilə iqtisadi və sosial sahələrdə də bir sıra layihələr həyata keçirmişik. O cümlədən dövlət idarəçiliyinin təkmilləşdirilməsi, iş yerlərinin açılması, uşaqların problemlərinin həll olunması sahələrində uğurlu əməkdaşlıq etmişik. Biz bu fəaliyyətimizi həyata keçirərkən, BMT-nin Azərbaycandakı altı təşkilatı kimi yox, vahid bir mərkəzdən əlaqələndirilmiş halda işləmişik. Hesab edirik ki, bu səmərəli olubdur. O mənada ki, Sizin hökumətiniz bizim fəaliyyətimizi daim dəstəkləyibdir, bizim ixtisaslaşmış ayrı-ayrı təşkilatlarımızı vahid mərkəz kimi qəbul edibdir. Biz də sizin hökumətinizlə bu sahədə uğurlu əməkdaşlıq etmişik.

Gələcək planlarımız barədə də fikirlərimi Sizinlə bölüşmək istəyirəm. Biz çox məmnunuq ki, Sizin hökumətiniz olduqca mühüm qərar qəbul edərək, Azərbaycanı bu gün dünyada mövcud olan informasiya-texnologiya səviyyəsinə qaldırıbdır. Bu baxımdan biz xüsusilə cənab Ramiz Mehdiyevlə çox yaxından əməkdaşlıq edirik ki, Sizin hökumətinizdə informasiya-texnologiya siyasətini tam yüksək səviyyəyə qaldıraq.

Biz həmçinin Sizin təşəbbüs göstərərək Neft Fondu yaratmağınızı və bu fondda toplanan vəsaitlərin xalq üçün istifadə olunması sahəsindəki səylərinizi tam dəstəkləyirik. Həm də mənim həmkarlarım bu işdə Sizə hər cür dəstək verməyə hazırdırlar.

Cənab prezident, sonda onu bildirmək istəyirəm ki, masanın bu tərəfində əyləşən həmkarlarımla

biz ölkəniz sülh əldə etdiyi zaman bir komanda halında ona yardım göstərməyə hazır olmağımız haqda yekdil fikrə gəlmişik.

Biz münaqişənin sülh yolu ilə aradan qaldırılması üçün Sizin ardıcıl olaraq göstərdiyiniz səyləri çox heyranlıqla izləyirik və bildirirəm ki, Azərbaycan münaqişəni həll etdikdə, problem sülh yolu ilə aradan qaldırıldıqda, biz Azərbaycana yardım, hər cür kömək göstərməyə hazırıq.

Nəhayət, bir neçə kəlmə də şəxsi düşüncələrimi, müşahidələrimi Sizinlə bölüşmək istəyirəm. Cənab prezident, mən burada demək olar ki, dörd il çalışdım.

Bu müddətdə Azərbaycanı, Bakını, azərbaycanlıları çox sevdim. Mən burada çalışmağımdan çox böyük məmnunluq duydum. Özümü öz ölkəmdə olduğum kimi hiss etdim, öz dilimdə danışdım. Bütün bunlara görə Sizə və Sizin vasitənizlə bütün Azərbaycan xalqına dərin təşəkkürümü və minnətdarlığımı çatdırmaq istəyirəm.

Möhtərəm prezident, əgər Sizin mənə və mənim həmkarlarıma hər hansı sualınız olarsa, cavab verməyə hazırıq.

Heydər Əliyev: Təşəkkür edirəm. Sualım yoxdur. Çünki sual vermək asandır, amma işləmək lazımdır. Burada dörd il müddətində səmərəli fəaliyyət göstərdiyinizə görə sizə bir daha təşəkkür edirəm. Gələcək işlərinizdə sizə uğurlar arzulayıram. Siz Azərbaycan-Ermənistan münaqişəsinin sülh yolu ilə həll olunmasını dəstəkləyirsiniz. Sülh əldə ediləndən sonra siz Azərbaycana lazımi yardımlar edəcəksiniz.

Ona görə təşəkkür edirəm. Ancaq öncə məsələni sülh yolu ilə həll etmək lazımdır.

Təəssüflər olsun ki, nə qədər acı da olsa, deməliyəm ki, Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası bu məsələnin həll olunmasında çox passivlik göstəribdir. Biz dəfələrlə demişik ki, 1993-cü ildə Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının Ermənistan-Azərbaycan münaqişəsinə dair dörd qətnaməsi olubdur. Bu qətnamələrdə Azərbaycanın ərazi bütövlüyü tanınıb və Ermənistanın silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxması tələb olunubdur.

Mən Nyu-Yorkda Birləşmiş Millətlər Təşkilatının Baş Məclisinin iclasında mərkəzi kürsüdən bir neçə dəfə çıxış edib bu məsələləri yada salmışam və Azərbaycanın bu barədə həm narazılığı, həm də arzularını, istəklərini, tələblərini bildirmişəm. Ancaq təəssüflər olsun ki, bunların heç biri hələ nəticə verməyibdir. Doğrudur, Birləşmiş Millətlər Təşkilatı onunla kifayətlənir ki, indi bu məsələ ilə ATƏT, onun Minsk qrupu və bu qrupa rəhbərlik edən dünyanın üç böyük dövləti məşğul olurlar. Amma bu, Birləşmiş Millətlər Təşkilatının və onun Təhlükəsizlik Şurasının üzərində olan məsuliyyəti heç də götürmür.

Bu günlərdə mən Azərbaycanın milli bayramı - Respublika günü münasibətilə Birləşmiş Millətlər Təşkilatının baş katibi Kofi Annandan təbrik məktubu almışam. Bu təbrik məktubunda da cənab Kofi Annan bəyan edir ki, məsələnin sülh yolu ilə həll olunmasını istəyir və münaqişə sülh yolu ilə həll edildikdən sonra Birləşmiş Millətlər Təşkilatının torpaqlarımızda bərpa işlərinə yardım edəcəyini bəyan edir. Bu arzulara görə təşəkkür edirəm. Ancaq əsas məsələ həll olunmalıdır. Əgər əsas məsələ həll olunmasa, münaqişə aradan qaldırılmasa, Azərbaycanın işğal edilmiş torpaqları azad olunmasa, verilən sözlər havadan asılı qalacaqdır.

Mən bilirəm ki, siz bu işlərə bilavasitə cavabdeh deyilsiniz. Amma siz Birləşmiş Millətlər Təşkilatının Azərbaycanda nümayəndələrisiniz. Ona görə də mən bunları sizə bilavasitə deyərək, eyni zamanda ümid edirəm ki, siz bizim bu narazılığımızı və tələblərimizi Birləşmiş Millətlər Təşkilatının rəhbərliyinə və Təhlükəsizlik Şurasına çatdıracaqsınız.

Biz real hərəkətlər və nəticələr gözləyirik. Amma indi bizə verilən vədlərin hamısı bundan sonrakı işlərə aiddir. Mən yenə də bildirirəm ki, biz məsələnin sülh yolu ilə həll olunmasına çalışacağıq. Amma nə qədər çətinliklər olduğunu siz görürsünüz. Qaçqın kimi çadırlarda yaşayan insanların vəziyyətini, yəqin ki, siz hamıdan çox görürsünüz. Dünyanın heç bir ölkəsində bu qədər qaçqın yoxdur. Dünyanın heç bir ölkəsində yerini-yurdunu itirmiş insanlar bu qədər ağır vəziyyətdə yaşamırlar. Amma beynəlxalq təşkilatların bu məsələlərə biganə yanaşması, təbiidir ki, bizi təəccübləndirir və incidir.

Mən görülən işlər üçün sizə bir daha təşəkkür edirəm. Siz başqa yerə işə gedirsiniz. Amma burada iştirak edən sizin həmkarlarınız Azərbaycandadırlar. Arzu edirəm ki, onlar mənim bu sözlərimi də daim nəzərə alsınlar.

Ercan Murat: Cənab prezident, çox sağ olun. Bizə verdiyiniz məsləhətləri açıq-aydın eşitdik. Əmin ola bilərsiniz ki, mən Sizin ölkənizi tərk etməmişdən öncə Sizin bu fikirlərinizi Birləşmiş Millətlər Təşkilatının baş katibinə də yetirəcəyəm. Bizi qəbul etmək üçün vaxt ayırdığınıza və verdiyiniz dəstəyə görə Sizə «çox sağ olun!» deyirəm. Mən həm Sizə, həm də Azərbaycana gələcəkdə daha böyük uğurlar arzulayıram. Sağ olun.

Heydər Əliyev: Sağ olun.

Azərbaycan Respublikasının Baş Naziri İlham Əliyevin BMT Baş Məclisi 58 -ci sessiyasında çıxışı - 23 sentyabr 2003 -cü il

Əziz cənab sədr!

Xanımlar və cənablar!

Hər şeydən əvvəl, icazə verin, cənab Julian Robert Hanteni Baş Məclisin 58- ci sessiyasının sədri seçilməsi münasibətilə təbrik edim və cənab Yan Kavana 57-ci sessiya dövründəki sədrlik fəaliyyətinə görə minnətdarlığımı bildirim.

Cənab sədr, bu il BMT üçün çətin oldu. İraq ətrafındakı hadisələr beynəlxalq təhlükəsizlik sistemindəki kövrək məqamları büruzə verdi. Artıq birinci dəfə deyil ki, BMT - nin Təhlükəsizlik Şurası üzvlər arasındakı qarşılıqlı anlaşılmazlığa görə, bəyannamələrini tətbiq edə və müvafiq olaraq vəziyyətlə bağlı lazımi reaksiya göstərə bilmir.

Bu cür anlaşılmazlıqlar həm İraq ətrafında, həm də digər münaqişə və böhranlarla bağlı məsələlərdə Təhlükəsizlik Şurasının fəaliyyətinə mənfi təsir göstərməkdə davam edir. İndi artıq aydındır ki, mövcud BMT mexanizmləri zamanın tələbinə cavab vermir, bununla bağlı Birləşmiş Millətlər Təşkilatında islahatlar vacib məsələyə çevrilmişdir. Təhlükəsizlik Şurasının da islahatına ehtiyac vardır, orada da həm bu günün reallıqları, həm də yarıməsrlik reallıqlar öz əksini tapmalıdır.

Azərbaycan baş katib Kofi Annanın islahatlarla bağlı məlum təkliflərini, xüsusilə Təhlükəsizlik Şurası üzvlərinin genişlənməsi ideyasını dəstəkləyir. Biz BMT mexanizmlərinin yenidən işlənməsi, xüsusi ilə də veto hüququna yenidən baxılması kimi məsələlərdə Şuranın daimi üzvlərinin xoş məramına ümid edirik.

Biz ümid edirik ki, indi beynəlxalq icma öz səylərini birləşdirə bilib, birləşmiş və bölünməz İraqın bərpası və güclənməsi işinə yönəldəcəkdir və bütün İraq xalqının azad iradəsinə əsaslanmış demokratiya qurmağa yardımçı olacaqdır.

Bu prosesdə iştirak etməyə hazırlığını bildirən ölkəmiz artıq İraqın təhlükəsizliyi və sabitliyi işinə öz töhfəsini verməyə başlamışdır.

Bağdadda BMT nümayəndəliyinin iqamətgahına qarşı terror aktı bütün beynəlxalq icmanı lərzəyə gətirdi. Serjio De Mello və onun həmkarlarının ölümü həm təşkilat, həm də bizim hamımız üçün faciəvi itkidir.

Bağdadda baş verənlər terror qarşısında nə qədər aciz olduğumuzu bir daha göstərdi və bizə sübut etdi ki, terrorçular istənilən cür cinayətə hazırdırlar.

Burada yeganə cavab terror yolunu seçənlərə qarşı amansız, rəhmsiz savaş olmalıdır. Fərqi yoxdur, terrorçular bu terror aktlarını hansı məqsədlə həyata keçirirlər. Bu savaşda ayrı - seçkilik və ikili standartlara yer yoxdur.

Ermənistanın ölkəmizə qarşı başladığı təcavüzün, işğalın və terrorun qurbanına çevrilmiş Azərbaycan artıq illər boyudur ki, terrorizmə qarşı təkbaşına savaşır. Terrorizmə qarşı mübarizədə səyləri gücləndirmək barədə beynəlxalq icmaya çağırışlarımız cavabsız qaldı. Yalnız 2001-ci ilin 11 sentyabrından sonra həyəcan təbili çalındı.

Terrorizmi törədən səbəblərin, eləcə də, onun yayılması üçün münbit şərait yaradan amillərin kökü kəsilməsə, terrorizmə qarşı mübarizədə uğur heç vaxt mümkün olmayacaqdır. Digər tərəfdən, bütün dünyadakı, eləcə də Cənubi Qafqazdakı münaqişələri daimi terror praktikası və onun dövlət səviyyəsində dəstəklənməsi şəraitində həll etmək mümkün deyildir.

Biz yadda saxlamalıyıq ki, separatçı və ekstremist qüvvələrin yaradıb, inkişaf etdirdiyi terrorçu qruplar, adətən, qeyri - qanuni nəzarət ərazilərində, yəni separatçılıq və xarici təcavüz nəticəsində əmələ gəlmiş «boz zonalar» deyilən ərazilərdə fəaliyyət göstərirlər. Bu nəzarətsiz «boz zonalardan» biri Azərbaycan Respublikasının Ermənistan hərbi qüvvələri tərəfindən işğal olunmuş Dağlıq Qarabağ bölgəsi və digər əraziləridir. Terrora qarşı hərtərəfli mübarizə apararaq və münaqişələrin beynəlxalq hüquq normaları əsasında həllinə çalışaraq, beynəlxalq icma gücdən

qətiyyətlə istifadə etməlidir. Bu, ədalətli və qanunun aliliyini bərpa edə biləcək yeganə yoldur.

Azərbaycanın nümayəndə heyəti bu yüksək kürsüdən beynəlxalq icmanın diqqətini, davam edən Ermənistan - Azərbaycan münaqişəsinə dönə - dönə cəlb etmişdir. Təhlükəsizlik Şurasının 4 qətnamə qəbul etməsindən artıq 10 il keçir. Bu qətnamələr erməni işğalçı qüvvələrinin Azərbaycan ərazilərindən dərhal, tam və qeyd - şərtsiz çıxmasını tələb edir.

Bununla belə, Ermənistan bu qətnamələri saymamazlığı ilə beynəlxalq icmaya meydan oxuyur. BMT Təhlükəsizlik Şurası və ATƏT - in Minsk qrupu isə bununla bağlı heç bir adekvat qərar qəbul etmirlər.

Azərbaycan münaqişənin beynəlxalq hüquq normalarına və prinsiplərinə əsasən, sülh yolu ilə həllinə tərəfdar olduğunu dəfələrlə bildiribdir. Biz bu yöndə səylərimizi davam etdirməkdə israrlıyıq və beynəlxalq icmanın fəal iştirakına ümid edirik. Azərbaycan heç zaman « mövcud reallıqlar» əsasında həlli variantı ilə razılaşmayacaq və torpağın bir qarışını belə heç kimə verməyəcəkdir. Azərbaycanın səbri sonsuz deyil və heç kim bundan sui - istifadəyə cəhd etməsin. Məsələnin həll olunmasına görə məsuliyyət işğalçı Ermənistanın üzərinə düşür. İşğalın qurbanı olan Azərbaycanın üstünə yox. Beynəlxalq icmanın tutduğu passiv müşahidəçi mövqeyi yaranmış çıxılmaz vəziyyəti daha da gərginləşdirə bilər.

Ermənistan yalnız Azərbaycan ərazilərini tərk etdikdən və bununla da münaqişənin sülh yolu ilə həllinə əsas yarandıqdan sonra Azərbaycanla normal dövlətlər arası münasibətlərə və əməkdaşlığa ümid edə bilər. Bizim beynəlxalq hüquq qaydalarına əsaslanan konstruktiv təkliflərimizi rədd etməklə Ermənistan özünün əsl məqsədini - Azərbaycanın işğal olunmuş torpaqlarını öz ərazisinə qatmaq niyyətini nümayiş etdirir.

Ermənistanın rəhbərliyi təcavüzkar millətçilik, militarizm, separatizm və terrorizm ideologiyasını əsas tutmaqda davam edərək, öz xalqını ən dərin böhran uçurumuna sürüyür. Əraziləri genişləndirmək və ətrafda düşmən axtarmaq hisslərinin milli ideya kimi aşılandığı cəmiyyətdə heç vaxt demokratiya və plüralizm kök sala bilməz. Ermənistanda dərk etməlidirlər ki, belə getsə, ciddi daxili sosial və iqtisadi problemlərini daha da pisləşdirəcəkdir.

Təəssüf hissi ilə bildirirəm və bunu hamı anlamalıdır ki, beynəlxalq icmanın fəaliyyətsizliyi bu pozucu siyasəti davam etdirməkdə Ermənistanın özünə arxayınlığını gücləndirməyə xidmət edir. Həm ATƏT -in Minsk qrupu, həm də BMT - nin Təhlükəsizlik Şurası təcavüzkarın qarşısından geri çəkildilər və bununla öz fəaliyyətlərinin və niyyətlərinin ciddi surətdə davam etdirilməsini şübhə altına aldılar.

İşğalçının cəzalandırılması nəinki bütün beynəlxalq təhlükəsizlik sistemini, həm də beynəlxalq hüququn prinsipləri və normalarını ciddi surətdə şübhə altına almağa başlayır. Bu cür münasibət beynəlxalq icmaya bir çox hallarda baha başa gəlir.

Biz Təhlükəsizlik Şurasına müraciət edirik ki, yuxarıda sadalanan 4 qətnamə ilə bağlı lazımi tədbirlər görülməsini təmin etsin və gözləyirik ki, təmas xəttində, eləcə də, işğal olunmuş ərazilərdə cinayətkar və təcavüzkar əməllərə son qoyulacaq, işğalçı qüvvələr Azərbaycan ərazilərindən qeyd - şərtsiz, dərhal və tamamilə çıxarılacaqdır.

Cənab sədr!

Münaqişə təxminən 1 milyon azərbaycanlını evsiz - eşiksiz qoymuşdur. Aydındır ki, qarşıdan gələn qış qaçqın və köçkünlər üçün daha bir sınağa çevriləcəkdir. Onlardan yüz minlərlə nəfər hələ çadır düşərgələrində yaşamaqda davam edir. Azərbaycan hökuməti öz məhdud ehtiyatlarından istifadə edərək, onların əzablarını yüngülləşdirmək üçün əlindən gələni edir. Bu yaxınlarda Azərbaycan Respublikasının Prezidenti öz qərarı ilə qaçqın - köçkünlər üçün evlər tikilməsinə 70 milyon ABŞ dolarından artıq vəsait ayırmışdır.

Beynəlxalq icmanın yardımını yüksək qiymətləndirərək, biz eyni zamanda, yardımın azalmasından narahatlıq keçiririk. Biz BMT - nin müvafiq agentliklərini, donor ölkələri, qeyri - hökumət təşkilatlarını təkidlə inandırırıq ki, diqqətlərini Azərbaycanın öz torpaqlarından zorla qovulmuş insanların problemlərinə yönəltsinlər və onların ehtiyaclarına adekvat cavab versinlər. Problemin uzunmüddətli həllinə gəldikdə isə, əlbəttə ki, bunun əsasında Ermənistanla Azərbaycan

arasında münaqişənin aradan qaldırılması və qaçqın - köçkünlərin öz yerlərinə qayıtması durur.

Bu münaqişə Azərbaycanın iqtisadiyyatına ağır zərbə vurmuşdur. Bununla belə, daxili ehtiyatlarımızı səfərbər edərək, biz sosial - iqtisadi böhrana üstün gəlməyi, sabitlik və inkişaf yolu ilə irəliləməyi bacardıq. Azərbaycan Respublikasının Prezidenti zati - aliləri Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış və tətbiq olunmuş iqtisadi islahatlar və neft strategiyası artıq konkret nəticələrini verməyə başlamışdır. Bu islahatlar makroiqtisadi sabitliyə və yüksək iqtisadi göstəricilərə gətirib çıxarmışdır.

Bazar iqtisadiyyatına keçid və sahibkarlığın inkişaf etdirilməsi iqtisadiyyatda özəl sektorun payını 73 faizə çatdırdı. Ölkə əhalisinin sayı ilə müqayisədə, birbaşa xarici sərmayələrə dair rəqəmlər göstərir ki, Azərbaycan keçid iqtisadiyyatı ölkələri arasında liderdir. Orta hesabla illik iqtisadi artım 8-10 faiz təşkil edir.

Azərbaycanın təşəbbüsü ilə Xəzər dənizindəki karbohidrogen ehtiyatlarının işlədilməsini və dünya bazarına çıxarılmasını nəzərdə tutan genişmiqyaslı transregional layihələrin tətbiq olunması Şərq - Qərb dəhlizi boyunca yerləşmiş ölkələrin sosial - iqtisadi inkişafı üçün yeni imkanlar açır. Bu layihələr də tarixi İpək yolunun bərpa olunması üçün nəzərdə tutulur.

Cənab sədr, radikal siyasi islahatların həyata keçirilməsi və eləcə də, demokratik cəmiyyətin inkişaf etdirilməsinə münbit şərait yaratmış daxili siyasi sabitlik olmasaydı, bu tərəqqi mümkün olmazdı.

Bu günlər Azərbaycan demokratiyası növbəti yetkinlik və möhkəmlik sınağının ərəfəsindədir. Oktyabrın 15 - də Azərbaycan Respublikasında prezident seçkiləri keçiriləcəkdir. Ölkədə əsl azad və ədalətli seçki keçirilməsi üçün qanunverici baza mövcuddur. Bu yaxınlarda qəbul olunmuş ən yüksək beynəlxalq standartlara uyğundur. ATƏT, Avropa Şurası və digər beynəlxalq təşkilatları təmsil edən çoxsaylı müşahidəçilər və eləcə də yerli müşahidəçilər prezident seçkilərinin keçirilməsini izləyəcəklər.

Qlobal səviyyədə demokratiyanın qələbəsi, sosial tərəqqi və davamlı inkişaf yoxsulluq problemləri və iqtisadi göstəricilər üzrə müxtəlif ölkələr və regionlar arasındakı kəskin fərqlər həll olunmadan mümkün deyildir. Bununla bağlı minilliyin inkişaf məqsədləri adlanan proqramın həyata keçirilməsi xüsusi ilə vacib xarakter alır. Yoxsulluğa qarşı mübarizə üçün inkişaf etmiş ölkələr keçid dövrünün iqtisadiyyatını yaşayan ölkələrin problemlərinə daha çox fikir verməlidirlər. Təcrübə göstərir ki, çox zaman dardüşüncəli, yalnız öz maraqlarına xidmət edən məqsədlər üstün gəldikdə, danışıq prosesində irəliləyiş olmur. Azərbaycan inanır ki, çoxtərəfli ticarət sistemində tərəflərin tərkibi genişləndirilərsə, inkişaf etməkdə olan ölkələrə və keçid iqtisadiyyatını yaşayan ölkələrə beynəlxalq ticarət təşkilatında xüsusi, fərqli münasibət göstərilərsə, bunun qlobal inteqrasiyanın uğuruna böyük xeyri dəyər.

Biz qəti inanırıq ki, sivilizasiyalar və mədəniyyətlər arasında dialoqu inkişaf etdirmək vacibdir. Yalnız dialoq və xoş məram vasitəsilə biz inamsızlıq və qarşıdurmanı məğlub edəcək, ümumi təhlükələrə və çətinliklərə qarşı birləşib bir qüvvə kimi çıxış edə biləcəyik.

Sonda cənab sədr, icazə verin, Azərbaycanın güclü demokratik dövlət, bazar iqtisadiyyatı qurmaq siyasi xəttinə qəti sadiq olduğunu bir daha təkrar edim və bildirim ki, bizim əsl iradəmiz və arzumuz beynəlxalq sülh və təhlükəsizliyə səmərəli töhfə verməkdir.

Sağ olun!

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Prezident sarayında BMT Baş katibinin müavini və bu təşkilatın Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin icraçı direktoru Antonio Maria Kostanı qəbul etmişdir – 4 dekabr 2003-cü il

İlham Əliyev: Hörmətli cənab BMT Baş katibinin müavini!

Hörmətli qonaqlar, sizi Azərbaycanda salamlayıram. Xoş gəlmisiniz.

Bakıda narkotiklərə qarşı mübarizə üzrə toplantı keçirilmişdir. Mənə verilən məlumata görə, bu toplantı çox uğurlu olmuşdur. Mühüm məsələlər müzakirə olunmuşdur və əminəm ki, bu müzakirələr gələcək fəaliyyətimizə kömək edəcəkdir.

Bildiyiniz kimi, Azərbaycanda narkotiklərin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizə üçün xüsusi dövlət komissiyası təşkil olunmuşdur və milli proqram həyata keçirilir. Deyə bilərəm ki, son illər ərzində bu istiqamətdə böyük uğurlar qazanılmışdır. Narkomaniya ilə bağlı cinayətlərin sayı 1995-ci illə müqayisədə 25 faiz azalmışdır. Bu, onu göstərir ki, Azərbaycanda bu istiqamətdə işlər yaxşı təşkil olunmuşdur.

Amma narkomaniya və narkotik vasitələrin qeyri-qanuni dövriyyəsi ilə, ümumiyyətlə, müxtəlif cinayətlərlə bağlı mübarizə o vaxt tam mənada uğurlu sayıla bilər ki, nəzarətdən kənar olan bütün zonalarda beynəlxalq monitorinq keçirilsin. Ermənistan tərəfindən Azərbaycana qarşı aparılan işğalçı siyasət nəticəsində torpaqlarımızın 20 faizi zəbt edilmiş ərazilərdə tamamilə beynəlxalq nəzarətdən kənar olan hadisələr baş verir. Bizdə olan məlumata görə, bu nəzarətsiz zonada narkotik tərkibli bitkilər yetişdirilir və narkotik vasitələrin tranziti həyata keçirilir. Azərbaycan beynəlxalq təşkilatlarda dəfələrlə bu məsələ ilə bağlı öz mövqeyini bildirmişdir. Xüsusilə Avropa Şurasının iclaslarında bu məsələ kifayət qədər qaldırılmışdır və orada qəbul edilmiş sənədlərin bir çoxunda öz əksini tapmışdır. Bütün bunlara baxmayaraq, Ermənistanın qeyri-konstruktiv mövqeyi beynəlxalq auditə imkan yaratmır və o ərazidə tamamilə nəzarətsizlik hökm sürür. Ona görə də beynəlxalq monitorinq keçirilmir.

Bildiyimə görə, həmin məsələ bu günlərdə Bakıda keçirilmiş toplantıda da diqqət mərkəzində olmuşdur. Güman edirəm ki, siz bu məsələdə bizə kömək edəcəksiniz.

Bir daha qeyd etmək istəyirəm ki, Azərbaycan bundan sonra da narkomaniyaya və narkotiklərin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizəni davam etdirəcəkdir.

Antonio Maria Kosta: Cənab Prezident, bu gün Sizin tərəfinizdən qəbul olunmağımız məndən ötrü və həmkarlarım üçün, həqiqətən, böyük şərəfdir. Prezident seçilməyiniz münasibətilə Sizi təbrik etmək istəyirəm. Bu, həqiqətən, xalqın Sizə göstərdiyi böyük etimad, ümid və inamdır, eyni zamanda, Sizin də xalqınız qarşısında böyük məsuliyyətiniz deməkdir.

Məndə olan son məlumatlara görə, Sizin atanızın səhhətində müsbət dəyişikliklər vardır, o, sağalmağa doğru gedir. İstərdim ki, Sizin vasitənizlə ən xoş arzularımı və salamlarımı atanıza yetirim.

Cənab Prezident, yəqin ki, xatırlayırsınız, bir neçə ay bundan əvvəl, Siz hələ Baş nazir olarkən, biz Yaltada görüşmüşdük. Bu görüşdə mənim söhbətlərimin əsas mövzusu Əfqanıstanla bağlı idi. Bunun səbəblərindən biri o idi ki, Yalta görüşündə Mərkəzi Asiya respublikalarının prezidentləri iştirak edirdilər və Rusiyanın dövlət başçısı Vladimir Putin də bu məsələ ilə dərindən maraqlanırdı.

Əsas məsələ - Qafqazda işimizi necə qurmaq barədə fikir mübadiləsi aparmaqdan əvvəl qonaqpərvərliyə görə Sizə bir daha təşəkkürümü bildirmək istəyirəm. Baş nazirin müavini cənab Həsənov və Vyanadakı səfiriniz cənab Sadıqov bu işdə bizə yaxından kömək göstərmişlər. Azərbaycanın yüksək vəzifəli şəxsləri ilə bir sıra görüşlərimiz olmuşdur və onlar bizə öz fikirlərini bildirmişlər. Sizdən aldığımız məlumatlar bizə işimizi konstruktiv əsaslarda qurmağa imkan verir. Mənə həmişə narkotiklərlə, onların daşınması, cinayətkarlıqla, korrupsiya ilə bağlı müraciətlər daxil olur. Müraciət edənlər bizim məsləhətlərimizi, bir növ, həkim müayinəsi kimi qəbul edirlər.

Deyə bilərəm ki, son zamanlar olduğum yerlərlə müqayisədə, Azərbaycandakı vəziyyət qat-qat yaxşıdır. Bəli, həqiqətən, ölkə özünün çətin bir dövrünü yaşayır. Xüsusilə, müharibədən sonra terrorizmlə və ümumiyyətlə, cinayətkarlıqla bağlı problemlər mövcud idi.

Məmnunluq hissi ilə demək istəyirəm ki, ölkə artıq bu problemlərin öhdəsindən müvəffəqiyyətlə gəlmişdir. Azərbaycan terrora qarşı koalisiyaya qoşulmuşdur. Ölkənizin parlamentinin sədri mənə məlumat verdi ki, artıq bu sahədə BMT-nin bütün sənədlərinə imza atılıb və mühüm irəliləyişlər əldə olunmuşdur. Statistik məlumatlara görə müəyyən etmək olar ki, ölkəniz düzgün istiqamətlə irəliləyir. Həm narkotiklərin daşınması və istifadə olunması, həm də QİÇS xəstəliyinin yayılmasının qarşısının alınması baxımından sizdə göstəricilər çox qənaətbəxşdir. Bununla əlaqədar mən bütün ölkənizi və ilk növbədə, Sizi təbrik etmək istəyirəm.

Siz işğal olunmuş ərazilərdən bəhs etdiniz. İstəyirəm ki, mən bu barədə bir neçə kəlmə danışım. Bildiyiniz kimi, mənim mandatım regional münaqişələri həll etməkdən ibarət deyildir. Amma bizim nöqteyi-nəzərimizcə, işğal olunmuş ərazilər, həqiqətən, təşviş doğurur və burada baş verən hadisələri dərindən öyrənməyə ehtiyac vardır. Ölkənin suverenliyi ilə bağlı məsələlər artıq Birləşmiş Millətlər Təşkilatının qətnamələrində öz əksini tapmışdır və münaqişənin həll olunması üçün müvafiq danışıqlar da aparılır. Lakin işğal olunmuş ərazilərdə kriminal hadisələrin çox olması, orada narkotiklərin daşınması, həqiqətən, bizdə narahatlıq doğurur. Həmin ərazilərdə baş verə biləcək xoşagəlməz halların qarşısını almaqdan ötrü biz yalnız Azərbaycanın deyil, Ermənistanın da razılığını almaq istərdik ki, orada müvafiq baxış keçirək. Biz Afrika, Latın Amerikası ölkələrində əldə etdiyimiz təcrübəyə əsasən deyə bilərik ki, münaqişə olan yerlərdə nəzarət olunmayan ərazilər yaranır və burada mütəşəkkil cinayətkarlıq özünü çox rahat hiss edir.

İkinci mövzuya keçməzdən əvvəl mən ölkənizin neft sahəsində əldə etdiyi uğurlarla bağlı Sizi təbrik etmək istəyirəm. Bu inkişaf Sizə gələcəkdə Azərbaycanı firavan ölkəyə çevirmək imkanı verir. Əlbəttə ki, ölkə həmdə neft hasilatı və satışından böyük gəlir götürəcəkdir ki, bu da xalqınızın mənafeyinə xidmət edəcəkdir.

Toxunmaq istədiyim digər məsələ də vardır. Artıq təcrübədən bizə məlumdur ki, hər hansı bir ölkədə - Azərbaycan da istisna deyildir - müəyyən irəliləyişlər əldə olunmağa başladıqda, gözlənilməyən hadisələr baş verir. Ona görə də qazanılmış təcrübəyə əsaslanaraq biz həm Sizə, həm də hökumətinizə bu hadisələrin qarşısını almaq üçün qabaqlayıcı, preventiv tədbirlər təklif etmək istərdik.

İnanın ki, bizim təqdim edəcəyimiz tədbirlər daha sonra görüləcək tədbirlərdən ucuz başa gələcəkdir. Mən Əfqanıstanda olduğu kimi, yalnız narkotiklərlə əlaqədar tədbirləri deyil, eyni zamanda, geniş səpkidə olan məsələləri nəzərdə tuturam. Bu, ümumi cinayətkarlıq, ölkədə gedən sosial dəyişikliklərlə əlaqədar proseslər və digər məsələlərdən ibarətdir.

İlham Əliyev: Sağ olun. Mən bu təkliflə razıyam. Hesab edirəm ki, bu profilaktik tədbirlərin görülməsi istiqamətində biz birgə işləyəcəyik. Azərbaycan tərəfi öz üzərinə düşən vəzifələrin hamısını yerinə yetirəcəkdir. Şadam ki, Azərbaycanda cinayətkarlığa qarşı mübarizəyə verdiyiniz qiymət çox müsbətdir. Bu, bir daha göstərir ki, ölkəmizdə son 10 ildə aparılan siyasət bu sahədə də öz müsbət nəticələrini vermişdir. Hər hansı bir cinayətkarlığa qarşı mübarizə bir-iki il ərzində nəticə verə bilməz. Bunun üçün uzunmüddətli mübarizə aparılmalıdır. Azərbaycanda bu mübarizə aparılıb və bundan sonra da aparılacaqdır. Uğurlu mübarizənin əsas səbəblərindən biri, bəlkə də, başlıcası, Azərbaycanda son 10 il ərzində ictimai-siyasi vəziyyətin sabit olması, asayişin qorunmasıdır. Cinayətkarlığa qarşı ancaq bu şəraitdə uğurla mübarizə aparmaq mümkündür.

Eyni zamanda, mən çox şadam ki, işğal altında olan bölgələrdə vəziyyətlə tanışsınız. Yenə də qeyd etmək istəyirəm ki, biz bütün beynəlxalq forumlarda dəfələrlə bu məsələni kəskin şəkildə qoymuşuq. Təəssüflər olsun ki, ilk növbədə, Ermənistanın qeyri-konstruktiv mövqeyi hələ ki, bu istiqamətdə əməli addımların atılmasına imkan vermir.

Əlbəttə, Dağlıq Qarabağ və onun ətrafındakı digər işğal olunmuş rayonlar Azərbaycan ərazisidir. Amma bu ərazi indi başqa ölkənin nəzarəti altındadır. Ona görə də, hesab edirəm ki, beynəlxalq ictimaiyyətin, BMT-nin və digər beynəlxalq təşkilatların təzyiqi Ermənistanı vadar etməlidir ki,

bu nəzarətsiz əraziyə beynəlxalq auditorlar, müşahidəçilər buraxılsın, orada lazımi monitorinq aparılsın. Çünki bu nəzarətsiz ərazi bütün bölgə üçün təhlükə yaradır. Bizdə olan məlumata görə, orada müxtəlif terror düşərgələri də yaradılmışdır və beynəlxalq terror təşkilatları orada təlim keçirirlər.

Artıq heç kim üçün sirr deyildir ki, 4-5 il əvvəl Ermənistan Rusiyadan qeyri-qanuni şəkildə bir milyard dollar dəyərində silah-sursat almışdır. Təbii ki, Ermənistanın büdcəsində bu qədər pul yoxdur. Bu, o deməkdir ki, silaha verilən pullar qeyri-qanuni şəkildə qazanılıbdır. Bizdə olan məlumata görə, bu vəsait məhz narkotiklərin yetişdirilməsindən və daşınmasından əldə olunur və bu istiqamətə yönəldilir.Yəni bu o qədər ciddi məsələdir ki, bir cinayətin digər cinayətlərin təməlini qoymasına şərait yaradır. Ona görə də biz hökumət və dövlət olaraq bu sahədə mübarizəni davam etdirəcəyik. Əlbəttə, bu bəlaya birdəfəlik son qoymaq üçün beynəlxalq təşkilatların dəstəyi və birbaşa müdaxiləsi lazımdır.

Qəbulda Baş nazirin müavini Əli Həsənov, Prezidentin İcra Aparatının hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərov, BMT-nin Azərbaycandakı nümayəndəliyinin rezident əlaqələndiricisi Marko Borsotti, Azərbaycanın Avstriyadakı səfiri, BMT-nin Vyana şöbəsi yanında ölkəmizin daimi nümayəndəsi Vaqif Sadıqov iştirak edirdilər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin Qaçqınların İşi üzrə Ali Komissarlığının iqamətgahında bu qurumun rəhbəri Ruud Lubbers ilə görüşmüşdür – 11 dekabr 2003-cü il

Azərbaycan Prezidenti İlham Əliyev Cenevrədə, BMT-nin Qaçqınların İşi üzrə Ali Komissarlığının iqamətgahında bu qurumun rəhbəri Ruud Lubbers ilə görüşmüşdür.

Prezident İlham Əliyevi dövlət başçısı seçilməsi münasibətilə təbrik edən cənab Lubbers bu görüşə vaxt ayırdığına, habelə Azərbaycanın Ali Komissarlıqla səmərəli əməkdaşlığına görə minnətdarlığını bildirdi. O dedi ki, Azərbaycanda Dağlıq Qarabağdan, ətraf rayonlardan məcburi köçkünlər və Ermənistandan gəlmiş qaçqınlar vardır. Azərbaycan dini və etnik baxımdan o qədər dözümlü ölkədir ki, hətta Məshəti türkləri, çeçen qaçqınlar da buraya pənah gətirmişlər. Ali Komissar bu insanlara qayğı göstərdiyinə görə Azərbaycan hökumətinə minnətdarlıq etdi.

Prezident İlham Əliyev Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində yurd-yuvasından didərgin düşmüş bir milyondan artıq soydaşımızın ağır vəziyyəti, onların yaşayışının yüngülləşdirilməsi üçün hökumətin gördüyü tədbirlər haqqında ali komissara ətraflı məlumat verdi.

Dövlətimizin başçısı bildirdi ki, respublikamızda Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi fəaliyyət göstərir. Azərbaycan hökuməti son dövrdə qaçqın-köçkünlərdən ötrü evlər tikilməsi üçün 70 milyon dollardan artıq vəsait ayırmışdır.

Həmin evlər su və elektrik enerjisi ilə təchiz olunmuşdur. Prezident İlham Əliyev bu işin gələcəkdə də davam etdiriləcəyini bildirərək dedi ki, çünki hələ də çadırlarda, yataqxanalarda məskunlaşmış qaçqın-köçkünlər vardır.

Azərbaycan Prezidenti vurğuladı ki, bu, problemin bir tərəfidir. Bizim əsas məqsədimiz Ermənistan silahlı qüvvələrinin işğal edilmiş ərazilərdən tamamilə çıxarılmasına nail olmaqdır. Dövlətimizin başçısı xatırlatdı ki, münaqişənin həlli ilə bağlı Azərbaycan və Ermənistan prezidentləri 20-dək birbaşa görüşlər keçirmişlər. Bir neçə saat əvvəl də Ermənistan Prezidenti ilə görüşümüz olmuşdur.

Prezident İlham Əliyev bildirdi ki, işğal qüvvələrinin Azərbaycan torpaqlarından çıxarılması barədə BMT-nin 4 qətnaməsi var, Avropa Şurasının rəsmi sənədində Ermənistan işğalçı dövlət kimi göstərilmişdir. Lakin Ermənistanın qeyri-konstruktiv mövqe tutması münaqişənin həllinə mane olur.

Dövlətimizin başçısı son vaxtlar donorların Azərbaycandakı qaçqın-köçkünlərə yardımı azaltmasını vurğulayaraq, BMT-nin Qaçqınların İşi üzrə Ali Komissarlığının bu sahədə ölkəmizə kömək göstərməsinin zəruriliyini bildirdi.

Söhbət zamanı regionda gedən proseslər, Gürcüstandakı son hadisələr haqqında da geniş fikir mübadiləsi aparıldı. Ali komissar Azərbaycanın qonşu dövlətlərlə münasibətləri ilə də maraqlandı. Prezident İlham Əliyev ona bu barədə ətraflı məlumat verdi.

Cənab Ruud Lubbers Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tezliklə aradan qaldırılması sahəsində səylərin artırılmasının, tərəflərin bu problemi danışıqlar vasitəsilə tezliklə həll etməsinin vacibliyini bildirdi. O, qaçqınların və məcburi köçkünlərin tezliklə doğma yurdlarına qayıdacağına ümidvar olduğunu söylədi. Eyni zamanda dedi ki, onun rəhbərlik etdiyi qurum Azərbaycanda qaçqınlara və məcburi köçkünlərə kömək göstərilməsi sahəsində daha intensiv işləyəcəkdir.

Ali komissar dedi ki, biz yanvar ayının axırlarında Bakıda konfrans keçirməyi planlaşdırırıq. Konfransda qaçqın-köçkünlər yerlərinə qayıtdıqdan sonra görüləcək işlər haqqında müzakirələr aparılacaqdır. Eyni zamanda, bu insanların yoxsulluq səviyyəsində yaşayan hissəsinin problemlərinə xüsusi diqqət yetirmək nəzərdə tutulur.

Prezident İlham Əliyev bu təşəbbüsü bəyənərək bildirdi ki, konfransın keçirilməsi üçün Azərbaycanda hər cür şərait yaradılacaqdır.

Görüş başa çatdıqdan sonra Prezident İlham Əliyev və ali komissar Ruud Lubbers jurnalistlərin suallarına cavab verdilər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin Cenevrə bölməsinin baş direktoru ilə görüşmüşdür – 12 dekabr 2003-cü il

İnformasiya Cəmiyyəti üzrə Dünya Sammitində iştirak etmək üçün Cenevrədə səfərdə olan Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Millətlər Sarayına gəldilər. Sarayın qarşısında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul düzülmüşdü.

Birləşmiş Millətlər Təşkilatının Cenevrə bölməsinin baş direktoru Sergey Orconikidze Prezident İlham Əliyevi sarayın önündə böyük hörmətlə qarşıladı.

Sonra Prezident İlham Əliyev ilə BMT-nin Cenevrə bölməsinin baş direktoru Sergey Orconikidze arasında görüş oldu. Sergey Orconikidze vurğuladı ki, bu, Azərbaycan Respublikası Prezidentinin BMT-nin Cenevrə bölməsinə ilk gəlişidir və BMT ilə Azərbaycan arasında əlaqələrin daha da intensivləşməsinə xidmət edəcəkdir.

BMT-nin Cenevrə bölməsinin baş direktoru bildirdi ki, bölmənin yerləşdiyi bina ötən əsrin 30-cu illərində Millətlər Cəmiyyətinə məxsus olmuşdur.

Dövlətimizin başçısı ona və nümayəndə heyətinin üzvlərinə göstərilən yüksək qonaqpərvərliyə görə təşəkkür etdi. Prezident İlham Əliyev Dünya Sammitində iştirak etdiyini, BMT-nin baş katibi Kofi Annanla, bir sıra dövlət və hökumət başçıları ilə faydalı görüşlər keçirdiyini xatırlatdı, Cenevrəyə səfərinin faydalı və yaddaqalan olduğunu söylədi.

Azərbaycan Prezidenti İlham Əliyev BMT-nin baş katibi Kofi Annanın ölkəmizdə aparılan islahatları dəstəklədiyini bildirdi və qeyd etdi ki, Azərbaycan BMT Təhlükəsizlik Şurasında baş verəcək dəyişiklikləri müsbət qarşılayır. Dövlətimizin başçısı İnformasiya Cəmiyyəti üzrə Dünya Sammitində inkişaf edən ölkələr üçün İnternet şəbəkəsinin təkmilləşdirilməsi ilə bağlı fond yaradılması təklifini də dəstəklədiyini söylədi. O, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problemini önə çəkərək dekabrın 11-də Ermənistan Prezidenti Robert Koçaryan ilə görüşdüyünü bildirdi və ATƏT-in Minsk qrupunun fəaliyyətinin hələ də heç bir nəticə vermədiyini diqqətə çatdırdı.

Sergey Orconikidze təəssüflə qeyd etdi ki, İkinci Dünya müharibəsindən sonra münaqişələr daha da artmışdır. O, Dağlıq Qarabağ problemi və qaçqınların vəziyyətinin yaxşılaşdırılması ilə əlaqədar BMT-nin baş katibi Kofi Annanla və BMT-nin qaçqınların işi üzrə ali komissarı Ruud Lubberslə söhbət edəcəyini bildirdi.

BMT-nin Cenevrə bölməsinin baş direktoru terrorizmə və narkotiklərin daşınmasına qarşı mübarizədə Azərbaycana hər cür yardım etməyə hazır olduqlarını da qeyd etdi.

Dövlətimizin başçısı beynəlxalq terrorizmə qarşı mübarizədə Azərbaycanın fəal və birmənalı mövqe tutduğunu xüsusi vurğulayaraq dedi ki, BMT və digər nüfuzlu təşkilatlar Azərbaycanın yerləşdiyi regionda da terrorizmlə mübarizəni gücləndirməlidirlər. Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan BMT ilə sıx əməkdaşlıq edir və bütün dünyada, o cümlədən regionumuzda sülhün və təhlükəsizliyin təmin olunması naminə bu əməkdaşlığı gələcəkdə də davam etdirəcəkdir.

Azərbaycan Prezidenti İlham Əliyev təəssüflə qeyd etdi ki, ölkəmizin ərazisinin İranla 143 kilometrlik sərhədi Ermənistan tərəfindən zəbt olunmuş və bu ərazi nəzarətsiz zona hesab olunur.

BMT-nin Cenevrə bölməsinin baş direktoru Sergey Orconikidze Prezident İlham Əliyevin uğurlarını məmnunluqla izlədiyini bildirərək dedi ki, müasir dünyada gedən proseslərə dərindən bələd olan liderlərin keçmiş sovet respublikalarında hakimiyyətə gəlməsi böyük rəğbət hissi doğurur.

Görüşdə bir sıra digər məsələlər ətrafında da geniş fikir mübadiləsi aparıldı.

Sonda Sergey Orconikidze Azərbaycan Prezidenti İlham Əliyevə dünya xalqlarının mədəniyyət incilərini əks etdirən foto-albom, BMT-nin Cenevrə bölməsi barədə məlumat kitabı və BMT-nin fəaliyyəti ilə bağlı markalar kolleksiyası hədiyyə etdi.

Azərbaycan Prezidenti İlham Əliyev BMT-nin Cenevrə bölməsinin xatirə kitabına ürək

sözlərini yazdı.

Görüşdən sonra Sergey Orconikidze və BMT-nin Cenevrə bölməsinin məsul əməkdaşları Prezident İlham Əliyevi Millətlər Sarayının nəhəng inzibati binası, o cümlədən iclas salonları, görüşlər keçirilən otaqları ilə tanış etdilər.

Daha sonra BMT-nin Cenevrə bölməsinə Azərbaycan Respublikası adından hədiyyə edilən rəsm əsərinin təqdimat mərasimi oldu.

Sergey Orconikidze çıxış edərək, Azərbaycan Respublikası Prezidentinin BMT-nin Cenevrə bölməsinə ilk gəlişini əlamətdar hadisə kimi qiymətləndirdi. O, BMT-nin fəaliyyətinə Azərbaycanın verdiyi töhfəyə görə təşəkkürünü bildirdi və bu sahədə əməkdaşlığın gələcəkdə də davam edəcəyinə ümidvar olduğunu söylədi. Baş direktor Azərbaycan Respublikasının Cenevrə bölməsinə hədiyyəsinə görə də minnətdarlığını bildirdi.

Prezident İlham Əliyev BMT-nin Cenevrə bölməsinə gəlməsindən məmnun olduğunu vurğuladı. Dövlətimizin başçısı xatırlatdı ki, Azərbaycan xalqının qədim və zəngin mədəniyyəti var, dövlət müstəqilliyi qazandıqdan sonra ölkəmiz siyasi və iqtisadi baxımdan sürətlə inkişaf edir, regionda çox mühüm rol oynayır. Ölkəmiz bundan sonra da təkcə regionumuzda deyil, bütün dünyada, o cümlədən Avropada öz layiqli yerini tutmağa və mühüm rol oynamağa çalışacaqdır.

Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan Avropaya, ümumən dünyaya inteqrasiyasını gücləndirmək niyyətindədir. Bu baxımdan İnformasiya Cəmiyyəti üzrə Dünya Sammitində respublikamızın layiqincə təmsil olunması çox əlamətdar bir hadisə kimi qiymətləndirilməlidir. Azərbaycan informasiya-kommunikasiya texnologiyaları sahəsində mühüm uğurlar əldə etmişdir və gələcəkdə daha böyük inkişafa nail olacaqdır.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev Bakının mənzərəsi təsvir olunmuş tablonun üzərindəki ağ örtüyü götürdü.

Təqdimat mərasimindən sonra BMT-nin Cenevrə bölməsinin baş direktoru Sergey Orconikidzenin adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə rəsmi nahar təşkil olundu.

Azərbaycan Prezidentinin xanımı Mehriban Əliyeva, respublikamızın xarici işlər naziri Vilayət Quliyev və digər rəsmi şəxslər naharda iştirak edirdilər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xanımı Mehriban Əliyevaya YUNESKO-nun xoşməramlı səfiri fəxri adının verilməsi mərasimi. YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın çıxışı – 9 sentyabr 2004-cü il

Hörmətli cənab Baş direktor!

Hörmətli xanımlar və cənablar!

İcazə verin, Xoşməramlı səfir kimi yüksək ada layiq görüldüyümə görə YUNESKO-ya və cənab Matsuura, şəxsən Sizə, öz dərin minnətdarlığımı bildirim.

YUNESKO-nun əsas prinsiplərindən biri dünya mədəniyyətinin nadirliyini gələcək nəsillər üçün qoruyub saxlamaqdan ibarətdir. Mən də öz fəaliyyətimdə bu prinsipi əsas tuturam. Ona görə mənə bu yüksək adın verilməsi mənim üçün həm böyük şərəf, həm də böyük məsuliyyətdir. Bu, mədəniyyətlər və sivilizasiyalar arasında, keçmişlə bu gün arasında əlaqə yaratmaq məsuliyyətidir.

Azərbaycanı çox vaxt Qərblə Şərq arasında körpü adlandırırlar. Bu, hələ tarixi Böyük İpək yolu dövründən ölkəmizin əlverişli coğrafi-siyasi mövqeyə malik olması ilə bağlıdır. Azərbaycan özünün çoxəsrlik tarixi boyunca təkcə nəqliyyat dəhlizi kimi deyil, həm də mədəniyyətlərin dialoqunda öz sözünü deməyə qadir olan bir ölkə kimi tanınır. Mən fəxr edirəm ki, ölkəmizdə tamamilə bənzərsiz bir mədəni məkan yaranmışdır. Biz öz mədəniyyətimizin, adət-ənənələrimizin, tarixi irsimizin təkrarolunmaz incilərini qoruyub saxlayaraq, dünya mədəniyyətinin nümunələrini qəbul edə bilmişik. Bu gün biz müxtəlif xalqların mədəniyyət elementləri ilə milli mədəniyyətimizin tərkib hissəsi arasında oxşarlığın şahidi oluruq. Bu isə heç də təsadüfi deyildir. Belə ki, bu proseslərin arxasında öz tolerantlığı, xeyirxahlığı, öyrənib-öyrətmək bacarığı ilə seçilən və mədəniyyətlər arasında körpülər yaradan azərbaycanlıların neçə-neçə nəsli durur.

Azərbaycan Üzeyir Hacıbəyov, Qara Qarayev, Səttar Bəhlulzadə, Mstislav Rostropoviç kimi dünya şöhrətli mədəniyyət xadimlərinin vətənidir. Bu cür şəxsiyyətlərin yetişməsi üçün şərait yarada bilmiş xalqımız, həqiqətən də, böyük xalqdır.

Öz milli mənliyimizi, mədəniyyətimizi qoruyub saxlamaqla yanaşı, biz dünya mədəniyyəti xəzinəsinə 1300 illiyi YUNESKO çərçivəsində qeyd olunmuş « Kitabi-Dədə Qorqud» eposu, şifahi və qeyri-maddi irs inciləri siyahısına daxil edilmiş Azərbaycan muğamı kimi töhfələr verə bilmişik. Bu gün, yüksək texnologiyalar, qloballaşma və informasiya inteqrasiyası dövründə qeyri-maddi irsin qorunub saxlanılması xüsusi əhəmiyyət kəsb edir. Bütün bəşəriyyət qeyri-maddi irsin qorunmasında çox maraqlıdır. Bu məsələdə YUNESKO-nun rolu, şübhəsiz ki, çox böyükdür.

Yeri gəlmişkən, mən YUNESKO tərəfindən qeyri-maddi irsin qorunması haqqında Konvensiyanın qəbul edilməsində cənab Matsuuranın böyük xidmətini vurğulamaq istərdim.

Muğam da, aşıq yaradıcılığı da, milli musiqi alətlərimizin bənzərsiz melodiyaları da Azərbaycan xalqının bu günə qədər qoruyub saxladığı və gələcək gün naminə qorumağa borclu olduğumuz irsin yalnız bir hissəsidir. Azərbaycan Mədəniyyətinin Dostları Fondunun fəaliyyəti məhz bu məqsədə xidmət edir. Xoşməramlı səfir kimi mənim bütün gələcək fəaliyyətim də bu məqsədə xidmət edəcəkdir.

Azərbaycan xalqı öz yaddaşını, dilini, musiqisini, eposlar yaratmaq bacarığını bir çox nəsillər boyu yaşada bilmişdir. Bu gün Azərbaycan mədəniyyətinin və incəsənətinin dəyərli nümunələri bütün bəşəriyyətin sərvəti hesab olunur. Mənə bu gün verilən fəxri adı, hər şeydən əvvəl, YUNESKO-nun prinsiplərinə sadiq olmağımın ifadəsi kimi qəbul edirəm. Sizi əmin etmək istəyirəm ki, bu yüksək mükafat məni və başçılıq etdiyim Azərbaycan Mədəniyyətinin Dostları Fondunu mədəni irsimizin qorunması naminə daha böyük səylə çalışmağa sövq edəcəkdir.

Fəaliyyətimə verilmiş bu yüksək qiymətə görə bir daha təşəkkürümü bildirirəm.

Diqqətinizə görə sağ olun.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xanımı Mehriban Əliyevaya YUNESKO-nun xoşməramlı səfiri fəxri adının verilməsi mərasimindəki nitqi – 9 sentyabr 2004-cü il

Azərbaycan Prezidenti İlham Əliyevin Fransaya işgüzar səfəri çərçivəsində sentyabrın 9-da Parisdə - YUNESKO-nun iqamətgahında dövlətimizin başçısının xanımı Mehriban Əliyevaya BMT-nin bu ixtisaslaşmış təşkilatının Xoşməramlı səfiri adı verilməsinə həsr olunmuş mərasim keçirilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı iqamətgahın önündə YUNESKO-nun Baş direktoru Koişiro Matsuura, Xoşməramlı Səfirlər Proqramının rəhbəri xanım Bəsma İrşeid və digər rəsmi şəxslər böyük səmimiyyətlə qarşıladılar.

Mərasimdə YUNESKO-nun Baş direktoru Koişiro Matsuura çıxış etdi.

Sonra Azərbaycan Prezidentinin xanımı, YUNESKO-nun Xoşməramlı səfiri Mehriban Əliyevaya söz verildi.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə çıxış etdi.

Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Hörmətli cənab Baş direktor!

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Bu gün Azərbaycanın mədəni həyatında çox mühüm bir gündür. Ölkəmizin nümayəndəsi YUNESKO-nun Xoşməramlı səfiri adına layiq görülür. Bu, çox əlamətdar bir hadisədir. Çünki bu, mədəni əlaqələrimizin möhkəmlənməsi deməkdir.

Azərbaycan və YUNESKO-nun əməkdaşlığının uzun tarixi vardır. Biz Baş direktorun ölkəmizə səfərini xatırlayırıq. Onun apardığı müzakirələr çox əhəmiyyətli olmuşdur. İndi biz birgə layihələr, proqramlar həyata keçiririk ki, Azərbaycan xalqının mədəni və tarixi irsini qoruyub saxlayaq və təbliğ edək.

Azərbaycanın çox qədim tarixi və zəngin mədəni irsi var. Ölkəmiz dünya mədəniyyətinə çoxlu töhfələr vermişdir. Eyni zamanda, dünya mədəniyyətinin nümunələri də Azərbaycanda geniş təmsil olunmuşdur. YUNESKO ilə qarşılıqlı əməkdaşlıq gələcəkdə bizim daha da yaxınlaşmağımıza kömək edəcəkdir.

Azərbaycan beynəlxalq aləmin bir hissəsi, müstəqilliyini nisbətən yeni qazanmış ölkədir. Əlbəttə, ölkəmizin beynəlxalq birliyə tam inteqrasiyası üçün hələ çox iş görülməlidir. Biz bu istiqamətdə fəal iş aparırıq. Avropa ölkələri ilə ümumən beynəlxalq qurumlarla həm siyasi, həm iqtisadi, həm də sosial səviyyədə geniş əlaqələrimiz vardır.

Şübhəsiz ki, biz mədəni əməkdaşlıq sahəsində daha çox uğur əldə etməyi də arzulayırıq. Mən əminəm ki, xanım Mehriban Əliyevanın YUNESKO-nun Xoşməramlı səfiri təyin olunması bu sahədə bizə yardım edəcəkdir. Mehriban xanımın on ilə yaxın bir müddətdə rəhbərlik etdiyi fond mədəniyyətin inkişaf etdirilməsi, mədəni irsin qorunması, xalqımızın ənənələrinin yaşadılmasında mühüm rol oynamışdır. Onun təsis etdiyi jurnal, fondun həyata keçirdiyi müxtəlif layihə və proqramlar ölkəmizdə mədəniyyət və incəsənətin ümumi inkişafına müsbət təsirini göstərir. Əminəm ki, bu təyinatdan sonra həm Mehriban xanımın, həm də fondun fəaliyyəti beynəlxalq miqyasda daha çox nəzərə çarpacaqdır.

Bu gün mənim üçün ikiqat əlamətdardır. Çünki bu, yalnız Azərbaycan nümayəndəsinin YUNESKO-nun Xoşməramlı səfiri adına layiq görülməsi deyil, həm də mənim xanımımın təltif olunmasıdır. Çox şadam ki, onun fəaliyyəti bu cür yüksək qiymətləndirilir və tanınır. Elə bilirəm ki, o, Xoşməramlı səfir adını daşımağa layiqdir. Çünki o, həmişə insanlara xoş münasibəti, xoş niyyəti ilə seçilibdir. Bu, onun xasiyyətinin fərqləndirici cəhətidir. Əminəm ki, bu yeni işdə

də fəal çalışacaq və fəaliyyəti ilə ümumi məqsədlərimizə töhfəsini əsirgəməyəcəkdir. Ümumi məqsədlərimiz isə bir-birimizi daha yaxından tanımaq, insanları, mədəniyyətləri tanıtmaq, müxtəlif xalqların və ölkələrin mədəniyyətlərindən bəhrələnməkdir.

Əminəm ki, Mehriban xanım bu vəzifəni səylə yerinə yetirəcək və bu vacib işdə uğurlar qazanacaqdır.

Bu fəxri adın verilməsinə görə YUNESKO-ya bir daha minnətdarlığımı bildirir, yeni səfiri təbrik edir və ona uğurlar arzulayıram.

Rəsmi hissədən sonra Mehriban xanım Əliyevaya Xoşməramlı səfir fəxri adı verilməsi münasibətilə qəbul təşkil edildi.

Daha sonra mərasim iştirakçıları Mehriban Əliyevanın fəaliyyətinə həsr olunmuş jurnalla, habelə xalqımızın adət və ənənələri, məişəti barədə məlumatları əks etdirən guşə ilə tanış oldular.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin Baş katibi Kofi Annan ilə görüşmüşdür – 24 sentyabr 2004-cü il

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 24-də Birləşmiş Millətlər Təşkilatının iqamətgahında BMT-nin Baş katibi Kofi Annan ilə görüşmüşdür.

Səmimilik şəraitində keçən görüşdə Azərbaycan ilə BMT arasında əlaqələrə dair fikir mübadiləsi aparılmışdır.

Prezident İlham Əliyev Azərbaycanda sosial-iqtisadi inkişaf sahəsində görülən işlərdən danışmış, eyni zamanda, xüsusi vurğulamışdır ki, uzun illərdən bəri davam edən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəinki ölkəmizin, ümumən Cənubi Qafqazın inkişafına əngəl törədir, regionda sülh və sabitlik üçün başlıca təhlükə olaraq qalır.

Azərbaycanın problemi sülh yolu ilə həll etmək istədiyini bildirən Prezident İlham Əliyev bu işdə BMT-nin rolunun artırılmasının vacibliyini nəzərə çarpdıraraq demişdir ki, təcavüzkar Ermənistan bu münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinə məhəl qoymur. Hesab edirik ki, BMT kimi nüfuzlu beynəlxalq təşkilat qəbul etdiyi qətnamələrin yerinə yetirilməməsinə biganə qalmamalıdır. Azərbaycan isə torpaqlarının işğalı ilə heç vaxt barışmayacaqdır.

Ermənistanın hərbi təcavüzü nəticəsində yurd-yuvasından didərgin düşmüş bir milyondan çox insanın problemlərini həll etməyin Azərbaycan üçün ağır yük olduğunu xatırladan dövlətimizin başçısı BMT-nin əlaqədar təsisatlarının, donor ölkələrin bu məsələyə diqqətinin artırılmasının zəruriliyini vurğulamışdır.

Cənab Kofi Annan dövlətlərin BMT tərəfindən tanınmış sərhədlərinin dəyişməz olduğunu bildirmiş, Dağlıq Qarabağ münaqişəsinin danışıqlar yolu ilə həll ediləcəyinə ümid bəslədiyini söyləmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin BMT Baş Məclisi 59-cu sessiyasında çıxışı – 25 sentyabr 2004-cü il

Hörmətli cənab Sədr,

Xanımlar və cənablar,

Əvvəlki natiqlərə qoşularaq, cənab Jan Penqi BMT Baş Məclisi 59-cu sessiyasının sədri vəzifəsinə seçilməsi münasibətilə təbrik edirəm. Mən həmçinin onun sələfi cənab Julian Robert Hanteyə 58-ci sessiyaya sədrliyi dövründə Məclisi nümunəvi idarə etməsi münasibətilə təbriklərimi çatdırmaq istərdim.

Cənab Sədr,

Üzv dövlətlər Minilliyin Zirvə Toplantısında özlərinin qlobal həmrəyliyə və ümumi təhlükəsizliyə şərikli baxışlarına sadiqliyini ifadə etmişlər. Biz daha sülhsevər, təhlükəsiz və ədalətli dünya üçün çox zəruri olan BMT və onun Nizamnaməsinə inamımızı bir daha təsdiqləmişdik.

Yeni əsrə qədəm qoyan zaman bütün dövlətlərin lazım olan anda bu təşkilata güvənməsi və öz növbəsində, BMT-nin dünyanın ondan gözlədiyini həyata keçirməsi məqsədi ilə beynəlxalq hüququn ümdə vacibliyini təmin etmək üçün əlimizdən gələni etmişik.

Fəaliyyətimizin bir qismi qəddar silahlı münaqişələrin qurbanlarına çevrilmiş milyonlarla günahsız insanların, xüsusilə qadın və uşaqların müdafiə edilməsi məqsədini daşıyır. Fəaliyyətimizin digər qismi isə, bütün dövlətlərin doğru rəqabəti üçün bərabər imkanları təmin edən daha ədalətli dünya iqtisadiyyatının qurulmasına yönəlmişdir.

Azərbaycan qlobal və regional təhlükəsizliyin möhkəmləndirilməsi işinə öz töhfəsini verməkdədir.

Ölkəmiz beynəlxalq terrorizmə qarşı qlobal koalisiyanın fəal üzvlərindən biri olaraq, günahsız insanlara ölüm və məşəqqət gətirməkdə davam edən bəlanın qarşısını almaq məqsədi ilə həm ikitərəfli, həm də çoxtərəfli çərçivədə etibarlı əməkdaşlıq həyata keçirir.

Azərbaycan öz ərazisində mövcud olan silahlı münaqişələrin nəticələrindən birbaşa əziyyət çəkən ölkələrdəndir.

Əslində, bu münaqişələr bir-birinə bağlıdır və bizim bu münaqişələri birgə əməkdaşlıq əsasında kompleks şəkildə aradan qaldırmaqdan başqa yolumuz yoxdur.Bu işdə heç bir «ikili standart»lara yol vermək olmaz.

Cənab Sədr,

Azərbaycan BMT-yə üzv olduğu ilk günlərdən daim beynəlxalq birliyin diqqətini Dağlıq Qarabağ ilə bağlı Ermənistan-Azərbaycan münaqişəsi və Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğal olunması məsələsinə yönəltmişdir. Ölkəmiz BMT-dən təcavüzkarı işğal olunmuş torpaqlardan geri çəkilməyə məcbur edəcəyini və beləliklə, öz yurdlarından qovulmuş Azərbaycan vətəndaşlarının daimi yaşayış yerlərinə qayıtması üçün imkan yaradılacağını gözləyirdi.

Suveren Azərbaycanın ərazilərinin Ermənistan tərəfindən işğalına cavab olaraq, BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə 822, 853, 874, 884 nömrəli 4 qətnaməni yekdilliklə qəbul etdiyini bir daha yada salmaq istərdim. Bu qətnamələr Dağlıq Qarabağ bölgəsinin Azərbaycanın tərkib hissəsi olmasını təsdiqləmiş və Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə, beynəlxalq birlik tərəfindən tanınmış sərhədlərinə hörmət edilməsinə qəti şəkildə çağırmış və ərazilərin əldə edilməsi məqsədi ilə güc işlədilməsinin yolverilməz olduğunu vurğulamışdır. BMT qətnamələri Azərbaycanın zəbt olunmuş ərazilərindən bütün işğalçı qüvvələrin dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını və köçkün düşmüş insanların daimi yaşayış yerlərinə təhlükəsiz qayıtması üçün şəraitin təmin olunmasını tələb etmişdir. Sülhün, ədalətin, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsinə çağıran qətnamələrin heç biri münaqişənin həlli üçün əsas təşkil edən beynəlxalq hüququn fundamental prinsiplərini heç zaman tanımayan və onlara hörmət etməyən Ermənistan tərəfindən yerinə yetirilməmişdir. Azərbaycan ərazisinin 20 faizini təşkil edən Dağlıq Qarabağ və Azərbaycanın 7 digər rayonu on ildən artıqdır ki, Ermənistan tərəfindən

işğal olunmuşdur. Ermənistan tərəfindən həyata keçirilən etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Cənab Sədr, Təhlükəsizlik Şurasının biganəliyi münaqişənin həlli prosesinə dağıdıcı təsir göstərir. Qətnamələrə məhəl qoymayan, hərbi təcavüzünün nəticələrini möhkəmləndirməyə çalışan və bu hərəkətlərinə görə cəzasız qalan Ermənistan nəticə etibarilə işğal olunmuş Azərbaycan ərazilərində Ermənistan əhalisinin kütləvi şəkildə qeyri-qanuni məskunlaşdırılması kimi qəddar siyasət həyata keçirmişdir ki, bu da beynəlxalq hüququn, xüsusilə Müharibə Zamanı Mülki Şəxslərin Müdafiəsi üzrə 1949-cu ildə qəbul edilmiş 4-cü Cenevrə Konvensiyasının müddəalarının açıq şəkildə növbəti pozulmasıdır.

Bundan əlavə, həmin ərazilərdən narkotik maddələrin qeyri-qanuni dövriyyəsi, silah ötürülməsi, qeyri-qanuni iqtisadi fəaliyyət, qaçaqmalçılıq məqsədi ilə istifadə edilməsi, bu ərazilərin terrorçu yuvasına çevrilməsi vəziyyəti daha da gərginləşdirir.

İşğal olunmuş Azərbaycan torpaqları Azərbaycan hökumətinin nəzarətindən kənarda qalan «boz əraziyə» və beynəlxalq monitorinqdən azad bir əraziyə çevrilmişdir.

Özü-özünü elan etmiş və heç kim tərəfindən tanınmayan qondarma «Dağlıq Qarabağ Respublikası» bölgədə sülh və təhlükəsizlik üçün daimi təhlükə mənbəyidir.

Təcavüzkar Ermənistan və Dağlıq Qarabağ separatçıları xarici şirkətləri də qeyri-qanuni biznesə cəlb etməyə çalışaraq, işğal olunmuş Azərbaycan ərazilərində təbii sərvətləri də istismar edirlər. Mən üzv dövlətləri öz vətəndaşlarını və şirkətlərini beynəlxalq hüquq normalarına hörmət bəsləməyə məcbur etməyə və onların ölkəmizin ərazisində qeyri-qanuni fəaliyyət göstərməsinin qarşısını almağa çağırıram.

Öznövbəsində, Azərbaycan suveren dövlətimizə məxsus olan təbii sərvətlərin mənimsənilməsində iştirak etdiklərinə görə bu şirkətlərin məsuliyyət daşıması üçün bütün lazımi hüquqi və praktiki tədbirləri həyata keçirəcəkdir.

Bundan başqa, Ermənistan Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin tarixini saxtalaşdırır, mədəni və arxitektura irsinə qeyri-qanuni şəkildə yiyələnir. Dini və tarixi abidələrimiz, qədim əlyazmalarımız və digər mədəni sərvətlərimiz dağıdılmış, özününküləşdirilmiş və talanıb aparılmışdır. Münaqişənin siyasi yolla həlli prosesi son 12 il ərzində ATƏT-in Minsk qrupu çərçivəsində həyata keçirilmiş, lakin bu günədək heç bir nəticə verməmişdir. Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsi, vəziyyətin yerində qiymətləndirilməsi və Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistan tərəfindən həyata keçirilən qeyri-qanuni fəaliyyət məsələlərinə ATƏT-in Minsk qrupu ciddi diqqət yetirməmişdir.

Aydın məsələdir ki, BMT Təhlükəsizlik Şurasının, ATƏT və onun Minsk qrupunun problemə hazırkı passiv və biganə yanaşması və beynəlxalq birlik tərəfindən ciddi təzyiqin göstərilmədiyi indiki şəraitdə Ermənistan özünün təcavüzkar və destruktiv mövqeyindən geri çəkilməyəcəkdir.

Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistanın qeyri-qanuni fəaliyyəti və onun danışıqlar prosesində tutduğu mövqe bir daha sübut edir ki, Ermənistan münaqişəni baş vermiş fakt əsasında zorla qəbul etdirməyə çalışaraq, nəinki problemin nizamlanması yollarını axtarmır, hətta danışıqların daha da uzadılması və təcavüzün nəticələrini möhkəmləndirmək məqsədi güdür.

Mən bu yüksək tribunadan vurğulamaq istəyirəm ki, münaqişə etnik təmizləmə və de-fakto suveren dövlətin ərazilərinin ilhaq olunması əsasında deyil, beynəlxalq hüquq və demokratiya normaları əsasında həll edilə bilər.

Azərbaycan torpaqlarının işğalı, ərazi bütövlüyünün pozulması və etnik təmizləmənin nəticələri ilə heç zaman barışmayacaqdır.

Cənab Sədr,

Azərbaycanın məcburi köçkün düşmüş vətəndaşlarının öz doğma yurdlarına qayıtması münaqişənin həlli prosesində bizim üçün ən əsas prioritetlərdən birini təşkil edir. Lakin öz yurdlarından qovulmuş, qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş insanlarımız öz yurdlarına qayıdana qədər bütün müvafiq BMT təsisatlarının, donor ölkələrin və beynəlxalq humanitar təşkilatların ən çox zərər çəkmiş əhalinin iztirablarının aradan qaldırılması işinə daha fəal cəlb

olunmasına təcili zərurət vardır.

Azərbaycan hökuməti bu işdə bütün vaxtını, səylərini və maliyyə imkanlarını əsirgəmir, lakin məcburi köçkünlərin sayı nəzərə alınarsa, bu, kifayət etmir. Bu işdə müvafiq beynəlxalq təşkilatların hökumətimizə yardımı vacib bir məsələdir.

Bu sahədə sırf maddi yardımdan başqa, problemə beynəlxalq diqqətin yenidən artırılmasına, həmçinin BMT və onun müvafiq təsisatları tərəfindən bütün beynəlxalq təşkilatların fəaliyyətini əlaqələndirmək üçün daha yaxşı şəraitin təmin edilməsinə ehtiyac duyulur. Biz Azərbaycandakı «unudulmuş humanitar böhran»la bağlı BMT-dən daha məsuliyyətli strategiya gözləyirik.

Cənab Sədr,

Azərbaycan yoxsulluğun aradan qaldırılması və yaxşı idarəçilik məqsədlərinə sadiqdir. Bu mövqeyə və həyata keçirilən tədbirlərə əsaslanaraq, biz Azərbaycanda iqtisadi fəaliyyətin və artımın genişlənməsini müşahidə edirik. Azərbaycan transregional əməkdaşlığın inkişafı işinə öz töhfəsini verir və TRASECA, Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft və qaz boru xətləri kimi nəqliyyat və kommunikasiya şəbəkələrinin inkişafında böyük rol oynayır.

Bu layihələr açıq dənizə çıxışı olmayan ölkələrin ixrac üçün dünya bazarlarına və regional bazarlara sabit çıxışını təmin edəcəkdir. İştirakçı dövlətlərin ən kasıb təbəqələri bundan bəhrələnəcəkdir.

Cənab Sədr,

Bütün təhdidlərin öhdəsindən uğurla gəlmək üçün BMT özünü yeni şəraitə uyğunlaşdırmalıdır. BMT-də uzun müddət söhbəti gedən islahatlar məsələsi, nəhayət, öz həllini tapmalıdır. BMT Təhlükəsizlik Şurasının problemləri, xüsusilə də silahlı münaqişələrə aid olan problemləri həll etməyə qadir olmaması etiraf edilməlidir.

Təkmilləşdirilmiş Təhlükəsizlik Şurası daha geniş tərkibli, daha çox məsuliyyətli və demokratik, onun iş metodları daha şəffaf olmalı, XXI əsrin yeni təhdidləri, riskləri və təhlükələrinə daha operativ şəkildə cavab verməlidir.

Ümdə məsələ BMT Təhlükəsizlik Şurası qətnamələrinin həyata keçirilməsinin işlək mexanizminin yaradılmasından ibarətdir.

Cənab Sədr,

Hazırkı problemlərin həllinə səmərəli yanaşmanı kollektiv şəkildə tətbiq etmək hər birimizin borcudur. Belə ki, bu, millətlərin davamlı və demokratik inkişafı üçün sabit mühitin yaradılmasına xidmət edə bilər. Buna yalnız beynəlxalq hüququn normaları və prinsiplərinin həyata keçirilməsi, dövlətlər arasında dostluq münasibətləri və qarşılıqlı surətdə faydalı əməkdaşlıq vasitəsilə nail olmaq mümkündür.

Diqqətinizə görə çox sağ olun.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin Ümumdünya Ərzaq Proqramının Azərbaycandakı sabiq nümayəndəsi Şərif Amin Zahiri qəbul etmişdir – 8 noyabr 2004-cü il

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 8-də Prezident sarayında BMT-nin Ümumdünya Ərzaq Proqramının Azərbaycandakı sabiq nümayəndəsi Şərif Amin Zahiri qəbul etmişdir.

Qonağı səmimiyyətlə salamlayan dövlətimizin başçısı İlham Əliyev cənab Şərif Amin Zahirin BMT-nin Ümumdünya Ərzaq Proqramının nümayəndəsi kimi vaxtilə Azərbaycanda göstərdiyi fəaliyyətini yüksək qiymətləndirdi, Ermənistanın Azərbaycana təcavüzü nəticəsində yerindən-yurdundan zorla qovulmuş insanların sosial şəraitinin yaxşılaşdırılması işində şəxsi töhfəsinə görə ona minnətdarlığını bildirdi.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan Prezident İlham Əliyev Ermənistanın ölkəmizə təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin işğal olunduğunu, 1 milyondan çox soydaşımızın qaçqın-köçkün vəziyyətinə düşdüyünü nəzərə çarpdıraraq bildirdi ki, Azərbaycan rəhbərliyi bu insanların sosial vəziyyətinin yaxşılaşdırılması üçün bir sıra mühüm tədbirlər görmüş, böyük əhəmiyyətli proqramlar qəbul etmiş, onların həyata keçirilməsi məqsədi ilə maliyyə vəsaiti ayırmışdır. Lakin təbii ki, bütün bu problemləri ölkəmizin öz gücü ilə yüksək səviyyədə həll etmək mümkün deyildir. Ona görə də beynəlxalq təşkilatların, donor ölkələrin Azərbaycana yardımı çox böyük əhəmiyyət daşıyır. Prezident İlham Əliyev ölkəmizə göstərdiyi köməyə görə BMT-nin müvafiq strukturlarına minnətdarlığını bildirdi.

Dövlətimizin başçısı dedi ki, Azərbaycan rəhbərliyinin qarşısında duran ən mühüm vəzifə xalqımız üçün ağrılı problem olan bu münaqişənin tezliklə aradan qaldırılması, torpaqlarımızın Ermənistan işğalından azad edilməsi, 1 milyondan çox qaçqın-köçkünün öz doğma yerlərinə, yurdlarına qayıtmasıdır.

Azərbaycan Respublikasında məcburi köçkünlərə ərzaq yardımının göstərilməsindəki səmərəli fəaliyyətinə görə BMT-nin Ümumdünya Ərzaq Proqramının Azərbaycandakı nümayəndəsi Şərif Amin Zahirin Prezident Heydər Əliyevin 2003-cü il 28 avqust tarixli Fərmanı ilə «Tərəqqi» medalına layiq görüldüyünü məmnunluqla xatırladan Prezident İlham Əliyev həmin medalı cənab Zahirə təqdim etdi.

Vaxt tapıb onu qəbul etdiyinə və səmimi sözlərə görə minnətdarlığını bildirən qonaq Azərbaycan xalqının ümummilli lideri Prezident Heydər Əliyevin Fərmanı ilə «Tərəqqi» medalına layiq görülməsindən və bu yüksək mükafatı Prezident İlham Əliyevin ona təqdim etməsindən böyük şərəf duyduğunu bildirdi.

Cənab Şərif Amin Zahir bildirdi ki, Azərbaycan torpaqlarının tezliklə Ermənistan silahlı qüvvələrinin işğalından azad edilməsi, yerindən-yurdundan zorla qovulmuş azərbaycanlıların doğma yurdlarına qayıtması, onların üzləşdiyi bütün problemlərin tamamilə aradan qaldırılması onun ən böyük arzusudur.

Qonaq vaxtilə ölkəmizdə işləyərkən Azərbaycan rəhbərliyinin ona göstərdiyi böyük diqqət və qayğıya görə bir daha minnətdarlığını bildirdi.

Görüşdə Azərbaycan Baş nazirinin müavini, Dövlətqaçqınkomun sədri Əli Həsənov, BMT-nin Azərbaycandakı rezident-əlaqələndiricisi Marko Borsotti, BMT-nin Ümumdünya Ərzaq Proqramının Azərbaycandakı nümayəndəsi Abdurəhman Çodhuri iştirak edirdilər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin Qaçqınlar üzrə Ali Komissarı Ruud Lubbersin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir – 26 noyabr 2004-cü il

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 26-da Prezident sarayında BMT-nin Qaçqınlar üzrə Ali komissarı Ruud Lubbersin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qonağı səmimiyyətlə salamlayan dövlətimizin başçısı ötən il Cenevrədə cənab Ruud Lubbers ilə keçirdiyi uğurlu görüş zamanı səmərəli müzakirələr apardıqlarını məmnunluqla xatırlatdı.

Ali komissarın Azərbaycana səfərini, noyabrın 25-də nümayəndə heyətinin qaçqınların məskunlaşdığı yerlərə baş çəkməsini yüksək qiymətləndirən Prezident İlham Əliyev qonaqların qaçqınlar üçün salınmış yeni qəsəbədə vəziyyətlə, yaradılmış şəraitlə yaxından maraqlandıqlarını, bu sahədə əldə edilən inkişafın şahidi olduqlarını vurğuladı.

Ölkəmizdə qaçqın və məcburi köçkün düşərgələrinin tamamilə ləğv olunması və həmin insanlar üçün yeni məskunlaşma yerlərinin təşkil edilməsi istiqamətində böyük işlər görüldüyünü nəzərə çarpdıran dövlətimizin başçısı qaçqın və məcburi köçkünlərin cəmiyyətimizdə fəal iştirakı ilə bağlı xeyli tədbirlər görüldüyünü bildirdi. Prezident İlham Əliyev dedi ki, Azərbaycan hökuməti bu məqsəd üçün daxili maliyyə vəsaitlərindən səmərəli istifadə edir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan dövlətimizin başçısı Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizinin işğal olunmasının, bir milyondan çox soydaşımızın yerindən-yurdundan zorla qovularaq qaçqın və məcburi köçkün vəziyyətinə düşməsinin böyük humanitar fəlakət olduğunu vurğuladı. Prezident İlham Əliyev bütün bunların ciddi iqtisadi, sosial problemlər doğurduğunu bildirərək dedi ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi bölgədə sülhün, sabitliyin təmin edilməsinə böyük əngəl törədir. Dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, bu münaqişə tezliklə sülh yolu ilə aradan qaldırılacaq, doğma torpaqlarından zorla qovulmuş insanlar öz yerlərinə, yurdlarına qayıdacaqlar.

Prezident İlham Əliyev yerindən-yurdundan zorla qovulmuş qaçqınların və məcburi köçkünlərin həyat şəraitinin tamamilə yaxşılaşdırılması məqsədi ilə ölkəmizdə həyata keçirilən Dövlət Proqramlarından da söhbət açdı.

Azərbaycan hökumətinin bundan sonra da qaçqın və məcburi köçkünlərin vəziyyətinin daha da yaxşılaşdırılması istiqamətində səylərini əsirgəməyəcəyini vurğulayan Prezident İlham Əliyev eyni zamanda, beynəlxalq humanitar yardımın davam etdirilməsinin də zəruriliyini nəzərə çarpdıraraq dedi ki, güman edirəm, sizin regiona səfəriniz ümumilikdə Azərbaycanda humanitar problemlərin həll edilməsi sahəsində görülən işlərin uğurla davam etdirilməsinə öz töhfəsini verəcəkdir.

Cənab Ruud Lubbers vaxt tapıb onları qəbul etdiyinə, səmimi sözlərə və onun başçılıq etdiyi nümayəndə heyətinə göstərilən yüksək qonaqpərvərliyə görə Prezident İlham Əliyevə və Azərbaycan hökumətinə minnətdarlığını bildirdi. 2003-cü ilin dekabrında Cenevrədə dövlətimizin başçısı ilə keçirdiyi görüşü məmnunluqla xatırlayan qonaq Azərbaycana səfərinin ilk günündən nümayəndə heyətinin çox gərgin proqramla işlədiyini nəzərə çatdırdı və onlara yaradılmış şəraitə görə Prezident İlham Əliyevə bir daha minnətdarlığını bildirdi.

O, dövlətimizin başçısına məlumat verdi ki, nümayəndə heyətinin üzvləri noyabrın 25-də Bərdədə, Biləsuvarda məskunlaşmış qaçqın və məcburi köçkünlərlə görüşmüş, onların həyat şəraitinin yaxşılaşdırılması üçün görülən işləri çox yüksək qiymətləndirmişlər. Cənab Ruud Lubbers bu sahədə görülən işlərdən böyük məmnunluq duyduqlarını söylədi. O dedi ki, bu insanların vəziyyətinin daha da yaxşılaşdırılması ilə bağlı şəxsən Prezident İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən işlər BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının nümayəndə heyəti tərəfindən çox yüksək qiymətləndirilmişdir. Qonaq bildirdi ki, Azərbaycanda görülmüş bütün bu işlər nümayəndə heyətinin hər bir üzvünə çox müsbət təsir göstərmişdir. O

dedi ki, humanitar problemlərin həlli məsələləri Azərbaycanın hökumət rəsmiləri ilə müzakirə edilmişdir.

Rəhbərlik etdiyi Ali Komissarlığın fəaliyyəti barədə Prezident İlham Əliyevə ətraflı məlumat verən cənab Ruud Lubbers Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən bəhs edərək, bu münaqişənin tezliklə sülh yolu ilə həll olunmasının vacibliyini xüsusi vurğuladı. Daha sonra o dedi ki, qaçqın və məcburi köçkün düşmüş insanlara, habelə Mesxeti türklərinə Azərbaycanda göstərilən dövlət qayğısı bir çox ölkələr üçün yaxşı nümunə ola bilər.

Qəbulda Azərbaycan Baş nazirinin müavini, Dövlətdaçqınkomun sədri Əli Həsənov, BMT-nin Cenevrə şəhəri bölməsində və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi, səfir Elçin Əmirbəyov iştirak edirdilər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin Sənaye İnkişafı Təşkilatının baş direktoru Karlos Maqarinyosu qəbul etmişdir – 4 fevral 2005-ci il

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 4-də Prezident sarayında BMT-nin Sənaye İnkişafı Təşkilatının baş direktoru Karlos Maqarinyosu qəbul etmişdir.

Sənaye İnkişafı Təşkilatı ilə ölkəmizin əlaqələrinin səviyyəsindən məmnunluq ifadə edən Azərbaycan dövlətinin başçısı bu təşkilatla əməkdaşlığa dair yeni sənədin imzalanmasının əhəmiyyətini vurğuladı və birgə mühüm layihələr üzərində işlərin həyata keçirilməsini bu əməkdaşlığın yaxşı nümunəsi kimi dəyərləndirdi. Ölkəmizdə iqtisadi inkişafla bağlı bir sıra mühüm proqramların, o cümlədən regional inkişaf proqramının uğurla həyata keçirildiyini diqqətə çatdıran Prezident İlham Əliyev bütün bunların Azərbaycanda yeni iş yerlərinin yaradılmasına, iqtisadi infrastrukturun möhkəmləndirilməsinə, ümumən iqtisadi inkişafa xidmət etdiyini vurğuladı. Azərbaycan Prezidenti bu baxımdan beynəlxalq təşkilatların, o cümlədən BMT-nin Sənaye İnkişafı Təşkilatının ölkəmizlə əməkdaşlığını yüksək qiymətləndirdi. O qeyd etdi ki, bizim məqsədimiz müasir, güclü iqtisadiyyat qurmaqdan ibarətdir və buna nail olacağımıza əminik.

Bakıya səfərindən razılığını söyləyən Karlos Maqarinyos Azərbaycanın ümummilli lideri Heydər Əliyevin vaxtilə, Avstriyada rəsmi səfərdə olarkən rəhbərlik etdiyi təşkilatın mənzil qərargahına gəlməsini və onunla görüşünü böyük məmnunluqla xatırladığını bildirdi. O, fürsətdən istifadə edərək, Azərbaycan Prezidentini təşkilatın növbəti baş konfransına dəvət etməkdən şərəf duyduğunu vurğuladı. Sonra BMT-nin Sənaye İnkişafı Təşkilatının fəaliyyəti barədə məlumat verən cənab Maqarinyos Azərbaycan Prezidentinə BMT-nin iqtisadi fəaliyyətini əks etdirən kitabı təqdim etdi. Baş direktor Azərbaycanın iqtisadi sahədə, o cümlədən ümumi daxili məhsulun artımı, inflyasiyaya nəzarət, xarici investisiyaların cəlb edilməsi və digər sahələrdəki böyük uğurlarını xüsusi olaraq vurğuladı. O, hazırda Azərbaycanın Sənaye və Yanacaq Nazirliyi ilə birlikdə ölkəmizdə energetika sahəsində təmiz texnologiyalar mərkəzinin yaradılması üzərində iş getdiyini diqqətə çatdıraraq, ekoloji funksiyalar daşıyacaq bu işdə Azərbaycan Prezidentinin dəstəyini yüksək qiymətləndirdi.

Konfransa dəvəti məmnunluqla qəbul etdiyini bildirən Prezident İlham Əliyev ölkəmizdə ekoloji problemlərin həllinə ölkə rəhbərliyi tərəfindən böyük diqqət yetirildiyini qeyd edərək, bu sahədə fəaliyyət proqramının hazırlanması üzərində böyük iş aparıldığını xatırlatdı. Prezident İlham Əliyev bu sahədə beynəlxalq təşkilatlarla əməkdaşlığın uğurlu nəticələr verəcəyinə əminliyini vurğuladı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin BMT-nin Dünya Ərzaq Proqramının rəhbəri vəzifəsini icra edən Con Pauell ilə görüşmüşdür – 25 fevral 2005-ci il

Fevralın 25-də Azərbaycan Prezidenti İlham Əliyev onun üçün ayrılmış iqamətgahda - «Vestin Excelsior» mehmanxanasında Dünya Ərzaq Proqramı Təşkilatının rəhbəri vəzifəsini icra edən Con Pauell ilə görüşmüşdür.

Söhbət zamanı Prezident İlham Əliyev Azərbaycanda qaçqın və məcburi köçkünlərin problemlərindən, onların sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində son illər görülən işlərdən danışdı.

Prezident İlham Əliyev cənab Con Pauellə müraciətlə dedi ki, siz Azərbaycanda olmusunuz, çadır düşərgələrinə getmisiniz, biz bu sahədə sizinlə yaxşı əməkdaşlıq edirik. Çoxsaylı qaçqın və məcburi köçkünlərin vəziyyətinin yaxşılaşdırılması ilə əlaqədar bir sıra tədbirlərin həyata keçirilməsinə baxmayaraq, bu sahədə hələ sizin köməyinizə ehtiyacımız vardır. Bunun nəzərə alınmasını xahiş edirik.

Prezident İlham Əliyevlə görüşündən məmnun qaldığını söyləyən və qəbula görə minnətdarlığını bildirən Con Pauell dedi ki, biz Azərbaycana yenidən gələrək, qaçqın və məcburi köçkünlərin problemlərini bir daha öyrənəcək, əməkdaşlığımızı bundan sonra da davam etdirəcəyik.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyasının və BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının nümayəndə heyətlərini qəbul etmişdir – 11 mart 2005-ci il

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 11-də Prezident sarayında BMT-nin Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyasının və BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının nümayəndə heyətlərini qəbul etmişdir.

UNESCAP və UNECE-nin nümayəndə heyətlərinin ölkəmizə səfərinin əməkdaşlıqda yeni bir səhifə açdığını vurğulayan Prezident İlham Əliyev Azərbaycanda gedən böyük iqtisadi inkişaf proseslərindən bəhs etdi, makroiqtisadi və digər iqtisadi göstəricilərin sürətlə artdığını nəzərə çarpdırdı.

Azərbaycanda iqtisadi inkişafla bağlı bir sıra proqramların, o cümlədən regional inkişaf, yoxsulluğun azaldılması proqramlarının həyata keçirildiyini bildirən Prezident İlham Əliyev son bir il ərzində ölkəmizdə 170 mindən çox yeni iş yerinin yaradıldığını vurğuladı və bu sahədə beynəlxalq təsisatlarla Azərbaycan arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu qeyd etdi. Azərbaycanda iri qlobal enerji layihələrinin uğurla həyata keçirildiyini bildirən Azərbaycan dövlətinin başçısı ölkəmizdə ilk növbədə sosial təminat məsələsinə xüsusi diqqət yetirildiyini vurğuladı.

Regional əməkdaşlıq məsələsinə toxunan Prezident İlham Əliyev dedi ki, Azərbaycanda gedən iqtisadi inkişaf prosesləri, habelə ölkədəki ictimai-siyasi sabitlik bölgədə əməkdaşlığın, sülhün və sabitliyin təmin olunması işinə öz töhfəsini verir. Əfsuslar olsun ki, Ermənistanın Azərbaycana təcavüzü, bu təcavüz nəticəsində torpaqlarımızın 20 faizinin işğal olunması, bir milyondan çox azərbaycanlının qaçqın və məcburi köçkün vəziyyətinə düşməsi bölgədə əməkdaşlıq və iqtisadi inkişaf, firavanlıq proseslərinə böyük əngəl törədir. Bu münaqişənin davam etdirilməsi ümumiyyətlə regional təhlükəsizliyə, iqtisadi proseslərin irəliləyişinə böyük maneədir. Beynəlxalq təşkilatlar bu cür məsələlərə diqqəti artırmalıdırlar.

Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, nümayəndə heyətlərinin ölkəmizə səfəri UNESCAP və UNECE ilə Azərbaycan arasında beynəlxalq iqtisadi əməkdaşlığın daha da genişlənməsi, qarşılıqlı surətdə faydalı əlaqələrin güclənməsi işinə xidmət edəcəkdir.

BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının icraçı katibi, BMT baş katibinin müavini xanım Brigita Şmoqnerova Azərbaycanın BMT-nin Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyasına üzv qəbul olunmasını yüksək qiymətləndirdi. O, Azərbaycanın regional iqtisadi inkişaf proseslərində fəal iştirakının UNESCAP və UNECE tərəfindən yüksək qiymətləndirildiyini nəzərə çarpdırdı. Xanım Brigita Şmoqnerova bu proseslərin çox böyük əhəmiyyət daşıdığını vurğuladı. O, əmin olduğunu bildirdi ki, respublikamızın UNESCAP-a üzvlüyü Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə regional iqtisadi əməkdaşlığının genişlənməsi işinə öz töhfəsini verəcəkdir. Qonaq bir daha əmin olduğunu bildirdi ki, qarşılıqlı əməkdaşlıq bundan sonra da genişlənəcək və inkişaf edəcəkdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) baş direktoru Jak Diufun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir – 29 aprel 2005-ci il

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 29-da Prezident sarayında BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) baş direktoru Jak Diufun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev cənab Jak Diuf ilə yenidən görüşməyindən məmnunluğunu bildirdi, bu təşkilatın Azərbaycanda fəaliyyətinin genişləndiyini və ölkəmizlə əməkdaşlığının daha da möhkəmləndiyini vurğuladı.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan Prezident İlham Əliyev bu münaqişə nəticəsində yerindən-yurdundan zorla qovulmuş bir milyondan çox soydaşımıza BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının yardım göstərməsi istiqamətindəki fəaliyyətini yüksək qiymətləndirdi.

Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, Azərbaycanın BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı ilə əməkdaşlığı bundan sonra da genişlənəcək və nümayəndə heyətinin ölkəmizə səfəri bu işə xidmət edəcəkdir.

Prezident İlham Əliyevlə yenidən görüşməyindən çox məmnun olduğunu söyləyən cənab Jak Diuf rəhbərlik etdiyi təşkilatın ölkəmizdə fəaliyyətinin genişləndiyini xüsusi vurğuladı, azərbaycanlı qaçqın və məcburi köçkünlərə yardım edilməsi ilə əlaqədar konkret işlər görüldüyünü bildirdi.

Qonaq Azərbaycanda digər sahələrdə, o cümlədən kənd təsərrüfatı, fermer təsərrüfatlarına yardım göstərilməsi istiqamətində fəaliyyət planları hazırlandığını da nəzərə çarpdırdı. O, əmin olduğunu bildirdi ki, Azərbaycan ilə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı arasında əməkdaşlıq bundan sonra da genişlənəcəkdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Prezident sarayında BMT-nin Uşaq Fondunun (UNİCEF), İnkişaf Proqramının (UNDP), Əhali Fondunun (UNFPA) və Ümumdünya Ərzaq Proqramının (WFP) İcraiyyə Şuralarının üzvlərindən ibarət nümayəndə heyətini qəbul etmişdir - 10 may 2005-ci il

Prezident İlham Əliyev Azərbaycanın BMT strukturları ilə əməkdaşlığından məmnunluğunu ifadə edərək, bu əlaqələrə ölkəmizin böyük əhəmiyyət verdiyini vurğuladı. Azərbaycan Prezidenti BMT tərəfindən əvvəllər ölkəmizə göstərilən yardımların əhəmiyyətli olduğunu qeyd etdi.

Beynəlxalq təşkilatlarla, o cümlədən BMT ilə əlaqələrin yaxşı inkişaf etdiyini bildirən Azərbaycan dövlətinin başçısı BMT strukturları ilə birgə ölkəmizdə həyata keçirilən layihələrin əhalimizin, o cümlədən uşaqların, yaşlıların, kasıb təbəqənin, qaçqın və köçkünlərin vəziyyətinin yaxşılaşdırılmasına xidmət etdiyini söylədi.

Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, nümayəndə heyətinin bu səfəri BMT strukturlarının Azərbaycanda əldə olunmuş uğurlarla, inkişafla daha yaxından tanış olması üçün yaxşı imkan yaradacaqdır.

BMT-nin ölkəmizdəki rezident-əlaqələndiricisi Marko Borsotti Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ildönümü günündə vaxt tapıb nümayəndə heyətini qəbul etdiyinə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi, belə geniş tərkibdə heyətin Azərbaycana səfərini BMT-də islahatlar çərçivəsində həyata keçirildiyini söylədi.

Nümayəndə heyətinin rəhbəri Forsyth Mejia dedi: Cənab Prezident, nümayəndə heyətimizin ölkənizə səfərinin Azərbaycan xalqının böyük lideri, həyata keçirdiyi işlərlə dünya şöhrəti qazanmış siyasi xadim Heydər Əliyevin doğum gününə təsadüf etməsindən məmnunluq duyuruq. Biz BMT-nin müxtəlif strukturlarının Azərbaycandakı fəaliyyəti ilə tanış olmuşuq. Azərbaycan BMT-nin dörd mühüm təşkilatı tərəfindən bir nümunə kimi seçilmişdir. Biz əminik ki, ölkəniz haqqında hazırlayacağımız məruzə təkcə Azərbaycan üçün deyil, BMT-nin təmsil etdiyimiz dörd təşkilatı üçün də çox əhəmiyyətli olacaqdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev YUNESKO-nun baş direktoru Koişiro Matsuura ilə təkbətək görüşmüşdür – 24 avqust 2005-ci il

Avqustun 24-də Prezident sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin YUNESKO-nun baş direktoru Koişiro Matsuura ilə təkbətək görüşü olmuşdur.

Prezident İlham Əliyev Azərbaycanın beynəlxalq təşkilatlara inteqrasiyası sahəsində görülən işlər barədə qonağa məlumat verdi. Azərbaycan Prezidenti BMT və onun ixtisaslaşdırılmış qurumları ilə Azərbaycan arasında yaranmış xoşməramlı əlaqələrdən danışdı, Birləşmiş Millətlər Təşkilatının təhsil, elm və mədəniyyət məsələləri üzrə təşkilatı ilə əməkdaşlığın genişlənməsindən və həmin qurumun ölkəmizdə həyata keçirdiyi proqramlardan razılığını bildirdi.

Azərbaycanın sürətli iqtisadi inkişafından xəbərdar olduğunu söyləyən YUNESKO-nun baş direktoru Koişiro Matsuura ölkəmizdə elmin, təhsilin, mədəniyyətin tərəqqisi, tarixin sınaqlarından keçmiş maddi-mənəvi sərvətlərin qorunması istiqamətində həyata keçirilən tədbirləri bəyəndiyini vurğuladı. Cənab Matsuura Azərbaycanın YUNESKO-da uğurla təmsil olunmasında xoşməramlı səfir Mehriban xanım Əliyevanın səmərəli işini xüsusi qeyd etdi.

Söhbət zamanı ölkəmizlə YUNESKO arasında əməkdaşlığı daha da genişləndirməyin mümkün variantları müzakirə olundu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin İnsan Hüquqları Komissiyasının din və əqidə azadlığı üzrə xüsusi məruzəçisi xanım Asma Cahangiri qəbul etmişdir – 28 fevral 2006-cı il

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 28-də Prezident sarayında BMT-nin İnsan Hüquqları Komissiyasının din və əqidə azadlığı üzrə xüsusi məruzəçisi xanım Asma Cahangiri qəbul etmişdir.

Görüşdə Azərbaycanda din və əqidə azadlığının təmin olunması istiqamətində həyata keçirilən işlər, Azərbaycanın BMT-nin İnsan Hüquqları Komissiyası ilə əməkdaşlığının müxtəlif sahələri ilə bağlı məsələlər müzakirə edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin Qadınlar üçün İnkişaf Fondunun icraçı direktoru xanım Noelin Heyzeri qəbul etmişdir – 25 may 2006-cı il

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 25-də Prezident sarayında BMT-nin Qadınlar üçün İnkişaf Fondunun icraçı direktoru xanım Noelin Heyzeri qəbul etmişdir.

Azərbaycanda səmərəli görüşlər keçirdiyini söyləyən xanım Noelin Heyzer MDB ölkələri arasında ilk dəfə respublikamıza səfər etdiyini bildirdi. Ölkəmizin inkişafının çox vacib bir mərhələsində Bakıya səfərə gəldiyini vurğulayan qonaq, Azərbaycanın sürətlə artan iqtisadi göstəricilərinə görə Prezident İlham Əliyevi təbrik etdi. O, Azərbaycanda əldə olunan gəlirlərin insanların rifahına yönəldilməsini xüsusi vurğuladı.

Prezident İlham Əliyev da bunun çox önəmli bir məsələ olduğunu, Azərbaycanda iqtisadi inkişafın daha çox sosial, humanitar sahələrə istiqamətləndirildiyini bildirdi. Prezident İlham Əliyev ölkəmizdə əhalinin rifah halının yaxşılaşdırılması üzrə bir sıra proqramların - təhsil, səhiyyə, regional inkişaf proqramlarının uğurla həyata keçirildiyini nəzərə çarpdırdı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 26-da Prezident sarayında BMT-nin Ticarət və İnkişaf üzrə Konfransının baş katibi Supaçay Panitçpakdini qəbul etmişdir - 26 iyun 2006-cı il

Cənab Supaçay Panitçpakdi ölkəmizə səfərindən məmnun olduğunu bildirərək, bu səfərin Azərbaycanda gedən iqtisadi inkişaf prosesləri, o cümlədən qlobal enerji layihələrinin həyata keçirilməsi ilə bağlı aparılan işlərlə yaxından tanış olmaq üçün yaxşı imkan yaratdığını bildirdi.

Prezident İlham Əliyev ölkəmizin iqtisadi sahədə əldə etdiyi uğurlar, dünya miqyaslı enerji layihələrinin müvəffəqiyyətlə həyata keçirilməsi istiqamətində görülən işlərdən danışmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin Asiya və Sakit Okean üçün İqtisadi və Sosial Komissiyasının icraçı katibi Kim Hak-Sunu qəbul etmişdir – 27 iyun 2006-cı il

Kim Hak-Su BMT-nin Asiya və Sakit Okean üçün İqtisadi və Sosial Komissiyasının təşkil etdiyi konfransda iştirak etmək üçün ölkəmizə səfər etdiyini bildirdi. Qonaq Azərbaycanın iqtisadi sahədə əldə etdiyi böyük uğurlarla bağlı Prezident İlham Əliyevi təbrik etdi.

Prezident İlham Əliyev konfransda müzakirə edilən məsələlərin ölkəmiz üçün vacib olduğunu bildirdi. Prezident İlham Əliyev iqtisadiyyatın digər sahələrində olduğu kimi, energetika sahəsində də Azərbaycanın böyük uğurlar qazandığını qeyd edərək, qeyri-neft sektorunun, infrastrukturun inkişafına mühüm diqqət yetirildiyini vurğuladı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin Ümumdünya Ərzaq Proqramının icraçı direktoru Ceyms Morrisin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir – 27 iyul 2006-ci il

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 27-də Prezident sarayında BMT-nin Ümumdünya Ərzaq Proqramının icraçı direktoru Ceyms Morrisin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev ölkəmizin siyasi, iqtisadi cəhətdən sürətlə inkişaf etdiyini vurğulayaraq, Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi və bunun nəticəsində bir milyon insanın qaçqın və məcburi köçkün vəziyyətinə düşməsinin başlıca problem olduğunu bildirdi. Prezident İlham Əliyev qaçqın və məcburi köçkünlərin vəziyyətinin yaxşılaşdırılması üçün Azərbaycan hökuməti tərəfindən ardıcıl tədbirlərin görüldüyünü və bütün çadır düşərgələrinin tezliklə ləğv olunacağını vurğuladı. Prezident İlham Əliyev Azərbaycanın qaçqın və məcburi köçkünlərinə göstərilən yardımın davam etdirilməsinə görə BMT-nin Ümumdünya Ərzaq Proqramına öz təşəkkürünü çatdırdı və təşkilat ilə əməkdaşlığın daha da inkişaf etdiriləcəyinə ümidvar olduğunu bildirdi.

Ceyms Morris BMT-nin Ümumdünya Ərzaq Proqramı ilə Azərbaycan arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu vurğuladı. O, səfəri müddətində qaçqın və məcburi köçkünlərlə görüşdüyünü qeyd etdi və Azərbaycan hökumətinin, şəxsən Prezident İlham Əliyevin qaçqın və məcburi köçkünlərin vəziyyətinin yaxşılaşdırılması üçün gördüyü işlərin onda böyük təəssürat yaratdığını bildirdi. Qonaq rəhbərlik etdiyi təşkilat ilə Azərbaycan arasındakı əlaqələrin bundan sonra da genişləndiriləcəyinə əminliyini ifadə etdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin Qaçqınlar üzrə Ali Komissari Antonio Quterreşin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir – 17 avqust 2006-cı il

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 17-də Prezident sarayında BMT-nin Qaçqınlar üzrə Ali Komissarı Antonio Quterreşin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi və bunun nəticəsində bir milyon insanın qaçqın və məcburi köçkün vəziyyətinə düşməsinin ölkəmiz üçün başlıca problem olduğunu bildirdi. O, qaçqın və məcburi köçkünlərin vəziyyətinin yaxşılaşdırılması üçün Azərbaycan hökuməti tərəfindən zəruri tədbirlərin görüldüyünü və tezliklə bütün çadır düşərgələrinin ləğv olunacağını vurğuladı. Prezident İlham Əliyev bu səfərin Azərbaycan ilə BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı arasında əlaqələrin daha da genişləndirilməsi işinə töhfə verəcəyinə ümidvar olduğunu bildirdi.

Antonio Quterreş Portuqaliyanın Baş naziri olan zaman ATƏT-in Lissabon şəhərində keçirilmiş sammitində xalqımızın ümummilli lideri Heydər Əliyev ilə görüşdüyünü məmnunluqla xatırladı. Keçən il BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının qaçqın və məcburi köçkünlərin problemlərinin həllinə daha böyük diqqət ayrılması barədə qərar qəbul etdiyini bildirən qonaq bu baxımdan ölkəmizə səfərinin mühüm əhəmiyyət kəsb etdiyini vurğuladı. O, Azərbaycan hökumətinin qaçqın və məcburi köçkünlərin vəziyyətinin yaxşılaşdırılması üçün göstərdiyi səyləri yüksək qiymətləndirdi və ölkəmiz ilə rəhbərlik etdiyi qurum arasında əməkdaşlığın bundan sonra da inkişaf etdiriləcəyinə əminliyini bildirdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin İqtisadi və Sosial İşlər Departamentinin yardım və əlaqələndirmə bölməsinin icraçı katibi Sarbuland Xanı qəbul etmişdir – 2 oktyabr 2006-cı il

Vaxt tapıb onu qəbul etdiyinə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirən cənab Xan Birləşmiş Millətlər Təşkilatının baş katibi Kofi Annanın salamlarını Prezident İlham Əliyevə çatdırdı. O, Azərbaycanın informasiya və telekommunikasiya sahəsindəki inkişafının baş katib tərəfindən yüksək qiymətləndirildiyini bildirdi.

BMT nümayəndəsi dedi ki, onun rəhbərlik etdiyi qurumun əsas məqsədlərindən biri məşğul olduğu sahə üzrə ölkələr arasında dialoq yaratmaq və əlaqələrə istiqamət verməkdir. Qonaq dedi: «Cənab Prezident, biz bilirik ki, Azərbaycan Sizin fəal və uzaqgörən rəhbərliyiniz altında milli informasiya və kommunikasiya texnologiyaları strategiyasının hazırlanmasında inkişafa nail olmuşdur».

Birləşmiş Millətlər Təşkilatının baş katibi Kofi Annanın salamlarına görə minnətdarlığını bildirən Prezident İlham Əliyev özünün də salamlarını ona çatdırmağı xahiş etdi.

Prezident İlham Əliyev informasiya və kommunikasiya texnologiyalarının nəinki ölkəmizin, eləcə də bütün dünyanın gələcək inkişafında xüsusi rolu olduğunu bildirdi. Azərbaycan Prezidenti ölkəmizin bu sahəyə böyük əhəmiyyət verdiyini, informasiya və kommunikasiya texnologiyaları ilə bağlı konkret layihələrimizin mövcud olduğunu vurğuladı.

Prezident İlham Əliyev dedi ki, biz Azərbaycanın bu sahədə dünyanın aparıcı ölkələrindən biri olmasını arzulayırıq.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin ölkəmizdəki rezident-əlaqələndiricisi Marko Borsottini qəbul etmişdir – 1 fevral 2007-ci il

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 1-də Prezident sarayında BMT-nin ölkəmizdəki rezident-əlaqələndiricisi Marko Borsottini səlahiyyət müddətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.

Prezident İlham Əliyev cənab Marko Borsottinin ölkəmizdəki fəaliyyətini yüksək qiymətləndirdi. Ötən dövr ərzində təhsil, səhiyyə və digər humanitar sahələrdə həyata keçirilən layihələrin uğurlu olduğunu xatırladan Azərbaycan Prezidenti bu əməkdaşlığın gələcəkdə də inkişaf edəcəyinə əminliyini vurğuladı. Prezident İlham Əliyev Marko Borsottinin bundan sonra da Azərbaycanla sıx əlaqələr saxlayacağına ümidvar olduğunu söylədi.

Azərbaycandakı fəaliyyətindən məmnun qaldığını vurğulayan Marko Borsotti BMT-nin rezident-əlaqələndiricisi kimi fəaliyyətinə yaradılan şəraitə görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirdi. O, gələcəkdə harada işləyəcəyindən asılı olmayaraq, Azərbaycanla daim əlaqə saxlayacağını və BMT tərəfindən ölkəmizdə həyata keçirilən layihələrin davamlı olacağını vurğuladı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin rezident-əlaqələndiricisi Bruno Puezanı qəbul etmişdir – 27 fevral 2007-ci il

Qonaq Azərbaycanda fəaliyyətə başlamasından məmnunluğunu bildirdi. O, Prezident İlham Əliyevin müdrik rəhbərliyi və güclü idarəçiliyi sayəsində respublikamızda görülən çox böyük işlərin şahidi olduğunu dedi. Bruno Pueza Azərbaycanın böyük potensiala malik olduğunu qeyd etdi və BMT-nin rezident-əlaqələndiricisi kimi fəaliyyəti dövründə ölkəmizin daha da inkişafı üçün bütün imkanlardan istifadə edəcəyini vurğuladı.

Azərbaycan Prezidenti BMT-nin rezident-əlaqələndiricisi Bruno Puezaya yeni təyinatı münasibətilə təbriklərini çatdırdı. Azərbaycanın böyük inkişaf mərhələsində olduğunu bildirən Prezident İlham Əliyev respublikamızda bütün sahələrdə aparılan inkişaf və quruculuq işlərindən danışdı, diplomata ölkəmizdəki fəaliyyətində uğurlar arzuladı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT Baş katibinin məcburi köçkünlərin insan hüquqları üzrə nümayəndəsi Valter Kalinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir – 2 aprel 2007-ci il

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də Prezident sarayında BMT Baş katibinin məcburi köçkünlərin insan hüquqları üzrə nümayəndəsi Valter Kalinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev Ermənistanın Azərbaycana təcavüzü və xalqımıza qarşı həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq soydaşımızın doğma torpaqlarından didərgin düşdüklərini və uzun müddət ərzində ağır şəraitdə yaşadıqlarını qeyd etdi. Son illər ərzində qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması işinə Azərbaycan hökumətinin yüz milyonlarla ABŞ dolları məbləğində vəsait xərclədiyini bildirən Prezident İlham Əliyev qaçqınlar və məcburi köçkünlər üçün bütün lazımi şəraiti olan şəhərciklərin salındığını, bu il sonuncu çadır düşərgəsinin ləğv olunacağını vurğuladı. Bununla yanaşı, Azərbaycan Prezidenti görülən bu tədbirlərin müvəqqəti xarakter daşıdığını bildirdi, qaçqınların və məcburi köçkünlərin tezliklə öz doğma torpaqlarına qayıdacaqlarına əminliyini ifadə etdi.

Valter Kalin ölkəmizə səfərindən məmnunluğunu ifadə etdi. BMT Baş katibinin məcburi köçkünlərin insan hüquqları üzrə nümayəndəsi kimi fəaliyyəti barədə Prezident İlham Əliyevə məlumat verən qonaq missiyasının yekunlarına dair BMT-nin İnsan Hüquqları Şurasına hesabat verəcəyini bildirdi. Valter Kalin Azərbaycan hökumətinin qaçqınların və məcburi köçkünlərin vəziyyətinin yaxşılaşdırılması istiqamətində gördüyü böyük işlərdən məmnun qaldığını vurğuladı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin fikir və söz azadlığı hüququnun təşviqi və qorunması üzrə xüsusi məruzəçisi Ambeyi Liqabonu qəbul etmişdir – 26 arpel 2007-ci il

Ambeyi Liqabo Bakıda keçirilən «Dözümlülük və qarşılıqlı anlaşmanın inkişafında KİV-in rolu» mövzusunda beynəlxalq konfransa dəvət aldığına görə minnətdarlığını bildirdi və tədbirin əhəmiyyətini vurğuladı.

Görüşdə Azərbaycanda fikir və söz azadlığının təmin edilməsi sahəsində görülən tədbirlərə, bu sahədə Azərbaycan ilə BMT arasındakı əməkdaşlığa dair fikir mübadiləsi aparıldı.

BMT-nin Cenevrədəki bölməsinin iqamətgahında «Azərbaycan otağı»nın açılışı mərasimində Heydər Əliyev Fondunun Prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın çıxışı – 18 may 2007-ci il

Mayın 18-də BMT-nin Cenevrədəki bölməsinin iqamətgahında «Azərbaycan otağı»nın açılışı olmuşdur. Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva mərasimdə iştirak etmişdir.

Açılış mərasiminə BMT-nin Cenevrədəki bölməsi yanında akkreditə olunmuş diplomatik korpusun nümayəndələri, beynəlxalq təşkilatların yüksək vəzifəli təmsilçiləri, ölkəmizin daimi nümayəndəliyinin və səfirliyinin əməkdaşları toplaşmışdılar.

Mərasimi BMT-nin Cenevrədəki bölməsinin baş direktoru Sergey Orconikidze açdı.

Mehriban xanım Əliyeva mərasimdə çıxış etdi.

- Cənab baş direktor,

Xanımlar və cənablar!

Bu gün biz Millətlər Sarayında «Azərbaycan otağı»nı açırıq. İlk növbədə, mən Sizin hamınızı salamlamaq istəyirəm və bu gün burada bizimlə olduğunuza görə minnətdaram.

İdeyamızın həyata keçirilməsində bizə yardım etmiş və bu otağın yaradılmasında iştirak etmiş bütün şəxslərə minnətdarlığımı bildirirəm. Mən bu layihəyə diqqətlə yanaşmış, onu dəstəkləmiş və bizim ünvanımıza xoş sözlər söyləmiş baş direktor cənab Sergey Orconikidzeyə xüsusi minnətdarlığımı bildirmək istəyirəm.

Bu otağı yaratmaqla biz Vətənimizin kiçik bir hissəsini Millətlər Sarayına gətirməyə, öz zəngin mədəni və tarixi irsimizi, eləcə də ənənəvi incəsənətimizi nümayiş etdirməyə çalışdıq. Qədim vaxtlardan Azərbaycan Qərblə Şərqi nəinki çoğrafi, həm də mənəvi baxımdan birləşdirmişdir.

Yüksək dərəcədə dözümlülük, ümumbəşəri dəyərləri milli dəyərlərlə uzlaşdırmaq qabiliyyəti, mədəni və dini müxtəlifliyə hörmət - bütün bunlar Azərbaycan xalqının əsrlər boyu formalaşmış xasiyyətini təşkil edir.

Arzu edirəm bu otaqda müzakirə olunacaq bütün məsələlər və problemlər dözümlülük və qarşılıqlı hörmət əsasında öz həllini tapsın və əminəm ki, tapacaqdır.

Birləşmiş Millətlər Təşkilatının qlobal məramı məhz bütün dünya ölkələrini bir araya gətirmək, sivilizasiyalar və millətlər arasında dialoq qurmaq və hər bir xalqın milli və mədəni ənənələrinə hörmətlə yanaşmaqdan ibarətdir.

Bu gün, biz sülh və təhlükəsizliklə bağlı bir çox problemlər və çağırışlarla üzləşən dünyada yaşayırıq. Münaqişələr, beynəlxalq terrorçuluq, yoxsulluq, xəstəliklər insanların həyatına və daha yaxşı gələcəyə bəslənən ümidlərinə təhlükə olaraq qalır. Biz həmin çağırışlara birgə cavab verməliyik və gələn nəsillər üçün daha yaxşı gələcəyi birgə qurmalıyıq.

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra çətin anlar yaşamışdır. Müstəqilliyin ilk illərində mövcud olmuş siyasi, iqtisadi və sosial böhran aradan qaldırılmışdır. Bu gün Azərbaycan sürətlə inkişaf edən ölkədir. Bu inkişaf hər bir sahədə - siyasi, sosial və iqtisadi sahələrdə müşahidə olunur. Bildiyiniz kimi, artıq üçüncü ildir ki, Azərbaycan dünyada ən sürətlə inkişaf edən iqtisadiyyata malikdir. Bu artım 2005-ci ildə 26 faiz, 2006-cı ildə 34 faiz və 2007-ci ilin birinci rübündə isə təqribən 40 faiz olmuşdur.

Bu irəliləyiş, əsasən, ölkənin neft strategiyası nəticəsində mümkün olmuşdur. Qlobal və regional layihələr sayılan Bakı-Tbilisi-Ceyhan neft boru kəməri və Bakı-Tbilisi-Ərzurum qaz boru kəməri layihələri uğurla həyata keçirilmişdir və bütün regionun enerji təhlükəsizliyini təmin edir. Bu gün biz neft gəlirlərini iqtisadiyyatın qeyri-neft sektorunun inkişafına yönəldirik. Son illər ərzində ölkədə 500 min yeni iş yerləri açılmışdır. Yeni kənd təsərrüfatı və sənaye müəssisələri yaradılır, yeni yollar və şosselər çəkilir.

Bu gün biz gənclərimizin təhsilinə xüsusi diqqət yetiririk, təhsil sisteminə böyük sərmayələr

yatırırıq. Hesab edirəm ki, gənc nəsillərin gələcəyinə qoyulan sərmayə ən yaxşı sərmayədir. Sosial problemlərin həllinə xüsusi diqqət yetirilir. Səhiyyə sisteminin təkmilləşdirilməsi haqqında Dövlət proqramı tərtib olunub və həyata keçirilir.

Yoxsulluğun səviyyəsi kəskin şəkildə - 49 faizdən 20 faizə düşmüşdür və bu proses davam edir. Ümumiyyətlə, Azərbaycan vətəndaşlarının rahat və firavan həyatını təmin etmək üçün bütün tədbirlər görülür.

Lakin eyni zamanda, bizim problemlərimiz də var. Azərbaycanın üzləşdiyi ən böyük problem on beş ildən çoxdur ölkə ərazisinin 20 faizinin Ermənistan tərəfindən işğal edilməsidir. Bu münaqişə nəticəsində ölkədə 1 milyon qaçqın və məcburi köçkün var.

Biz qoşunların ərazimizdən dərhal çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsini yüksək dəyərləndiririk. Təəssüf ki, həmin qətnamələr hələ də yerinə yetirilməmişdir. Azərbaycanın ərazi bütövlüyü bütün beynəlxalq ictimaiyyət tərəfindən tanınmışdır. Lakin bu günə qədər aparılan danışıqlar prosesi heç bir nəticə verməmişdir. Bu çətinliklərə baxmayaraq, həmin illər ərzində biz məsələnin beynəlxalq hüququn normaları və prinsipləri, o cümlədən Azərbaycanın ərazi bütövlüyü əsasında sülh yolu ilə həllinin tərəfdarı olmuşuq və bu gün də tərəfdarıq. Ümid edirəm ki, bu münaqişə tezliklə öz ədalətli həllini tapacaq və bizim həmvətənlərimiz öz yurdlarına qayıdacaqlar.

Hörmətli dostlar!

Bu gün əlamətdar bir gündür. Xatirimdədir ki, üç il bundan əvvəl, Azərbaycan Prezidenti Millətlər Sarayına gələrkən, biz burada «Azərbaycan otağı»nın açılması ilə bağlı təşəbbüsü cənab Baş direktorla müzakirə etdik.

Mən bu layihəyə diqqəti və dəstəyinə görə cənab baş direktora bir daha təşəkkürümü bildirmək istəyirəm. Bu gün çox şadam ki, Millətlər Sarayında Vətənimizin bir kiçik hissəsi var.

Mən hamınıza sülh, tərəqqi və səadət arzulayıram. Sağ olun.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Portuqaliyanın sabiq prezidenti, BMT Baş katibinin Sivilizasiyaların İttifaqında yüksək nümayəndəsi Jorj de Sampayonu qəbul etmişdir – 1 noyabr 2007-ci il

Prezident İlham Əliyev «Gənclər sivilizasiyaların alyansı naminə» Beynəlxalq konfransının Bakı şəhərində keçirilməsinin əhəmiyyətinə toxundu və BMT Baş katibinin nümayəndəsinin bu tədbirdə iştirakını yüksək qiymətləndirdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin Azərbaycan Respublikasındakı rezident-əlaqələndiricisi Bruno Puezanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir – 14 fevral 2008-ci il

Azərbaycanda gedən inkişafın BMT səviyyəsində böyük maraqla izlənildiyini deyən Bryno Pueza qeyd etdi ki, BMT-nin Bakı ofisinin əsas məqsədi Azərbaycanda gedən bu proseslərə dəstək verməkdən ibarətdir.

Ölkə iqtisadiyyatının uğurla inkişaf etdiyini vurğulayan Prezident İlham Əliyev bu inkişafda dövlətin dəstəyi ilə özəl sektorun önəmli rol oynadığını dedi. Dövlət başçısı Azərbaycanın qarşısında yeni inkişaf proqramlarının olduğunu da qeyd etdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Bruno Puezanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir – 5 mart 2009-cu il

Görüşdə Azərbaycanla BMT arasında əməkdaşlığın uğurla inkişaf etdiyi vurğulandı və tərəfdaşlıq əlaqələrinin gələcəkdə də davam etdiriləcəyinə əminlik ifadə edildi.

Azərbaycan BMT sıralarında (tarixi arayış)

Dünya birliyinin tamhüquqlu üzvü olmaq və beynəlxalq aləmdə cərəyan edən proseslərdə fəal iştirak etmək üçün hər bir dövlət BMT-nin üzvlüyünə qəbul olmağı əsas vəzifələrdən biri kimi qarşıya qoyur. 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan da dünya dövlətləri ilə hərtərəfli qarşılıqlı əməkdaşlığın qurulması və müstəqilliyinin möhkəmləndirilməsi məqsədilə BMT üzvlüyünə qəbul edilmək üçün zəruri addımlar atmağa başlayıb.

1991-ci il oktyabrın 29-da Azərbaycan Respublikası BMT-yə və dünya dövlətlərinə müraciət edib. Müraciətdə Azərbaycanın dövlət müstəqilliyini əldə etməsindən sonra demokratiya, azadlıq və bərabərlik yolu ilə getməsini əsas götürərək dünya birliyində layiqli yer tutmağı, beynəlxalq təhlükəsizliyin və əməkdaşlığın möhkəmləndirilməsi işinə kömək göstərməyi arzulayaraq, bu mötəbər təşkilata üzv qəbul olunması məsələsini nəzərdən keçirməyi BMT üzvlərindən xahiş edirdi.

14 fevral 1992-ci ildə BMT Təhlükəsizlik Şurası Azərbaycanın müraciətinə baxıb və Baş Assambleyaya onun üzvlüyə qəbulu üçün tövsiyə verib. Beləliklə, 2 mart 1992-ci ildə BMT Baş Assambleyasının 46-cı sessiyasında Azərbaycan Respublikasının təşkilata üzv qəbul edilməsi haqqında qətnamə qəbul olunub. Həmin gün Nyu-Yorkda, BMT-nin iqamətgahı qarşısında Azərbaycanın bayrağı qaldırılıb.

6 may 1992-ci ildən BMT-də Azərbaycan nümayəndəliyi fəaliyyətə başlayıb. BMT-nin Azərbaycan təmsilçiliyi isə 1993-cü ildə açılıb.

BMT-yə üzvlük Azərbaycan dövlətinə öz müstəqilliyini möhkəmləndirmək, Ermənistanın təcavüzünə qarşı beynəlxalq qanunlardan daha səmərəli istifadə etmək, ümumilikdə dünya birliyinə sıx inteqrasiya imkanı yaradıb.

Birləşmiş Millətlər Təşkilatının qlobal məramı məhz bütün dünya ölkələrini bir araya gətirmək, sivilizasiyalar və millətlər arasında dialoq qurmaq və hər bir xalqın milli və mədəni ənənələrinə hörmətlə yanaşmaqdan ibarətdir.

Bu məramı əldə rəhbər tutan Azərbaycan Respublikası Dağlıq Qarabağ münaqişəsi, Ermənistan silahlı birləşmələrinin müstəqil Azərbaycan dövlətinə təcavüz edərək ərazilərini zor gücünə tutmasının yolverilməzliyini bu təşkilat qarşısında qaldırıb. Ermənilərin Azərbaycan torpağı olan Dağlıq Qarabağı zəbt etdikdən sonra onun ətrafındakı digər rayonları da işğal etməsi BMT Təhlükəsizlik Şurasının reaksiyasına səbəb olub.

Həmin qurum Kəlbəcərin işğalı ilə əlaqədar 30 aprel 1993-cü ildə 822, Ağdamın işğalından sonra 29 iyul 1993-cü ildə 853, Füzuli, Cəbrayıl, Qubadlının zəbt edilməsi ilə əlaqədar 14 oktyabr 1993-cü ildə 874, nəhayət Zəngilanın Ermənistan tərəfindən tutulması ilə əlaqədar 12 noyabr 1993-cü ildə 884 saylı qətnamələr qəbul edib. Suveren Azərbaycanın ərazilərinin Ermənistan tərəfindən işğalına cavab olaraq, BMT Təhlükəsizlik Şurasının yekdilliklə qəbul etdiyi bu qətnamələrdə Dağlıq Qarabağ bölgəsinin Azərbaycanın tərkib hissəsi olması təsdiqlənmiş və Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə, beynəlxalq birlik tərəfindən tanınmış sərhədlərinə hörmət edilməsinə qəti şəkildə çağırılmış və ərazilərin əldə edilməsi məqsədi ilə güc işlədilməsinin yolverilməz olduğu vurğulanmışdır. BMT qətnamələri Azərbaycanın zəbt olunmuş ərazilərindən bütün işğalçı qüvvələrin dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını və köçkün düşmüş insanların daimi yaşayış yerlərinə təhlükəsiz qayıtması üçün şəraitin təmin olunmasını tələb etmişdir.

Bundan başqa, həmin dövrdə BMT-nin Baş katibi Azərbaycanın ərazi bütövlüyünü və suveren hüquqlarını dəstəkləyən yeddi bəyanatla çıxış edib. Lakin təəssüflə qeyd etmək lazımdır ki, İraqın Küveyti işğal etməsi, keçmiş Yuqoslaviyada və Əfqanıstanda baş verən hadisələr zamanı böhranın nizamlanmasına nail olan BMT-nin Təhlükəsizlik Şurası Ermənistanın bu günə kimi həmin qətnamələrə əməl etməməsinə sərt reaksiya vermir.

Ermənistanın təcavüzü nəticəsində Azərbaycanda bir milyondan çox qaçqın və məcburi köçkün kütləsinin yaranması ilə əlaqədar BMT Baş Assambleyası 1993-cü ildəki plenar iclasında müvafiq

qətnamə qəbul edib. Qətnaməyə görə Azərbaycandakı qaçqın və məcburi köçkünlərə beynəlxalq yardım göstərilməsi nəzərdə tutulub.

BMT Baş Assambleyasının 1994-cü ilin sentyabrında keçirilən 49-cu sessiyasında ilk dəfə olaraq Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev iştirak edib. O, sessiyada nitq söyləyərək yüksək tribunadan Azərbaycandakı vəziyyət, Ermənistanın təcavüzü barədə dünya ictimaiyyətini məlumatlandırıb. Heydər Əliyev 29 sentyabr 1994-cü ildə BMT Baş Assambleyasının sessiyasında çıxışında Azərbaycanın BMT-yə münasibətdə siyasətini belə qiymətləndirib: «Bütövlükdə Azərbaycan Respublikası gələcək üçün BMT-nin perspektivlərini nikbinliklə qiymətləndirir və bundan sonra da Birləşmiş Millətlər Təşkilatının yüksək prinsiplərini müdafiə etmək, təşkilatın nüfuzunun səmərəsinin artırılmasına nail olmaq əzmindədir.»

Azərbaycan-BMT əməkdaşlığının genişlənməsində BMT-nin Baş katibi Butros-Butros Qalinin 1994-cü ilin oktyabrında Bakıya səfəri mühüm rol oynayıb. Azərbaycanın ictimai-siyasi və iqtisadi həyatı, Ermənistanın təcavüzünün ağır nəticələri ilə şəxsən tanış olan Butros Butros-Qali mövcud problemlərin həllində Azərbaycana dəstək vermək üçün BMT-nin müxtəlif təşkilatlarının öz səylərini artıracağını bildirib.

1995-ci ilin oktyabrında BMT-nin 50 illik yubileyi ilə əlaqədar Baş Assambleyanın xüsusi təntənəli sessiyasında da Azərbaycan Prezidenti Heydər Əliyev iştirak edib. O, çıxışında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın mövqeyini açıqlayıb və Ermənistanın təcavüzünün dayandırılması üçün dünya birliyini təsirli tədbirlər görməyə çağırıb.

1996-cı ildə BMT Baş Assambleyası ATƏT-lə əməkdaşlığa dair qətnaməsində Azərbaycanın ərazi bütövlüyünü müdafiə etdiyini bir daha təsdiqləyib. Bundan bir il sonra, 28 iyul 1997-ci ildə Heydər Əliyev ABŞ-a rəsmi səfəri zamanı təşkilatın yeni Baş katibi Kofi Annanla görüşüb. Kofi Annan Azərbaycan Prezidenti ilə söhbətində BMT-nin ölkənin ərazi bütövlüyünə tərəfdar olduğunu, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ATƏT-in Lissabon Zirvə görüşünün prinsipləri əsasında həllinin düzgünlüyünü bildirib.

1997-ci il iyul ayının 28-də BMT Təhlükəsizlik Şurasının üzvü olan dövlətlərin daimi nümayəndələri, iyul ayının 29-da isə BMT-də akkreditə olunmuş dünya dövlətlərinin daimi nümayəndələri - səfirləri ilə görüşdə çıxış edən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Azərbaycan haqqında, onun bugünkü həyatı, qarşılaşmış olduğu və bu gün də qarşılaşdığı mürəkkəb problemlər, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqqında geniş məlumat verib.

1996-cı ildə Azərbaycan BMT-nin işgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza növləri əleyhinə 1984-cü il konvensiyasını imzalayıb. Həmin müqaviləyə qoşulmaqla Azərbaycan BMT-nin İşgəncə Əleyhinə Komitəsinə öz ərazisində fəaliyyət və tədqiqat imkanı yaradıb.

1998-ci ildə Azərbaycan Prezidenti Heydər Əliyevin fərmanı ilə BMT-nin Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 50 illiyi Azərbaycanda yüksək səviyyədə qeyd edilib. Həmin il onun təşəbbüsü ilə ölkədə ölüm hökmü və mətbuat üzərində senzura ləğv olunub.

2000-ci ilin sentyabrında BMT-nin Minillik Zirvə Toplantısında iştirak edən Heydər Əliyev 150-dən çox dünya dövlətlərinin rəhbərlərinin iştirak etdiyi bu ümumdünya tədbirində də nitq söyləyib. O, yenidən Ermənistanın təcavüzünü, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində Azərbaycanda yaranmış vəziyyəti dünya dövlətlərinin diqqətinə çatdırıb. Azərbaycan Prezidenti son dövrlərdə haqqında geniş müzakirələr aparılan BMT-də islahatlara ehtiyac olduğunu da deyib.

2001-ci il 11 sentyabr hadisələrindən sonra Azərbaycan BMT-nin anitterror tədbirlərinə qoşulub. Azərbaycan Respublikası BMT Təhlükəsizlik Şurasının Terrorizmə Qarşı Komitəsi və Əfqanıstanla bağlı Sanksiya Komitəsi ilə sıx əməkdaşlıq edib. 2001-ci ilin oktyabrında Əfqanıstana qarşı antiterror koalisiyasının əməliyyatlarında Azərbaycan da iştirakçı olub və Əfqanıstanda təhlükəsizliyin qorunması üçün beynəlxalq qoşunların köməyinə öz hərbi birləşməsini göndərib.

2001-ci ilin oktyabrında Azərbaycan Respublikası Terrorizmin Maliyyələşdirilməsinin

Qarşısının alınması haqqında BMT Konvensiyasına qoşulub. Azərbaycan Prezidenti Heydər Əliyev 2002-ci ilin mayında BMT TŞ-nin terrorizmə qarşı mübarizə məqsədilə 1368, 1373, 1377 saylı qətnamələrinin həyata keçirilməsi barədə sərəncam verib.

2003-cü ilin sentyabrında Azərbaycanın Baş naziri İlham Əliyev BMT Baş Assambleyasının növbəti sessiyasında çıxışı zamanı islahatlar məsələsini qaldıraraq beynəlxalq təşkilatın güc və nüfuzunun artırılması üçün onlara böyük ehtiyac olduğunu söyləyib. Cənab İlham Əliyev öz çıxışında qeyd edib: «İndi artıq aydındır ki, mövcud BMT mexanizmləri zamanın tələbinə cavab vermir, bununla bağlı Birləşmiş Millətlər Təşkilatında islahat vacib məsələyə çevrilmişdir. Təhlükəsizlik Şurasının da islahatına ehtiyac vardır, orada da həm bu günün reallıqları, həm də yarıməsrlik reallıqlar öz əksini tapmalıdır.»

Bir il sonra, 2004-cü ilin sentyabrında Assambleyanın 59-cu sessiyasındakı nitqində isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı BMT Təhlükəsizlik Şurasının məlum dörd qətnaməsinin hələ də yerinə yetirilmədiyini xatırladıb. Prezident İlham Əliyev işğal edilmiş Azərbaycan ərazilərindən narkotik maddələrin qeyri-qanuni dövriyyəsi, silah ötürülməsi, qeyri-qanuni iqtisadi fəaliyyət, qaçaqmalçılıq məqsədi ilə istifadə edilməsi, bu ərazilərin terrorçu yuvasına çevrilməsini sessiya iştirakçılarının nəzərinə çatdırıb.

Birləşmiş Millətlər Təşkilatı səmərəli idarəçiliyin təkmilləşdirilməsi, yoxsulluğun azaldılması, insan hüquqlarına rəğbətin və gender bərabərliyinin təmin olunması, insanların sağlamlıq və təhsil sahələrindəki əsas ehtiyaclarının qarşılanması üçün əlverişli mühit yaratmaqla Azərbaycanın inkişafını dəstəkləyir.

BMT ilə geniş əlaqələr quran Azərbaycan əməkdaşlığın müxtəlif vasitələrindən istifadə edir. Əməkdaşlığın səmərəli şəkildə həyata keçirilməsi üçün Azərbaycan bir sıra mühüm beynəlxalq müqavilələrə qoşulub. Bu müqavilələr Azərbaycanın müasir ictimai-siyasi, sosial-iqtisadi sahələri ilə bağlı meydana çıxan problemlərin həll olunması üçün imkanlar yaradır. Azərbaycan mülki və siyasi hüquqlar, iqtisadi, sosial və mədəni hüquqlar, uşaq hüquqları, qadınların, qaçqınların, müharibə qurbanlarının statusu və müdafiəsi, soyqırımın qarşısının alınması və bu cinayətə görə cəzalandırma, habelə başqa məsələləri əhatə edən çoxsaylı beynəlxalq sənədlərə qoşulub.

Azərbaycan Respublikası BMT-nin müxtəlif sahələr üzrə ixtisaslaşmış təşkilatları ilə də sıx əməkdaşlıq edir. Bunlardan BMT İnkişaf Proqramı, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı, BMT Uşaq Fondu (UNİCEF), BMT-nin Elm, Təhsil və Mədəniyyət Təşkilatı (YUNESCO), Sənaye İnkişaf Təşkilatı (YUNİDO), Ümumdünya Səhiyyə Təşkilatı, BMT Qadınlar Fondu (UNİFEM), Atom Enerjisi üzrə Beynəlxalq Agentlik, Nüvə Sınaqlarının Hərtərəfli Qadağan olunması haqqında Müqavilə Təşkilatı (Azərbaycan 1997-ci ilin iyulunda qoşulub) daha fəaldırlar.

Azərbaycan UNİCEF-lə əməkdaşlıq sazişini prezident Heydər Əliyevin Baş Assambleyanın sessiyasında iştirakı zamanı, 1994-cü ilin sentyabrında imzalayıb. Qurumla birgə fəaliyyətdə əsas məqsəd qaçqın, məcburi köçkün uşaq və yeniyetmələrin vəziyyətini yüngülləşdirmək üçün yardımlar göstərməkdir. Azərbaycan 1995-1997, 1998-2000-ci illərdə UNİCEF-in İcra Heyətinin üzvü olub.

Azərbaycan-YUNESKO əlaqələri ölkənin təhsil, elm və mədəniyyət sahələrində inkişafa yardım məqsədiylə həyata keçirilir. Azərbaycan Prezidentinin 1994-cü ildə müvafiq sərəncamı ilə ölkənin YUNESKO yanında Milli Komissiyası yaradılıb. Azərbaycan YUNESKO münasibətlərinin inkişafında, onların canlanmasında və güclənməsində Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın əvəzolunmaz xidmətləri var. 2004-cü ilin sentyabrında Mehriban Əliyeva ənənəvi musiqinin, ədəbiyyat və poeziyanın inkişafına verdiyi töhfələrə, musiqi təhsili və dünya mədəniyyətlərinin mübadiləsi sahəsindəki xidmətlərinə və YUNESKO-nun ideyalarına göstərdiyi sadiqliyə görə bu təşkilatın şifahi ənənələr və musiqi ənənələri sahəsində xoşməramlı səfiri adına layiq görülüb.

1993-cü ildən ölkədə geniş fəaliyyətə başlayan BMT-nin Qaçqınlar üzrə Ali Komissarının İdarəsi Ermənistanın təcavüzü nəticəsində öz torpaqlarından qaçqın və məcburi köçkün düşmüş

azərbaycanlılara humanitar yardım göstərilməsi üzrə əhəmiyyətli tədbirlər həyata keçirib. Xüsusilə ölkəmizin çətinlik çəkdiyi 1994-1995-ci illərdə BMT qurumlarının, digər beynəlxalq təşkilatların qaçqınlara və məcburi köçkünlərə himayədarlığı olmasaydı, o zaman Azərbaycanda humanitar böhran baş verərdi. Bu gün Azərbaycanda BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının 1951-ci il Konvensiyasına və 1967-ci il Protokoluna uyğun olaraq məcburi köçkünlərin hüquqlarını və sosial müdafiəsini tənzimləyən mükəmməl hüquqi baza yaradılıb və bütün bunlar beynəlxalq standartlara uyğunlaşdırılıb.

Azərbaycan BMT-nin Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, Ümumdünya Ərzaq Proqramı kimi maliyyə və iqtisadi qurumlarıyla da sıx əməkdaşlıq edir.

2000-2002-ci illərdə Azərbaycan BMT-nin Qadınların Vəziyyəti haqqında Komissiyasının, 2002-2004-cü illərdə BMT-nin Davamlı İnkişaf üzrə Komissiyasının, 2003-2005-ci illərdə İqtisadi və Sosial Şurasının (ECOSOC) üzvü olub.

Azərbaycan BMT-nin 2000-ci ilin sentyabrında elan olunmuş Minilliyin İnkişaf Məqsədləri layihəsində fəal iştirak edir. Bu məqsədlə 2003-2005-ci illərdə dövlətin irəli sürdüyü Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf adlı proqram BMT İnkişaf Proqramının yardımı ilə həyata keçirilib. Hazırda BMT ilə birlikdə Azərbaycan dövləti yeni Yoxsulluğun Azaldılması və Davamlı İnkişaf Proqramının yerinə yetirilməsi istiqamətində fəaliyyət göstərir.

Azərbaycan BMT-nin beynəlxalq sülh və təhlükəsizliyin qorunmasında başlıca orqanı olan Təhlükəsizlik Şurasında islahatlar aparılmasının tərəfdarıdır.

Azərbaycan-BMT əməkdaşlığında əlamətdar hadisələrdən biri Azərbaycanın 2006-cı ilin iyununda BMT-nin İnsan Hüquqları Şurasına üzv qəbul edilməsidir.

2008-ci il martın 14-də BMT-nin Baş Məclisi geniş iclasında 62-ci sessiyanın gündəliyində 20-ci bənd kimi duran «Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət» məsələsini müzakirə edib. Müzakirələrdə Azərbaycanın BMT-dəki daimi nümayəndəsi Aqşin Mehdiyev çıxış edərək BMT-nin üzvü olan dövlətlərin nümayəndələrinə Ermənistanın Azərbaycana qarşı işğalçı siyasəti barədə danışıb, nümayəndə heyətlərini məsələ ilə bağlı Azərbaycanın müəllifi olduğu qətnamə layihəsini dəstəkləməyə çağırıb.

9 bənddən ibarət qətnamə layihəsi BMT Baş Məclisinin Ermənistan - Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair mövqeyini ifadə edir. O cümlədən Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınan sərhədləri çərçivəsində ərazi bütövlüyünə dəstək verir, işğal olunmuş bütün ərazilərindən Ermənistan qüvvələrinin tam və qeyd-şərtsiz çıxarılmasını tələb edir və məcburi köçkün düşən azərbaycanlıların öz yurdlarına qayıtması üçün müvafiq şəraitin yaradılmasını əks etdirir.

Müzakirələrin sonunda keçirilən səsvermə 39 lehinə, 7 əleyhinə, 100 bitərəf səslə nəticələnib. Beləliklə, BMT-nin Baş Məclisi «Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət» barədə qətnaməni qəbul edib.

Sənəddə «Azərbaycanın Dağlıq Qarabağ regionunda və ətraf rayonlarda silahlı münaqişənin beynəlxalq sülh və təhlükəsizliyi sual altında qoymasından» və Cənubi Qafqaz ölkələrinin humanitar vəziyyətinə mənfi təsir göstərməsindən ciddi narahatlıq ifadə olunub. Baş Assambleya üzv dövlətləri Azərbaycanın suverenliyinə və beynəlxalq aləmdə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünə hörmət etməyə və dəstəkləməyə çağırır. «Baş Assambleya bir daha bildirir ki, heç bir dövlət Azərbaycan Respublikasının ərazilərinin işğalı nəticəsində yaranmış vəziyyəti qanuni vəziyyət kimi tanımamalıdır və bu vəziyyətin saxlanmasına yardım göstərməməli və ya şərait yaratmamalıdır», - deyə qətnamədə bildirilir. Sənəddə «erməni qüvvələrinin Azərbaycan Respublikasının bütün zəbt edilmiş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılması» zərurəti qeyd edilib.

Azərbaycan BMT ilə əlaqələrin inkişafına çalışır, onun daha səmərəli fəaliyyət göstərməsinə töhfə verməküçün irəli sürülən təkliflərin müzakirəsində fəal iştirak edir. Azərbaycan Təhlükəsizlik Şurasının daha geniş tərkibli, daha məsuliyyətli və demokratik olmasının, XXI əsrin yeni təhdidləri, riskləri və təhlükələrinə daha operativ şəkildə cavab verməsinin, bu qurumun qətnamələrinin

həyata keçirilməsinin işlək mexanizminin yaradılmasının tərəfdarı kimi çıxış edir.

Beləliklə, Azərbaycan Respublikasının BMT üzvlüyünə daxil olması ilə yaranan qarşılıqlı əlaqələr sürətli inkişaf yolu keçərək, çoxşaxəli əməkdaşlığa çevrilib və Azərbaycanın müstəqil dövlət kimi inkişafında beynəlxalq aləmdə müvafiq yer tutmasında mühüm rol oynayıb. Eyni zamanda, Azərbaycan da bu mötəbər beynəlxalq təşkilatın daha səmərəli fəaliyyət göstərməsinə, beynəlxalq təhlükəsizliyin və sülhün qorunmasına öz töhfəsini verib.

Əlavə sənədlər

BMT Təhlükəsizlik Şurasının qətnamələri
Qətnamə 822
30 Aprel 1993-cü il

3205 saylı iclasda yekdilliklə qəbul edilmişdir.

Təhlükəsizlik Şurası,

Dağlıq Qarabağ münaqişəsinə dair Təhlükəsizlik Şurasının Sədri tərəfindən edilən 1993-cü il 29 yanvar və 6 aprel tarixli bəyanatlarına əsaslanaraq,

Baş Katibin 14 aprel 1993-cü il tarixli məruzəsini nəzərə alaraq,

Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münasibətlərin pisləşməsi ilə əlaqədar ciddi narahatçılığını ifadə edərək,

Silahlı hərbi əməliyyatların genişlənməsini və xüsusilə, yerli erməni qüvvələrinin Azərbaycan Respublikasının Kəlbəcər rayonuna sonuncu hücumunu həyəcanla qeyd edərək,

Belə vəziyyətin regionda sülh və təhlükəsizliyə təhlükə yaratması ilə əlaqədar narahat olaraq,

Böyük sayda mülki şəxslərin yerlərinin dəyişməsi və regionda, xüsusilə Kəlbəcər rayonunda, fövqəladə humanitar vəziyyətlə bağlı ciddi narahatçılığını ifadə edərək,

Regionda bütün dövlətlərin suverenliyi və ərazi bütövlüyünə hörmət edilməsini bir daha təsdiq edərək,

Həmçinin, beynəlxalq sərhədlərin pozulmazlığını və ərazi əldə etmək məqsədilə gücdən istifadənin yolverilməzliyini bir daha təsdiq edərək,

Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi çərçivəsində həyata keçirilən sülh prosesini dəstəklədiyini bəyan edərək və silahlı hərbi əməliyyatların genişlənməsinin bu proses üçün dağıdıcı nəticə verə biləcəyindən dərindən narahat olaraq,

1. Möhkəm atəşkəsin əldə edilməsi məqsədilə bütün hərbi əməliyyatların və düşmənçilik aktlarının dərhal dayandırılmasını, həmçinin bütün işğalçı qüvvələrin Kəlbəcər rayonundan və Azərbaycanın digər bu yaxınlarda işğal olunmuş rayonlarından dərhal çıxarılmasını tələb edir;

2. Münaqişənin Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin Minsk qrupunun sulh prosesi çərçivəsində həll edilməsi məqsədilə maraqlı tərəfləri danışıqları dərhal bərpa etməyə və problemin sülh yolu ilə həllini çətinləşdirən hər hansı hərəkətlərdən çəkinməyə çağırır;

3. Mülki əhalinin əzablarını yüngülləşdirmək üçün regionda, xüsusilə münaqişəyə məruz qalmış rayonlarda, humanitar yardımın göstərilməsi üzrə beynəlxalq fəaliyyətin maneəsiz həyata keçirilməsinə çağırır, bütün tərəflərin beynəlxalq humanitar hüququn prinsip və normalarına riayət etməyə borclu olduqlarını yenidən təsdiq edir;

4. Baş Katibdən Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin fəaliyyətdə olan Sədri, həmçinin Müşavirənin Minsk qrupunun Sədri ilə məsləhətləşmədə regionda, xüsusilə Azərbaycanın Kəlbəcər rayonunda, vəziyyətin qiymətləndirilməsini aparmağı və Şuraya növbəti məruzəni təqdim etməyi xahiş edir;

5. Məsələ ilə fəal şəkildə məşğul olmağı davam etdirməyi qərara alır.

Qətnamə 853
29 iyul 1993-cü il

3259 saylı iclasda yekdilliklə qəbul edilmişdir.

Təhlükəsizlik Şurası,

30 aprel 1993-cü il tarixli 822 (1993) saylı qətnaməsini təsdiq edərək,

Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin (ATƏM) Minsk qrupunun Sədrinin 27 iyul 1993-cü il1 tarixində dərc olunmuş məruzəsini nəzərdən keçirərək,

Ermənistan Respublikası və Azərbaycan Respublikası arasında münasibətlərin pisləşməsi və onlar arasındakı gərginliklə əlaqədar ciddi narahatçılığını ifadə edərək,

Maraqlı tərəflərin 822 (1993) saylı qətnamənin həyata keçirilməsi üzrə təxirəsalınmaz tədbirlər planını qəbul etməsini alqışlayaraq,

Hərbi əməliyyatların genişlənməsini və xüsusilə Azərbaycan Respublikasının Ağdam rayonunun işğal edilməsini həyəcanla qeyd edərək,

Belə vəziyyətin regionda sülh və təhlükəsizliyə təhlükə yaratmasının davam etməsilə əlaqədar narahat olaraq,

Azərbaycan Respublikasında böyük sayda mülki şəxslərin yerlərinin dəyişməsi və regionda fövqəladə humanitar vəziyyətlə əlaqədar yenidən ciddi narahatçılığını ifadə edərək,

Azərbaycan Respublikasının və regionda bütün digər dövlətlərin suverenliyi və ərazi bütövlüyünü bir daha təsdiq edərək,

Həmçinin, beynəlxalq sərhədlərin pozulmazlığını və ərazi əldə etmək məqsədilə gücdən istifadənin yolverilməzliyini bir daha təsdiq edərək,

Ağdam rayonunun və Azərbaycan Respublikasının digər bu yaxınlarda işğal olunmuş rayonlarının işğalını pisləyir;

1. Bundan başqa regionda bütün düşmənçilik hərəkətlərini, xüsusilə mülki şəxslərə hücumları və məskunlaşmış rayonların bombardman edilməsini pisləyir;

2. Bütün hərbi əməliyyatların dərhal dayandırılmasını, münaqişədə iştirak edən işğalçı qüvvələrin Ağdam rayonundan və Azərbaycan Respublikasının digər bu yaxınlarda işğal edilmiş rayonlarından dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edir;

3. Maraqlı tərəfləri atəşkəsə dair möhkəm razılaşmalar əldə etməyə və onlara riayət etməyə çağırır;

4. Yuxarıdakı 3 və 4-cü maddələr kontekstində regionda iqtisadi, nəqliyyat və enerji əlaqələrinin bərpa edilməsinə dair özünün əvvəlki çağırışlarını yenidən təsdiq edir;

5. 822 saylı (1993) qətnamənin həyata keçirilməsi səyləri də daxil olmaqla, ATƏM-in Minsk qrupunun münaqişənin sülh yolu ilə həllinə nail olmaq üzrə davam edən səylərini bəyənir və hərbi əməliyyatların genişlənməsinin bu cəhdlər üçün doğurmuş dağıdıcı nəticələri ilə bağlı ciddi narahatçılığını ifadə edir;

6. Yerləşdirilməsi cədvəli ilə ATƏM-in müşahidə missiyasının hazırlanmasını, həmçinin Müşavirənin regionda iştirakının təmin edilməsi təklifinin Müşavirə çərçivəsində nəzərdən keçirilməsini alqışlayır;

7. Maraqlı tərəfləri münaqişənin sülh yolu ilə həllinə mane olan hər cür hərəkətlərdən çəkinməyə və ATƏM-in Minsk qrupu çərçivəsində, həmçinin birbaşa əlaqələr vasitəsilə məsələnin qəti həllinin əldə edilməsi məqsədilə onlar arasında danışıqları davam etdirməyə təkidlə çağırır;

8. Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunun ermənіləri tərəfindən 822 saylı (1993) qətnamənin və hazırki qətnamənin müddəalarına riayət edilməsi və bu tərəfin ATƏM-in Minsk qrupunun təkliflərini qəbul etməsi məqsədilə Ermənistan Respublikasının hökumətini öz təsirini göstərməkdə davam etməyi təkidlə çağırır;

9. Dövlətləri münaqişənin intensivləşməsinə və ya ərazi işğalının davam etdirilməsinə apara biləcək hər hansı silahın və hərbi sursatın təchiz edilməsindən çəkinməyə təkidlə çağırır;

10. Mülki əhalinin artan əzablarını yüngülləşdirmək məqsədilə, regionda, xüsusilə münaqişəyə məruz qalmış bütün rayonlarda, humanitar yardımın göstərilməsi üzrə beynəlxalq fəaliyyətin maneəsiz təmin edilməsinə bir də çağırır və bütün tərəflərin beynəlxalq humanitar hüququn prinsip və normalarına riayət etməyə borclu olduqlarını bir daha təsdiq edir;

11. Baş Katibdən və müvafiq beynəlxalq qurumlardan zərər çəkmiş mülki əhaliyə təcili humanitar yardım göstərməyi və qaçqın düşmüş şəxslərin öz evlərinə qayıtmalarına kömək göstərməyi xahiş edir;

12. Baş Katibdən ATƏM-in fəaliyyətdə olan Sədri, həmçinin Minsk qrupunun Sədri ilə məsləhətləşmədə vəziyyət barədə Şuraya məruzələr təqdim etməsinin davam etdirilməsini xahiş edir;

13. Məsələ ilə fəal şəkildə məşğul olmağı davam etdirməyi qərara alır.

Qətnamə 874
14 oktyabr 1993-cü il

3292 saylı iclasda yekdilliklə qəbul edilmişdir

Təhlükəsizlik Şurası,

30 aprel 1993-cü il tarixli 822 saylı (1993) və 29 iyul 1993-cü il tarixli 853 saylı (1993) qətnamələrini təsdiq edərək və 18 avqust 1993-cü ildə Təhlükəsizlik Şurası Sədrinin Şuranın adından oxuduğu bəyanata əsaslanaraq,

Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin (ATƏM) Dağlıq Qarabağ üzrə Minsk konfransının Sədrinin Təhlükəsizlik Şurası Sədrinin adına müraciətlənmiş 1 oktyabr 1993-cü il tarixli məktubunu nəzərdən keçirərək,

Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda və onun ətrafında münaqişənin davam etdirilməsi və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında gərginliyin regionda sülh və təhlükəsizliyə təhlükə yarada biləcəyi ilə əlaqədar dərin narahatçılığını ifadə edərək,

8 oktyabr 1993-cü ildə Moskvada yüksək səviyyədə keçirilən görüşləri qeyd edərək və bu görüşlərin vəziyyətin yaxşılaşmasına və münaqişənin sülh yolu ilə həll edilməsinə töhfə verəcəyinə dair ümidlərini ifadə edərək,

Azərbaycan Respublikasının və regionda bütün digər dövlətlərin suverenliyi və ərazi bütövlüyünü bir daha təsdiq edərək,

Həmçinin, beynəlxalq sərhədlərin pozulmazlığını və ərazi əldə etmək məqsədilə gücdən istifadənin yolverilməzliyini bir daha təsdiq edərək,

Münaqişə üzündən insanların məruz qaldığı əzablar və regionda ciddi fövqəladə humanitar vəziyyətlə əlaqədar və xüsusilə Azərbaycan Respublikasında böyük sayda mülki şəxslərin yerlərinin dəyişməsilə əlaqədar özünün ciddi narahatçılığını bir daha ifadə edərək,

1. Maraqlı tərəfləri ATƏM-in Minsk qrupuna kömək məqsədilə Rusiya Federasiyası hökumətinin yardımı ilə həyata keçirilən birbaşa əlaqələr nəticəsində əldə edilən atəşkəsi effektiv və daimi etməyə çağırır;

2. ATƏM çərçivəsində həyata keçirilən sülh prosesini və Minsk qrupunun yorulmaz səylərini tam şəkildə dəstəklədiyini yenidən bəyan edir;

3. 28 sentyabr 1993-cü il tarixində ATƏM-in Minsk qrupunun iclasında üzə çıxarılan və Minsk qrupunun doqquz digər üzvünün hərtərəfli dəstəyi ilə Qrupun Sədri tərəfindən maraqlı tərəflərə təqdim olunan «Təhlükəsizlik Şurasının 822 (1993) və 853 (1993) saylı qətnamələrinin həyata keçirilməsi üzrə təxirəsalınmaz addımların yeniləşdirilmiş cədvəli»ni alqışlayır və tərəflərin diqqətinə çatdırır və tərəfləri onu qəbul etməyə çağırır;

4. Münaqişədən irəli gələn və Yeniləşdirilmiş cədvəldə bilavasitə nəzərdən keçirilməyən bütün başqa həll olunmamış məsələlərin Minsk prosesi kontekstində sülh danışıqları vasitəsilə tezliklə həll edilməsi vacibliyinə əmin olduğunu ifadə edir;

5. Bu yaxınlarda işğal edilmiş ərazilərdən qoşunların çıxarılması və rabitə və nəqliyyat üçün bütün maneələrin aradan qaldırılması da daxil olmaqla, ATƏM-in Minsk qrupunun Yeniləşdirilmiş cədvəlində nəzərdə tutulan qarşılıqlı və təcili addımların dərhal həyata keçirilməsinə çağırır;

6. ATƏM-in Nazirlər Şurasının 24 mart 1992-ci il tarixli mandatına uyğun olaraq, Yeniləşdirilmiş cədvəldə nəzərdə tutulduğu kimi münaqişənin danışıqlar yolu ilə həll edilməsinə nail olmaq məqsədilə tezliklə Minsk konfransının keçirilməsinə çağırır;

7. Baş Katibdən ATƏM-in Minsk konfransında iştirak etmək üçün nümayəndə göndərmək dəvətinə müsbət cavab verməyi və Konfransın açılmasından sonra mətləbə dair başlanan danışıqlara bütün mümkün kömək göstərməyi xahiş edir;

8. ATƏM tərəfindən yaradılmış müşahidəçilər missiyasını dəstəkləyir;

9. Bütün tərəfləri beynəlxalq humanitar hüququ pozmaqdan çəkinməyə çağırır və münaqişəyə məruz qalmış bütün rayonlarda humanitar yardımın göstərilməsi üzrə beynəlxalq fəaliyyətin maneəsiz həyata keçirilməsinin təmin edilməsinə dair 822 (1993) və 853 (1993) saylı qətnamələrindəki çağırışlarını təkrar edir;

10. Regionda bütün dövlətləri münaqişənin genişlənməsinə gətirib çıxaran və regionda sülh və təhlükəsizliyi pozan hər cür düşmənçilik hərəkətlərindən və hər cür müdaxilədən çəkinməyə təkidlə çağırır;

11. Baş Katibdən və müvafiq beynəlxalq qurumlardan zərər çəkmiş mülki əhaliyə təcili humanitar yardımın göstərilməsini və qaçqınlara və məcburi köçkünlərə təhlükəsiz şəraitdə və ləyaqətlə öz evlərinə qayıtmağa köməklik edilməsini xahiş edir;

12. Baş Katibdən, ATƏM-in Fəaliyyətdə olan Sədrindən və ATƏM-in Minsk Konfransının Sədrindən Minsk prosesinin gedişi və yerdə vəziyyətin bütün aspektləri və bununla əlaqədar ATƏM ilə Birləşmiş Millətlər Təşkilatı arasında indiki və gələcək əməkdaşlıq haqqında Şuraya məruzələrin verilməsini davam etdirməyi xahiş edir;

13. Məsələ ilə fəal şəkildə məşğul olmağı davam etdirməyi qərara alır.

Qətnamə 884
12 noyabr 1993-cü il

3313 saylı iclasda yekdilliklə qəbul edilmişdir.

Təhlükəsizlik Şurası,

30 aprel 1993-cü il tarixli 822 (1993), 29 iyul 1993-cü il tarixli 853 (1993) və 14 oktyabr 1993-cü il tarixli 874 (1993) saylı qətnamələrini təsdiq edərək,

Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi (ATƏM) çərçivəsində həyata keçirilən sülh prosesi, və ATƏM-in Minsk qrupunun yorulmaz səylərini tam şəkildə dəstəklədiyini təsdiq edərək,

ATƏM-in Dağlıq Qarabağ üzrə Minsk konfransının fəaliyyətdə olan Sədrinin Təhlükəsizlik Şurası Sədrinin adına müraciətlənmiş 9 noyabr 1993-cü il tarixli məktubunu və ona əlavələri nəzərə alaraq,

Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda və onun ətrafında münaqişənin davam etdirilməsi və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasındakı gərginliyin regionda sülh və təhlükəsizliyi təhlükə altına atması ilə əlaqədar ciddi narahatçılığını ifadə edərək,

Atəşkəsin pozulması və buna cavab olaraq gücün həddindən artıq tətbiq edilməsi, xüsusilə Azərbaycan Respublikasında Zəngilan rayonunun və Horadiz şəhərinin işğalı nəticəsində hərbi əməliyyatların genişlənməsini həyəcanla qeyd edərək,

Azərbaycan Respublikasının və regionda digər dövlətlərin suverenliyi və ərazi bütövlüyünü bir daha təsdiq edərək,

Həmçinin, beynəlxalq sərhədlərin pozulmazlığı və ərazi əldə etmək məqsədilə gücün tətbiqinin yolverilməzliyini bir daha təsdiq edərək,

Son zamanda böyük sayda mülki şəxslərin yerlərinin dəyişməsi və Zəngilan rayonunda, Horadiz şəhərində və Azərbaycanın cənub sərhədində fövqəladə humanitar vəziyyətin yaranması ilə əlaqədar ciddi narahatçılığını ifadə edərək,

1. Hərbi əməliyyatların yenidən başlanması ilə nəticələnən tərəflər arasında əldə edilmiş atəşkəsin pozulmasını, xüsusilə Zəngilan rayonunun və Horadiz şəhərinin işğal edilməsini, dinc əhaliyə qarşı hücumları və Azərbaycan Respublikasının ərazisinin bombardman edilməsini pisləyir;

2. Ermənistan hökumətini Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunun ermənilər tərəfindən 822 (1993), 853 (1993) və 874 (1993) saylı qətnamələrə riayət edilməsinə nail olmaq məqsədilə öz nüfuzundan istifadə etməyə və hərbi kampaniyanı genişləndirmək üçün lazımi vasitələrin münaqişəyə cəlb olunan qüvvələrə verilməməsini təmin etməyə çağırır;

3. ATƏM-in Minsk qrupunun doqquz üzvünün 4 noyabr 1993-cü il tarixli Bəyannaməsini1 alqışlayır və onun tərkibində atəşkəsin dayandırılması haqqında olan birtərəfli bəyanatlarla bağlı təklifləri yüksək qiymətləndirir;

4. Maraqlı tərəflərdən ATƏM-in Minsk qrupunun 2-8 noyabr 1993-cü tarixində Vyanada keçirilən iclasında edilən düzəlişlərlə «Təhlükəsizlik Şurasının 822 (1993) və 853 (1993) saylı qətnamələrinin həyata keçirilməsi üzrə təxirəsalınmaz addımların Yeniləşdirilmiş cədvəlinə»2 uyğun olaraq hərbi əməliyyatların və düşmənçilik hərəkətlərinin dərhal dayandırılmasını, Zəngilan rayonundan və Horadiz şəhərindən işğalçı qüvvələrin birtərəfli qaydada çıxarılmasını və Azərbaycan Respublikasınnın bu yaxınlarda işğal edilmiş başqa rayonlarından işğalçı qüvvələrin çıxarılmasını tələb edir;

5. Maraqlı tərəfləri ATƏM-in Minsk qrupuna kömək məqsədilə Rusiya Federasiyası hökumətinin yardımı ilə həyata keçirilən birbaşa əlaqələr nəticəsində əldə edilən atəşkəsi təcili bərpa, onu effektiv və daimi etməyə, və ATƏM-in Minsk prosesi və Minsk qrupunun 2-8 noyabr

1993-cü il tarixli iclasında edilmiş düzəlişlərlə birlikdə «Yeniləşdirilmiş cədvəl» kontekstində münaqişənin danışıqlar vasitəsilə həllinin axlarılmasına təkidlə çağırır;

6. Regionda olan bütün dövlətləri münaqişənin genişlənməsinə və regionda sülh və təhlükəsizliyin pozulmasına gətirib çıxara biləcək hər cür düşmənçilik hərəkətlərindən və hər cür müdaxilədən çəkinməyə bir daha çağırır;

7. Baş Katibdən və müvafiq beynəlxalq qurumlardan Zəngilan rayonunun, Horadiz şəhərinin və Azərbaycanın cənub sərhədinin əhalisi də daxil olmaqla zərər çəkmiş əhaliyə təcili humanitar yardım göstərməyi, qaçqın və məcburi köçkünlərə təhlükəsiz və ləyaqətlə öz evlərinə qayıtmaqda köməklik etməyi xahiş edir;

8. Baş Katibə, ATƏM-in fəaliyyətdə olan Sədrinə və ATƏM-in Minsk Konfransının Sədrinə Minsk prosesinin gedişi və yerlərdə vəziyyətin bütün aspektləri, xüsusilə Şuranın müvafiq qətnamələrinin həyata keçirilməsi və bununla əlaqədar ATƏM ilə Birləşmiş Millətlər Təşkilatı arasında indiki və gələcək əməkdaşlıq haqqında Şuraya məruzələrini davam etdirmək barədə xahişini təkrar edir;

9. Məsələ ilə fəal şəkildə məşğul olmağı davam etdirməyi qərara alır.

FOTO-SƏNƏDLƏR

1. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin BMT Baş Məclisinin 49-cu sessiyasında çıxışı - Nyu-York, 29 sentyabr 1994-cü il

2. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin YUNİSEF təşkilatında uşaqların həyatı, müdafiəsi və inkişafına dair BMT bəyannaməsinin imzalanması mərasimi – 27 sentyabr 1994-cü il

3. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin BMT Baş Məclisinin 49-cu sessiyasında Millətlər Birliyinin xüsusi salonunda mətbuat konfransında bəyanatı - Nyu-York, 29 sentyabr 1994-cü il

4. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin BMT-nin Baş katibi Butros Butros-Qali ilə görüşü - Nyu-York, 29 sentyabr 1994-cü il

5. BMT Baş Məclisinin 49-cu sessiyasının iştirakçıları olan dövlət başçılarının şərəfinə ziyafət - Nyu-York, 29 sentyabr 1994-cü il

6.Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və BMT-nin Baş katibi Butros Butros-Qali birgə mətbuat konfransında - 30 oktyabr 1994-cü il

7. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin BMT-nin Baş katibi Butros Butros-Qalinin şərəfinə verilən ziyafətdə çıxışı - Gülüstan sarayı, 30 oktyabr 1994-cü il

8. Azərbaycan Respublikası Milli Məclisinin BMT-nin Baş katibi Butros Butros-Qalinin Azərbaycan səfərinə həsr olunmuş təntənəli iclasında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışı. 31 oktyabr 1994-cü il

9. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin YUNİSEF-in Azərbaycandakı nümayəndəliyinin təşəbbüsü ilə Bakıda yaradılmış «Azərbaycan beynəlxalq gənclər poçt xidməti» və «Uşaqlara kömək xətti» xidmətlərinin açılışı mərasimində çıxışı – 23 iyul 1997-ci il

10. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin BMT-də akkreditə olunmuş xarici jurnalistlər üçün mətbuat konfransında bəyanatı - Nyu-York, BMT-nin Mətbuat mərkəzi, 28 iyul 1997-ci il

11. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin BMT-də akkreditə olunmuş dünya dövlətlərinin daimi nümayəndələri - səfirləri ilə görüşdə çıxışı - Nyu-York, BMT-nin binası, 29 iyul 1997-ci il

12. Heydər Əliyev və İlham Əliyev BMT-nin binasında –Nyu-York, 28 iyul 1997-ci il

13. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev nüvə silahı sınaqlarının tamamilə qadağan olunması haqqında müqaviləni imzalayır - Nyu-York, 28 iyul 1997-ci il

14. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin BMT-nin baş katibi Kofi Annan ilə görüşü - Tehran, 11 dekabr 1997-ci il

15. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Birləşmiş Millətlər Təşkilatının Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 50 illiyinə həsr olunmuş təntənəli yığıncaqda nitqi - 10 dekabr 1998-ci il

16. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Avropa Bürosunun direktoru cənab Anne-Villem Baylaveldin başçılığı ilə Ali Komissarlığın Şərqi Avropa dövlətlərində çalışan rezident nümayəndələrini qəbul edir - Prezident sarayı, 18 mart 1999-cu il

17. Azərbaycan Prezidenti Heydər Əliyevin BMT-nin Qaçqınlar üzrə ali komissarı Sadako Oqata ilə görüşü - 29 yanvar 2000-ci il

18. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin BMT-nin insan hüquqları komissiyasının işgəncələrə qarşı xüsusi məruzəçisi Naycel Rodli ilə söhbəti zamanı - 15 may 2000-ci il

19. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin BMT-nin Vyanadakı nümayəndəliyinin binasında BMT baş katibinin müavini, nümayəndəliyin baş direktoru Pino Arlakki ilə görüşü - Vyana, 7 iyul 2000-ci il

20. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Nyu-Yorkda Minilliyin zirvə görüşündə çıxışı - 7 sentyabr 2000-ci il

21. Azərbaycan Prezidenti Heydər Əliyev BMT-nin Uşaq Fondunun Mərkəzi və Şərqi Avropa, MDB və Baltik ölkələri üzrə regional nümayəndəsi Filip O'brayanı qəbul edərkən - 20 oktyabr 2000-ci il

22. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin BMT-nin Azərbaycandakı rezident-əlaqələndiricisi Ercan Murat və bu təşkilatın ölkəmizdəki nümayəndələrini qəbul edərkən - Prezident sarayı, 30 may 2001-ci il

23. Azərbaycan Respublikasının Baş naziri İlham Əliyevin BMT Baş Məclisinin 58-ci sessiyasında çıxışı – 24 sentyabr 2003-cü il

24. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Prezident sarayında BMT Baş katibinin müavini və bu təşkilatın Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin icraçı direktoru Antonio Maria Kosta ilə görüşü – 4 dekabr 2003-cü il

25. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin BMT-nin Qaçqınların İşi üzrə Ali Komissarlığının iqamətgahında bu qurumun rəhbəri Ruud Lubbers ilə görüşü – 11 dekabr 2003-cü il

26. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin Cenevrə bölməsinin baş direktoru ilə görüşmüşdür – 12 dekabr 2003-cü il

27. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xanımı Mehriban Əliyevaya YUNESKO-nun xoşməramlı səfiri fəxri adının verilməsi mərasimindəki nitqi – 9 sentyabr 2004-cü il

28. YUNESKO-nun xoşməramlı səfiri fəxri adı verilməsi mərasimində Mehriban xanım Əliyevanın çıxışı – 9 sentyabr 2004-cü il

29. BMT Baş Məclisinin 59-cu sessiyasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışı – 25 sentyabr 2004-cü il

30. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin BMT-nin baş katibi Kofi Annan ilə görüşü – 24 sentyabr 2004-cü il

31. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin «Ümumdünya Ərzaq Proqramı»nın Azərbaycandakı sabiq nümayəndəsi Şərif Amin Zahiri qəbul etmişdir – 8 noyabr 2004-cü il

32. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin Qaçqınlar üzrə Ali komissarı Ruud Lubbersin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir – 26 noyabr 2004-cü il

33. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin BMT-nin Sənaye İnkişafı Təşkilatının baş direktoru Karlos Maqarinyosla görüşü – 4 fevral 2005-ci il

34. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin BMT-nin Dünya Ərzaq Proqramının rəhbəri vəzifəsini icra edən Con Pauell ilə görüşü – 25 fevral 2005-ci il

35. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyasının və BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının nümayəndə heyətlərini qəbul etmişdir – 11 mart 2005-ci il

36. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) baş direktoru Jak Diufun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir – 29 aprel 2005-ci il

37. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin Uşaq Fondunun (UNİCEF), İnkişaf Proqramının (UNDP), Əhali Fondunun (UNFPA) və Ümumdünya Ərzaq Proqramının (WFP) icraiyyə şuralarının üzvlərindən ibarət nümayəndə heyətini qəbul etmişdir – 10 may 2005-ci il

38. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin YUNESKO-nun baş direktoru Koişiro Matsuura ilə görüşü – 24 avqust 2005-ci il

39. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin BMT-nin İnsan Hüquqları Komissiyasının din və əqidə azadlığı üzrə xüsusi məruzəçisi xanım Asma Cahangirlə görüşü – 28 fevral 2006-cı il

40. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin Qadınlar üçün İnkişaf Fondunun icraçı direktoru xanım Noelin Heyzeri qəbul etmişdir – 25 may 2006-cı il

41. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Prezident sarayında BMT-nin Ticarət və İnkişaf üzrə Konfransının baş katibi Supaçay Panitçpakdinlə görüşü-26 iyun 2006-cı il

42. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin BMT-nin Asiya və Sakit Okean

üçün İqtisadi və Sosial Komissiyasının icraçı katibi Kim Hak-Sunla görüşü – 27 iyun 2006-cı il

43. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin qaçqınlar üzrə Ali komissari Antonio Quterreşin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir – 17 avqust 2006-cı il

44. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin BMT-nin İqtisadi və Sosial İşlər Departamentinin yardım və əlaqələndirmə bölməsinin icraçı katibi Sarbuland Xanla görüşü – 2 oktyabr 2006-cı il

45. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin BMT-nin ölkəmizdəki rezident-əlaqələndiricisi Marko Borsotti ilə görüşü – 1 fevral 2007-ci il

46. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin BMT-nin rezident-əlaqələndiricisi Bruno Pueza ilə görüşü – 27 fevral 2007-ci il

47. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT Baş katibinin məcburi köçkünlərin insan hüquqları üzrə nümayəndəsi Valter Kalinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir – 2 aprel 2007-ci il

48. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin BMT-nin fikir və söz azadlığı hüququnun təşviqi və qorunması üzrə xüsusi məruzəçisi Ambeyi Liqabo ilə görüşü – 26 arpel 2007-ci il

49. BMT-nin Cenevrədəki bölməsinin iqamətgahında «Azərbaycan otağı»nın açılışı mərasimində Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın çıxışı - 18 may 2007-ci il

50. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Portuqaliyanın sabiq prezidenti, BMT Baş katibinin Sivilizasiyaların İttifaqında yüksək nümayəndəsi Jorj de Sampayo ilə görüşü – 1 noyabr 2007-ci il

51. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin Azərbaycan Respublikasındakı rezident-əlaqələndiricisi Bruno Puezanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir – 14 fevral 2008-ci il

52. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Bruno Puezanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir – 5 mart 2009-cu il

Mündəricat

Oxuculara müraciət 11

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin BMT Baş Məclisinin 49-cu sessiyasında iştirak etmək üçün Amerika Birləşmiş Ştatlarına səfərə yola düşərkən Binə hava limanında jurnalistin sualına cavabı – 25 sentyabr 1994-cü il 14

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin YUNİSEF təşkilatında uşaqların həyatı, müdafiəsi və inkişafına dair BMT bəyannaməsinin imzalanması mərasimində çıxışı – 27 sentyabr 1994-cü il 15

BMT Baş Məclisinin 49-cu sessiyasında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışı - Nyu-York, 29 sentyabr 1994-cü il 16

BMT Baş Məclisinin 49-cu sessiyasında Millətlər Birliyinin xüsusi salonunda mətbuat konfransında bəyanatı - Nyu-York, 29 sentyabr 1994-cü il 22

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin BMT-nin Baş katibi Butros Butros-Qalinin Azərbaycana rəsmi səfəri zamanı Bakıda Binə hava limanında qarşılanması mərasimində çıxışı - 29 oktyabr 1994-cü il 25

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Prezident sarayında BMT-nin Baş katibi Butros Butros-Qali ilə görüşdə çıxışı. 30 oktyabr 1994-cü il 26

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin BMT-nin Baş katibi Butros Butros - Qali ilə danışıqlar başa çatdıqdan sonra birgə mətbuat konfransında bəyanatı - 30 oktyabr 1994-cü il 30

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin BMT-nin Baş katibi Butros Butros-Qalinin şərəfinə verilən ziyafətdə çıxışı - Gülüstan sarayı, 30 oktyabr 1994-cü il 33

Azərbaycan Respublikası Milli Məclisinin BMT-nin Baş katibi Butros Butros-Qalinin Azərbaycana səfərinə həsr olunmuş təntənəli iclasında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışı. 31 oktyabr 1994-cü il 34

BMT - nin 50 illik yubileyi ilə əlaqədar BMT Baş Məclisinin xüsusi təntənəli iclasında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışı. Nyu -York, 22 oktyabr 1995 - ci il 38

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin BMT-nin Yaxın və Orta Şərqdə narkotik vasitələrin qanunsuz dövriyyəsinə nəzarət və bununla bağlı problemlər üzrə yardımçı komissiyasının 32-ci sessiyasında nitqi – 17 fevral 1997-ci il 40

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin YUNİSEF-in Azərbaycandakı nümayəndəliyinin təşəbbüsü ilə Bakıda yaradılmış "Azərbaycan beynəlxalq gənclər poçt xidməti" və "Uşaqlara kömək xətti" xidmətlərinin açılışı mərasimində çıxışı – 23 iyul 1997-ci il 44

BMT Təhlükəsizlik Şurasının üzvü olan dövlətlərin daimi nümayəndələri ilə görüşdə

Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi - Nyu-York, BMT-nin binası, 28 iyul 1997-ci il 46

Azərbaycan Prezidenti Heydər Əliyevin BMT-nin Baş katibi Kofi Annan ilə görüşdə söhbətindən - Nyu-York, BMT-nin binası, 28 iyul 1997-ci il 52

BMT-də akkreditə olunmuş xarici jurnalistlər üçün mətbuat konfransında Azərbaycan Prezidenti Heydər Əliyevin bəyanatı - Nyu-York, BMT-nin Mətbuat mərkəzi, 28 iyul 1997-ci il 54

BMT-də akkreditə olunmuş dünya dövlətlərinin daimi nümayəndələri-səfirləri ilə görüşdə Azərbaycan Prezidenti Heydər Əliyevin çıxışı - Nyu York, BMT-nin binası, 29 iyul 1997-ci il ... 58

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin YUNESKO-nun baş direktoru Federiko Mayor cənablarına məktubu - Bakı şəhəri, 3 sentyabr 1997-ci il 64

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin BMT-nin Baş katibi Kofi Annan ilə görüşdəki söhbətindən - Tehran, 11 dekabr 1997-ci il 66

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Birləşmiş Millətlər Təşkilatının "Qadınlar və silahlı münaqişələr" mövzusunda beynəlxalq konfransın iştirakçılarına məktubu - 17 may 1998-ci il 67

Birləşmiş Millətlər Təşkilatının Baş katibi cənab Kofi Annana - Bakı şəhəri, 18 iyul 1998-ci il 68

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Birləşmiş Millətlər Təşkilatının Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 50 illik yubileyini keçirən dövlət komissiyasının iclasında nitqi – 3 dekabr 1998-ci il 70

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Birləşmiş Millətlər Təşkilatının Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 50 illiyinə həsr olunmuş təntənəli yığıncaqda nitqi - 10 dekabr 1998-ci il 76

Azərbaycan Prezidenti Heydər Əliyevin BMT-nin Ümumdünya Ərzaq Proqramının nümayəndə heyətini qəbul edərkən söhbətindən - 14 yanvar 1999-cu il 79

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Avropa Bürosunun direktoru cənab Anne-Villem Baylaveldin başçılığı ilə Ali Komissarlığın Şərqi Avropa dövlətlərində çalışan rezident nümayəndələrini qəbul edərkən söhbətindən - Prezident sarayı, 18 mart 1999-cu il 81

Birləşmiş Millətlər Təşkilatının Baş katibi cənab Kofi Annana - Bakı şəhəri, 5 iyul 1999-cu il 85

Azərbaycan Prezidenti Heydər Əliyevin BMT - nin Qaçqınlar üzrə Ali Komissarı Sadako Oqatanı qəbul edərkən söhbətindən - 9 sentyabr 1999-cu il 87

Azərbaycan Prezidenti Heydər Əliyevin BMT - nin Qaçqınlar üzrə Ali Komissarı Sadako Oqatanı qəbul edərkən söhbətindən - 29 yanvar 2000-ci il 91

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev BMT-nin İnsan Hüquqları Komissiyasının işgəncələrə qarşı xüsusi məruzəçisi Naycel Rodli ilə söhbətindən - 15 may 2000-ci il 92

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin BMT-nin Vyanadakı nümayəndəliyinin binasında BMT Baş katibinin müavini, nümayəndəliyin baş direktoru Pino Arlakki ilə görüşü zamanı söhbətindən - Vyana, 7 iyul 2000-ci il 94

Ümumdünya sülh zirvə görüşünün Baş katibi cənab Bava Çayna - 27 avqust 2000-ci il ... 100

Nyu-Yorkda Minilliyin zirvə görüşündə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışı - 7 sentyabr 2000-ci il 101

Azərbaycan Prezidenti Heydər Əliyevin BMT-nin Uşaq Fondunun Mərkəzi və Şərqi Avropa, MDB və Baltik ölkələri üzrə regional nümayəndəsi Filip O'brayanı qəbul edərkən söhbətindən 20 oktyabr 2000-ci il 103

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin BMT-nin Azərbaycandakı rezident-əlaqələndiricisi Ercan Murat və bu təşkilatın ölkəmizdəki nümayəndələrini qəbul edərkən söhbətindən - Prezident sarayı, 30 may 2001-ci il 106

BMT Baş Məclisinin 58-ci sessiyasında Azərbaycanın Baş naziri İlham Əliyevin çıxışı – 23 sentyabr 2003-cü il 109

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Prezident sarayında BMT Baş katibinin müavini və bu təşkilatın Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin icraçı direktoru Antonio Maria Kostanı qəbul etmişdir – 4 dekabr 2003-cü il 112

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin Qaçqınların İşi üzrə Ali Komissarlığının iqamətgahında bu qurumun rəhbəri Ruud Lubbers ilə görüşmüşdür – 11 dekabr 2003-cü il 115

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin Cenevrə bölməsinin baş direktoru ilə görüşmüşdür – 12 dekabr 2003-cü il 116

Azərbaycan Prezidenti İlham Əliyevin xanımı Mehriban Əliyevaya YUNESKO-nun xoşməramlı səfiri fəxri adı verilməsi mərasimi. YUNESKO - nun xoşməramlı səfiri Mehriban Əliyevanın çıxışı – 9 sentyabr 2004-cü il 118

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xanımı Mehriban Əliyevaya YUNESKO-nun xoşməramlı səfiri fəxri adının verilməsi mərasimindəki nitqi – 9 sentyabr 2004-cü il 119

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin Baş katibi Kofi Annan ilə görüşmüşdür – 24 sentyabr 2004-cü il 121

BMT Baş Məclisinin 59-cu sessiyasında Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı – 25 sentyabr 2004-cü il 122

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin Ümumdünya Ərzaq Proqramının

Azərbaycandakı sabiq nümayəndəsi Şərif Amin Zahiri qəbul etmişdir – 8 noyabr 2004-cü il 125

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin Qaçqınlar üzrə Ali Komissarı Ruud Lubbersin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir – 26 noyabr 2004-cü il... 126

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin Sənaye İnkişafı Təşkilatının baş direktoru Karlos Maqarinyosu qəbul etmişdir – 4 fevral 2005-ci il 128

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin BMT-nin Dünya Ərzaq Proqramının rəhbəri vəzifəsini icra edən Con Pauell ilə görüşmüşdür – 25 fevral 2005-ci il 129

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyasının və BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının nümayəndə heyətlərini qəbul etmişdir – 11 mart 2005-ci il 130

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) baş direktoru Jak Diufun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir – 29 aprel 2005-ci il 131

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin Uşaq Fondunun (UNİCEF), İnkişaf Proqramının (UNDP), Əhali Fondunun (UNFPA) və Ümumdünya Ərzaq Proqramının (WFP) İcraiyyə Şuralarının üzvlərindən ibarət nümayəndə heyətini qəbul etmişdir – 10 may 2005-ci il 132

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin YUNESKO-nun baş direktoru Koişiro Matsuura ilə təkbətək görüşmüşdür – 24 avqust 2005-ci il 133

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin İnsan Hüquqları Komissiyasının din və əqidə azadlığı üzrə xüsusi məruzəçisi xanım Asma Cahangiri qəbul etmişdir – 28 fevral 2006-cı il 134

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin Qadınlar üçün İnkişaf Fondunun icraçı direktoru xanım Noelin Heyzeri qəbul etmişdir – 25 may 2006-cı il 135

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 26-da Prezident sarayında BMT-nin Ticarət və İnkişaf üzrə Konfransının baş katibi Supaçay Panitçpakdini qəbul etmişdir-26 iyun 2006-cı il 136

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin Asiya və Sakit Okean üçün İqtisadi və Sosial Komissiyasının icraçı katibi Kim Hak-Sunu qəbul etmişdir – 27 iyun 2006-cı il 137

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin Ümumdünya Ərzaq Proqramının icraçı direktoru Ceyms Morrisin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir – 27 iyul 2006-cı il 138

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT - nin Qaçqınlar üzrə Ali Komissari Antonio Quterreşin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir -17 avqust 2006-cı il 139

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin İqtisadi və Sosial İşlər

Departamentinin yardım və əlaqələndirmə bölməsinin icraçı katibi Sarbuland Xanı qəbul etmişdir – 2 oktyabr 2006-cı il 140

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin ölkəmizdəki rezident-əlaqələndiricisi Marko Borsottini qəbul etmişdir – 1 fevral 2007-ci il 141

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin rezident-əlaqələndiricisi Bruno Puezanı qəbul etmişdir – 27 fevral 2007-ci il 142

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT Baş katibinin məcburi köçkünlərin insan hüquqları üzrə nümayəndəsi Valter Kalinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir – 2 aprel 2007-ci il 143

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin fikir və söz azadlığı hüququnun təşviqi və qorunması üzrə xüsusi məruzəçisi Ambeyi Liqabonu qəbul etmişdir – 26 arpel 2007-ci il 144

BMT-nin Cenevrədəki bölməsinin iqamətgahında "Azərbaycan otağı"nın açılışı mərasimində Heydər Əlyev fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın çıxışı - 18 may 2007-ci il 145

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Portuqaliyanın sabiq prezidenti, BMT Baş katibinin Sivilizasiyaların İttifaqında yüksək nümayəndəsi Jorj de Sampayonu qəbul etmişdir – 1 noyabr 2007-ci il 147

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin Azərbaycan Respublikasındakı rezident-əlaqələndiricisi Bruno Puezanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir – 14 fevral 2008-ci il 148

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Bruno Puezanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir – 5 mart 2009-cu il 149

Azərbaycan BMT sıralarında (tarixi arayış) 150

Əlavə sənədlər 155

Şəkilaltı sözlər 162

Azərbaycan bayrağı İst-River sahilində - Çin dilində (xülasə) 337

Azərbaycan bayrağı İst-River sahilində - fransız dilində (xülasə) 355

Azərbaycan bayrağı İst-River sahilində - ispan dilində (xülasə) 375

Azərbaycan bayrağı İst-River sahilində - rus dilində (xülasə) 395

Azərbaycan bayrağı İst-River sahilində - ərəb dilində (xülasə) 417

HEYDƏR ƏLİYEV İRSİNİ ARAŞDIRMA MƏRKƏZİ

HEYDAR ALIYEV'S HERITAGE RESEARCH CENTER

AZƏRBAYCAN BAYRAĞI İST-RİVER SAHİLİNDƏ

AZERBAIJANI FLAG ON THE EAST RIVER BANK

Baku - 2009

«Azerbaijani flag on the East River bank» *is another publication of Heydar Aliyev`s Heritage Research Center. The book has been dedicated to the 15th anniversary of the first speech of the national leader of the Azerbaijani people Heydar Aliyev at the UN General Assembly. The book includes the speeches of Heydar Aliyev at the 49th and 59th sessions of the UN General Assembly, as well as at the Millennium Summit, the speeches of the Azerbaijani President Mr. Ilham Aliyev at the 58th and 59th sessions of the UN General Assembly, the texts of his meetings with the heads of UN agencies. The speeches of Mrs. wMehriban Aliyeva, UNESCO Goodwill Ambassador at her nomination ceremony and the opening ceremony of the Azerbaijani Room in the UN Office at Geneva are also included in the book.*

HEYDƏR ƏLİYEV İRSİNİ ARAŞDIRMA MƏRKƏZİ

HEYDAR ALIYEV'S HERITAGE RESEARCH CENTER

AZƏRBAYCAN BAYRAĞI İST-RİVER SAHİLİNDƏ

AZERBAIJANI FLAG ON THE EAST RIVER BANK

Advisor:
Asaf NADIROV, Academician of the National Academy of Sciences of Azerbaijan

Responsible for the publication:
Vurgun SULEYMANOV

Supervisor of the creative group:
Fuad BABAYEV

Creative group:
Temkin MAMMADLI
Irina MUKHTAROVA
Gunduz NESIBOV
Samin HASANOV

Language editor:
Qılıncxan BAYRAMOV

Assistant language editor:
Rusif HUSEYNOV

Design:
Elviz ISMAILOV

Paginator:
Elshan AGAYEV

Photo-materials of the press-service of the President of the Republic of Azerbaijan have been used for compiling the Book.

The materials of the «Azertaj» news agency www.azertag.com), the official site of the President of the Republic of Azerbaijan Ilham Aliyev (www.president.az), the official site of the First Lady of Azerbaijan Mehriban Aliyeva (www.mehriban-aliyeva.org) and the official site of the United Nations (www.un.org) have been used in the Book.

The Book is in Azerbaijani and English. Brief resume on the Book has been presented in Chinese, French, Spanish, Russian and Arabic. Translations and editions have been implemented: in Chinese - both by ROID translation bureau (Russia) (www.roid.ru), in Spanish - translation by Agil Shahmuradov, edition by ROID translation bureau, in French - translation by Shahla Agalarova, edition by Hamlet Gojayev, in Russian - translation by Seyfal Hasanov and Gunel Isgenderova, in Arabic - translation by Shikhali Aliyev, edition by Rza Khalilov.

Dedicated to the 15th anniversary of the first speech at the session of the General Assembly of the United Nations of the national leader of the Azerbaijani people Heydar Aliyev

From the tribune of the most authoritative international forum I am speaking to you with excitement and pride. For the first time President of Azerbaijan presents his country to the world community, a country recognized and admitted to the world community as an equal member.

From the speech of the President of the Republic of Azerbaijan Heydar Aliyev at the 49th session of the UN General Assembly – New York, September 29, 1994

Dear readers!

Research and propagation of the rich heritage of the national leader of the Azerbaijani people Heydar Aliyev are the main directions of the activity of Heydar Aliyev`s Heritage Research Center (www.aliyevheritage.org). It was established on his birthday, on May 10, 2004.

The main source which may help create the political portrait of Heydar Aliyev is his own works. Therefore, Heydar Aliyev`s Heritage Online Library, which is a part and a big project of the Center presents to the readers Heydar Aliyev`s works, including his speeches, statements, letters and the texts of his meetings worldwide in 35 languages. It is worth to note that the activity of an online resource in 35 languages is rare on internet. Our readers interested in the new history and development of Azerbaijan, as well as its past and future have an opportunity to get Heydar Aliyev`s works in many languages of the world.

Thus, the leading universities, prominent research centers, governmental bodies, media, transnational corporations, as well as people interested in Azerbaijan, including researchers, political scientists, economists, students are among our readers.

We try to cover all the spheres of Heydar Aliyev`s activity on online library. Getting acquainted with thousands of documents on sections of the library, such as internal and foreign policy, economy, oil strategy, Armenia-Azerbaijani, the Nagorno-Karabakh conflict, culture, interviews, diaspora, socium, policy on youth, return, etc., it is possible to be well informed of the main directions of Heydar Aliyev`s activity. Most of the above-mentioned sections are divided into subsections, and one may search any document on the library. Another feature of our library is that each document, each historical reference and brief information connected with the relations of Azerbaijan with different countries, international organizations, companies is compiled by our experts. Moreover, there is information on persons, places and concepts mentioned in the documents. Decrees relevant to any document and issued by Heydar Aliyev are placed on the section of additional documents. The gallery is rich with hundreds of photos of Heydar Aliyev.

Alongside Heydar Aliyev`s Heritage Online Library, regional bureaus, «We learn Heydar Aliyev`s Heritage» interactive courses and summer schools functioning on original programmes are a part of Heydar Aliyev`s Heritage Research Center. The Center also establishes relations with the leading scientific centers of the world via online bridges.

